İLHAM

ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## İYİRMİ ÜÇÜNCÜ KİTAB

## MART 2007 - APREL 2007

AZƏRNƏŞR
BAKI - 2015

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR ✵ NİTQLƏR
## BƏYANATLAR ✵ MÜSAHİBƏLƏR
## MƏKTUBLAR ✵ MƏRUZƏLƏR
## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2015

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2015, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində ölkəmizin iqtisadi, siyasi, mədəni həyatına, regionların sosial-iqtisadi inkişafına və problemlərinə həsr olunmuş çıxış və nitqləri, göstərişləri öz əksini tapmışdır.

Kitaba prezident İlham Əliyevin Tacikistana, Rusiya Federasiyasına, Cənubi Koreyaya rəsmi səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə danışıqları, ölkələr arasında ikitərəfli əlaqələrin, beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsinə rəvac verən nitqləri və çıxışları, həmçinin Bakıya rəsmi səfərə gələn Polşa prezidenti Lex Kaçinski və başçılıq etdiyi nümayəndə heyəti ilə keçirdiyi görüşlərə, danışıqlara dair materiallar toplanmışdır.

Bu cilddə, həmçinin prezident İlham Əliyevin Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunda və Moskvada Mstislav Rostropoviçin 80 illiyi şərəfinə təşkil edilmiş rəsmi qəbulda nitqi, KİV-ə verdiyi müsahibələr, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair müzakirələr və bir çox digər məsələlər dərc edilmişdir.

**İSBN 978-9952-8100-7-3**

**Ə $\frac{0801000000}{M – 651(07) – 2015}$** **BBK - 32**

© Azərnəşr, 2015

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞAMAXI RAYONUNA SƏFƏRİ

*1 mart 2007-ci il*

## Müalicə-Diaqnostika Mərkəzinin təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev martın 1-də Şamaxı rayonuna gəlmişdir. Rayonun minlərlə sakini dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar. Onların əllərində Azərbaycanın Dövlət bayraqları, ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, xalqımızın ümummilli liderinin müdrik kəlamları yazılmış transparantlar var idi.*

*Prezident İlham Əliyev əvvəlcə Şamaxı Müalicə-Diaqnostika Mərkəzinin təməlqoyma mərasimində iştirak etdi.*

*Dövlətimizin başçısı mərkəzin Baş planı ilə tanış oldu. Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev məlumat verdi ki, 3 mərtəbədən ibarət olacaq mərkəzdə poliklinika, cərrahiyyə şöbəsi, əməliyyat bloku yerləşəcəkdir. Ümumi ərazisi 1,5 hektardır, tikinti sahəsi isə 2200 kvadratmetrdir. Burada qazanxana, camaşırxana, su hovuzu, yanğınsöndürmə hovuzu, avtomobil dayanacağı da olacaqdır. Sifarişçi Dövlət Neft Şirkətidir. Tikinti işlərini «Sənayetikinti» Səhmdar Cəmiyyəti yerinə yetirəcək və 1 il ərzində obyekti tam təhvil verəcəkdir. Avadanlıqla birlikdə mərkəzin smeta dəyəri 5 milyon manatdır. Bu, ölkəmizdə tikilən 10-cu diaqnostika mərkəzi olacaqdır.*

*Prezident İlham Əliyev diaqnostika mərkəzinin təməlinə gilizi qoydu və beton qarışığı tökdü.*

*Sonra Şamaxı rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildi.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

## ŞAMAXI RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*1 mart 2007-ci il*

Əziz şamaxılılar!

Əziz bacılar və qardaşlar!

Bu gün çox əlamətdar bir gündür. Şamaxı rayonunda yeni Müalicə-Diaqnostika Mərkəzinin təməlini qoyduq. Əminəm ki, qısa müddət ərzində burada çox gözəl bir tibb ocağı tikiləcək və şamaxılıların istifadəsinə veriləcəkdir. Burada ən yüksək dünya standartlarına uyğun müasir avadanlıqlar olacaq, diaqnostika, müalicə və müayinə üçün hər cür şərait yaradılacaqdır. Bu bir də onu göstərir ki, Azərbaycanda çox güclü sosial siyasət aparılır.

Bildiyiniz kimi, ölkəmizin müxtəlif rayonlarında yeni, müasir xəstəxanalar tikilir. Artıq Lənkəranda və Naxçıvanda bu xəstəxanalar fəaliyyətə başlamışdır və orada çox yüksək tibbi xidmət var. Başqa şəhər və rayonlarda da eyni tibb ocaqları tikilir. Bu gün Şamaxıda təməlini qoyduğumuz xəstəxana, əlbəttə ki, ən yüksək səviyyədə tikilib istifadəyə veriləcəkdir. Bütün bunları biz indi həyata keçiririk, imkanlarımız artır, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın neft strategiyası nəticəsində bütün bunlar mümkün olur. Çünki bütün bu yeni xəstəxanalar və diaqnostika-müalicə mərkəzləri Neft Şirkətinin hesabına tikilir. Əgər 1994-cü ildə biz xarici neft şirkətləri ilə əməkdaşlığa başlamasaydıq, bu gün bunları etmək qeyri-mümkün olacaqdı. Bu onu göstərir ki, Azərbaycan nefti, Azərbaycanın təbii sərvətləri insanların rifah halının yaxşılaşmasında öz rolunu oynayır. Bizim güclü sosial siyasətimizin də əsas

məqsədi ondan ibarətdir ki, Azərbaycan xalqı daha da yaxşı, daha da firavan yaşasın, bunun üçün lazım olan bütün infrastruktur obyektlər tikilib istifadəyə verilsin, özü də yüksək səviyyədə. Ona görə, bildiyiniz kimi, xəstəxana, məktəb tikintisi Azərbaycanda çox geniş vüsət alıbdır və biz bu siyasəti bundan sonra da davam etdirəcəyik. Bizim maddi imkanlarımız artır. Keçən il Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi nəticəsində Azərbaycana çox böyük həcmdə valyuta axını başlamışdır. Bizim də düşünülmüş proqramlarımız var, bütün istiqamətlər üzrə fəaliyyət planımız var və bunları həyata keçiririk.

Bir müddət bundan əvvəl Şamaxıda çox müasir Olimpiya İdman Kompleksi də tikilmişdir. Bu gün xəstəxananın təməli qoyuldu. Bütövlükdə Şamaxı rayonunun inkişafına böyük diqqət göstərilir. Şamaxı çox gözəl rayondur və Azərbaycanın qədim torpağıdır. Mən çox istəyirəm ki, burada quruculuq-abadlıq işləri daha sürətlə getsin. Artıq televizor istehsalı zavodu istifadəyə verilmişdir. Burada məişət malları istehsalı zavodu tikilir. Digər iş yerləri üçün lazım olan infrastruktur və sənaye müəssisələri də tikilməlidir. Çünki iş yerləri çox olan halda, əlbəttə ki, insanların həyat səviyyəsi yaxşılaşır. Regionların sosial-iqtisadi inkişafı proqramı da bu məqsədi güdür. Bu ilin fevral ayında biz proqramın üçilliyini qeyd etdik, çox geniş müzakirələr, təhlillər aparıldı və gördük ki, bu son üç il ərzində proqramın icrası nəticəsində çox böyük işlər görülmüşdür.

Demək olar ki, ölkəmizin hər bir yerində yenilik var. Yeni müəssisələr, fabriklər, yollar, infrastruktur obyektlər, elektrik stansiyaları – bütün bunlar ölkəmizi gücləndirir. Əgər hər bir rayon iqtisadi cəhətdən güclü olarsa, onda ölkəmiz də güclənər. Buna da bütün imkanlar var.

Bir daha demək istəyirəm ki, Azərbaycan nefti, Azərbaycanın təbii sərvətləri Azərbaycan xalqının xidmətindədir və bu, əsas məqsəddir. Biz bu layihələri başlayanda məhz bu məqsədi rəhbər tutmuşduq. Çünki əsas məqsəd bütün im-

kanları səfərbər edib insanların daha da yaxşı yaşamasını təmin etməkdir. Bu məqsədlə maaşlar da, pensiyalar da artırılır. Bildiyiniz kimi, bu yaxınlarda minimum əməkhaqqı da artırılmışdır. Büdcədən maliyyələşən təşkilatlarda əməkhaqları artırılmışdır. Bu siyasət ardıcıl şəkildə aparılır. Neçə illərdir maaşlar, pensiyalar ildə ən azı iki dəfə artırılır və gələcəkdə də biz bunu edəcəyik. Gələcəkdə bizim imkanlarımız daha da geniş, daha da böyük olacaqdır. Ona görə sosial məsələlərin həllinə daha çox diqqət göstəriləcəkdir.

Bütövlükdə səhiyyə sisteminin inkişafına böyük diqqət göstərilir, yeni xəstəxanalar tikilir. Bildiyiniz kimi, bu yaxınlarda təcili tibbi yardım maşınlarının alınması üçün prezidentin ehtiyat fondundan vəsait ayrılıbdır. Ən müasir standartlara cavab verən avadanlıqlar gətiriləcəkdir. Belə olan halda, bütün bu sosial məsələlər asanlıqla öz həllini tapacaqdır.

Mən çox şadam ki, bu gün biz birlikdə bu mərkəzin təməlini qoyduq. Əminəm ki, qısa müddət ərzində, maksimum bir il ərzində biz yenə də burada görüşəcək və gözəl xəstəxananın – Müalicə-Diaqnostika Mərkəzinin açılışını qeyd edəcəyik. Bundan sonra belə açılışlar çox olacaqdır. Biz regionların sosial-iqtisadi inkişafına daha böyük vəsait ayıracağıq. Bizim büdcə gəlirlərimiz ildən-ilə artır və bildiyiniz kimi, büdcə gəlirlərinin əsas hissəsi həm infrastruktur layihələrə, həm də sosial məsələlərin həllinə yönəldilibdir. Belə olan halda, ölkəmiz hərtərəfli inkişaf edəcəkdir.

Biz neft amilindən çox məharətlə istifadə edirik və Azərbaycan böyük həcmdə neft hasil edən ölkəyə çevrilir. Azərbaycanın beynəlxalq önəmi artır və biz regional çərçivədə daha fəal rol oynayırıq. Bizim təşəbbüsümüzlə həyata keçirilən transmilli layihələr həm ölkəmizin iqtisadiyyatını gücləndirir, həm də beynəlxalq imicini, önəmini artırır. Bu halda, bütün məsələlər daha da asanlıqla öz həllini tapacaqdır. Həm xarici siyasətdə, həm daxili siyasətdə, həm iqtisadi inkişafda, regionların sosial-iqtisadi inkişafında,

müxtəlif sosial məsələlərin həllində – təhsil, səhiyyə, mədəniyyət, ekologiyada, bütün sahələrdə proqramlar var və bunlar ardıcıllıqla icra olunur. Mən şübhə etmirəm ki, yaxın zamanlarda Azərbaycan çox zəngin ölkəyə çevriləcək, Azərbaycan vətəndaşları daha da yaxşı yaşayacaqlar. Mənim məqsədim budur! Mən istəyirəm ki, hər bir insan yaxşı yaşasın, hər bir insanın maddi imkanları artsın, uşaqlar yaxşı məktəblərdə oxusunlar, müəllimlər yaxşı məktəblərdə dərs desinlər. Həkimlər gözəl xəstəxanalarda işləsinlər və insanlarımız da sağlam olsunlar. Sağlam olmaq üçün, əlbəttə ki, hər bir insan vaxtaşırı tibbi müayinədən keçməlidir. Bunu da biz Azərbaycanda tətbiq edəcəyik. Mən sizə onu da deyə bilərəm ki, yeni xəstəxanaların tikintisi məhz Azərbaycanın rayonlarından başlanmışdır.

Bizim istədiyimiz də odur ki, rayonlarda tibbi xidmət güclənsin. Çünki Bakıda və böyük şəhərlərdə bu var, düzdür, bizi tam qane etmir, amma var. Lakin ilk növbədə, rayonlarda yaşayan insanların sağlamlığı bizim üçün vacibdir, çünki rayonlarda səhiyyənin səviyyəsi çox aşağıdır. İndi hər bir bölgədə artıq bu işlər gedir və gələcəkdə biz hər bir rayonda bunlara nail olacağıq.

Əziz dostlar, mən sizi bir daha ürəkdən salamlayıram. Şamaxıda olmağımdan çox məmnunam. Mən Şamaxıda dəfələrlə olmuşam və həmişə şamaxılıların dəstəyini hiss etmişəm. Bu dəstək mənə güc verir və buna əsaslanaraq öz işimi davam etdirirəm. Prezident kimi, üzərimə götürdüyüm bütün öhdəlikləri yerinə yetirirəm və xalq qarşısında vaxtaşırı hesabat verirəm. Görülən işlər də göz qabağındadır. Düzdür, problemlər, həll olunmamış məsələlər var. Amma biz bunların həlli yollarını bilirik, bunları həll edirik və sizin dəstəyinizlə bundan sonra da edəcəyik.

Mən sizin hamınıza ürəkdən cansağlığı arzu edirəm. Arzu edirəm ki, siz xəstələnməyəsiniz, amma işdi, əgər xəstələnsəniz, onu da bilin ki, bir ildən sonra burada ən yüksək tibbi

xidmət almaq mümkün olacaqdır. Sağ olun, sizə uğurlar, cansağlığı arzulayıram.

* * *

*Sonra prezident İlham Əliyev sakinlərlə görüşüb hal-əhval tutdu. Onlar dövlətimizin başçısına təşəkkürlərini bildirdilər. Ölkənin sosial-iqtisadi inkişafı sahəsində görülən işlərdən razılıqlarını ifadə etdilər, ulu öndərin tarixi xidmətlərini xatırladılar, onun arzularının həyata keçirilməsi istiqamətində dövlətimizin başçısının rəhbərliyi ilə daha böyük uğurlar qazanılacağına əminliklərini söylədilər. Eyni zamanda, bildirdilər ki, bu yolda şamaxılılar hər zaman prezidentə arxa olacaqlar.*

## «STAR» MƏİŞƏT AVADANLIĞI ZAVODU İLƏ TANIŞLIQ

*Şamaxı şəhəri*

*1 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Şamaxı şəhərindəki «Star» məişət avadanlığı zavodu ilə tanış olmuşdur.*

*Zavodun kollektivi dövlətimizin başçısını və xanımını böyük hörmət və ehtiramla qarşıladı.*

*«Evsen» şirkətlər qrupunun prezidenti Əli Evsen dövlətimizin başçısına məlumat verərək bildirdi ki, uzunluğu 210 metr, eni 72 metr olan sahədə istehsal xətti quraşdırılmışdır. Burada soyuducu, kondisioner və paltaryuyan maşın istehsal ediləcəkdir. Müəssisədə tam istehsal prosesi yaradılacaq, yəni məhsul buraxılışı üçün lazım olan bütün hissələr burada hazırlanacaqdır. Zavodda quraşdırılan avadanlıq ABŞ, Yaponiya, Tayvan və İtaliyadan gətirilmişdir. Burada ildə müxtəlif modellərdə 300 min ədəd kondisioner, 200 min ədəd müxtəlif ölçülü soyuducu və 150 min ədəd paltaryuyan maşını istehsal etmək nəzərdə tutulur. Müəssisədə 1500 nəfər çalışacaq, onların 3 faizini xarici mütəxəssislər təşkil edəcəkdir. İşçilərin hamısı xaricdə xüsusi kurslar keçmişdir. Hazırda orta əməkhaqqı 150–160 manatdır. Gələcəkdə istehsal sahələri genişləndikcə, əməkhaqqı da artırılacaqdır. Bu ilin mayında Malayziyadan gələn mütəxəssislərin iştirakı ilə müəssisə tam işə düşəcəkdir.*

*Prezident İlham Əliyev müəssisənin ayrı-ayrı istehsal sahələrini gəzdi, quraşdırılmış avadanlıqla tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, zavod təkcə Azərbaycanda yox,*

*bütün regionda bu tipli yeganə müəssisədir. Zavod zəngin təcrübəsi olan beynəlxalq səviyyəli müəssisələrlə əməkdaşlıq edəcəkdir.*

*Sonra prezident İlham Əliyev Şamaxı avtomobil zavodunun istehsalı olan ehtiyat hissələrindən ibarət sərgiyə baxdı. Məlumat verildi ki, «AzSamand» markalı avtomobillər istehsal edən bu zavodda indiyədək 1000 ədəd maşın buraxılmışdır. Gələcəkdə «Pejo-206» və «Pejo-405» markalı avtomobillərin istehsalı nəzərdə tutulur. Hazırda zavodda bir növbədə 70 işçi çalışır, müəssisənin özünün sınaq poliqonu vardır.*

*Dövlətimizin başçısı bu cür müəssisələrin ölkə iqtisadiyyatı üçün əhəmiyyətini vurğuladı və ölkəmizdə belə yüksək səviyyəli istehsal sahələrinin yaradılmasının qürur doğurduğunu bildirdi.*

*Burada rayon icra hakimiyyətinin başçısı Nazim İsmayılov prezident İlham Əliyevə Şamaxıda görülən işlərlə bağlı məlumat verdi. Bildirdi ki, Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində rayonda bir neçə məktəb tikilmişdir. Yeni yollar çəkilir, elektrik enerjisi təminatında heç bir problem yoxdur. Turizmin inkişafı üçün Fransa şirkətləri ilə yeni layihə hazırlanır. Şamaxıya göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirən icra hakimiyyətinin başçısı dedi ki, ayrılan vəsaitlər hesabına bir çox problemlər öz həllini tapır. Sürüşmə zonasında yerləşən obyektlər, məktəblər Fövqəladə Hallar Nazirliyi tərəfindən qeydiyyata alınmışdır.*

*Prezident İlham Əliyev rayonun inkişafı, abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün gələcəkdə də tədbirlər görüləcəyini bildirdi, səhiyyə, təhsil, turizm sektorunun dirçəldilməsi, fermer təsərrüfatlarına xüsusi diqqətin yetirilməsi barədə müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

*Bununla da prezidentin Şamaxıya səfəri başa çatdı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN OĞUZ RAYONUNA SƏFƏRİ

*1 mart 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 1-də Şamaxı rayonundan Oğuz rayonuna gəlmişdir. Dövlətimizin başçısı Oğuz–Qəbələ–Bakı su kəmərinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Buraya toplaşan və əllərində Azərbaycanın Dövlət bayraqları, ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, xalqımızın ümummilli liderinin müdrik kəlamları yazılmış transparantlar olan minlərlə sakin dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladı.*

*Prezident əvvəlcə Oğuz–Qəbələ–Bakı su kəmərinin layihəsi ilə tanış oldu.*

*«Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti Nizaməddin Rzayev, Türkiyənin «Tekser İnşaat, Sənaye və Ticarət» Anonim Şirkətinin prezidenti Mete Yalçın, «Gəncə Körpü–Tikinti-2» Açıq Tipli Səhmdar Cəmiyyətinin sədri Aqibət Məmmədov prezident İlham Əliyevə məlumat verərək bildirdilər ki, Almaniyanın «CES Consulting Engineers» şirkəti texniki-iqtisadi əsaslandırmanı və layihə sənədlərini hazırlamışdır. Podratçı şirkət isə Türkiyənin «Hazinadaroğlu», «Tekser» və Gəncə «Körpü Hüquqi Şəxslər Birliyi»dir. Tikinti 420 günə başa çatdırılacaqdır. Təkcə layihənin özünə ayrılan xərclər təqribən 142,1 milyon ABŞ dolları olacaqdır. Layihənin ümumi dəyəri isə 3 müqavilə ilə birlikdə, bütün vergilər daxil olmaqla, 480 milyon manatdır.*

*Kəmərin çəkilməsində Sumqayıtdakı «Azkompozit» zavodunda istehsal olunan borulardan istifadə ediləcəkdir. 500 nəfərdən çox adamın çalışacağı tikintidə işçilərin 90–95 faizi*

*Azərbaycan vətəndaşları olacaqdır. Su kəmərinin ümumi uzunluğu 267 kilometr, diametri 2 metr, məhsuldarlığı isə saniyədə 5 kubmetr olacaqdır.*

*Dövlətimizin başçısı suötürücü qovşağın və su kəməri layihəsi, qazılacaq istismar quyularının konstruksiyası, su kəmərinin şərti sxemi, təzyiqnizamlayıcı qurğular, Oğuz suqəbuledici qurğular kompleksinin Baş planı, eləcə də Abşeron qurğular kompleksinin Baş planı və su kəmərinin marşrutunun profili ilə tanış oldu. Bildirildi ki, Bakı şəhərinin içməli suya olan tələbatının ödənilməsi üçün çəkiləcək bu kəmərin təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Suyun mənbəyində, yəni başlanğıc nöqtəsində hündürlük dəniz səviyyəsindən 410 metr, Bakıda son nöqtədə – Yeni Yasamal ərazisində isə 110 metrdir. Ona görə də su öz təzyiqi ilə nəql olunacaqdır. Yolboyu təzyiqnizamlayıcı qurğular quraşdırılacaq, tutumu 10 min kubmetr olan iki su anbarı tikiləcəkdir. Hansısa fövqəladə hal baş verərsə, Müşfiqabad qəsəbəsində yerləşəcək yolüstü su anbarından suyu subölüşdürücü qurğular vasitəsilə Ceyranbatan su anbarına yönəltmək mümkün olacaqdır. Bu məqsədlə əlavə boru xətti çəkiləcəkdir. Su kəmərinin marşrutu 12 çaydan keçir, 8 yerdə avtomobil və 2 yerdə dəmir yolu ilə kəsişir. Kəmərdə SCADA tipli nəzarət sistemi yaradılacaq, suyun nəqlində elektrik enerjisindən istifadə olunmayacaqdır.*

*Prezident İlham Əliyev layihə ilə tanışlıqdan sonra gilizi təmələ qoydu və beton qarışığını tökdü.*

*Sonra bu münasibətlə təntənəli mərasim keçirildi.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

## OĞUZ–QƏBƏLƏ–BAKI SU KƏMƏRİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ NİTQ

*1 mart 2007-ci il*

Əziz oğuzlular!
Əziz bacılar və qardaşlar!
Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl, çox tarixi bir gündür. Çox böyük, Azərbaycan üçün çox önəmli layihə bu gün həyata keçirilməyə başlayır. Bu gün biz Oğuz–Qəbələ–Bakı su kəmərinin təməlini qoyduq və əminəm ki, qısa müddət ərzində bu kəmər inşa olunacaq və Bakı şəhərini içməli su ilə təmin edəcəkdir.

Bildiyiniz kimi, bu kəmərin tikintisi üçün əvvəllər çox böyük səylər göstərilmişdir, tədqiqat işləri aparılmışdır. Ancaq maliyyə vəziyyəti bunu həyata keçirməyə imkan vermirdi. İndi isə Azərbaycanın iqtisadi inkişafı o qədər sürətlə gedir ki, biz istənilən layihəni həyata keçirməyə qadirik. İlk növbədə, biz insanları daha çox narahat edən məsələlərə diqqət göstəririk, əsas vəsaiti oraya yönəldirik. Sosial məsələlərin həlli, infrastruktur layihələrin həyata keçirilməsi bizim üçün prioritet məsələdir. O cümlədən su təchizatı. Su sağlamlıq deməkdir, həyat deməkdir. Bu bölgədə mövcud olan su ən yüksək keyfiyyətə malikdir. Deyə bilərəm ki, dünyanın ən yüksək standartlarına uyğundur və bəlkə də bu standartlardan da yüksəkdir. Əlbəttə ki, bu kəmərin tikintisi nəticəsində Azərbaycanda xeyli böyük işlər görüləcək, yeni iş yerləri açılacaqdır. Nəticədə Bakı şəhəri içməli su ilə tam şəkildə təmin olunacaqdır. Bakının su təminatı bizi qane edə bilməz. Bu vaxta qədər 4 kəmər tikilibdir. Birinci kəmər 1917-ci ildə Hacı Zeynalabdin Tağıyev tərəfindən çəkilmişdir. 50-ci illərdə bir kəmər tikilibdir. Bundan sonra iki kəmər

ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilibdir. Əminəm ki, bu beşinci kəmər Bakının bütün su problemlərinin həllinə imkan yaradacaqdır.

Bunu etmək üçün, əlbəttə ki, hər bir böyük layihəni həyata keçirmək üçün ilk növbədə maliyyə imkanları lazımdır və biz bunları yaradırıq. Son illər ərzində Azərbaycanın uğurlu iqtisadi siyasəti, aparılan iqtisadi islahatlar imkan yaradır ki, bu gün biz infrastruktur layihələrə böyük həcmdə vəsait qoyaq. Elektrik stansiyaları, məktəblər, xəstəxanalar tikilir, yollar salınır, su kəmərləri çəkilir. Bu da çox böyük əhəmiyyətə malikdir ki, biz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində əldə edilmiş gəlirləri su kəmərinin tikintisinə yönəltmişik. Azərbaycanın uğurlu neft strategiyası öz konkret nəticələrini verməkdədir. Biz bunu bugünkü tədbirdə də görürük. Biz bunu Azərbaycanda tikilən məktəblərin simasında görürük, maaşların, pensiyaların artırılmasında görürük, yeni yolların salınmasında görürük.

Bütün bu işlərin təməli 1994-cü ildə qoyulmuşdur. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda başlanmış uğurlu neft strategiyamız bu imkanları bizə yaradır. İndi Azərbaycanın iqtisadiyyatı ən yüksək sürətlə inkişaf edir. Ardıcıl iki ildir bizim iqtisadiyyatımız dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatdır. 2005-ci ildə artım 26 faiz, 2006-cı ildə isə 34 faiz olmuşdur. Yəni bunlar dünyada analoqu olmayan göstəricilərdir. Bununla bərabər, yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşür, işsizlik aradan qaldırılır.

Bilirsiniz ki, regionların sosial-iqtisadi inkişafı bizim üçün ən prioritet məsələlərdən biridir.

Təsadüfi deyil ki, böyük layihələr, infrastruktur layihələr, ilk növbədə bölgələrdə reallaşdırılır. Bu yaxınlarda beş yeni elektrik stansiyası tikilmişdir. Onların dördü bölgələrdədir. Bakını bölgələrlə birləşdirən yollar salınır. Xəstəxanalar ilk növbədə bölgələrdə tikilir. İdman qurğuları da rayonlarda yaradılır. Yeni turizm obyektləri, mehmanxanalar – bütün bunlar imkan yaradır ki, işsizlik aradan qaldırılsın, insanlar

işlə təmin olunsunlar, daha da yaxşı yaşasınlar və bölgələr dirçəlsin, inkişaf getsin, Azərbaycanın hərtərəfli inkişafı məhz bunun hesabına davam edəcəkdir.

Bizim artıq çox güclü iqtisadi potensialımız mövcuddur. Neft-qaz layihələri Azərbaycanı inkişaf edən ölkəyə çeviribdir. Növbəti illərdə bizə çoxlu gəlirlər gələcəkdir və ilk növbədə, ölkəmizin müxtəlif sahələrini inkişaf etdirməliyik. İnfrastruktur, sosial obyektlərin yaradılması, yeni iş yerlərinin açılması, sahibkarlara dəstək, turizmin inkişafı və beləliklə, qeyri-neft sektorunun ümumi inkişafı mümkün olacaqdır. Biz bunu artıq görürük. Bu yaxınlarda regional inkişaf proqramının üçilliyinə həsr edilmiş müşavirədə biz bunu bir daha gördük. Bütün bölgələrdə sürətli inkişaf gedir, böyük işlər görülür. Əminəm ki, bundan sonra da nəzərdə tutulmuş bütün proqramlar həyatda öz əksini tapacaqdır.

Azərbaycan öz siyasətini müstəqil şəkildə aparır, bizim iqtisadi imkanlarımız artır, Azərbaycan iqtisadi müstəqilliyini, enerji təhlükəsizliyini təmin edibdir və başqa ölkələrin enerji təhlükəsizliyini də təmin edəcəkdir. Biz indi çox sürətlə inkişaf edən ölkəyik və qarşımızda duran əsas vəzifələr ondan ibarətdir ki, insanların həyat səviyyəsini yaxşılaşdıraq. Bunu müxtəlif yollarla, müxtəlif proqramlarla edirik. İlk növbədə, maaşları və pensiyaları ildən-ilə və hətta ildə iki dəfə artırmaqla edirik. Büdcə təşkilatlarında çalışanların maaşları və pensiyaları artırılıbdır. Digər tərəfdən, minimum əməkhaqqının qaldırılması o deməkdir ki, artıq özəl sektorda da minimum əməkhaqqından aşağı maaş verilə bilməz. Qısa müddət ərzində biz minimum əməkhaqqını 50 manata çatdırdıq.

Kreditlərin verilməsi, xüsusilə bölgələrdə yerli sahibkarlığın inkişafı, onlara dəstək verilməsi. Təkcə bu il sahibkarlara kredit şəklində 100 milyon dollar vəsait veriləcəkdir. Bu kreditlər güzəştli şərtlərlə verilir. Kənd təsərrüfatının inkişafı üçün «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılmışdır, onun xətti ilə rayonlara böyük miqdarda texnika gətirilir və alınan texnikanın həcmi ildən-ilə artmaqdadır.

Kənd təsərrüfatına dəstək vermək üçün bu yaxınlarda 80 milyon manat vəsait nəzərdə tutulubdur. Bu vəsaitlə gübrələr alınacaq və eyni zamanda, fermerlərə vəsait veriləcək ki, onlar enerji daşıyıcılarını ala bilsinlər. Yəni dövlət bu yolla öz üzərinə düşən vəzifələri icra edir.

Digər tərəfdən, sahibkarlığın inkişafı. Çünki müasir dünyada bu ən başlıca amildir. Hər bir inkişaf etmiş ölkənin iqtisadiyyatında özəl sektor tam əksəriyyət təşkil edir. Azərbaycanda da bu göstərici yüksək səviyyədədir. Nəzərə alsaq ki, biz müstəqilliyimizi əldə edəndə özəl sektor faktiki olaraq yox dərəcəsində idi, bu gün iqtisadiyyatımızda özəl sektorun payı 81 faizdir. Bu çox böyük göstəricidir və qısa müddət ərzində, 15 il ərzində biz buna nail ola bilmişik. Nəyin hesabına? Çox uğurlu iqtisadi islahatların hesabına, eyni zamanda, yeni sahibkarlığın dəstəklənməsi sayəsində.

Beynəlxalq qurumlarla bizim münasibətlərimiz güclənir. Bütövlükdə, Azərbaycanda aparılan xarici siyasət bizim ölkəmizi daha da möhkəmləndirir və ölkədə gedən proseslərin müsbət istiqamətdə davamını təmin edir. Azərbaycanda daxili sabitlik tam şəkildə bərqərar olunubdur. Bayaq qeyd etdiyim kimi, iqtisadi göstəricilər ən yüksək səviyyədədir. Sadəcə olaraq, bundan sonra qəbul edilmiş bütün proqramlar vaxtlı-vaxtında icra olunmalıdır və müəyyən edilmiş bütün məsələlər öz həllini tapmalıdır.

Təxminən il yarım bundan əvvəl bu su kəmərinin tikintisinə dair məhz Bakıda geniş müşavirə keçirildi. Orada məruzələr dinlənildi və göstərişlər verildi. Konkret göstəriş verilmişdi ki, bütün çətin işlər görülsün, texniki-iqtisadi əsaslandırma hazırlansın və biz tezliklə kəmərin tikintisinə başlayaq. Belə də oldu. Bütün bu məsələlər qısa müddət ərzində öz həllini tapdı və bu gün biz kəmərin təməlini qoyduq.

Bu kəmərin inşası eyni zamanda, Azərbaycanda yeni sənaye sahəsinin başlanmasına gətirib çıxarır. Keçən ilin sonunda mən Sumqayıtda kompozit borular zavodunun açılışında iştirak etmişdim. O borular məhz bu kəmərin tikintisi üçün yaradılır. Əgər biz kəmərin tikintisinə başlamasaydıq,

heç kim, heç bir investor bu boruların istehsalına vəsait qoymazdı. Ona da külli miqdarda vəsait qoyulubdur və bu borular Azərbaycanda istehsal olunur. Biz bunu da təmin edirik. Pulu olan ölkələr müxtəlif yerlərdən avadanlıq ala bilərlər, müxtəlif yerlərdən bu boruları ala bilərlər.

Amma biz başqa yolu seçmişik. Biz istəyirik ki, əldə edilmiş gəlirlər ilk növbədə, Azərbaycanda yerli istehsalın möhkəmlənməsinə yönəldilsin. Özəl sektor da bunu bilir. Bilir ki, əgər Azərbaycanda yüksək keyfiyyətli məhsul istehsal olunursa, onda dövlət xətti ilə icra olunan bütün layihələrdə məhz bu məhsuldan istifadə ediləcəkdir. Belə də oldu. Bu gözəl borular artıq Azərbaycanda istehsal olunur. Bu kəmərin tikintisində onlardan istifadə edəcəyik. Ondan sonrakı işlərdə də istifadə edəcəyik. Sonra bunlar xaricə satılacaqdır. Beləliklə, Azərbaycanda yeni bir istehsal sahəsi yaranır. Bu da öz növbəsində yeni iş yerlərinin açılmasına, yaradılmasına gətirib çıxarır. Yəni bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Sadəcə olaraq, güclü təkan veriləndə bütün başqa sektorlara da təsir güclü olur.

Bizim iqtisadi potensialımız möhkəmlənir və belə olan halda istənilən məsələni həll edə bilərik. Büdcəmiz son 3-4 il ərzində 4-5 dəfə artıbdır. Bu nə deməkdir? Əlavə vəsaitdir, dövlət xətti ilə qoyulan investisiyaların həcminin artımı, maaş, pensiyaların artımıdır. Bizim ölkəmiz bundan sonra da bu istiqamətdə inkişaf edəcəkdir. Güclü siyasi sistem, siyasi sabitlik, xalqla iqtidar arasında olan birlik, güclü iqtisadi potensial, neft strategiyamızın uğurla davam etdirilməsi, sosial məsələlərin həlli, sosial obyektlərin yaradılması və insanların ildən-ilə rifah halının yaxşılaşdırılması – bizim məqsədimiz budur və bu məqsədə doğru inamla irəliləyirik. Bu günə qədər görülən işlər onu göstərir ki, bu istiqamətdə bütün planlarımızı həyata keçiririk.

Bu su kəmərinin tikintisi ona görə önəmlidir ki, ilk növbədə o Bakının su probleminin həllinə kömək göstərəcəkdir. Bu gün Bakı əhalisinin təxminən 40 faizi fasilələrlə su

alır. Digər tərəfdən, bu kəmərin tikintisi bir daha onu göstərir ki, müstəqil Azərbaycan dövləti hər şeyə qadirdir. Burada deyildi və mən də qeyd etdim ki, bu layihə uzun illər idi ki, müzakirə olunurdu. Hələ Sovet İttifaqı dövründə burada böyük su mənbələrinin olması aşkar edilmişdi. Sadəcə, lazım olan tədqiqat-kəşfiyyat işləri aparılmamışdır. Çünki o vaxt buna vəsait tapa bilmirdilər. Əlbəttə ki, bu, Azərbaycanın müstəqilliyinin ilk illərində də müzakirə olunurdu. Ancaq o vaxt bizim imkanımız yox idi və bu sahəyə beynəlxalq maliyyə qurumlarından kredit almaq çox çətin məsələ idi. Çünki adətən, krediti o sahəyə verirlər ki, oradan qazanc götürsünlər. Biz isə bilirik ki, bu kəmərdən heç vaxt heç bir qazanc götürülə bilməz. Çünki biz buraya qoyulan yüz milyon dollarla ölçülən vəsaiti heç vaxt suyun pulundan qaytara bilməyəcəyik. Yəni bu, sırf sosial xarakter daşıyan məsələdir. Ona görə xarici banklarla da danışıqlar heç bir nəticə verməmişdi və biz gözləyirdik. Nəinki gözləyirdik, işləyirdik, çalışırdıq ki, güc toplayaq, maddi imkanları yaradaq və öz pulumuzla bunu edək. İndi bu kəmər Dövlət Neft Fondunun hesabına tikilir. Neftdən əldə olunan gəlirlər Neft fondunda cəmləşir və ondan sonra, bax, bu cür məsələlərə yönəldilir. Biz bunu ilk növbədə maaşlara, pensiyalara, qaçqın-köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına və ölkəmiz üçün ən önəmli məsələlərə yönəldirik. Yəni bu bir daha onu göstərir ki, Azərbaycanın milli sərvəti olan neft, qaz Azərbaycanın hərtərəfli inkişafına xidmət edir. Biz bunu gündəlik həyatda görürük və bundan sonra da görəcəyik. Çünki bundan sonra Azərbaycan yalnız və yalnız irəliyə gedəcək və sürətlə inkişaf edəcəkdir.

Mən çox istəyirəm ki, Azərbaycanın hər bir rayonu inkişaf etsin, o cümlədən Oğuz rayonu. Mən il yarım bundan əvvəl Oğuza ilk dəfə gəlmişdim, vəziyyətlə tanış olmuş, öz göstərişlərimi vermişdim. Bu gün çox şadam ki, artıq burada böyük tikinti işləri gedir. Burada icra hakimiyyətinin başçısı qeyd etdi, turizm infrastrukturu yaradılır, yeni

müəssisələr, xəstəxana, məktəblər, digər obyektlər tikilir. Mən istəyirəm ki, daha da çox işlər görülsün. Buranın çox gözəl təbiəti var, turizm üçün çox gözəl yerlər var. Biz elə etməliyik ki, Oğuz Azərbaycanın ən qabaqcıl rayonuna çevrilsin. Bunun üçün biz gərək birgə işləyək. Siz burada, biz də Bakıda. Mən əminəm ki, nəzərdə tutulmuş bütün məsələləri birlikdə həll edəcəyik.

Əziz bacılar və qardaşlar, mən bir daha sizə öz hörmət və məhəbbətimi ifadə edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev rayon sakinləri ilə səmimiyyətlə görüşüb hal-əhval tutdu, qayğıları ilə maraqlandı. Oğuzlular belə mühüm layihənin həyata keçirilməsinə, əhalinin sosial rifahının yaxşılaşdırılması, bölgələrin inkişafı sahəsində gördüyü tədbirlərə görə dövlətimizin başçısına təşəkkürlərini bildirdilər.*

## PREZİDENT İLHAM ƏLİYEV OĞUZ RAYONUNDA

*1 mart 2007-ci il*

### Ulu öndərin abidəsini ziyarət

*Azərbaycan prezidenti İlham Əliyev martın 1-də Oğuz şəhərinin mərkəzində yerləşən istirahət parkına gəldi.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin burada ucaldılmış abidəsini ziyarət edərək gül dəstəsi qoydu.*

### Heydər Əliyev muzeyinin açılışı

*Həmin gün Oğuz şəhərində ulu öndərin adını daşıyan muzeyin açılış mərasimi oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, muzey görkəmli dövlət xadimi və siyasi xadim, dahi şəxsiyyət Heydər Əliyevin irsinin təbliği, gənc nəslin bu irsdən yararlanması məqsədi ilə yaradılmışdır. Burada ulu öndərin uşaqlıq və gənclik illərini, ailə həyatını, Azərbaycana rəhbərliyinin hər iki dövrünü, kənd təsərrüfatının, sənayenin inkişafına, ordu quruculuğuna, mədəniyyətə və idmana qayğısını, «Əsrin müqaviləsi»nin imzalanmasını, Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsini əks etdirən 240-a yaxın şəkil və eksponat, habelə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərindən bəhs edən kitablar toplanmışdır. Dörd bölmədən ibarət olan muzeydə prezident İlham Əliyevin 2005-ci ildə Oğuz rayonuna səfəri və burada keçirdiyi görüşlərə dair fotoşəkillər toplanmışdır.*

*Dövlətimizin başçısı muzeyin ayrı-ayrı guşələri ilə tanış oldu, muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

## «APRA» istirahət və sağlamlıq kompleksinin tikintisi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Oğuz rayonunda «Apra» istirahət və sağlamlıq kompleksinin tikintisi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, tikintisinə 2006-cı ilin iyulunda başlanan kompleks ilin sonunadək tam istifadəyə veriləcəkdir. Dövlətimizin başçısının sahibkarlığın, regionların sosial-iqtisadi inkişafına diqqət və qayğısının daha bir təzahürü olan bu kompleksin ərazisi 1,5 hektar təşkil edir. Tikinti sahəsinin ərazisi isə 4200 kvadratmetrdir. 2,2 milyon dollara başa gələcək kompleksə indiyədək 1,6 milyon manat xərclənmiş, bunun 400 min manatı işçilərə maaş kimi verilmişdir.*

*Burada 31 otaqlı beşulduzlu mehmanxana, 4 kottec, sağlamlıq mərkəzi, gənclərin istirahəti üçün diskoklub olacaq, idmanla məşğul olmağa şərait yaradılacaqdır. Beşmərtəbəli mehmanxanada 70 nəfərlik konfrans salonu, restoran, internet otağı, beynəlxalq tədbirlərin keçirilməsi üçün sinxron tərcümə mərkəzi fəaliyyət göstərəcəkdir. Burada üçulduzlu mehmanxananın da tikintisi nəzərdə tutulur.*

*Prezident İlham Əliyev inşaatçılarla görüşdü, layihə ilə tanış oldu, tikinti sahələrinə baxdı.*

*Dövlətimizin başçısı binanın yuxarı mərtəbəsindən ətraf mənzərəni, gözəl təbiəti seyr etdi və bu cür obyektlərə gələcəkdə tələbatın çox olacağını bildirdi. Turistlərin bu bölgəyə gəlməsi üçün bütün işlərin yüksək səviyyədə görülməsinin zəruriliyini söylədi.*

## Oğuz Mərkəzi Rayon Xəstəxanasının tikintisi ilə tanışlıq

*Prezident İlham Əliyev sonra Səhiyyə Nazirliyinin sifarişi ilə Oğuz şəhərinin Heydər Əliyev prospektində inşa olunan mərkəzi rayon xəstəxanasının tikintisi ilə tanış oldu.*

*Səhiyyə naziri Oqtay Şirəliyev prezidentə məlumat verdi ki, 100 çarpayılıq bu xəstəxanada hər cür müasir şərait yaradılacaqdır. İnşaat işlərini «Oğuztikintimexanizasiya» Açıq Səhmdar Cəmiyyəti yerinə yetirəcəkdir. Bura bir növ səhiyyə şəhərciyi olacaqdır. Gündə 250 nəfəri qəbul edə bilən poliklinika, təcili yardım stansiyası, infeksion və təsərrüfat korpusları, nasosxana, qazanxana tikiləcəkdir.*

*Layihə ilə tanış olan prezident İlham Əliyev dedi ki, bu cür xəstəxanalar ölkəmizin bir çox regionlarında, o cümlədən Şamaxıda, Şəkidə, Balakəndə, Göyçayda və digər rayonlarda artıq inşa olunur. Dövlətimizin başçısı ölkəmizdə əhalinin sağlamlığının qorunması üçün görülən tədbirlərdən danışdı və bu sahəyə bundan sonra da diqqət göstəriləcəyini xüsusi vurğuladı.*

## Olimpiya kompleksinin tikintisi ilə tanışlıq

*Prezident İlham Əliyev martın 1-də Oğuz şəhərində Olimpiya kompleksinin tikintisi ilə tanış olmuşdur.*

*İnşaatçılar dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladılar. Prezidentə məlumat verildi ki, tikintiyə 2006-cı il sentyabrın 1-də başlanmışdır və kompleks 2008-ci il sentyabrın 1-dək tam hazır olacaqdır. Obyektin sifarişçisi Gənclər və İdman Nazirliyi, podratçı təşkilat «Rövşən Oğuz» inşaat şirkətidir. Bu obyektin istifadəyə verilməsi regionda idmanın inkişafına yeni təkan verəcək, burada respublika və beynəlxalq miqyaslı yarışların keçirilməsi mümkün olacaqdır.*

*Prezident İlham Əliyev layihə ilə tanış oldu, inşaatçılara təşəkkürünü bildirdi. Dövlətimizin başçısı ölkəmizin artıq 10-dan çox rayonunda Olimpiya İdman Kompleksinin tikildiyini xatırladaraq, bu cür tədbirlərin gələcəkdə davam etdiriləcəyini söylədi.*

*Prezidentə idmançılara göstərdiyi diqqət və qayğıya görə təşəkkür bildirildi.*

*Bununla da prezident İlham Əliyevin Oğuz rayonuna səfəri başa çatdı.*

# AZƏRBAYCAN PREZİDENT İLHAM ƏLİYEVİN QƏBƏLƏ RAYONUNA SƏFƏRİ

*2 mart 2007-ci il*

## Heydər Əliyev muzeyinin açılış mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev martın 2-də Qəbələ rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı rayon sakinləri böyük hörmət və ehtiramla, gül-çiçəklə, hərarətli alqışlarla qarşıladılar. Onların əllərində Azərbaycanın Dövlət bayraqları, ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, xalqımızın ümummilli liderinin müdrik kəlamları yazılmış transparantlar var idi.*

*Prezident əvvəl Qəbələdə Heydər Əliyev muzeyinin təntənəli açılış mərasimində iştirak etdi.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, ulu öndərin muzeydə qoyulmuş büstü önünə gül dəstəsi qoydu.*

*200-dən artıq fotoşəkil, arxiv sənədləri və müxtəlif kitablar toplanmış muzey həm də Heydər Əliyev Fondunun Qəbələ filialı kimi də fəaliyyət göstərəcəkdir. Burada kitabxana, sənədli filmin nümayişi üçün salon var. Ekspozisiya ulu öndərin uşaqlıq və gənclik illərindən, ailə həyatından, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi illərdən, Azərbaycana rəhbərliyinin hər iki dövründən, Moskvada SSRİ-nin ali rəhbərliyində işlədiyi, habelə sonralar Naxçıvanda yaşadığı illərdən bəhs edir. Eyni zamanda, muzeydə ümummilli liderin 1978-ci və 2002-ci illərdə Qəbələ rayonuna səfərləri və burada keçirdiyi görüşləri əks etdirən fotoşəkillər toplanmışdır.*

*Bildirildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2004-cü il mayın 10-da «Heydər Əliyev İrsi Beynəlxalq Elektron*

*Kitabxana» yaradılmışdır. Bu layihənin müəllifi «Azərbaycan Nyumedia» şirkətidir. Burada ulu öndərin zəngin irsini əks etdirən materiallar toplanmışdır. 25 dildə hazırlanmış və 100 mindən çox sənədin yerləşdiyi sayt daim zənginləşdirilir, ekspertlər tarixi araşdırmalar aparır. Azərbaycanın xarici dövlətlərlə münasibətlərinə dair qısa oçerklər, məlumat, sorğu materialları toplanmışdır. Saytın fotoqalereyasında ulu öndərə aid nadir fotolar da vardır. Hər ay 100-dən çox ölkədən 10 min oxucu sayta daxil olur. Amerika, Fransa, İngiltərə, Almaniya və digər ölkələrin vətəndaşları bu sayta mütəmadi müraciət edir və sənədlərlə tanış olurlar. Muzeydə tədbirlərin, təlimlərin və veb-konfransların keçirilməsi, videomaterialların nümayiş etdirilməsi üçün brifinq zalı vardır. Məktəblilər muzeyə daim gələcək və ulu öndərin zəngin irsi ilə tanış ola biləcəklər.*

*Dövlətimizin başçısı muzeyin ayrı-ayrı guşələri ilə tanış oldu, Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonra Qəbələ rayonu ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildi.*

*Prezident İlham Əliyev görüşdə nitq söylədi.*

## QƏBƏLƏ RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*2 mart 2007-ci il*

Əziz bacılar və qardaşlar!

Əziz qəbələlilər!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl bir gündür, ulu öndər Heydər Əliyevin muzeyi açılır. Muzeyin çox gözəl ekspozisiyası var. Ulu öndərin həyat və fəaliyyətini çox dolğun şəkildə əks etdirir. Eyni zamanda bu, memarlıq baxımından da çox gözəl binadır və Qəbələ şəhərinə əlavə yaraşıq verəcəkdir.

Bu gün muzeydə nümayiş etdirilən fotoşəkillər və sənədlərlə tanış olarkən bir daha görürük ki, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının inkişafında, Azərbaycan Respublikasının möhkəmlənməsində çox böyük rolu olmuşdur. 70-ci illərdə Azərbaycanı çox yüksək inkişaf səviyyəsinə gətirib çıxarmışdır. 1969-cu ildə rəhbərliyə gəldiyi zaman Azərbaycan Sovet İttifaqında ən geridə qalmış respublika idi. 1982-ci ildən isə ən qabaqcıl respublikaya çevrilmişdir.

Müstəqilliyimizin ilk illərində Azərbaycanın üzləşdiyi o ağır vəziyyət, o böhranlı günlər, faktiki olaraq ölkəmizi həm iqtisadi, həm də siyasi cəhətdən çox çətin vəziyyətə salmışdır. Bizim müstəqilliyimiz faktiki olaraq şübhə altında idi. Yalnız Azərbaycan xalqının tələbi və xahişi ilə 1993-cü ildə Heydər Əliyevin rəhbərliyə gəlişindən sonra bütün xoşagəlməz meyillərin qarşısı alındı və ölkəmiz inkişaf yoluna qədəm qoydu. Əgər o vaxt bütün müstəqilliyini yenicə əldə etmiş respublikalar arasında Azərbaycan ən ağır vəziyyətdə

idisə, bu gün Azərbaycan ən sürətlə inkişaf edən ölkədir. Budur tarixdə liderlərin rolu və onların fəaliyyəti!

Bu gün biz inamla inkişaf edirik. Bunu biz Qəbələ rayonunun timsalında da görürük. Deyə bilərəm ki, Qəbələ rayonunun sürətli inkişafı ulu öndər Heydər Əliyevin 2002-ci ildə Qəbələyə gəlişindən sonra başlanmışdır. O burada vəziyyətlə tanış olmuş, öz göstərişlərini vermiş və inkişaf proqramlarını müəyyən etmişdi. Bu gün  bu proqramlar uğurla icra edilir. Siz də bunu yaxşı bilirsiniz ki, qısa müddət ərzində Qəbələnin, demək olar, siması dəyişdi. Yollar, xiyabanlar, parklar salındı, yeni binalar, sənaye müəssisələri tikilir. Bu gün böyük konserv zavodunun açılışında olacağam, ondan sonra digər sənaye obyektlərinin tikintisi ilə tanış olacağam.

Qəbələnin iqtisadi potensialı artır, yeni iş yerləri açılır, sənaye müəssisələri ilə yanaşı, sosial infrastruktura da böyük diqqət göstərilir. Bildiyiniz kimi, Qəbələdə yeni müasir Müalicə-Diaqnostika Mərkəzinin tikintisinə başlamışıq və ümid edirəm ki, yaxın zamanlarda bu gözəl xəstəxana istifadəyə veriləcəkdir.

Qəbələdə mehmanxanalar tikilir, buranın çox gözəl təbiəti var. Turizm üçün çox gözəl yerlər var. Turizmin inkişafı, infrastrukturun inkişafı, sosial məsələlərin həlli, məktəb tikintisi – bütün bunlar Qəbələ rayonunun inkişafında çox mühüm rol oynayan amillərdir. Rayonun potensialı ildən-ilə möhkəmlənir və mən bu gün deyə bilərəm ki, Qəbələ rayonu Azərbaycanın ən sürətlə inkişaf edən rayonları sırasındadır. Bu uğurlar münasibətilə mən sizin hamınızı təbrik edirəm.

Bütövlükdə, bu bölgənin inkişafı çox sürətlə gedir. Bildiyiniz kimi, mən bölgələrə tez-tez gedir, vəziyyətlə tanış oluram. O cümlədən, bu bölgədə də dəfələrlə olmuşam. Son zamanlar bölgənin iqtisadi potensialının  möhkəmləndirilməsi üçün böyük işlər görülübdür. Enerji təchizatı sistemi müasirləşir. Şəkidə istifadəyə verilmiş yeni elektrik stansiyası bütün bu bölgəni elektrik enerjisi ilə təmin edəcəkdir. Artıq biz çoxlu elektrik

stansiyalarının tikintisi ilə enerji potensialını gücləndiririk. Çünki buna böyük tələbat var, böyük ehtiyac var.

Ölkəmizin əhalisi artır. Bu çox müsbət haldır və çox gözəl göstəricidir. Biz bilirik ki, inkişaf etmiş ölkələrdə, onların tam əksəriyyətində əhali artımı müşahidə olunur. Bəzi ölkələrdə əksinə, ildən-ilə əhali azalır. Azərbaycanda isə bu artım çox sürətlə gedir və bu bizi çox sevindirir. Bizim əhalimiz indi 8 milyon 500 min nəfərə çatıbdır və getdikcə artır. Eyni zamanda, bu onu göstərir ki, ölkədə sosial və iqtisadi vəziyyət yaxşılaşır. Belə olan halda təbii ki, insanların yaşaması üçün daha da yaxşı şərait yaradılacaqdır.

Digər tərəfdən, Azərbaycanda həyata keçirilən geniş quruculuq-abadlıq, yenidənqurma işləri, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası, əlbəttə ki, yeni müəssisələrin yaranmasına gətirib çıxarır. Bütün yeni yaranan müəssisələr, təbii ki, enerji ilə qidalanır. Ona görə əminəm ki, elektrik stansiyalarının tikintisi qısa müddət ərzində Azərbaycanı elektrik enerjisi ilə tam şəkildə təmin edəcəkdir. Bununla bərabər, elektrik xətlərinin yeniləşməsinə də böyük fikir veririk və əlbəttə ki, bu sahəni biz diqqətdə saxlayacağıq.

Bölgədə sənaye müəssisələrinin yaranması çox sürətlə gedir. Dünən mən Şamaxı və Oğuz rayonlarında idim. Hər iki rayonda çoxlu tədbirlər görülür, çoxlu yeniliklər var. Şamaxıda yeni xəstəxananın tikintisinə başlamışıq, orada böyük sənaye kompleksi tikilibdir. Şamaxıda istehsal olunan sənaye malları artıq başqa ölkələrə, o cümlədən Avropa ölkələrinə ixrac edilir. Oğuzda yeni mehmanxana, yeni xəstəxana tikilir, digər gözəl obyektlər tikilir, rayon mərkəzi abadlaşır. Yəni bütün bunlar göstərir ki, ölkəmizin hər bir yerində gözəl dinamika var. Bölgələrə tez-tez səfər etdiyimə görə, deyə bilərəm ki, hər bir yerdə biz bunu görürük. Çünki indi bizim imkanlarımız artır. Bu imkanların artımı da ilk növbədə, Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi islahatların nəticəsidir və Azərbaycanda hökm sürən əmin-amanlıq, sabitlik və ictimai-siyasi asayişin hesabına mümkün

olmuşdur. Əgər biz başqa ölkələrin tarixinə nəzər salsaq görərik ki, ancaq və ancaq siyasi sabitlik olan yerlərdə inkişafa imkan yaranır. Azərbaycanda bu iki mühüm amil var. Eyni zamanda, iqtidarın güclü iradəsi var, xalqın iqtidara dəstəyi var. Əlbəttə ki, bütün bu amillər qısa müddət ərzində ölkəmizi çox sürətlə inkişaf etdirir.

Haraya baxsaq görərik ki, o sahədə inkişaf var. Neft kəmərləri tikilibdir və oradan əldə olunan gəlirlərlə biz dünən Oğuzda böyük su kəmərinin tikintisinə başlamışıq. Bu çox böyük sosial məsələdir. Ölkə əhalisini içməli su ilə, elektrik enerjisi, qazla, tibbi xidmətlə, müasir şəraitlə təmin etmək – budur bizim əsas məqsədimiz. Bunu etmək üçün mütləq maddi imkanlar lazımdır. Onlar olmasa heç bir məsələ öz həllini tapa bilməz. Biz yaxşı xatırlayırıq ki, müstəqilliyimizin ilk illərində nə qədər çətinliklər var idi. Deyə bilərəm ki, o vaxt biz təkbaşına qalmışdıq, heç kim bizə kömək etmirdi. Biz gördük ki, ölkəmizi gərək ancaq və ancaq özümüz gücləndirək, özümüz işləməliyik ki, xalqımızı yaxşı səviyyəyə gətirib çıxaraq. Bu gün biz çox böyük iftixar hissi ilə deyə bilərik ki, buna nail ola bilmişik!

Bizim ən böyük layihələrimiz artıq həyata keçirilir. Ulu öndər Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri fəaliyyətə başlamışdır və bunun nəticəsində ölkəyə böyük valyuta axını var. Bu bizə imkan verir ki, büdcəmizi artıraq. Son 3-4 il ərzində büdcəmiz 4-5 dəfə artmışdır. Bu heç bir başqa ölkədə, dünya tarixində görünməmiş bir hadisədir. İqtisadi artım Azərbaycanda ən yüksək dinamika ilə ölçülür. İqtisadiyyatımız 2005-ci ildə 26 faiz, 2006-cı ildə 34 faiz və 2007-ci ilin yanvar ayında təxminən 50 faiz artıbdır. Nəzərə alsaq ki, dünyada orta hesabla iqtisadi artım təxminən 6 faiz təşkil edir, onda bunun bizə nə dərəcədə əlavə imkanlar yaradacağını görərik. Əsas məqsəd bütün bu imkanları səfərbər edib, insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəltməkdir. Ona görə aparılan iqtisadi islahatlar bizim üçün çox vacibdir.

İqtisadi artım, əlbəttə ki, hər bir ölkənin iqtisadi dinamikasını müəyyən edir. Amma deyə bilərəm ki, bundan az əhəmiyyət daşımayan bir məsələ məni daha çox sevindirir. Bu da ondan ibarətdir ki, son 3 il ərzində Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı kəskin şəkildə aşağı düşübdür. Əgər 2003-cü ildə Azərbaycanda əhalinin 49 faizi yoxsulluq şəraitində yaşayırdısa, 2006-cı ilin yekunlarına görə, 20 faizə düşübdür. Yenə də çoxdur və bu məni incidir. Nə üçün Azərbaycan əhalisinin 20 faizi yoxsulluq şəraitində yaşasın? Ancaq dinamika onu göstərir ki, biz bu yoxsulluğu aradan qaldıracağıq. Mən qarşıya vəzifə qoymuşam ki, Azərbaycanda yoxsulluq tam şəkildə aradan qaldırılmalıdır, insanlar işlə təmin edilməlidir və beləliklə, Azərbaycanda kasıb olmamalıdır. İşləmək istəyən insanlar işlə təmin olunmalıdır, xüsusilə də bölgələrdə. Yadınızdadır, mən prezident vəzifəsinə seçiləndən bir neçə ay sonra, 2004-cü ilin fevralında regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramını qəbul etdim. Çox geniş bir proqramdır və orada bütün məsələlər, eyni zamanda, maliyyə məsələləri öz əksini tapmışdır. Bir var ki, xoş niyyətin olsun, yəni gözəl şüarın olsun, amma bunu icra etmək üçün mexanizm olmasın. Amma bizdə həm bu niyyət var, həm də icra mexanizmləri. Üç il ərzində ölkəmizdə 520 min yeni iş yeri açılıbdır. Bu 520 min iş yerinin açılması yeni müəssisələr deməkdir, yeni imkanlar deməkdir, maaşların artırılması deməkdir. Dövlət öz tərəfindən bunu edir. Digər tərəfdən, sahibkarlığın inkişafı üçün vəsait ayırır. Hər il dövlət büdcəsindən sahibkarlara, xüsusilə kiçik və orta sahibkarlara 100 milyon dollar səviyyəsində güzəştli kreditlər verilir. Bu kreditlərin hesabına çoxlu işlər görülür və bölgələrdə işlərin əksəriyyəti o kreditlərin hesabına görülür. Dövlət İnvestisiya Şirkəti yaradılıbdır, onun da kapitalı 100 milyon dollardır. O da Azərbaycanda bizim üçün lazım olan investisiya layihələrini həyata keçirəcəkdir. Çünki biz əvvəllər daha çox xarici sərmayədən asılı idik. İndi isə imkanlarımız artır, özümüz müəyyən etməliyik ki, hansı

sahəyə investisiyalar qoymalıyıq. Xarici investor onu maraqlandıran sahələrə investisiyalar qoyur. Bu da təbiidir. Amma elə sahələr var ki, bizim üçün vacibdir, lakin ora investisiya tapa bilmirik. Ona görə Dövlət İnvestisiya Şirkəti vasitəsilə Azərbaycan Hökuməti özü müəyyən edəcək ki, bu investisiyaları hansı rayona, hansı sahəyə, hansı sənaye sahəsinin inkişafına yönəldək.

Üçüncü tərəfdən, kənd təsərrüfatının inkişafı üçün «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılıbdır və onun xətti ilə artıq üçüncü ildir ki, çoxlu kənd təsərrüfatı texnikası gətirilir, icarəyə verilir. Bu il enerji daşıyıcılarının qiymətlərinin qaldırılması ilə əlaqədar kəndlilərə 80 milyon manat məbləğində subsidiya veriləcəkdir. O subsidiya gübrənin, eyni zamanda, yanacağın alınmasına yönəldiləcəkdir. Yəni dövlət öz tərəfindən çalışır bütün imkanları yaratsın ki, insanlar yaxşı yaşasınlar.

Amma o da var ki, biz bu gün bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Bazar iqtisadiyyatı bizim üçün təzə, müasir bir yoldur. Tarix də, inkişaf etmiş ölkələrin təcrübəsi də onu göstərir ki, başqa yol yoxdur. Bəzi hallarda bu yolda, xüsusilə iqtisadi islahatlar aparılarkən insanların həyat səviyyəsi aşağı düşür. Biz bunu başqa ölkələrin timsalında görmüşük. Hətta Sovet İttifaqının dağılması da məhz elə onun nəticəsi idi ki, islahatlar düşünülmədən, sosial məsələlər həll olunmadan aparılmışdır.

Bizdə isə həm bazar iqtisadiyyatı inkişaf edir, həm də sosial məsələlər həll olunur. Minimum əməkhaqqı ildə iki dəfə artırılır, büdcədən maliyyələşən təşkilatlarda insanların əməkhaqları mütəmadi qaydada artırılır. Eyni zamanda, güclü iqtisadi islahatlar aparılır və bölgələrin inkişafına diqqət yetirilir: sosial sahə, infrastruktur, yollar, su kəmərləri, qaz kəmərləri, elektrik xətləri, elektrik stansiyaları, körpülər və abadlıq işləri. Əgər biz bütün bu istiqamətlərdə indiki kimi uğurla inkişaf etsək, qısa müddət ərzində Azərbaycanda əsaslı, yəni insanları narahat edən problemlər qalma-

yacaqdır. Mənim də məqsədim bundan ibarətdir ki, hər kəs üçün gözəl şərait yaradılsın. Büdcə təşkilatlarında işləyənlərin yaxşı maaşı olmalıdır ki, onlar yaxşı yaşasınlar. Özəl sektorda işləyənlərin də imkanı olmalıdır ki, yaxşı dolansınlar. Bütün sosial infrastruktur yeniləşməlidir. Məktəb tikintisi, xəstəxanaların tikintisi, insanların gündəlik təmasda olduqları bütün sahələrə biz gərək yenilikləri gətirək və ölkəmizi müasirləşdirək. Tarixi, milli dəyərlərə söykənərək ölkəmizi irəliyə aparmalıyıq, müasirləşdirməliyik, dünya iqtisadiyyatına inteqrasiya etməliyik.

Biz artıq bölgədə lider ölkəyə çevrilmişik. Bunu hamı etiraf edir. Bizim iştirakımız olmadan bölgədə istər enerji sahəsində, istərsə də nəqliyyat sahəsində heç bir layihə icra oluna bilməz. Əgər 1994-cü ildə biz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə xarici şirkətlərlə neft müqaviləsi imzalamasaydıq, bunların heç biri mümkün olmayacaqdı. Ancaq biz bunları reallığa çevirdik. Bakı–Tbilisi–Ceyhan neft kəməri Azərbaycan xalqının uzunmüddətli inkişaf strategiyasını müəyyən edəcəkdir. Ondan sonrakı layihələr, dəmir yolunun tikintisi çox böyük tarixi hadisədir. Biz Türkiyəni Azərbaycanla birləşdirən, Orta Asiyanı Azərbaycan vasitəsilə Avropa ilə birləşdirən dəmir yolunun üzərində işləyirik. Uzun illərdir çalışırdıq ki, bu dəmir yolunun layihəsini ölü nöqtədən tərpədək. İmkan yox idi. Nəyə görə? Çünki heç kim buna vəsait qoymaq istəmirdi. Beynəlxalq banklara, beynəlxalq təşkilatlara, müxtəlif maliyyə qurumlarına müraciət etmişdik, heç bir cavab yox idi. Nə vaxt biz bunu etdik? O vaxt ki, bizim özümüzün imkanı oldu. Azərbaycan dövləti üzərinə 200 milyon dollar həcmində maliyyə öhdəliyi götürdü. Biz artıq bir müddət bundan əvvəl o dəmir yolunun həyata keçirilməsinin təməlini qoyduq və bunu icra edəcəyik. Ölkə daxilində və ölkə xaricində Azərbaycanın milli maraqlarına uyğun nə varsa, biz onu edəcəyik. Regionda bizim rolumuz artdıqca, əlbəttə ki, imkanlarımız artır. Bizim təsir imkanlarımız artır və ölkədə proseslər daha da sürətlə gedə-

cəkdir: güclü iqtisadiyyat, güclü sosial siyasət, xarici siyasət və bölgələrin inkişafı. Bir daha demək istəyirəm ki, bu yeniliklər ki var – yəni xəstəxana, məktəb tikintisi – biz bunları ən ucqar rayonlardan başlamışıq, yolların çəkilməsinə ən ucqar kəndlərdən başlamışıq. Nə üçün? Çünki orada yaşayan insanların buna ehtiyacı şəhərdə yaşayan insanlarla müqayisədə daha çoxdur. Ona görə indi hansı rayona, hansı bölgəyə baxsan, orada olimpiya kompleksi, xəstəxana və məktəblər tikilir. Ölkəmiz beləcə inkişaf edəcək, gözəl binalar tikiləcəkdir. Mən indi görürəm ki, Qəbələ rayonunda da gözəl abadlıq işləri görülür, binalar, divarlar çox səliqə ilə rənglənir, çox gözəl quruculuq işləri aparılır.

Buranın gözəl təbiəti var. Bu təbiət, bu dağlar özlüyündə hər bir yerə yaraşıqdır. Əgər biz bunu müasir binalarla, müasir görkəmi olan memarlıq abidələri ilə tamamlasaq, daha da gözəl olacaqdır. Mən bunu istəyirəm, bunu arzu edirəm və bu məramla da sizinlə görüşə gəlmişəm.

Əziz dostlar, mən sizə bir daha öz salamlarımı, hörmət və məhəbbətimi çatdırıram. Arzu edirəm ki, sizin həyatınızda, ailənizdə hər şey yaxşı olsun, sağlam olasınız və Azərbaycanın inkişafında, ölkəmizin möhkəmlənməsində biz birlikdə işləyək. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev sakinlərlə səmimiyyətlə görüşüb hal-əhval tutdu. Qəbələlilər dövlətimizin başçısına təşəkkürlərini bildirərək, ölkənin sosial-iqtisadi inkişafı sahəsində görülən işlərdən razılıqlarını ifadə etdilər, ulu öndərin tarixi xidmətlərini xatırladılar, onun arzularının həyata keçirilməsi istiqamətində dövlətimizin başçısının rəhbərliyi ilə daha böyük uğurlar qazanılacağına əminliklərini söylədilər.*

# PREZİDENT İLHAM ƏLİYEV QƏBƏLƏ RAYONUNDA

*2 mart 2007-ci il*

## Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin tikintisi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev martın 2-də Qəbələ rayonunda Müalicə-Diaqnostika Mərkəzinin tikintisi ilə tanış olmuşdur.*

*İnşaatçılar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Prezidentə məlumat verildi ki, mərkəzin tikintisinə 2005-ci ildə başlanılıb, bu ilin avqust ayında inşaat işləri tamamlanacaqdır. ARDNŞ-in sifarişi ilə tikilən bu mərkəzə 4 milyon manat, o cümlədən avadanlığın, cihazların və digər inventarların alınması üçün 3,5 milyon manat vəsait xərclənəcəkdir.*

*Mərkəzin layihəsi ilə tanış olan dövlətimizin başçısı artıq ölkəmizin 10 rayonunda bu cür səhiyyə ocaqlarının yaradıldığını xatırladaraq dedi ki, Qəbələdə də belə bir mərkəzin istifadəyə verilməsi əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsini yüksəldəcəkdir. Prezident İlham Əliyev Lənkəran Müalicə-Diaqnostika Mərkəzində açıq ürək üzərində əməliyyat aparıldığını vurğuladı və bildirdi ki, gələcəkdə Qəbələdən də xəstələrin Bakıya getməsinə ehtiyac qalmayacaq, burada da mürəkkəb cərrahiyyə əməliyyatlarının keçirilməsi mümkün olacaqdır. Dövlətimizin başçısı Müalicə-Diaqnostika Mərkəzinin xarici görünüşünün müasir standartlara uyğun olması üçün tövsiyə və tapşırıqlarını verdi.*

*Prezident İlham Əliyev inşaatçılarla görüşüb söhbət etdi. Qəbələ rayonunda bundan sonra tikinti işlərinin hələ çox olacağını bildirdi və onlara uğurlar arzuladı.*

## «Gilan Holding» Şirkətlər Qrupunun konserv zavodunda

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün «Gilan Holding» Şirkətlər Qrupunun Qəbələ konserv zavodunda olmuşdur.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını böyük ehtiramla qarşıladı.*

*Zavodun direktoru Rövşən Fərhadov prezident İlham Əliyevə məlumat verdi ki, 2005-ci ilin avqust ayında dövlət başçısının xeyir-duası ilə təməli qoyulmuş və hazırda istifadəyə verilən zavod regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsinin bəhrəsidir. Respublika iqtisadiyyatında əhəmiyyətli yer tutacaq müəssisənin istehsal gücü və texniki avadanlıq cəhətdən Qafqazda analoqu yoxdur. Ən müasir dünya standartlarına cavab verən avadanlıq İtaliyanın «Podovan» şirkəti tərəfindən quraşdırılaraq istifadəyə verilmişdir. İllik istehsal gücü 70 min ton olan zavodda 150 nəfər işləyir, orta aylıq əməkhaqqı 200 manatdır. Meyvə tədarükü mövsümündə işçilərin sayı 300–350 nəfərə çatır. Məhsul istehsalında istifadə olunan meyvə və giləmeyvənin tədarükü kənd əhalisinin məşğulluğuna kömək edir, pul gəlirlərinin artmasına əhəmiyyətli şəkildə təsir göstərir.*

*Gələcəkdə zavodun xammala olan tələbatının ödənilməsi məqsədilə 100 hektardan artıq sahədə meyvə bağları salınmışdır. Zavodda müxtəlif növ meyvə pürеləri, konsentratlar, şirələr, turşular, mürəbbələr, cemlər istehsal edilir.*

*Prezident İlham Əliyev müəssisənin istehsal sahələrini gəzdi, məhsulun qəbulu, təmizlənməsi, emalı və bankalara doldurulması prosesini izlədi, hazır məhsuldan daddı.*

*Dövlətimizin başçısı istehsal olunan məhsulların sərgisinə baxdı. Sərgidə 40 çeşiddə şirə, cem, mürəbbə, turşular və marmelad nümayiş etdirildi və bildirildi ki, gələcəkdə yüz adda məhsul buraxılacaqdır. Bu məhsullar yerli və xarici bazarın*

*tələblərinə cavab verir, HACCP və İSO standartlar sertifikatına layiq görülmüşdür. İstehsal olunan məhsul nümunələri bir çox xarici ölkə nümayəndələri tərəfindən laborator analizindən keçirilərək, yüksək qiymət almış və böyük maraq doğurmuşdur. Bu da deməyə əsas verir ki, müəssisə məhsullarını bir çox xarici ölkələrdə də sata biləcək, Azərbaycanın yüksək keyfiyyətli məhsullarını dünyaya tanıdacaqdır.*

*Prezident İlham Əliyev «Gilan Holding» Şirkətlər Qrupuna məxsus «Aqro-Azərinvest» Məhdud Məsuliyyətli Cəmiyyətin fəaliyyəti barədə lövhə ilə tanış oldu, Şirkətlər Qrupunun fəaliyyətindən bəhs edən filmə baxdı. Bildirildi ki, «Aqro-Azərinvest» MMC 2004-cü ildə yaradılmışdır. Perspektiv plana müvafiq olaraq yeni üzümlüklər salınır. Cəmiyyətin respublikanın müxtəlif rayonlarında 1200 hektardan artıq torpaq sahəsi var. Bunun 310 hektarı öz mülkiyyətidir, qalanı isə uzunmüddətli – 99 illiyə icarəyə götürülmüşdür. Xanlar, Qəbələ, Yevlax, Samux rayonlarında üzüm bağları salınmışdır.*

*2006-cı ildə Qəbələ rayonunda istifadəyə verilmiş və istehsal gücü saatda 1,5 min qab olan sexdə müxtəlif ölçülü butulkalarda ağ və qırmızı şərab istehsal olunur. Burada 3 litrlik plastik qablara doldurulmuş şərablar da buraxılır. 2007-ci ildən isə üzüm şirəsinin istehsalı nəzərdə tutulur. 2008-ci ilin yığım mövsümündə isə eyni vaxtda 1000 ton süfrə üzümünün saxlanması üçün soyuducu anbarın və kişmiş istehsal etmək üçün illik gücü 1000 ton olan sexin tikintisinə başlanacaqdır.*

## Qəbələ Ticarət Kompleksi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev martın 2-də «Gilan Holding» Şirkətlər Qrupunun inşa etdiyi Qəbələ Ticarət Kompleksi ilə tanış olmuşdur.*

*İş adamları, ticarətçilər dövlətimizin başçısını və xanımını səmimiyyətlə qarşıladılar, balaca uşaqlar şeir söylədilər.*

*Prezidentə məlumat verildi ki, 4,6 hektar ərazidə yerləşən kompleksin tikintisi 2005-ci ilin iyun ayında başlanmış, keçən ilin sonunda tamamlanmışdır. Ümumilikdə 2 milyon 625 min manat vəsait xərclənmişdir. Əhaliyə nümunəvi xidmət göstərilən kompleksdə ən müxtəlif mallar, habelə kənd təsərrüfatı məhsulları satılır. Burada 700 nəfər özünə iş yeri tapmışdır.*

*President İlham Əliyev geyim dəstləri, kompleksin süd, meyvə-tərəvəz, ət və ət məhsulları satılan bölmələrini gəzdi, malların çeşidi, qiyməti, keyfiyyəti ilə maraqlandı.*

*Satıcılar, fermerlər onlara yaradılan müasir şəraitə, regionların sosial-iqtisadi inkişafına, kəndli fermer təsərrüfatlarına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını ifadə edərək dedilər ki, Allah Sizdən razı olsun. Siz bizim sevimli prezidentimizsiniz, sevimli Mehriban xanım da xoş gəlibdir. Dolanışığımız gündən-günə yaxşılaşır. Satışa çıxarılan bütün məhsulların xeylisini özümüz istehsal edirik, qiymətlər də nisbətən ucuzdur.*

*President İlham Əliyev əhaliyə satılan kənd təsərrüfatı məhsullarının keyfiyyətindən və bu cür müasir ticarət obyektlərinin fəaliyyətindən razılığını bildirdi.*

## Zərifə Əliyeva adına parkda

*Azərbaycan prezidenti İlham Əliyev martın 2-də Qəbələ şəhərində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyan parkın açılışında iştirak etmişdir. Burada dövlətimizin başçısını və xanımını musiqi ilə qarşıladılar. Prezident İlham Əliyev parkın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, 6,5 hektar ərazini əhatə edən parkda millilikl ə müasirlik çox uyarlı şəkildə uzlaşdırılmışdır. Burada kafe, şirniyyat evi, idman kompleksi, ağsaqqallar üçün çay evi, restoran, diskoteka, konsert və əyləncəli proqramlar üçün gözəl səhnə yaradılmışdır. Göz oxşayan parkda 7 süni göl, fəvvarəli hovuzlar, yaraşıqlı bulaqlar vardır. Parkda 10 min-*

*dən çox gül kolu və ağac əkilmişdir. Xüsusilə gecə vaxtları əsrarəngiz görünən park gözəl təəssürat bağışlayır. Sakinlərin istirahəti üçün hər cür şərait yaradılmış bu mədəniyyət və istirahət obyekti müasir standartlara cavab verir. Gənclərin asudə vaxtının səmərəli keçməsi üçün maraqlı proqramlar təşkil olunur, kiçik yaşlı uşaqlar üçün karusellər, yelləncəklər quraşdırılmışdır. Kompleksdə futbol, voleybol, basketbol meydançaları, idman salonları var. Burada gələcəkdə rayon əhəmiyyətli yarışlar keçiriləcəkdir.*

*Prezident İlham Əliyev incəsənət ustalarının ifasını dinlədi, idman kompleksində balaca karateçilərin nümunəvi çıxışlarına, futbolçuların məşqlərinə tamaşa etdi.*

*Dövlətimizin başçısı parkı gəzdi, rayonun gənc rəssamlarının işlərinə baxdı, parka gəzintiyə çıxmış sakinlərlə görüşdü. Prezident İlham Əliyevə gənc rəssamların adından rəsm əsəri hədiyyə olundu.*

*Sakinlər ali qonağı və xanımını salamladılar, istirahət üçün yaradılan şəraitə görə təşəkkür etdilər, göstərilən diqqət və qayğıdan razılıqlarını bildirdilər. Balaca uşaqlar ulu öndər Heydər Əliyevə və dövlətimizin başçısına həsr olunmuş şeirlər söylədilər.*

*Prezident İlham Əliyev onlara təşəkkür edərək dedi ki, park çox gözəldir. İstirahət üçün hər bir şərait var, çox gözəl abadlıq işləri görülmüşdür. İnsanlar buradan səmərəli istifadə edəcəklər.*

*Sakinlər və balaca uşaqlarla xatirə şəkli çəkdirən dövlətimizin başçısı gənclərin asudə vaxtlarının səmərəli keçməsi üçün yaradılan diskoteka ilə də tanış oldu.*

*Sonra prezident İlham Əliyev parkda istirahət edən ağsaqqallarla görüşüb söhbət etdi.*

**Nazim Mustafayev** (*Rayon Ağsaqqallar Şurasının sədri*): Cənab Prezident, bu gün bizim üçün çox xoş bir gündür. Sizin xanımınızla birlikdə buraya gəlməyiniz bizim üçün toy-bayramdır. Ulu öndərimizi biz heç vaxt yaddan çıxartmırıq. Allah ona qəni-qəni rəhmət eləsin. Sizə isə ailənizlə

birlikdə xoşbəxtlik arzulayırıq. Siz nəinki Azərbaycanda, xarici ölkələrdə də ən yüksək hörmətlə qarşılanırsınız. Bu da bizi fərəhləndirir.

**Yavər Məmmədov** (*rayon ağsaqqalı*): Cənab Prezident, bu istirahət parkı rəhmətlik Zərifə xanım Əliyevanın adını daşıyır. Zərifə xanım yeganə akademik olub ki, göz xəstəliklərinin müalicəsi ilə əlaqədar zavodlarda, fabriklərdə, müəssisələrdə xüsusi laboratoriyaları var idi. Fəhlələri müalicə edib, çox insanlara şəfa veribdir. Mənim böyük qızım onun tələbəsi olub, müəyyən vaxtlarda o proseslərdə iştirak edibdir. Allah-təaladan ona rəhmət diləyirik. Ağsaqqal kimi, mən fəxr edirəm ki, Zərifə xanımın adına belə gözəl park salınıbdır. Biz Mehriban xanıma da minnətdarıq. Heydər Əliyev Fondunun təşəbbüsü, köməyi ilə Qəbələdə neçə-neçə məktəb tikilibdir. O, dağılan məktəbləri yenidən tikir. Bu xeyirxah işlərə görə hamı təşəkkür edir. Hamınıza xoşbəxtlik, ailə səadəti arzulayırıq. Qəbələ camaatının Sizə xüsusi hörməti var.

**İlham Əliyev:** Təşəkkür edirəm, bu park çox yüksək səviyyədə salınmışdır. Əslində, bu parkda ölkəmizdə gedən bütün proseslər öz əksini tapır. İdmançılar, gənclər, uşaqlar üçün məşq, istirahət, oyun yerləri, ağsaqqalların istirahəti üçün şərait yaradılmışdır. Buranın havası da, təbiəti də çox gözəldir. Adam bu dağlara baxanda özünü daha gümrah hiss edir. Siz məndən də yaxşı bilirsiniz ki, Qəbələ necə gözəlləşir, inkişaf edir. Qəbələ buna layiqdir. Çünki Azərbaycanın qədim paytaxtı olubdur, qədim, tarixi şəhəridir. Ona görə gərək inkişafı hərtərəfli olsun.

Ulu öndər Qəbələyə 2002-ci ildə gəlmişdi. O vaxtdan beş il keçib, amma nə qədər böyük dəyişikliklər baş veribdir. Qəbələni tanımaq mümkün deyildir. Bundan sonra daha da yaxşı olacaqdır. Parklar, müəssisələr, xəstəxanalar, müxtəlif sənaye obyektləri tikilir, iş yerləri açılır. Bunların hamısı vacibdir.

**Y a v ə r   M ə m m ə d o v:** Rayonun inkişafında Milli Məclisin deputatı Fəttah Heydərovun da xidmətləri var. İndi rayonda sovet dövründə görülən işlərdən qat-qat artıq işlər görülür. Qəbələdə altı mindən çox iş yeri yaradılıbdır. Bu inkişafı, bu gözəlliyi görəndə insanlarda yaşamaq həvəsi daha da artır.

**İ l h a m   Ə l i y e v:** Mən də görəndə ki, insanların əhval-ruhiyyəsi yaxşıdır, üzü gülür, mənə daha çox güc gəlir.

**F ə t t a h   H e y d ə r o v** (*Milli Məclisin deputatı*): Həqiqətən də ulu öndərimizin ayağı haraya dəyibsə, ora dirçəlib, yeni həyat qazanıbdır. Qəbələ tamamilə dəyişibdir, inkişaf edir. Ağsaqqalların hamısı sanki cavanlaşıblar.

**N a z i m   M u s t a f a y e v:** Cənab Prezident, ağsaqqallar Sizdən çox razıdırlar. Sağ olun ki, pensiyaları vaxtaşırı artırırsınız.

**İ l h a m   Ə l i y e v:** Pensiyalar, minimum əməkhaqqı artırılıbdır. Bu hələ başlanğıcdır. İmkanlarımız genişlənir, daha da çox artıracağıq.

**N u r u   C a b b a r o v** (*ağsaqqal*): Hörmətli Prezidentimiz, bu gün bizə ən yüksək, əvəzolunmaz mükafat verirsiniz. Allah Sizə cansağlığı versin, atanıza da rəhmət diləyirik. Görülən bu işlərə görə, bu gözəlliyi, imkanları bizlərə verdiyinizə görə olduqca minnətdarıq.

**İ l h a m   Ə l i y e v:** Çox sağ olun. Həm iqtisadi, həm də sosial sahədə inkişaf var, sosial məsələləri həll edirik. İndi böyük xəstəxana tikirik.

**N a z i m   M u s t a f a y e v:** İstəyirik Siz uzun illər – on, iyirmi, otuz il Azərbaycana rəhbərlik edəsiniz. Siz hamımızın prezidentisiniz.

**S ü l e y m a n   M e h d i y e v** (*ağsaqqal*): Apardığınız siyasəti biz çox böyük ruh yüksəkliyi ilə dəstəkləyirik. Həmişə Sizin yanınızdayıq. Yaratdığınız şəraitə görə də minnətdarıq. İndi Qəbələ rayonu qələbə rayonuna çevrilibdir.

**İ l h a m   Ə l i y e v:** Görəndə ki, həyat yaxşılaşır, sevinirəm. Yeni binalar tikilir, insanlar daha da yaxşı yaşayır,

əhval-ruhiyyə yaxşıdır. Qəbələ indi ən sürətlə inkişaf edən rayonlardan biridir.

**N u r u  C a b b a r o v:** Rayonumuzdan seçilən deputatımız da, icra hakimiyyətinin başçısı da yorulmaq bilmədən çalışırlar.

**İ l h a m  Ə l i y e v:** Deputatlar öz seçiciləri üçün işləməlidir. Deputat belə olmalıdır.

**N a z i m  M u s t a f a y e v:** Səhər işə gedib, axşam evinə dönən adam xoşbəxtdir. Siz bu xoşbəxtliyi insanlara bəxş etmisiniz. Dediyiniz 600 min iş yeri açılır, insanlar işlə məşğul olur, axşam ailəsi üçün çörək aparır – bunların hamısı çox gözəldir. Hazırda 520 min iş yeri yaradılıbdır.

**İ l h a m  Ə l i y e v:** Sosial məsələlərə diqqət yetirilir. Məsələn, məktəb tikilir. Nə üçün? Çünki uşaqlar yaxşı məktəbdə oxusunlar, internet olsun, bilsinlər dünyada nə baş verir. Yəni bilikli olsunlar. İndi bizim iqtisadi potensialımız möhkəmlənir. Əsas istəyimiz odur ki, gənc nəsil savadlı olsun. Xəstəxanalar da tikilir. Qəbələdə Müalicə-Diaqnostika Mərkəzi tikilir. Sizdən xahiş edirəm ki, hazır olanda vaxtaşırı oraya gedin, müayinədən keçin. Düzdür, görürəm siz sağlamsınız, gümrahsınız. Amma yenə də tibbi nəzarət olmalıdır. Əvvəllər, Sovet İttifaqı zamanı belə təşəbbüs irəli sürmüşdülər ki, insanlar ümumi dispanser müayinəsindən keçməlidirlər. Amma onu təmin edə bilmədilər, çünki imkan yox idi. Biz indi bölgələrdə müalicə-diaqnostika kompleksləri yaradırıq. Əsas məqsəd odur ki, bütün insanlar ildə bir dəfə orada müayinədən keçsinlər. Orada həm rentgen müayinəsi, həm qan, həm də digər analizlər aparılır və s. İnsanlar bilir ki, xəstəliyi nədir və necə müalicə olunmalıdır. Ondan sonra müalicə alır, rahat yaşayır. Mən istəyirəm bölgələrdə bu yeniliklər kök salsın ki, yaşından asılı olmayaraq, bütün insanlar öz sağlamlıqlarını qorusunlar, çox yaşasınlar. Ağsaqqallar həmişə qabaqcıl mövqelərdə olsunlar. Siz həmişə fəal olmusunuz.

**F ə t t a h  H e y d ə r o v:** Burada müdrik insanlar var. Ağsaqqallar Sizin dayağınızdır, bütün məsələlərdə öndədirlər, çevikdirlər, gənclərə düz yol göstərir, məsləhətlər verirlər, görülən işlərə sevinirlər. Problemlərin həllində səbir nümayiş etdirirlər.

**İ l h a m  Ə l i y e v:** Bu, gənclər üçün lazımdır. Biz gəncləri vətənpərvər, peşəkar böyütməliyik. Onlar sizə baxıb nümunə götürürlər. Çox şadam ki, sizinlə görüşdüm. Sizə cansağlığı, uğurlar arzulayıram.

*Dövlətimizin başçısı ağsaqqallarla nərd oynadı, çay süfrəsi arxasında söhbət etdi.*

* * *

*Prezident İlham Əliyev «Zopzopu» özfəaliyyət folklor ansamblının nümunəvi çıxışına maraqla tamaşa etdi. Bildirildi ki, ansambl Fransada, Rusiyada və digər ölkələrdə keçirilən folklor musiqi festivallarında uğurla çıxış edir.*

## Nohurqışlaq kənd orta məktəbi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev martın 2-də İlham Abdulkərimov adına Nohurqışlaq kənd orta məktəbi ilə tanış olmuşdur.*

*Direktor Səfər Səfərov prezident İlham Əliyevə məlumat verdi ki, məktəbin əvvəlki binası 1936-cı ildə inşa olunmuşdu. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində yeni binanın tikintisinə 2004-cü ilin ikinci yarısında başlanmış, 2006-cı il sentyabrın 1-də istifadəyə verilmişdir. Üçmərtəbəli, 24 sinif otağından ibarət məktəbdə tədrisi yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılmışdır. Komyuterlərlə təchiz edilən, laboratoriyaları olan məktəbdə 500-dən çox şagird təhsil alır, 72 müəllim çalışır.*

*Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqlarına, fənn kabinetlərinə baxdı, ingilis dili dərsində iştirak etdi. Məktəbin ingilis və fransız dili müəllimi Fazil Atakişiyev prezident İlham*

*Əliyevə müraciətlə dedi ki, şagirdlərimizin belə gözəl, müasir məktəbdə təhsil almasına görə Sizə və Azərbaycanın birinci xanımına səmimi təşəkkürümüzü bildiririk. Sizin gərgin əməyinizin, apardığınız siyasətin, regionların sosial-iqtisadi inkişafı sahəsində görülən işlərin nəticəsini bu məktəbdə hiss edirik. Çox sevindiricidir ki, bu işlər ölkəmizin bütün regionlarında görülür. O bu məktəbdə xarici dil fənninin tədrisi sahəsində kifayət qədər uğurlar olduğunu vurğuladı. Bildirdi ki, məzunların bəziləri Avropanın bir sıra qabaqcıl təhsil ocaqlarında oxuyurlar. 30-dan çox fransız dili mütəxəssisi hazırlanmışdır və onlar müxtəlif yerli və xarici təşkilatlarda işləyirlər. Ulu öndərimizin maddi köməyi sayəsində məktəbimizin yetirməsi Ağasəlim Rəsulov Fransada təhsilini başa vurmuş, dilçilik üzrə doktorluq dissertasiyası müdafiə etmişdir. Keçən il məzunlardan biri yüksək – 659 bal toplayaraq, Dövlət İdarəçilik Akademiyasına qəbul olmuşdur.*

*Prezident İlham Əliyev uşaqların belə gözəl məktəbdə yaxşı təhsil almalarını, ingilis dilini mükəmməl öyrənmələrini tövsiyə etdi, informasiya və kompyuter sinfi ilə tanış oldu.*

*Məktəbin pedaqoji kollektivini təbrik edən prezident İlham Əliyev dedi ki, burada uşaqların yaxşı təhsil alması üçün bütün şərait var, avadanlıq, ləvazimat, kompyuter sinfi də var. Əsas odur ki, uşaqlar yaxşı oxusunlar və dəyərli insanlar olsunlar. Gələcəkdə Azərbaycanın inkişafı üçün fəaliyyət göstərsinlər.*

*Prezidentlə görüşə gələn Tüntül kənd orta məktəbinin direktoru Telman Abdulkərimov prezidentə müraciətlə dedi ki, biz də uzun illər yaxşı məktəbin arzusunda idik. 2006-cı ildə Sizin, çox hörmətli Mehriban xanımın qayğısı nəticəsində gözəl məktəb binası tikilib, müəllimlərin, şagirdlərin istifadəsinə verilibdir. Buna görə camaatımızın adından çox-çox minnətdarlıq edirəm. Gözəl şərait, zəngin kabinetlər, yaraşıqlı sinif otaqları yaradılıbdır. Müəllim kimi, üzərimizə düşən vəzifəmiz, ulu öndərimizin dediyi kimi, azərbaycanlı olmağı ilə fəxr edən vətəndaşlar yetişdirməkdir. Siz də, Mehriban xanım da dağlar qədər əzəmətli, qüdrətlisiniz. O dağlar torpağa*

*söykənib, onlara heç kim heç nə edə bilməz. Siz isə xalqa söykənmisiniz. Ona görə Sizə heç kim heç nə edə bilməz. Azərbaycan var – Siz varsınız, Siz varsınız – Azərbaycan da var. Bizim düşüncəmiz belədir. Biz bu iqtisadi inkişafı İlham Əliyevin iqtisadi möcüzəsi kimi qəbul edirik.*

*Prezident İlham Əliyev təşəkkür edərək dedi ki, gənclər hər bir ölkənin gələcəyi deməkdir. Yəni, indi burada oxuyan uşaqlar gələcəkdə Azərbaycanda müxtəlif vəzifələrdə işləyəcəklər, Azərbaycanı idarə edəcəklər. Ona görə gənc nəsil vətənpərvər, xalqa bağlı olmalıdır. Vətəni sevməlidir, bilikli və peşəkar olmalıdır ki, həyatda öz yerini tutsun. İndi biz məktəblərin maddi-texniki bazasını möhkəmləndiririk, yeni məktəblər tikilir və tikiləcəkdir. Ən əsası isə, təhsilin səviyyəsi yüksəlməlidir. Bu işdə müəllimlərdən çox şey asılıdır. Mən də müəllimlərin fəaliyyətini çox yüksək qiymətləndirirəm. Siz böyük iş görürsünüz, uşaqları tərbiyə edirsiniz, təhsil verirsiniz. Arzu edirəm ki, uşaqlar yaxşı oxusunlar, müəllimlər də razı olsunlar. Mən bu yaxınlarda müəllimlərin maaşını artırdım, gələcəkdə də artıracağam ki, heç kəs maddi cəhətdən əziyyət çəkməsin. Sağ olun.*

## Qəbələ kərpic zavodunda

*Azərbaycan prezidenti İlham Əliyev martın 2-də «Gilan Holding» Şirkətlər Qrupuna məxsus Qəbələ kərpic zavodunda olmuşdur. Müəssisənin kollektivi dövlət başçısını və ölkəmizin birinci xanımını səmimiyyətlə qarşıladı.*

*Prezidentə məlumat verildi ki, müəssisənin tikintisinə 2004-cü ilin avqustunda başlanmış, keçən il istifadəyə verilmişdir. Lakin rəsmi açılışı olmamışdır. İndi prezidentin rayona gəlişi ilə əlaqədar artıq bu zavod tam gücü ilə işə salınır. İstehsal gücü ildə 25–30 milyon ədəd kərpic olan müəssisədə 120 nəfər çalışır, orta aylıq əməkhaqqı 150–180 manatdır. Avadanlıq Ukrayna və Rusiyadan gətirilmişdir. Burada Qafqazda analoqu olmayan texnologiya əsasında məhsul buraxılır. Yerli*

*bazarda tələbat artır və məhsulu ixrac etmək də nəzərdə tutulur. Sifarişlər gündən-günə artır.*

*Prezident İlham Əliyev düyməni basaraq zavodu yeni istehsal sahələri ilə birlikdə işə saldı, ayrı-ayrı sexləri gəzdi, texnoloji prosesi izlədi. Dövlətimizin başçısı müəssisələrin işçiləri ilə görüşdü, tikinti sektorunda bu cür məhsula tələbatın çox olduğunu vurğuladı.*

## Avropa standartlarına cavab verən Qəbələ mehmanxanası ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev martın 2-də «Gilan Holding» Şirkətlər Qrupuna məxsus «Qəbələ» mehmanxanası ilə tanış olmuşdur.*

*Qəbələ şəhərinin mərkəzində yerləşən bu hotel dövlətimizin başçısının bölgələrdə turizmin inkişafına göstərdiyi qayğının bariz nümunəsidir. Dördmərtəbəli mehmanxanada lüks, yarımlüks, standart səviyyəli 58 nömrə var. Avropa mehmanxana standartları və Şərq qonaqpərvərliyi buranın müştərilərinə hər cür şəraiti təmin edir. Xidmət heyəti ingilis, rus, alman, türk dillərini bilir. Mehmanxananın trenajoru, konfrans salonu, mühafizə edilən 20 yerlik avtomobil dayanacağı, sauna, masaj, bilyard salonları qonaqların xidmətindədir. Mərkəzləşdirilmiş istilik sistemi, stasionar generator quraşdırılmışdır. 100 nəfərlik restoranda müxtəlif ziyafətlər təşkil etmək mümkündür.*

*Qonaqların istirahətinin daha maraqlı olması üçün Qəbələ rayonunun və ətraf rayonların gəzməli-görməli yerlərinə səyahətlər təşkil edilir.*

## «Gilan Holding» Turizm-istirahət kompleksi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Qəbələ rayonuna səfəri çərçivəsində «Gilan Holding» Şirkətlər Qrupunun Turizm-istirahət kompleksinin tikintisi ilə tanış olmuşdur. İnşa-*

*sına keçən il başlanılmış kompleksdə hazırda beşmərtəbəli iki mehmanxana tikilir. Beşulduzlu nəzərdə tutulan 6 mərtəbəli mehmanxanada isə son tamamlama işləri görülür. Kompleksdə 21 kottec artıq hazırdır. Gələcəkdə restoran, üzgüçülük hovuzu, idman, konfrans salonları da olacaqdır. Tikintidə hazırda 200 nəfər çalışır. Kompleks tam hazır olandan sonra 100 nəfər daimi işlə təmin ediləcəkdir. Təqribən 11 milyon manat sərmayə qoyulacaq kompleksin tikinti işlərini yerli «Şinkar İnşaat» şirkəti yerinə yetirir.*

*Prezident İlham Əliyev tikinti işləri ilə tanış oldu, kottecləri gəzdi. Dövlətimizin başçısı inşaatçılarla görüşdü, xarici turistlərin cəlb edilməsi üçün görülən işlərin, o cümlədən binaların xarici görünüşünün yüksək səviyyədə olmasının zəruriliyini söylədi.*

## RUSİYA TƏHSİL VƏ ELM NAZİRİ ANDREY FURSENKO İLƏ GÖRÜŞ

*Qəbələ şəhəri*

*2 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəbələ rayonuna səfəri çərçivəsində martın 2-də rayon icra hakimiyyətinin binasında Rusiya Federasiyasının Təhsil və Elm naziri Andrey Fursenkonu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Rusiya arasında əlaqələrin bütün sahələrdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyi vurğulandı.*

*Prezident İlham Əliyev nazir Andrey Fursenkonun Azərbaycana budəfəki səfərinin iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinə təkan verəcəyini bildirdi.*

*Nazir respublikamıza, o cümlədən Qəbələyə səfərinin onda Azərbaycan həqiqətləri, ölkəmizin sürətli sosial-iqtisadi inkişafı barədə dolğun təsəvvür və zəngin təəssürat oyatdığını söylədi. O, təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, konkret layihələrin reallaşdırılması üçün səyini əsirgəməyəcəyini bildirdi.*

## HEYDƏR ƏLİYEV ADINA SARAYDA ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*Bakı, Heydər Əliyev adına saray*

*5 mart 2007-ci il*

*Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev adına sarayda aparılacaq əsaslı təmir və yenidənqurma işləri ilə əlaqədar hazırlanmış layihə ilə tanış olmuşdur.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev məlumat verərək bildirdi ki, dövlətimizin başçısının «Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında» sərəncamında göstərildiyi kimi, Heydər Əliyev adına sarayın mühüm ictimai-siyasi, mədəni tədbirlərin təşkil edilməsi və həyata keçirilməsində əhəmiyyətini nəzərə alaraq, burada əsaslı təmir və yenidənqurma işləri aparılacaq, saray müasir avadanlıqla təchiz ediləcəkdir. Bununla əlaqədar, Türkiyənin «Pim Proje» şirkəti xüsusi layihə hazırlamışdır. Martın 15-dən saray fəaliyyətini dayandıracaq, bir ay müddətində yenidən yoxlamalar aparıldıqdan sonra işə başlanacaqdır. «Aqrartikinti» Səhmdar Cəmiyyəti tərəfindən görüləcək işlər 2008-ci ilin sentyabrında başa çatdırılacaqdır.*

*Prezident İlham Əliyev əvvəlcə layihədə nəzərdə tutulan dəyişikliklərlə tanış oldu, sarayin təmirdən sonrakı vəziyyətini göstərən şəkillərə baxdı.*

*«Pim Proje» şirkətinin rəhbəri Cəlal Özkan layihə barədə məlumat verərək, ulu öndər Heydər Əliyevin adını daşıyan sarayın layihə işlərinin onlara həvalə olunmasına görə təşəkkür edərək dedi ki, bu bizim üçün böyük fəxrdir. Layihədə binanın*

*xaricində, ətrafında və daxilində görüləcək işlər nəzərdə tutulmuşdur. Binaya mərmər üzlük çəkiləcəkdir.*

**İ l h a m Ə l i y e v:** Gərək binanın xarici görünüşü çox gözəl olsun, müasir olsun.

**C ə l a l Ö z k a n:** İşıqlandırma sistemi tamamilə yenidən qurulacaq, İtaliyadan gətirilmiş xüsusi şüşələr quraşdırılacaq və beləliklə, 24 saat ərzində binanın üzərindən ekran kimi istifadə olunacaqdır. Bu bizim layihəmizin əsasını təşkil edir. Binanın qarşısından keçən yolda nəqliyyat vasitələrinin dayandırılması üçün avtomat tipli xüsusi sədlər quraşdırılacaq və tədbirlər olan zaman bundan istifadə olunacaq və insanların qarşıdakı parkla əlaqəsi yaranacaqdır.

**İ l h a m Ə l i y e v:** Yəni bütün insanlar buradan rahat keçə bilsinlər.

**C ə l a l Ö z k a n:** Binanın giriş hissəsinin hündürlüyünü bir metr qaldıracaq və işıqlandıracağıq. Xüsusilə tədbirlər gecə keçirildiyi üçün daha işıqlı olacaqdır.

**Ə b ü l f ə s Q a r a y e v:** Cənab Prezident, hazırda giriş hissənin hündürlüyü 3,5 metrdir. Biz bunu bir metr yuxarı qaldırmaqla daha yaraşıqlı edəcəyik.

**İ l h a m Ə l i y e v:** Giriş hissədə neçə qapı olacaqdır?

**Ə b ü l f ə s Q a r a y e v:** 7-8 qapı idi, hamısı qalır.

**İ l h a m Ə l i y e v:** Yəni necə var idisə, elə də qalır.

**C ə l a l Ö z k a n:** Bəli, amma qapılar avtomatik açılıb-bağlanacaqdır. Görüləcək bütün işlərdə son texnologiyalar, Avropada istifadə olunan materiallar tətbiq ediləcəkdir. Bu bina memarlıq baxımından çox gözəldir. Hazırda 50-yə yaxın memar binada texniki araşdırmaları davam etdirir.

**İ l h a m Ə l i y e v:** Demək olar ki, binanın xarici görünüşü dəyişməz olaraq qalacaqdır. Sadəcə olaraq, biz bunu müasirləşdirəcəyik və yeni texnologiyalar tətbiq olunacaqdır. Sanki yeni bir saray tikilir.

**C ə l a l Ö z k a n:** Cənab Prezident, tamamilə doğrudur.

**Ə b ü l f ə s Q a r a y e v:** Cənab Prezident, dövlət tədbirlərinin burada keçirilməsini nəzərə alaraq, ali və hörmətli

qonaqlar üçün nəzərdə tutulan giriş hissədə, eləcə də VİP otaqlarda dəyişiklik ediləcəkdir. Sənətçilər üçün yer müasirləşdiriləcəkdir. Burada ulu öndərin büstü də qoyulacaqdır.

**C ə l a l Ö z k a n:** Xüsusi şüşələrin üzərindən ekran kimi istifadə oluna bilər.

**İ l h a m Ə l i y e v:** Bu şüşələrdən içəridə gedən tədbir göstərilə bilərmi?

**C ə l a l Ö z k a n:** Bəli, lazım olduqda göstərilir.

**İ l h a m Ə l i y e v:** Yəni insanlar bayırdan da tamaşa edə bilərlər.

**C ə l a l Ö z k a n:** Bəli, xüsusilə mərhum prezidenti anma günlərində, eləcə də xüsusi əhəmiyyət daşıyan tədbirlər zamanı insanlar salonu bayırdan seyr edə bilərlər.

**İ l h a m Ə l i y e v:** O zaman yollar bağlanacaq, insanlar buradan keçirilən tədbirə baxacaqlar.

**C ə l a l Ö z k a n:** Hər bir işimizdə yenilik olacaqdır. Foyedə lazer fəvvarələr yaradılacaqdır.

**İ l h a m Ə l i y e v:** Burada döşəmə, divarlar, tavan – hər şey dəyişir.

**C ə l a l Ö z k a n:** Foyelərdə nəzərəçarpacaq dəyişikliklər ediləcəkdir. Saatlar, videoekranlar quraşdırılacaq ki, insanlar içəridə olanları seyr edə bilsinlər. Burada xüsusi oturacaqlar qoyulacaq, dizayna uyğun olaraq paltarların asılması üçün işıqlı qarderoblar quraşdırılacaqdır.

**İ l h a m Ə l i y e v:** Hər yer işıqlı olmalıdır.

**C ə l a l Ö z k a n:** Cənab Prezident, Milli Məclisdə yeni sistem quraşdırılmışdır. Burada da həmin sistem tətbiq olunacaqdır. Qapılar mərmər döşəmələrə uyğun olacaq, sarayin kassaları təmir ediləcək, binanın ümumi görünüşünə uyğunlaşdırılacaq və müasir vəziyyətə salınacaqdır. Səhnənin akustikasının daha da yaxşılaşdırılması üçün hazırda Türkiyənin Ortadoğu Texniki Universitetinin mütəxəssisləri bu istiqamətdə işləri tamamlamışlar. İndikindən yaxşı olacaqdır.

**Ə b ü l f ə s Q a r a y e v:** Cənab Prezident, mütəxəssislərlə görüş keçirmişik. Oturacaqlar eyni rəngdə olacaq, əlavə

15-ə yaxın yer artırılacaqdır. Əvvəllər səhnədə yerləşdirilmiş səs qurğuları üçün xüsusi otaqlar ayrılmışdır.

**İ l h a m  Ə l i y e v:** İndi burada nə qədər oturacaq var və nə qədər olacaqdır?

**Ə b ü l f ə s  Q a r a y e v:** 2150 oturacaq var və 2165-ə çatdırılacaqdır.

**C ə l a l  Ö z k a n:** Oturacaqlarda tamaşaçılara xüsusi qulaqcıqlar veriləcəkdir. Bütün dünyada bu sistemdən istifadə olunur. Onlar danışıqları tərcümə vasitəsilə istədikləri dildə dinləyə biləcəklər. Binanın bayır divarlarına üzlüklər xüsusi texnologiya əsasında vurulacaq və zəlzələyə davamlı, uzunömürlü olacaqdır.

*Prezident İlham Əliyev sarayın giriş və daxili qapılarının formasına, ABŞ, Yaponiya, Almaniya, İtaliya və Avstriyada istehsal olunan materialların nümunələrinə, binanın daxilində, xaricində, ön və arxa girişlərdə istifadə olunacaq qranit və mərmərin çeşidlərinə, akustika üçün nəzərdə tutulan vasitələrə baxdı. Binanın sütunlarının yoxlanılması üçün müvafiq tapşırıqlar verərək dedi ki, bu bina 30 ildən artıqdır tikilibdir. Düzdür, təməli möhkəmdir, amma yenə də yoxlamalıyıq. Çünki bu daşlar əlavə ağırlıq verəcəkdir.*

*Sonra prezident İlham Əliyev sarayın xarici və gecə görünüşünü əks etdirən videokadrlara baxdı, səhnəni, foyeləri gəzdi, səhnənin dizaynı, quraşdırılacaq işıqlandırma, isitmə və soyutma sistemi ilə maraqlandı. Dövlətimizin başçısına burada aparılacaq dəyişikliklərlə bağlı məlumat verildi, yeni ekskalatorların quraşdırılacağı da bildirildi.*

*Prezident İlham Əliyev digər işlərlə bağlı əlavə tövsiyə və tapşırıqlar verərək dedi ki, görüləcək bütün işlərdə dünyada mövcud olan ən müasir texnologiyalar istifadə olunmalıdır. Biz ilk növbədə, bu parkı abadlaşdırdıq, ulu öndərin abidəsi qoyuldu. Əvvəllər park çox bərbad vəziyyətdə idi. İndi çox gözəl olubdur. Biz gərək ətrafdakı binaları da təmir edək. Bura möhtəşəm bir kompleks olacaqdır. Ulu öndər bu binanı 1974-cü ildə tikdiribdir. Biz də buna yeni müasir həyat veririk. Biz sarayı 2008-ci ilin payızınadək hazır etməliyik.*

## QƏMƏR ALMASZADƏNİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

**Azərbaycan Respublikasi Prezidentinin sərəncamı**

Azərbaycanın Xalq artisti Qəmər Hacı Ağa qızı Almaszadənin xatirəsini əbədiləşdirmək məqsədi ilə qərara alıram:

Bakı Şəhər İcra Hakimiyyəti Qəmər Hacı Ağa qızı Almaszadənin yaşadığı binaya (Xaqani küçəsi, 19/13) xatirə lövhəsinin vurulmasını təmin etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 mart 2007-ci il*

## TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI İLKƏR BAŞBUĞUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Prezident sarayında Türkiyənin Quru Qoşunları Komandanı İlkər Başbuğun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Türkiyə münasibətlərinin çox sürətlə inkişaf etdiyini bildirdi. İki ölkə arasında bütün sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığın uğurla həyata keçirildiyini vurğulayan prezident İlham Əliyev əlaqələrimizin daha da gücləndiriləcəyinə əminliyini ifadə etdi. O, ölkələrimizin mühüm beynəlxalq layihələrin həyata keçirilməsində birgə iştirak etdiyini və Azərbaycan–Türkiyə əməkdaşlığının region üçün böyük əhəmiyyəti olduğunu bildirdi.*

*İlkər Başbuğ Türkiyənin prezidenti Əhməd Necdət Sezərin salamlarını Azərbaycanın dövlət başçısına çatdırdı. Ölkəmizə ikinci dəfə səfər etdiyini bildirən qonaq dedi ki, bu səfərindən məqsəd Azərbaycanda ordu quruculuğu sahəsində həyata keçirilən işlərlə tanış olmaq, iki ölkənin silahlı qüvvələri arasında gələcək əməkdaşlıq məsələlərini müzakirə etməkdir.*

*Prezident İlham Əliyev Türkiyə prezidenti Əhməd Necdət Sezərin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.*

# DÜNYA AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMUNDA*

*Bakı, Heydər Əliyev adına saray*

*9 mart 2007-ci il*

*Martın 9-da Bakıda dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu başlanmışdır. Əvvəlcə iştirakçılar Fəxri xiyabana gedərək türk dünyasının böyük oğlu, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmiş, abidəsi önünə əklil qoymuşlar.*

*Onlar görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarını ziyarət etmişlər.*

* * *

*Sonra forum iştirakçıları Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının məzarları üstünə tər qərənfillər düzmüş, «Əbədi məşəl» abidəsini, şəhid türk əsgərlərinin şərəfinə ucaldılmış abidəni ziyarət edərək əklil qoymuşlar.*

---

* Forumda Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, Şimali Kiprin lideri Mehmet Əli Tələt, Qazaxıstanın YUNESKO yanında səfiri, yazıçı Oljas Süleymenov, Litva Respublikası Hökuməti yanında Milli Azlıqlar və Miqrasiya Departamentinin Baş direktoru Antanas Petrauskas, Özbəkistan Beynəlmiləl Mədəniyyət Mərkəzinin direktoru Nasriddin Muhammadiyev, Latviya Respublikasının İctimaiyyətin İnteqrasiyası üzrə Xüsusi Tapşırıqlar naziri Oskar Kastensin, Qırğızıstan Respublikasının müşaviri Bolodtbek Şəmşiyev və Estoniya Respublikasının Milli Münasibətlər naziri Paul Erik Rummo çıxış etdilər.

*Əklilqoyma mərasimlərində qonaqları Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov və digər rəsmi şəxslər müşayiət etmişlər.*

*Həmin gün Heydər Əliyev adına sarayda dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunun açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev forumda iştirak etmək üçün ölkəmizə səfərə gələn Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı və onun xanımını sarayın önündə böyük hörmət və ehtiramla qarşıladı.*

*Forumda 48 ölkədən ümumilikdə 513 nəfər iştirak edirdi. Ən böyük nümayəndə heyətləri Türkiyə, Almaniya, ABŞ, Rusiya, Ukrayna, Niderland, İsveç, Rumıniya, Norveç və Litvadan gəlmişdi.*

*Salona toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı və Şimali Kiprin lideri Mehmet Əli Tələti və onların xanımlarını hərarətlə qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMUNDA NİTQİ

*Bakı, Heydər Əliyev adına saray*

*9 mart 2007-ci il*

Hörmətli xanımlar və cənablar!
Əziz qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram, ölkəmizə, öz doğma vətəninizə xoş gəlmisiniz!

İndi nümayiş etdirilən bu kiçik filmdə bir daha gördük ki, Türkiyə–Azərbaycan birliyi nə qədər güclüdür, xalqlarımızın həyatında onun nə qədər böyük əhəmiyyəti var. Biz əsrlər boyu bir yerdə olmuşuq. Amma müxtəlif tarixi hadisələr bizim xalqlarımızı bir-birindən ayrı salmışdır. Yalnız Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra bizim birliyimiz də bərpa olundu və bu gün Türkiyə və Azərbaycan – iki qardaş ölkə bərabər addımlayır. Biz bütün tədbirlərdə bərabər iştirak edirik, aramızda ən yüksək fikir birliyi var. Bəlkə də dünyada ikinci belə ölkələr yoxdur ki, bir-birinə bu qədər bağlı olsun. Həm xalqların etnik mənsubiyyəti baxımından, həm siyasi baxışlar, həm də ortaq maraqlar baxımından. Biz elə etməliyik ki, birliyimiz daha da güclənsin, hərtərəfli olsun. Təbii ki, bu işlərdə xaricdə yaşayan soydaşlarımızın da fəaliyyəti çox əhəmiyyətlidir.

Azərbaycan müstəqilliyinin 15 ilini yaşamışdır. Artıq bu kiçik tarix göstərdi ki, ölkəmiz müstəqil dövlət kimi yaşaya, inkişaf edə bilir. Əgər biz müstəqilliyimizin ilk illərinə nəzər salsaq görərik ki, o vaxt ölkəmizin durumu çox acınacaqlı idi.

İqtisadi tənəzzül, siyasi böhran, Azərbaycanda gedən xoşagəlməz proseslər ölkəmizin bütövlükdə müqəddəratını sual altında qoymuşdu. İlk illərdə qardaş Türkiyənin dəstəyi bizim üçün həlledici oldu. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan birinci ölkə olmuşdur və ilk illərdən Azərbaycana öz qardaş əlini uzatdı. Buna görə mən Türkiyəyə, bütün türk xalqına Azərbaycan xalqı adından dərin minnətdarlığımı bildirirəm.

Xatırlayıram ki, müstəqilliyimizin ilk illərində Azərbaycan səfirlikləri Türkiyə səfirliklərinin binalarında yerləşmişdi. Bizim binalarımız yox idi, imkanlarımız yox idi. Ancaq bu gün Azərbaycanın müxtəlif ölkələrdə 51 səfirliyi vardır. Bu onu göstərir ki, ölkəmiz çox dinamik şəkildə inkişaf edir. Əgər 1991-ci ildə Sovetlər Birliyində, keçmiş respublikalar arasında Azərbaycan axırıncı idisə, bu gün ən qabaqcıl yerlərdədir. 15 il ərzində siyasi proseslər normal məcraya düşdü. Azərbaycanda siyasi sabitlik tam şəkildə bərqərar olundu, iqtisadi inkişafa qədəm qoyduq və bu gün Azərbaycan iqtisadi artım baxımından dünyada birinci ölkədir. Artıq üçüncü ildir ki, Azərbaycanın iqtisadiyyatı dünyada ən sürətlə artan iqtisadiyyatdır. 2005-ci ildə iqtisadiyyatımız 26 faiz, 2006-cı ildə 34 faiz artmışdır. Bu il də təxminən buna oxşar rəqəmlər olacaqdır. Bu artım, bu inkişaf Azərbaycanın hər bir bölgəsində özünü göstərir. Ölkəmiz möhkəmlənir, öz iqtisadi potensialını gücləndirir, siyasi imkanlarımız artır, bölgədə gedən proseslərdə biz daha da fəal iştirak edir və onlara təsir edirik. Beləliklə, ölkəmizin güclənməsi artıq reallıqdır. Əminəm ki, bizim güclənməyimiz bütün türk dünyasının güclənməsinə böyük dəstək, böyük töhfədir.

Türkiyəni Azərbaycanla birləşdirən tarixi əlaqələr çox güclüdür. Ancaq indiki zamanədə siyasi proseslər, siyasi əlaqələr onu daha da gücləndirir. Həm siyasi, həm də iqtisadi, mədəni, hərbi – bütün sahələrdə bizim aramızda ən yüksək işbirliyi, anlaşma var. Belə forumların keçirilməsi bizim birliyimizi daha da gücləndirir. Bütün türk dünyasının birliyini gücləndirir. Biz böyük qüvvəyik. Gərək elə edək ki, maraqlarımız tam şəkildə təmin olunsun, bizi narahat edən prob-

lemlər aradan qaldırılsın, ədalət zəfər çalsın və xalqlarımız rahat yaşasınlar. Biz buna layiqik və birgə səylərlə, birgə işlərlə buna nail olacağıq. Bu gün Azərbaycana bütün türk dünyasının nümayəndələrinin və qonaqların gəlməsi bu gözəl birliyin əyani sübutudur. Öz maraqlarımızı təmin etmək üçün biz güclü olmalıyıq.

Bizim gücümüz iqtisadi potensialımızdır. Son illər ərzində Türkiyədə aparılan çox ciddi iqtisadi islahatlar ölkədə bir neçə il bundan əvvəl yaşanan iqtisadi böhrana son qoydu. Bu gün Türkiyə ən sürətlə, dinamik inkişaf edən ölkələrdəndir. Bizim birgə enerji layihələrimiz var. Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərlərinin uğurla inşa edilməsi bölgədə də, dünyada da bizim önəmimizi artırır. Biz də bundan istifadə etməliyik və edirik. Azərbaycanın zəngin təbii sərvətləri Türkiyə ərazisi ilə dünya bazarlarına çıxarılır. Azərbaycan qazı – «Şahdəniz» yatağından çıxarılan qaz bu yaxınlarda Türkiyəyə və oradan da Avropa ölkələrinə nəql ediləcəkdir. Bu bizim önəmimizi artırır, siyasi və iqtisadi potensialımızı gücləndirir, xalqlarımızı daha da birləşdirir. Biz iqtisadi imkanlardan istifadə edərək, öz maraqlarımızı daha da dolğun şəkildə təmin etməliyik.

Artıq Türkiyə və Azərbaycanın təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli bir sıra layihələr həyata keçirilir. Onlardan biri də Bakı–Tbilisi–Qars dəmir yolunun tikilməsidir. Uzun illər ərzində bu məsələ bizim ölkələrimizdə, beynəlxalq maliyyə qurumlarında, sadəcə, müzakirə olunurdu. Bu önəmli layihə faktiki olaraq, icra edilmirdi. Bizim birgə səylərimiz, Türkiyə, Gürcüstan və Azərbaycan rəhbərliklərinin iradəsi nəticəsində biz bu məsələnin həllinə nail olmuşuq. Bu yaxınlarda imzalanan önəmli sənədlər imkan verəcək ki, yaxın zamanlarda tikinti başlansın və beləliklə, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi uğurla həyata keçirilsin. Bu bizi Türkiyə ilə dəmir yolu vasitəsilə birləşdirəcəkdir. Türkiyəni Orta Asiya ilə, bizim dəhlizdən keçməklə Asiyanı Avropa ilə birləşdirəcəkdir. Şübhəsiz ki, bunun çox böyük, həm iqtisadi, həm də siyasi önəmi var. Biz bunları edirik.

Bu bizim gücümüzü göstərir. Onu göstərir ki, bölgədə elə məsələ yoxdur ki, biz onu həll edə bilməyək. Onu göstərir ki, bizim qəbul etdiyimiz qərarlar icra olunur. Baxmayaraq ki, bəzi hallarda müqavimətlə, ədalətsiz tədbirlərlə rastlaşırıq, biz özümüzü çox inamlı hiss edirik. Bizim gücümüz ondadır ki, bir-birimizə arxalanırıq. Müstəqilliyimizin ilk illərində Azərbaycanın dəstəyə çox böyük ehtiyacı vardı və biz onu yalnız Türkiyədən aldıq. Bu gün isə Azərbaycanın artan imkanları, potensialı, siyasi çəkisi, bölgədə oynadığı rolu və iqtisadi imkanları öz növbəsində, Türkiyənin mövqelərinə də dəstəkdir. Bu qarşılıqlı qardaşlıq münasibətləri, qarşılıqlı maraq əsasında, dərin tarixi köklər əsasında qurulmuş münasibətlər artıq beynəlxalq siyasətin amilinə çevrilibdir. Biz nə qədər güclü olsaq, aramızda nə qədər möhkəm birlik olsa, maraqlarımızı da bir o qədər təmin edəcəyik. Maraqlarımız da üst-üstə düşür və biz istəyirik ki, xalqlarımız rifah içində yaşasın. İstəyirik ki, ölkələrimizdə və bölgədə sülh, əmin-amanlıq bərqərar edilsin. Biz istəyirik ki, qonşularla mehribanlıq şəraitində yaşayaq və buna nail oluruq, qonşu dövlətlərlə münasibətlərimiz çox uğurlu şəkildə qurulur. Beləliklə, Azərbaycan–Türkiyə birliyinin güclənməsinin həm ölkələrimiz, xalqlarımız, bütün türk dünyası üçün və həm də bütövlükdə, dünyada gedən proseslər üçün çox böyük əhəmiyyəti var.

Bizim ölkələrimizi fərqləndirən cəhət ondadır ki, ölkələrimizdə çox güclü tolerantlıq, dözümlülük var. Ölkələrimizdə bütün xalqlar bir ailə kimi yaşayırlar, nə dini, nə də etnik baxımdan heç bir ayrı-seçkilik yoxdur. Onu da bilirik ki, heç də hər bir ölkədə belə deyildir. Hətta dünyanın ən inkişaf etmiş ölkələri kimi tanınan dövlətlərdə dini, yaxud da ki, etnik zəmində qarşıdurmalar var, gərginlik artır. Bir tərəfdən, sivilizasiya olaraq, dialoq məsələsi gündəmə salınıb və geniş müzakirə olunur, digər tərəfdən, qarşıdurma artır. Bizim örnəyimiz təhlil olunmalı, tətbiq edilməli və əsas götürülməlidir. Bu bizim gücümüzdür və ölkələrimizdə yaşayan bütün xalqlar bizim qardaşlarımızdır. Biz elə etməliyik

ki, ölkələrimizin həm siyasi, həm iqtisadi durumu daha da yaxşı olsun ki, burada yaşayan bütün xalqlar özlərini rahat hiss etsinlər.

Avropa ilə, böyük dövlətlərlə münasibətlərdə də bizim baxışlarımız üst-üstə düşür və bu bizim birləşməyimiz üçün, birgə fəaliyyət planının olması üçün çox böyük əhəmiyyət kəsb edir.

Xaricdə yaşayan soydaşlarımızın fəallığı bizi çox sevindirir. Biz buna çalışırıq və əlimizdən gələni edirik ki, bu proseslər daha da sürətlə getsin. Azərbaycanda iki dəfə – 2001-ci ildə və 2006-cı ildə dünya azərbaycanlılarının qurultayları keçirilmiş və bunların nəticəsi çox müsbət olmuşdur. Təşkilatlanma prosesi sürətlə gedir. Bildiyiniz kimi, azərbaycanlılar başqa ölkələrdə əvvəllər də yaşayıblar. Amma Sovet İttifaqı zamanı xaricdə yaşayan azərbaycanlılar mədəni dərnəklər çərçivəsində fəaliyyət göstərirdilər. Azərbaycan müstəqil ölkə olandan sonra təşkilatlanma prosesi başlanmışdır və indi sürətlə gedir. Azərbaycanlılar yaşayan bütün xarici ölkələrdə təşkilatlanma prosesi gedir və bu gün Azərbaycan diaspor təşkilatları artıq böyük bir gücdür, Azərbaycanla onların çox sıx əlaqələri var. Bütün fəaliyyət planı müzakirə olunur, əlaqələndirilir və biz vahid mövqedən çıxış edirik. Ona görə xaricdə yaşayan soydaşlarımızın fəallığı çox önəmli bir faktdır.

İlk növbədə biz, dövlətlər onların rahat yaşaması üçün əlimizdən gələni etməliyik. Biz nə qədər güclü olsaq, onların orada yaşaması daha da rahat olacaqdır. Ölkələrimizin çəkisi artdıqca, onlara münasibət daha yaxşı olacaqdır. Digər tərəfdən, onlar Azərbaycanın və Türkiyənin həqiqətlərini çatdırmalıdırlar və bunu edirlər. Çünki əfsuslar olsun ki, bu günə qədər geniş mənada dünya ictimaiyyətində bizim haqqımızda tam həqiqəti əks etdirən rəy yoxdur. Bunun da səbəbləri var. Bizim əleyhimizə çox güclü erməni lobbisi fəaliyyət göstərir. O, Türkiyə və Azərbaycana düşmənçilik mövqeyindədir və bizi ləkələmək, ölkələrimizdə gedən prosesləri təhrif etmək, yalan, böhtan kampaniyasını aparmaq

onların əsas peşəsidir. Biz bunun qarşısına öz siyasətimizi, öz təbliğat mexanizmimizi qoymalıyıq və qoyuruq. Ona görə xaricdə yaşayan soydaşlarımız daha da güclənməlidir, təşkilatlanma prosesi daha da sürətlə aparılmalıdır. Onlar yaşadıqları ölkələrin siyasi dairələrinə, siyasi təsisatlarına daha da fəal inteqrasiya etməlidirlər. Biz bunu türk diasporunun timsalında görürük, onların çox böyük uğurları var. Türk qardaşlarımız artıq müxtəlif ölkələrin qanunvericilik orqanlarında təmsil olunurlar, onlardan hökumət nümayəndələri var, ictimai təşkilatlarda fəaldırlar.

Biz də buna çalışırıq. Biz indi ilkin mərhələdəyik, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanma prosesi hələ davam edir. Bildiyiniz kimi, bu məqsədlə 2002-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıb və bu komitə bütün diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi ilə məşğuldur.

Bir sözlə, fəallıq göstərmək, siyasi proseslərdə iştirak etmək, biznes aləmində yüksək yer tutmaq və buna nail olmaq üçün bizim imkanlarımızdan faydalanmaq lazımdır. Türkiyənin çox böyük siyasi və iqtisadi potensialı var, Azərbaycanda iqtisadiyyat çox sürətlə inkişaf edir və qardaşlarımız bizim imkanlarımızdan faydalanmalıdırlar. Onsuz da bizim ölkələrimizdə xaricdən çoxlu iş adamları fəaliyyət göstərirlər, çoxlu şirkətlər var. Biznes mühiti Azərbaycanda da, Türkiyədə də çox münasibdir. Bilirsiniz ki, biz bizneslə məşğul olmaq istəyənləri alqışlayırıq və onların fəaliyyətini dəstəkləyirik. Çox istərdim ki, onların arasında, xarici vətəndaşların arasında bizim soydaşlarımızın sayı çoxalsın.

Biz bu yolla onlara dəstək verməliyik, yaşadıqları ölkələrdə onların siyasətini gücləndirməliyik. Müxtəlif tədbirlər keçirilir və keçirilməlidir. Konfranslar, kitabların nəşri, bizim tariximizi, keçmişi və bu günü əks etdirən həqiqətlərin yayılması – bu daimi proses olmalıdır. Xaricdə fəaliyyət göstərən bütün qeyri-hökumət təşkilatları ilə çox ciddi işbirliyi

qurulmalıdır. Bir daha demək istəyirəm, hökumət üzvləri, parlament üzvləri ilə daim bu iş aparılmalıdır. Əgər biz istəyiriksə ki, səsimiz daha da ucadan gəlsin, bizi narahat edən problemlər daha da asanlıqla öz həllini tapsın, haqq-ədalət bərpa olunsun, mütləq bunu etməliyik. Xaricdəki türk, Azərbaycan diasporu artıq çox böyük gücə çevrilibdir. Bugünkü forumun ən böyük önəmi və deyə bilərəm ki, tarixi nailiyyəti ondadır ki, artıq biz öz fəaliyyətimizi birləşdiririk. Əminəm ki, bu gündən sonra türk və Azərbaycan diaspor təşkilatları vahid orqanizm kimi çalışacaqlar. Bütün işlərdə öz fəaliyyətini əlaqələndirəcək, bizimlə, dövlətlərlə məsləhətləşmələr aparacaqlar. Xarici siyasət baxımından, ictimai proseslərin inkişafı baxımından daim bu əlaqələr olmalıdır. Düzdür, xaricdə yaşayan insanların böyük əksəriyyəti yaşadıqları ölkələrin vətəndaşlarıdır və bu da təbiidir. Amma onlar türkdürlər, azərbaycanlıdırlar və bizim millətə xas olan vətənpərvərlik, öz vətəninə bağlılıq, öz milli-mənəvi dəyərlərinə olan hörmətin, ənənələrin qorunması, əlbəttə ki, onların milli mənsubiyyətini qoruyub saxlayacaqdır. Bilirik ki, bəzi hallarda assimilyasiya prosesləri gedir. Buna imkan vermək olmaz. Biz bunun qarşısını necə ala bilərik? Ancaq vətənlə güclü əlaqələrin saxlanması ilə, Türkiyədən, Azərbaycandan Avropaya və başqa ölkələrə mütəmadi qaydada heyətlərin – iş adamlarının, siyasətçilərin, parlament üzvlərinin, incəsənət xadimlərinin göndərilməsi ilə. Bu əlaqələr çox güclü olmalıdır ki, xaricdə yaşayan soydaşlarımız öz vətənləri ilə əlaqələrini kəsməsinlər. Onların başqa ölkələrdə dünyaya gələn, yaşayan övladları, uşaqları, nəvələri də bizə bağlı olsunlar. Bu çox ciddi məsələdir və bunun üzərində biz birgə çalışmalıyıq. Əminəm ki, birgə səylər nəticəsində biz bütün bu məsələlərə nail olacağıq.

Bizi narahat edən problemlər də var. İlk növbədə, bir daha demək istəyirəm ki, bizə – Türkiyəyə, Azərbaycana qarşı çox mütəşəkkil, böyük maliyyə imkanlarına malik olan dünya erməni diasporu, erməni lobbisi işləyir.

Bəlkə də yeganə ölkələrik ki, bizim əleyhimizə dünyanın istənilən yerində güclü təbliğat maşını, yenə də deyirəm, böhtan, yalan və tarixi təhrif edərək, bizi ləkələmək istəyən qüvvə işləyir.

Bir tərəfdən, bu problem, digər tərəfdən, Azərbaycanın işğal olunmuş torpaqları. Türkiyəyə qarşı əsassız ittihamlar, qondarma «soyqırımının» tanıdılması cəhdləri – bütün bunlar bizim xalqlarımıza qarşı yönəldilən əməllərdir. Xocalı soyqırımını törədən vəhşilər bizi soyqırımda ittiham edirlər və bəzi hallarda onların yalan təbliğatı uğurlar gətirir. Bir çox hallarda xarici ölkələrin onlar tərəfindən pulla, rüşvətlə ələ alınmış riyakar siyasətçiləri onların səsinə səs verirlər. Bu, ədalətsizliyin zirvəsidir. Bu, mənəviyyatsızlığın zirvəsidir. Biz buna qarşı mübarizə aparmalıyıq, aparmalıyıq və aparmalıyıq! Türk diplomatlarını qətlə yetirən, onlara qarşı terror aktları törədən erməni terrorist təşkilatları nədənsə qınaq obyektinə çevrilmir. Onların məkrli hərəkətləri nədənsə qınaq obyektinə çevrilmir. Avropa ölkələrində həbs olunmuş erməni terroristləri nədənsə bir müddətdən sonra azadlığa buraxılırlar. Bəs burada qətlə yetirilən bizim soydaşlarımız insan deyilmi? Biz bu ikili standartlara nə qədər göz yummalıyıq? Biz bununla nə qədər barışmalıyıq? Biz görürük ki, bəzi hallarda ədalət prinsipi tamamilə aradan qaldırılır. Biz bunun qarşısına nəyi çıxarmalıyıq? Ancaq öz gücümüzü, başqa amil yoxdur! Biz güclənməliyik, hərtərəfli – hərbi, iqtisadi, siyasi cəhətdən, bütün cəhətlərdən və birgə fəaliyyət göstərməliyik!

Ermənistan on ildən artıqdır ki, Azərbaycan torpaqlarını işğal edib, indi Azərbaycanı işğal siyasətində ittiham edir. Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki, sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır. Əgər onlar öz xalqının gələcəyini düşünürlərsə, siyasətlərində dəyişiklik etməlidir-

lər. Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdırlar və Türkiyəyə qarşı əsassız ittihamlardan əl çəkməlidirlər. Əks təqdirdə, Ermənistanın özünün müqəddəratı sual altına düşə bilər. Azərbaycan heç vaxt Dağlıq Qarabağın itirilməsinə razılıq verməyəcək, nəyin bahasına olursa-olsun, doğma torpaqlarını azad edəcək, ərazi bütövlüyünü bərpa edəcək.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər oraya XIX əsrin əvvəllərində köçürülmüşlər. Bir dəfə Azərbaycan, türk torpağında erməni dövləti yaradılıb, burada ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt imkan verməri k. Hüquqi cəhətdən haqq-ədalət bizim tərəfimizdədir, çünki Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul edilib və orada göstərilir ki, Ermənistanın işğalçı qüvvələri Azərbaycanın zəbt olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdır. Ermənistan buna əməl etmir. Yəni hüquqi əsaslar tam imkan verir ki, Azərbaycan öz dövlət suverenliyini, ərazi bütövlüyünü bərpa etsin.

Biz uzun illər ərzində danışıqlar yolu ilə çalışırıq ki, məsələni həll edək. Amma hələ ki, buna müvəffəq olmamışıq. Biz öz siyasətimizi aparacağıq. Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü bərpa ediləcəkdir. Əziz dostlar, əziz qardaşlar, mən bu gün çox xoşbəxtəm, çox şadam ki, Azərbaycanda, Bakıda belə mötəbər tədbir keçirilir. Bu forumun çox böyük əhəmiyyəti var. Çünki ilk dəfədir ki, türk və Azərbaycan diaspor təşkilatları belə geniş formatda bir araya gəlir. Əminəm ki, burada, Bakıda qəbul edilmiş sənədlər, qərarlar qısa müddət ərzində öz bəhrəsini verəcəkdir. Forum dünən öz işinə başlamışdır və bildiyimə görə, çox səmərəli çıxışlar olmuş, müzakirələr aparılmışdır. Bu gün isə forum öz işini davam etdirəcəkdir. Forumun nəticəsi olaraq, bizim birliyimiz daha da möhkəmlənəcək, daha da güclənəcək, xaricdə yaşayan soydaşlarımız

özlərini daha da rahat hiss edəcəklər. Hər zaman əmin olmalıdırlar ki, onların Türkiyə kimi, Azərbaycan kimi dayağı var. Biz sizin dayağınızıq, sizsə xaricdə bizim dayağımızsınız.

Forumun bütün iştirakçılarına və qonaqlara bir daha öz səmimi salamlarımı yetirmək istəyirəm. Türk və Azərbaycan xalqlarının inkişafı naminə, çiçəklənməsi naminə biz birlikdə işləməliyik və işləyəcəyik.

Yaşasın, Türkiyə–Azərbaycan qardaşlığı!

## Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğanın nitqi

Çox hörmətli prezident Əliyev və xanımı!

Hörmətli cümhur başqanı Tələt və xanımı!

Dəyərli iştirakçılar!

Dəyərli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Sizin hamınızı bu coşqu, həyəcan və sevinc dolu gündə ən səmimi duyğularla salamlayıram.

Əvvəlcə qardaşım, hörmətli prezident İlham Əliyevin qonağı kimi, dost və qardaş Azərbaycanda olmaqdan böyük bir məmnunluq duyduğumu xüsusi ifadə etmək istəyirəm. Biz Türkiyədən Azərbaycana hər gəlişimizdə özümüzü ölkəmizin bir güşəsindən digər güşəsinə gəlmiş kimi hiss edirik. Bu gün bunun bəxtiyarlığını bir daha duyuruq. Bu vəsilə ilə dəyərli qardaşım, hörmətli Əliyevə bizlərə göstərdikləri mehriban ev sahibliyi, səmimi münasibət üçün təşəkkür edirəm.

Şimali Kipr Türk Cümhuriyyətinin cümhur başqanı hörmətli Tələtin də bu gün bizimlə birlikdə Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunda iştirakından məmnunluq duyduğumu ifadə etmək istəyirəm.

Təbii, bir məsələni burada xüsusilə vurğulamaq istəyirəm. Ev sahibi kimi, qardaşım İlham Əliyevin hörmətli Tələti bu toplantıya dəvət etməsi bizlər üçün çox əhəmiyyətlidir. Buna görə ona xüsusilə təşəkkür edirəm.

Yurdlarından uzaqda yaşayan Türkiyə və Azərbaycan vətəndaşlarını bir araya gətirən bu forumun gerçəkləşməsində əməyi keçən, başda hörmətli prezident Əliyev olmaqla, hər kəsə bir daha təşəkkür edirəm.

Türkiyə ilə Azərbaycan arasındakı müstəsna əlaqələr siyasi, hərbi, iqtisadi, ticari, sosial və bütün digər sahələrdə özünü büruzə verməkdə, bölgənin və dünyanın digər dövlətlərinə də örnək olmaqdadır. Mənbəyini ortaq keçmiş, din və dil birliyindən alan dərin əlaqələrimiz günlər keçdikcə ölkələrimizin beynəlxalq aləmdə daha güclü, regional inkişafda daha çox söz sahibi olmasına gətirməkdədir. Bir millətin iki dövləti olan Türkiyə və Azərbaycan arasındakı əlaqələrin memarlarından olan böyük dövlət və siyasət adamı mərhum Heydər Əliyevi qarşınızda bir daha hörmət, ehtiram və rəhmətlə anıram.

Hörmətli iştirakçılar!

Dünyanın 118 ölkəsində 5 milyon Türkiyə vətəndaşı vardır. Bunların böyük hissəsi 60-cı illərdə işləmək üçün Avropa ölkələrinə gedən vətəndaşlarımızdan və onların ailələrindən ibarətdir. İlk dəfə işçi statusu ilə əlaqədar bu ölkələrə gedən türklərin vəziyyəti 80-ci illərdə xüsusilə fərqli bir şəkil almışdır. Vətəndaşlarımız getdikləri yerlərdə fəal olmuş, işçi olmaqdan işverən vəziyyətə gəlmişlər. Üçüncü nəsil isə bu ölkələrdə doğulmuşlar.

Yaşanan sosial, iqtisadi və siyasi proseslər nəticəsində «avropalı türk» adı ortaya çıxmışdır. Artıq bu gün yaşadıqları torpaqların ayrılmaz bir parçası halına gələn, bayaq dediyim kimi, işçi statusundan isverən vəziyyətinə qovuşan türklər çox önəmli layihələri uğurla həyata keçirirlər. Avropada 80 min işverən türk 30 milyard avro məbləğində vəsaitlə ümumilikdə 420 min insanın dolanışığını təmin etməkdədir. Artıq yaşadıqları ölkələrin vətəndaşlıqlarını qazanan, parlamentlərində yer alan türklər Avropanın qərarvermə mexanizmlərində önəmli mövqelərə sahib olmaqdadırlar. Yaşadıqları ölkələrdə siyasi, iqtisadi və mədəni həyatda getdikcə fəal iştirak edən türklər Avropa ilə Türkiyəni bir-birinə bağ-

layan sağlam dostluq körpüsünü təmsil etməklə, nəzərə alınan bir komandanı və önəmli bir potensialı əks etdirməkdədir. Qabiliyyətinə və əzminə böyük inam duyduğum türk insanı bütün dünyada əldə etdiyi uğurlarla, sadəcə, özlərinə deyil, müştərək məqsədlərimizin gerçəkləşdirilməsinə də kömək göstərməkdədir.

Dəyərli iştirakçılar!

Azərbaycanın müstəqilliyə qovuşması ilə 70 illik həsrətimiz sona çatmış, iki qardaş dövlət bir-biri ilə qucaqlaşmışdır. Bu gün iştirak etdiyimiz bu forumun sayəsində isə dünyanın müxtəlif ölkələrində yaşayan eyni millətin övladları həmrəylik ruhu ilə bir araya gəlmiş və fəaliyyətlərində bir-birilərinə dəstək olmaq yolunda böyük bir addım atmışlar. Zamanımız həmrəylik, əməkdaşlıq dövrüdür. Ortaq dəyərlərimizin tanıdılmasında, iqtisadi, siyasi potensiallarımızın aşkara çıxarılmasında, millətimizə qarşı yönəldilmiş haqsızlıqların və iftiraların aradan qaldırılması işində xalqlarımızın üzərinə böyük rollar düşür.

Türkiyə və Azərbaycan tarixlərinin ən çətin dövrlərində bir-birinə dəstək olmağın ən gözəl nümunələrini göstərmişlər. 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Eynilə Anadoluda qazi Mustafa Kamal Atatürkün öndərliyi ilə aparılan milli mücadilə həm də azərbaycanlı qardaşlarımızdan gələn maddi və mənəvi yardımlar nəticəsində müvəffəqiyyət qazanmışdır. Bunu xüsusi vurğulayıram. Həm də qarşılıqlı olaraq bu yardım və dəstək, sadəcə, qardaşın qardaşa borc verməsi kimi yox, yalnız yardım etmək düşüncəsi ilə göstərilmişdir. Burada Atatürkün əlaqələrimizin nümunəsini göstərən sözlərini bir daha təkrar etmək istəyirəm. Az öncə, dəyərli qardaşım, hörmətli İlham Əliyev əslində mənim düşündüklərimin bir çoxunu söylədiyi üçün onları təkrar etmirəm. Ancaq bəzilərini təkrarlamaq, yəni Azərbaycan türkcəsindən Türkiyə türkcəsinə tərcümə etmək məcburiyyətindəyəm: «Azəri türklərinin dərdləri

bizim dərdimiz, sevincləri bizim sevincimiz olduğu üçün onların arzularına çatmaları, özgür və müstəqil yaşamaları bizi çox sevindirir». Bu sözlər bu gün də eyni gerçəkliyini saxlayır. Böyük lider Heydər Əliyevin dediyi kimi, Türkiyə–Azərbaycan qardaşlığı əbədidir, sarsılmazdır!

Azərbaycan torpaqlarının hələ də işğal altında qalması, bir milyon vətəndaşın torpaqlarından didərgin düşməsi, qaçqın və məcburi köçkün vəziyyətində yaşaması Türkiyə xalqının qan axan yarasıdır. Keçən il ermənilər guya «referendum» keçirdilər. Dünya bunu qəbul etdimi?! Etmədi! Niyə? Ona görə ki, görülən iş saxta, yanlış, yalan, uydurma idi və qəbulu mümkün deyildi. Haqq, ədalət nə vaxtsa öz yerini tapacaqdır. Biz buna inanırıq. Ermənistanın xüsusiyyəti və təəssüf ki, erməni xalqının da bir qisminin, diasporunun xüsusiyyəti budur. Hazırda bunu bizə qarşı edirlər. Dünyada «erməni soyqırımı» kampaniyalarını harda keçirirlər?! Əlaqəsi olmayan ölkələrdə lobbilər yaradırlar, oradakı parlamentdə tez-tələsik, yalandan «erməni soyqırımı» ilə bağlı bir qərar çıxarırlar. Bunu kimsə qəbul etməz! Türkiyə və türklər heç vaxt bunu qəbul etməz! Beynəlxalq hüququn ən təməl prinsipləri olan ölkələrin ərazi bütövlüyünün, sərhədlərin zorla dəyişdirilməsinin yolverilməzliyi prinsiplərini Ermənistanın açıqca pozmasına dünyanın diqqətsizlik göstərməsi daha üzüntülüdür. Biz bunu görürük. Türkiyə və Azərbaycan bu günə qədər yaxşı və pis günlərində daim necə bir-birinin yanında olubsa, bundan sonra da bir-birinin yanında olacaqdır.

Dəyərli qardaşlarım, bunu açıqca demək istəyirəm ki, biz tarixi əks etdirən arxivlərimizi açdıq. Ermənistana dedik ki, siz də açın. Üçüncü ölkələrə müraciət etdik ki, siz də açın. Bu iş, birinci növbədə, siyasətçilərin işi deyildir. Tarixçilər araşdırsın, siyasət biliciləri, arxeoloqlar, hüquqşünaslar araşdırsınlar. Əgər burada bir haqsızlıq varsa, biz lazım olanı edərik. Amma siz bunu etməyə hazırsınızmı?! Hələ də cavab yoxdur. Çünki qarşılarına Xocalı qətliamı çıxarılacaqdır. Nə deyəcəklər? Xocalı qətliamı dünənki hadisədir. Onlar Osmanlı dövrünü qarşımıza çıxarmağa çalışırlar. Olmayan

hadisələri həqiqət kimi göstərməyə cəhd edirlər. Ancaq bunu bizə sübut edə bilmirlər və bilməyəcəklər də. Yalan üzərində həqiqəti, doğrunu sübut edə bilməzsən!

Dövlət səviyyəsində Azərbaycanla qurduğumuz işbirliyi, imzaladığımız layihələr və xalqlarımız arasındakı könül birliyi Azərbaycan və Türkiyə xaricində yaşayan vətəndaşlarımıza sonsuz ilham verir. Dünya hələ önəmli bir dəyişim dövrünü yaşamaqdadır. Çətin bir dövrdən keçirik, həssas bir bölgədə yaşayırıq. Yaxın çevrəmizdə cərəyan edən hadisələr – İraqda, Yaxın Şərqdə baş verənlər çox diqqətli və ayıq olmağımızı tələb edir. Bu hadisələr eyni zamanda, Türkiyə və Azərbaycanla birlikdə bütün türk dünyasını maraqlandırır. İraqdakı türkmən qardaşlarımızın vəziyyəti bu gün hamımızı narahat edir. Kipr türklərinin mücadiləsi hələ davam etməkdədir və Şimali Kipr Türk Cümhuriyyəti haqsız və insafsız şəkildə təcriddə saxlanılmaqdadır.

Qarabağ qan axan yaramızdır. Balkanda yaşayan soydaşlarımızın qarşılaşdıqları sıxıntıları da yaxından izləyirik. O da bizə ayrıca bir aləmdir. Ancaq sıx işbirliyi və yaxın həmrəyliklə bütün bu çətinliklərin öhdəsindən gələ bilərik. Türkiyə ilə Azərbaycan arasında son illərdə həyata keçirilən və bir zamanlar əfsanə kimi görünən beynəlxalq layihələr bu işbirliyinin və həmrəyliyin ən gözəl örnəkləridir, bizim gücümüzdür. Keçən il Bakı–Tbilisi–Ceyhan neft boru xəttini istifadəyə verdik. Yaxın zamanda Bakı–Tbilisi–Ərzurum qaz kəməri, yəni «Şahdəniz» layihəsi tam şəkildə fəaliyyətə başlayacaqdır. Bu yazda Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin təməli qoyularaq inşasına başlanacaqdır. Bütün bunlar ölkələrimizi yaxınlaşdıran, bir-birinə bağlayan sarsılmaz əlaqələri göstərir. Bu eyni zamanda, Asiya ilə Avropanı, Şərqlə Qərbi bir-birinə yaxınlaşdıran əlaqələndirmə və inkişaf kanallarıdır. Bu kanalları təmin etmək Türkiyə və Azərbaycana dünya miqyasında önəm qazandırmaqdadır.

Bu baxımdan bir məqamı xüsusi vurğulamaq istəyirəm. Dünyanın hər yerində türk millətlərinin maraqlarının qorunması və etibarının yüksəldilməsi uğrunda aparılan mübari-

zədə qardaşların bir-birinə dəstək olmasından daha təbii bir iş ola bilməz. Biz davam edəcəyinə inandığımız bu həmrəyliyi sistemli bir hala gətirərək daha konkret və təsirli nəticələrə nail olmaq üçün göstərilən bütün səyləri tədbirlə qarşılayır və dəstəkləyirik. Avropada və Amerika Birləşmiş Ştatlarında, Rusiyada, Avstraliyada, Yaxın Şərqdə və dünyanın digər bölgələrində yaşayan Türkiyə və Azərbaycan insanlarının bir-birinin gücündən və təcrübələrindən yararlanmalarını gözləyirik. Çünki hədəflərimiz böyük, aradan qaldırmağımız vacib olan əngəllər çoxdur. Bu yolda hamımızın üzərinə önəmli vəzifələr düşür. Siyasətçilərimizin, alimlərimizin, sənətçilərimizin, mətbuat nümayəndələrimizin, sərmayədarlarımızın, bütün iş adamlarımızın – hamımızın üzərinə iş düşür. Əl-ələ, çiyin-çiyinə verərək həmrəy olacaq və bütün türk dünyasını aydın gələcəyə aparacağıq.

Tarix boyunca bir çox sınaqdan uğurla çıxan Türkiyə və Azərbaycan xalqlarının qardaşlığının beynəlxalq miqyasda bu layihəni də həyata keçirməsi hamımız üçün bir qürur mənbəyidir. Bu layihənin sadəcə, ölkələrimiz üçün deyil, bütün türk dünyası üçün xeyirli olmasını arzu edirik. Ayrıca bunu xüsusilə vurğulamaq istəyirəm. Əgər bu gün türk iş adamları Azərbaycanda birinci sıraya doğru gedirsə, yüksəlirsə, bunun ən önəmli səbəbi aramızdakı möhkəm əlaqələrdir. İnşallah, inanıram ki, türk iş adamları Azərbaycana qoyacaqları sərmayələrlə Almaniyadakından da qabağa gedəcəklər. Bunu görürəm. Bu bizim bir-birimizə olan bağlılığı artıran ən önəmli addımdır.

Sözlərimi tamamlayaraq Türkiyə və Azərbaycan diaspor təşkilatları rəhbərlərinə fəaliyyətlərində uğurlar diləyirəm. Bu forumun təşkilində başda hörmətli prezident, qardaşım İlham Əliyevə və əməyi keçən bütün digər qardaşlarıma öz adımdan və millətim adından təşəkkürümü bildirirəm. Bu forumun xeyirlə nəticələnməsini Allahdan təmənna edirəm.

Yaşasın sarsılmaz birlik və bərabərliyimiz!

* * *

*Çıxışlardan sonra forumun rəsmi hissəsi bağlı elan olundu.*

*Fasilədən sonra forum «Park İnn» mehmanxanasında işini davam etdirdi. Mandat Komissiyasının sədri, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun məlumatı dinlənildi.*

*Redaksiya komissiyasının, katibliyin tərkibi müəyyənləşdirildi, forumun gündəliyi, reqlamenti və işçi orqanlarının, dünya Azərbaycan və türk diaspor təşkilatlarının əlaqələndirmə Şurasının tərkibləri təsdiqləndi. Bildirildi ki, Şuranın həmsədrləri Azərbaycan və türk diaspor təşkilatları tərəfindən bu ilin sonunadək seçiləcək və islamda təsdiqlənəcəkdir.*

*Litva parlamenti sədrinin müavini Gintaras Stepanaviçyus, Litva prezidentinin müşaviri Hailina Kobeskayte, Lüksemburq parlamentinin deputatı Lakiv Hehkes, Türkiyə parlamentinin deputatı Dursun Akdəmir çıxış edərək Azərbaycanın dünyada artan nüfuzundan razılıqla danışdılar, forumun keçirilməsinin diaspor təşkilatları, eləcə də dövlətlərimiz arasında əlaqələrin inkişafında mühüm rol oynayacağını vurğuladılar. Azərbaycanın Avropa İttifaqına inteqrasiyasına dəstək verəcəklərini, digər həmkarlarını və dostlarını Azərbaycana dəstək olmağa çağıracaqlarını bildirdilər.*

*Türk dünyası Dostluq, Qardaşlıq və Əməkdaşlıq Fondunun prezidenti Əbdülxalid Çay, Makedoniya Türk İcmasının başçısı Ərdoğan Sarac, Ukrayna Azərbaycanlıları Konqresinin sədri Akif Cülməmmədov və başqaları forumun işini yüksək qiymətləndirdilər, bunun iki qardaş ölkənin, eləcə də bütün türk dünyasının birliyində mühüm mərhələ açdığını söylədilər. Xüsusi vurğulandı ki, bu birlik dünyada ermənilərin qondarma «soyqırımı» təbliğatının, Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının qarşısının alınmasında, habelə Xocalı soyqırımının dünya parlamentlərində tanınmasında, əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynayacaqdır.*

*Çıxışlar zamanı müxtəlif təkliflər səsləndi, gələcək fəaliyyət strategiyası müzakirə olundu.*

*Sonra «Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası», «Bakı bəyannaməsi», «Türkdilli xalqlara müraciət», «Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına müraciət», «1915-ci il hadisələri ilə əlaqədar erməni iddiaları haqqında dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunun bəyanatı» qəbul olundu.*

*Bununla da forum başa çatdı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN DÜNYA AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMU İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*«Gülüstan» sarayı*

*9 mart 2007-ci il*

*Martın 9-da «Gülüstan» sarayında Azərbaycan prezidenti İlham Əliyevin adından dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu iştirakçılarının şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Prezident İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Şimali Kiprin lideri Mehmet Əli Tələt və onların xanımları ziyafətdə iştirak etmişlər.*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Hörmətli qonaqlar!

Sizin hamınızı Azərbaycanda bir daha ürəkdən salamlayıram.

Türkiyə – Azərbaycan diaspor təşkilatlarının birinci forumu başa çatdı, nəticələr çox uğurludur. Əminəm ki, forumun nəticəsi olan bizim birgə fəaliyyətimiz daha da güclənəcəkdir. Deyə bilərəm ki, bu gün Azərbaycanda çox böyük beynəlxalq tədbir keçirildi. Biz bunu Türkiyə – Azərbaycan diaspor forumu kimi nəzərdə tutmuşduq. Fəqət bu gün 48 ölkənin nümayəndəsi Azərbaycandadır və geniş mənada, bu gün beynəlxalq birlik Azərbaycandadır, bizim ətrafımızdadır. Bu bizi daha da

zənginləşdirir. Forumda səslənən fikirlər, aparılan fikir mübadiləsi və ən önəmlisi, qəbul edilmiş qərarlar bizim işimizi daha da yüngülləşdirəcəkdir.

Mən əminəm ki, forumda iştirak etmiş bütün insanlar Azərbaycanla bir daha tanış olmaq imkanı əldə ediblər. Əminəm ki, ölkəmizdən ən gözəl təəssüratlarla ayrılacaqlar.

Forumun önəmi ondadır ki, bundan sonra Türkiyə və Azərbaycan diaspor təşkilatları vahid mexanizm kimi çalışacaq, öz fəaliyyətlərini əlaqələndirəcəklər. Forum çərçivəsində yaranan Əlaqələndirmə Şurasının əsas vəzifəsi məhz bundan ibarət olacaqdır. Eyni zamanda, müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları da bir-biri ilə əlaqə saxlayacaqlar. Əlbəttə, hansısa bir ölkədə Azərbaycan və türk diasporları bir-biri ilə əlaqədədir və birgə fəaliyyət göstərirlər. Amma bu forum gözəl imkan yaradır ki, bütün ölkələrdə fəaliyyət göstərən təşkilatlarımız bir-birini tanısınlar, bir-biri ilə əlaqə saxlasınlar və öz fəaliyyətlərini əlaqələndirsinlər. Ona görə forumun həm praktiki nəticələri olacaqdır, eyni zamanda, bizim aramızda olan birliyi daha da möhkəmləndirəcəkdir.

Türkiyə–Azərbaycan birliyi, qardaşlığı bu forumdan sonra daha yeni, daha yüksək pilləyə qalxıbdır. Biz çalışırıq və çalışacağıq ki, bütün imkanlardan istifadə edib birliyimizi daha da gücləndirək.

Bu gün eyni zamanda, Türkiyə Cümhuriyyəti səfirliyinin yeni binası açıldı. Bu da çox gözəl tədbir idi. Görün bir gün ərzində nə qədər gözəl tədbirlər keçirdik, bir-birimizə nə qədər yaxın olduq.

Mən bütün qonaqları bir daha ürəkdən salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Azərbaycana tez-tez gəlin və belə gözəl işlər, belə gözəl tədbirlər tez-tez keçirilsin və biz daim birlikdə olaq.

Bu badəni Türkiyə–Azərbaycan qardaşlığı şərəfinə, bütün türk dünyasının şərəfinə və bütün qonaqların şərəfinə qaldırıram.

Sağ olun.

* * *

*Azərbaycanın incəsənət ustaları konsert proqramı ilə çıxış etdilər.*

*Sonra Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu münasibətilə Milli parkda möhtəşəm atəşfəşanlıq oldu.*

*Prezident İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Şimali Kiprin lideri Mehmet Əli Tələt və onların xanımları, habelə forumun iştirakçıları və qonaqları atəşfəşanlığa tamaşa etdilər.*

*Ziyafətdə iştirak edən diaspor təşkilatlarının nümayəndələri, Almaniyadan, ABŞ-dan, Rusiyadan, Ukraynadan, Niderlanddan, İsveçdən, Norveçdən, Şərqi Avropadan və Baltikyanı ölkələrdən gəlmiş qonaqlar, ölkəmizin ziyalıları, incəsənət, mədəniyyət xadimləri Azərbaycan prezidentinə və Türkiyənin Baş nazirinə yaxınlaşaraq səmimi söhbət etdilər, forumun təşkilinə və yüksək səviyyədə keçirilməsinə görə dövlətimizin başçısına təşəkkürlərini bildirdilər. Forumun Azərbaycan və türk diaspor təşkilatlarının sıx qarşılıqlı fəaliyyətinin güclənməsinə yeni təkan verəcəyini söylədilər.*

*Xatirə şəkli çəkdirildi.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva Baş nazir Rəcəb Tayyib Ərdoğanı və ailə üzvlərini böyük hörmət və ehtiramla yola saldılar.*

# BAKIDA TÜRKİYƏ SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ*

*Bakı, Nəsimi rayonu*

*9 mart 2007-ci il*

*Martın 9-da Bakının Nəsimi rayonunda Türkiyə Cümhuriyyətinin ölkəmizdəki səfirliyinin yeni binasının təntənəli açılışı olmuşdur.*

*Mərasimə toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı, Şimali Kiprin lideri Mehmet Əli Tələti və onların xanımlarını hərarətli alqışlarla qarşıladılar.*

*Türkiyə ilə Azərbaycan arasında diplomatik əlaqələr ilk dəfə Xalq Cümhuriyyəti dövründə qurulmuş və səfirliklər fəaliyyət göstərmişdir. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra onu tanıyan ilk dövlət Türkiyə olmuş, Bakının mərkəzində, Xaqani küçəsində qardaş ölkənin səfirliyi fəaliyyətə başlamışdır. 2005-ci il iyunun 30-da prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan tərəfindən Türkiyə səfirliyinin yeni binasının təməli qoyulmuşdu.*

*Mərasimin əvvəlində türk dünyasının görkəmli şəxsiyyətləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

*Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirildi.*

---

* Türkiyənin Azərbaycandakı səfiri Hüseyn Avni Qarslıoğlu mərasimdə çıxış etdi.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Bacılar və qardaşlar!

Bu gün çox gözəl bir gündür. Bu gün səhər biz birlikdə Türkiyə və Azərbaycan diaspor təşkilatlarının I forumunu keçirdik. Forum bizim biliyimizin, qardaşlığımızın təntənəsi olmuşdur. Forumda səslənən fikirlər, deyilən sözlər hamısı ürəkdən deyilən səmimi sözlərdir. Əminəm ki, belə tədbirin Bakıda keçirilməsi və onun nəticələri bizim aramızda olan dostluq, qardaşlıq münasibətlərinin inkişafına çox böyük xidmət edəcəkdir.

Türkiyə və Azərbaycan iki dost, qardaş ölkədir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Türkiyə bizi tanıyan ilk dövlət olmuşdur və bu addımla digər ölkələrə də yol göstərdi. Məhz Türkiyə dövlətinin birinci addımından sonra Azərbaycanın beynəlxalq səviyyədə tanınması sürətlə getdi. Azərbaycan xalqı bunu həmişə qiymətləndirir və həmişə yadda saxlayır.

Mən bu gün forumda çıxış edərkən bir məsələyə də toxundum və yada saldım. Bizim xaricdəki ilk nümayəndələrimiz məhz xaricdə fəaliyyət göstərən türk səfirliklərində işə başlamışdılar. Başqa hansı ölkə öz səfirliyini digər ölkənin səfirliyinin üzünə açdı?! Heç bir ölkə bunu etməzdi. Yalnız qardaş ölkə, yalnız dost ölkə edərdi. Bu gün artıq Azərbaycanın onlarca müxtəlif ölkədə səfirlikləri fəaliyyət göstərir. Xaricdəki Türkiyə və Azərbaycan səfirlikləri də birgə fəaliyyət göstərirlər. Biz xarici ölkələrdə olarkən həmişə bütün tədbirlərdə qardaş ölkənin diplomatları ilə görüşürük. Onlar həmişə bizim tədbirlərimizə gəlirlər və bizə dəstək verirlər.

Yaranan yeni durum, əlbəttə ki, bizim ölkələrimizin iqtisadi və siyasi potensialının təzahürüdür, onu göstərir. Biz çox şeyə qadirik və qısa müddət ərzində, cəmi 15 il ərzində iki ölkə bir-birinə çox yaxın oldu. Bizim xalqlarımız əsrlər

boyu birgə yaşamışlar, əsrlər boyu bir-birinə qardaş demişlər. Müstəqil ölkə kimi, biz sadəcə 15 ildir fəaliyyət göstəririk və tarix baxımından çox qısa müddət ərzində böyük uğurlar əldə etmişik. Bizim təşəbbüsümüzlə bölgədə gedən nəhəng layihələr artıq reallığa çevrilibdir. Bizim siyasi iradəmiz əsasında Avropa üçün, bölgə üçün çox böyük əhəmiyyət kəsb edən məsələlər öz həllini tapır. Bizim hərtərəfli əməkdaşlığımız xalqlarımız, ölkələrimiz üçün və bütün türk dünyasının inkişafı və birləşməsi üçün önəmlidir.

Bugünkü forumda müxtəlif ölkələrin nümayəndələri, o cümlədən türk dünyasının nümayəndələri iştirak edirdilər. Bu forum bizi daha da birləşdirir. Belə tədbirlərin keçirilməsi çox önəmlidir. Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşləri, türk cəmiyyətlərinin qurultayı, dünya azərbaycanlılarının qurultayları, Türkiyə, Azərbaycan diaspor təşkilatlarının forumu – bütün bu hadisələr, bütün bu tədbirlər çox böyük əhəmiyyət kəsb edir. Bizi birləşdirir, aramızda olan qardaşlığı daha da möhkəmləndirir. Bizim də arzumuz budur, istəyirik ki, Türkiyə ilə Azərbaycan bir-birinə daha da yaxın olsunlar. Xalqlarımız daha da sıx əlaqədə olsunlar və bunu görəndə ürəyimiz sevinir.

Bu gün gözəl mərasimdə, səfirliyin gözəl binasının açılışında ürək sözlərimi sizinlə paylaşmaq istəyirəm. Mən çox xoşbəxtəm ki, bu səfirliyin açılışında əziz qardaşım, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan xanımı ilə, ailəsi ilə iştirak edir. Biz bir ailəyik. Xalqlarımız da bir ailədir. Xalqlara rəhbərlik edən insanlar da bir-birinə qardaşdır, dostdur. Bu da ölkələrimizin inkişafında, bütün türk dünyasının birləşməsində çox önəmli rol oynayır. Əgər son illərin hadisələrini bir daha təhlil etsək görərik ki, məhz Türkiyə və Azərbaycan dövlətlərinin təşəbbüsü ilə bütün türk dünyasının birləşməsi prosesi sürətlə gedir. Təşəbbüskarlar məhz bizik. Bu təşəbbüsləri biz irəli sürürük və beləliklə, başqa ölkələrdə yaşayan qardaşlarımızı da bu tədbirlərə dəvət edirik.

Bu gün mənim əziz dostum, qardaşım Tayyib bəy bu səfirliyin yaranmasının tarixinə toxundu. Bunun çox gözəl tarixi var. Mənim atam, ulu öndər Heydər Əliyevin tapşırığı ilə bu gözəl yer Türkiyə səfirliyinin binasının tikilməsi üçün verilmişdir. Biz bunun təməlini qoyanda – hörmətli Baş nazirin qeyd etdiyi kimi – burada kiçik bir ərazi sanki səfirliyin ərazisinin içinə girib bu gözəl binanın tikilməsinə imkan vermirdi. O zaman biz xəritə üzərində bir az çalışdıq. Tayyib bəy bir şeyi unutdu, mən nəinki o xətti çəkdim, ərazini böyütdüm, hətta Bakı Şəhər İcra Hakimiyyətinin başçısını, yəni Bakının valisini dəvət etdim və dedim ki, bu xətt üzərində qol çək. O da qol çəkdi və ondan sonra bu məsələ təsdiqləndi. Bu belə də olmalıdır.

Bu səfirlik doğma, qardaş ölkənin səfirliyidir. Amma eyni zamanda, bizim doğma evimizdir. Mən arzu edirəm ki, burada insanlar rahat çalışsınlar. Hər cür şərait yaradılıbdır. Bu gözəl bina Bakı şəhərinə əlavə yaraşıq, gözəllik verir.

Bütün qonaqları bir daha ürəkdən salamlayıram və səfirliyin fəaliyyətinə uğurlar diləyirəm. Arzu edirəm ki, Türkiyə–Azərbaycan qardaşlıq münasibətləri bundan sonra da inkişaf etsin, irəliyə getsin və bizi yeni qələbələrə gətirsin.

Sağ olun.

**Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın nitqi**

Hörmətli cümhur başqanlarımız!

Hörmətli xanımlar və cənablar!

Dəyərli qonaqlar!

Sizləri sevgi və hörmətlə salamlayıram. Əvvəlcə, Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu münasibətilə qardaş Azərbaycanı bir daha ziyarət etməkdən böyük məmnuniyyət duyduğumu bildirmək istəyirəm. Bu forumun türk və Azərbaycan xalqları arasındakı qardaşlıq duyğularını yaşatmaq istiqamətində önəmli bir vəzifəni yerinə yetirdiyinə inanıram.

Azərbaycan çox qısa bir zaman içərisində önəmli addımları gerçəkləşdirmiş, böyük irəliləyişə nail olmuşdur. Bu səfərim zamanı qardaş Azərbaycanın uğurlarını bir daha müşahidə etmək fürsəti qazandım. Əlaqələrimizin səviyyəsinin, Türkiyə–Azərbaycan qardaşlığının çoxşaxəli işbirliyində əldə olunan uğurlarla dərinləşərək gücləndiyini görməkdən çox böyük məmnunluq duyuram. Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Cümhuriyyəti arasında siyasi, hərbi, iqtisadi, ticari, mədəni və digər sahələrdə örnəkverici əlaqələr mövcuddur. Arzumuz bu əlaqələri daha irəliyə aparmaqdır.

Dəyərli qonaqlar, 2005-ci il iyunun 30-da hörmətli cümhur başqanı İlham Əliyevlə birlikdə hazırda dayandığımız bu yerdə binanın təməlini qoyduq. Təbii ki, həmin gün mənim üçün doğrudan da gözlənilməz bir vəziyyət yaratdı. Çünki gördüyünüz bu ərazinin gözəl mənzərəsini pozan bir hissə var idi. O gün səfirimiz mənə dedi ki, əgər həmin hissənin bu əraziyə daxil edilməsini cənab İlham Əliyevdən xahiş etsəniz, zənnimcə cümhur başqanımız bu problemi həll edəcəkdir. Mən də çox sevdiyim dəyərli qardaşıma – çünki o, babamızın yadigarıdır – bu vəziyyəti söylədim. O, məsul şəxsləri çağırdı. Maketin üzərində işləyirdik. Bunu işləyərkən xəritəni götürdü, işarələdi və dedi ki, bu hissəni buraya daxil edin. Bununla da iş bitdi.

Hazırda gördüyünüz bu gözəl məkan meydana gəldi. Doğrudan da burada çox gözəl bir memarlıq layihəsi həyata keçirildi və bu bina tikildi. İnanıram ki, bu məkan Türkiyə ilə Azərbaycan arasındakı diplomatik, siyasi əlaqələri çox fərqli şəkildə aydın gələcəyə aparacaqdır. Bu gün həm də bunun açılışını siz dostlarımızla birlikdə etmək bizə qismət olur. Buranın ümumi ərazisi 17 min 465, qapalı sahəsi 7900 kvadratmetrdir və bu göstərici ilə dünyada ən böyük səfirliyimizdən biridir. Bu, ikitərəfli əməkdaşlığımızın inkişafının da gözəl bir göstəricisidir.

Bildiyiniz kimi, bizim Azərbaycanla olan əlaqələrimiz geniş şəkildə, hər sahədə sürətlə inkişaf edir və bu, gələcəkdə

də belə davam edəcəkdir. Türkiyə Cümhuriyyətinin qardaş torpaqda bayrağını dalğalandıracağı bu yeni bina əslində dost və qardaş Azəbaycanın illərlə arzu etdiyi ərazi bütövlüyü çərçivəsində müstəqil yaşayacağına inamımızın yeni bir ifadəsidir.

Bu gün forumda dinlədiyiniz kimi, Azərbaycanın iqtisadi və siyasi baxımdan tərəqqisini, 35 faizlik iqtisadi inkişafa nail olmaqla çox ciddi bir məsafə qət etdiyini görmək bizə xüsusi məmnunluq və sevinc verir. Ölkələrimiz arasındakı əlaqələrin inkişafında, şübhəsiz ki, səfirliklərimizin üzərinə önəmli vəzifə və məsuliyyət düşür. Bu vəzifə və məsuliyyətin yerinə yetirilməsində keyfiyyət göstəricisi mühüm yer tutur. Günümüzün şərtlərinə uyğun müasir bir binanın istifadəyə verilməsi bu baxımdan son dərəcə önəmli və sevindiricidir.

Dəyərli qonaqlar, mərhum Heydər Əliyevin ifadəsi ilə desək, bir millətin iki ayrı dövləti kimi, müştərək mənfəətlərimizin artırılması üçün qarşılıqlı mədəni fəaliyyətlərin də əhəmiyyəti böyükdür. Musiqinin və gözəl sənətlərin əlaqələrimizin inkişafındakı rolu unudulmamalıdır. Səfirliyin ərazisində açıq havadakı teatrın yenidən qurularaq istifadəyə hazır vəziyyətə gətirilməsini bu baxımdan faydalı hesab etmək olar. Səfirliyin yeni binasının daim bayramlar keçiriləcəyi yer olacağı inamı ilə – az öncə hörmətli səfirimizin ifadə etdiyi kimi – Ankaradakı səfirlik binasında bayraq necə qaldırılmışdısa, indi də biz mərasimdən sonra qardaşım, çox hörmətli cümhur başqanı İlham Əliyev ilə birlikdə bayrağı qaldıracağıq. Bu bizə nəsib olduğu üçün Allahıma şükür edir, sizləri hörmət və ehtiramla bir daha salamlayıram.

* * *

*Sonra prezident İlham Əliyev, Baş nazir Rəcəb Tayyib Ərdoğan, Şimali Kiprin lideri Mehmet Əli Tələt xanımları ilə birlikdə Türkiyənin Dövlət bayrağını qaldırdılar, rəmzi açılışı*

*bildirən lenti kəsdilər. Sonra Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar və səfirliyin binası ilə tanış oldular. Məlumat verildi ki, «Cenay» şirkəti tərəfindən inşa olunan binanın tikintisində həm Azərbaycan, həm də Türkiyədən gətirilən materiallardan istifadə edilmişdir. Səfirlik inzibati, konsulluq şöbəsi, texniki heyət üçün binalar, sərgi salonu, qonaq evi və səfirin iqamətgahı olan dörd korpusdan ibarət kompleksdir. Kompleksin inşasına təqribən 6,5 milyon dollar vəsait xərclənmişdir.*

*Prezident İlham Əliyev, Baş nazir Rəcəb Tayyib Ərdoğan binaları gəzdilər, səfirliyin əməkdaşlarına uğurlar dilədilər.*

## GÜRCÜSTANIN ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ZURAB QUMBERİDZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Prezident sarayında Gürcüstanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Zurab Qumberidzeni diplomatik fəaliyyətinin başa satması ilə əlaqədar qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini, ölkələrimizin qlobal enerji layihələrinin həyata keçirilməsində sıx əməkdaşlığını vurğuladı. Zurab Qumberidzenin ölkələrimiz arasında münasibətlərin gücləndirilməsi işinə töhfə verdiyini qeyd edən prezident İlham Əliyev Azərbaycan və Gürcüstanın dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xidmətlərinə görə səfirin Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edildiyini bildirdi və ordeni ona təqdim etdi.*

*Zurab Qumberidze Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmasından qürur hissi keçirdiyini qeyd etdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə dəfələrlə görüşdüyünü xatırladan səfir bundan şərəf duyduğunu bildirdi. Diplomat Azərbaycanda işlədiyi dövrdə ona və səfirliyin fəaliyyətinə göstərilən diqqətə görə Azərbaycan hökumətinə və şəxsən prezident İlham Əliyevə təşəkkürünü ifadə etdi. Zurab Qumberidze gələcəkdə harada işləməsindən asılı olmayaraq, Azərbaycan–Gürcüstan münasibətlərinin inkişafı üçün həmişə əlindən gələni əsirgəməyəcəyini bildirdi.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Pakistan günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Pakistan arasındakı dostluq və qardaşlıq münasibətləri xalqlarımızın iradəsindən qaynaqlanır. Əminəm ki, qarşılıqlı inam, etimad və etibara əsaslanan münasibətlərimizin, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın inkişafı üçün birgə səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 mart 2007-ci il*

**YUNANISTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB KAROLOS PARULİASA**

Hörmətli cənab Prezident!

Yunanıstanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri, qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Yunanıstan xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 mart 2007-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Sumarta adasında baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Baş vermiş facia ilə əlaqədar dərdinizə şərik çıxır, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayır, yaralananlara şəfa diləyirəm.

Bu ağır anlarda Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İndoneziya xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 mart 2007-ci il*

**İRLANDİYANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM MERİ MAKALİSƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müqəddəs Patrik günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İrlandiya arasındakı dostluq münasibətləri əməkdaşlıq imkanlarımızın genişlənməsi üçün daim möhkəm zəmin olacaqdır.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 mart 2007-ci il*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ZEYNULABİDİN BEN ƏLİYƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Tunis arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tunis xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 mart 2007-ci il*

**NAMİBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HİFİKEPUNYE POHAMBAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 mart 2007-ci il*

**SENEQAL RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ABDULAY VADA**

Hörmətli cənab Prezident!

Seneqal Respublikasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Seneqal arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Seneqal xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 mart 2007-ci il*

## BELARUS RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRİ ƏNVƏR BARİYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Prezident sarayında Belarus Respublikasının Fövqəladə Hallar naziri Ənvər Bariyevi qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Belarus arasında əməkdaşlığın müxtəlif sahələr üzrə uğurla inkişaf etdiyini bildirdi. Ötən il Belarus Respublikasına səfərini xatırladan prezident İlham Əliyev bu səfərin ikitərəfli münasibətlərimizin inkişafı baxımından əhəmiyyətini vurğuladı.*

*Ölkələrimizin müxtəlif qurumları arasında əməkdaşlığın vacibliyini nəzərə çatdıran dövlətimizin başçısı Fövqəladə Hallar nazirlikləri arasında əməkdaşlığın əlaqələrimizin daha da genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.*

*Belarus Respublikasının Fövqəladə Hallar naziri Ənvər Bariyev ölkəsinin Azərbaycanla geniş əməkdaşlıqda maraqlı olduğunu söylədi. O, Fövqəladə Hallar nazirlikləri arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi, Azərbaycanın Fövqəladə Hallar Nazirliyi ilə əməkdaşlığın gələcəkdə də davam edəcəyinə ümidvar olduğunu vurğuladı.*

## NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Prezident sarayında NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizin NATO ilə fəal əməkdaşlıq etdiyini vurğuladı. Brüsselə səfərini xatırladan Azərbaycan prezidenti həmin səfər zamanı NATO Baş katibi ilə səmərəli fikir mübadiləsi aparıldığını bildirdi.*

*NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmons Azərbaycan prezidentinin Brüsselə səfərinin uğurla keçdiyini dedi və NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin salamlarını prezident İlham Əliyevə çatdırdı.*

*Dövlətimizin başçısı NATO Baş katibinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Baş katibə çatdırmağı xahiş etdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANA RƏSMİ SƏFƏRİ

*15 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Tacikistan Respublikasına rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

### Düşənbə hava limaninda rəsmi qarşilanma

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Tacikistan Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Tacikistanın Dövlət bayraqları ilə bəzədilmiş Düşənbə hava limanında prezident İlham Əliyevi təyyarənin pilləkəni yanında Tacikistan prezidenti İmoməli Rəhmon, Ali Məclisin yuxarı palatasının – Milli Məclisin sədri Mahmadsaid Ubaydulloyev, Baş nazir Akil Akilov, Nümayəndələr Məclisi (aşağı palata) sədrinin birinci müavini Abdulməcid Dostiyev, Xarici İşlər naziri Xamroxon Zaripov və digər dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar. Milli geyimli qız və oğlan dövlətimizin başçısına gül dəstələri təqdim etdilər.*

*Hava limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi. Prezidentlər Fəxri qarovul*

*dəstəsinin qarşısından keçdilər. Dövlətimizin başçısı Fəxri qarovul dəstəsini salamladı.*

*Azərbaycanın və Tacikistanın Dövlət himnləri səsləndi.*

*Azərbaycan nümayəndə heyəti Tacikistan prezidentinə, Tacikistanın rəsmi şəxsləri Azərbaycan prezidentinə təqdim olundu.*

**«Düsti» («Dostluq») xatirə kompleksini ziyarət**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Düşənbənin mərkəzində yerləşən «Düsti» («Dostluq») xatirə kompleksini ziyarət etmişdir.*

*Burada Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Kompleksdə Samanilər dövlətinin (IX–X əsrlər) banisi İsmayıl Samaninin heykəli ucaldılmışdır.*

*Dövlətimizin başçısı heykəlin önünə əklil qoydu.*

*Azərbaycanın və Tacikistanın Dövlət himnləri səsləndirildi.*

*Xatırladaq ki, bu kompleks Samanilər dövlətinin 1100 illiyi ilə əlaqədar prezident İmoməli Rəhmonun sərəncamı ilə 1999-cu ildə yaradılmışdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İMOMƏLİ RƏHMON İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Düşənbə, Dövlət iqamətgahı*

*15 mart 2007-ci il*

*Martın 15-də Düşənbədə – Dövlət iqamətgahında Azərbaycan prezidenti İlham Əliyevin və Tacikistan prezidenti İmoməli Rəhmonun təkbətək görüşü olmuşdur.*

*Söhbət zamanı Azərbaycan ilə Tacikistan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi, o cümlədən iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulandı.*

*Dövlət başçıları Azərbaycan prezidentinin Tacikistana ilk rəsmi səfərinin gələcək əlaqələrin daha da möhkəmlənməsi və dərinləşməsinə xidmət edəcəyini söylədilər, ikitərəfli münasibətlərin bundan sonra daha da genişlənəcəyinə əminliklərini bildirdilər.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ TACİKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Düşənbə, Dövlət iqamətgahı*

*15 mart 2007-ci il*

*Martın 15-də təkbətək görüşdən sonra Dövlət iqamətgahında Azərbaycan prezidenti İlham Əliyevin və Tacikistan prezidenti İmoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Görüşü Tacikistan prezidenti İmoməli Rəhmon açdı.*

**İ m o m ə l i  R ə h m o n:** Azərbaycan dövlət başçısının Tacikistan Respublikasına rəsmi səfəri xalqlarımızın kökləri əsrlərin dərinliklərinə gedən qarşılıqlı münasibətlərinin yeni tarixində mühüm mərhələdir. Azərbaycan xalqının böyük oğlu, həm də tacik-fars ədəbiyyatının klassiklərindən biri kimi ehtiram bəslənilən və Rudəki, İbn Sina, Sədi və digərləri ilə birlikdə dünya ədəbiyyatı xəzinəsinə misilsiz töhfə vermiş Nizami Gəncəvinin yaradıcılığı buna parlaq sübutdur. Mədəniyyətlərin qarşılıqlı nüfuzu və qarşılıqlı zənginləşməsi daimi prosesdir. Bu baxımdan Tacikistanın təxminən üç min nəfərdən ibarət Azərbaycan diasporunun rolunu yüksək qiymətləndirmək istəyirəm. Onun nümayəndələri cəmiyyətimizin inkişafına sanballı töhfə vermiş və verirlər. Bugünkü Azərbaycan tərəqqi və quruculuq yolu ilə inamla irəliləyən dinamik inkişaflı ölkədir. Bu uğurların əsasını hamımızın dərin hörmət bəslədiyi, regionda və dünyada çox böyük nüfuza malik olmuş mərhum Heydər Əliyeviç qoymuşdur. Mən indicə uzun illər birgə işimizi xatırladım. Həm də təkcə birgə işimizi yox. Xatırladım ki, Heydər Əliyeviç Moskvada işləyərkən Tacikistana sənaye komplekslərinin, hidroener-

getikanın inkişafı üçün çox güclü kömək göstərirdi. Biz hər dəfə görüşərkən o, Tacikistanın necə inkişaf etdiyi ilə maraqlanırdı.

Tacikistan xalqı bunu heç zaman unutmayacaqdır. Tacikistan Respublikası yaradıldıqdan sonra ilk Daxili İşlər nazirlərindən biri azərbaycanlı olmuşdur. Azərbaycan diasporu ziyalılarının hələ çox nümayəndələrini misal göstərmək olar. Əminəm ki, Sizin simanızda Azərbaycan xalqı bu nəcib işin layiqli davamçısına malikdir. Əziz həmkarım, doğma torpağınızın tərəqqisi və xalqınızın firavanlığı naminə Sizə ürəkdən yeni-yeni uğurlar arzulamaq istəyirəm.

Biz Azərbaycanla münasibətlərin hər vasitə ilə inkişafında maraqlıyıq, bütün istiqamətlərdə qarşılıqlı surətdə faydalı əməkdaşlığın genişlənməsi və dərinləşməsi üçün mümkün olan bütün işləri görmək niyyətindəyik. Qarşılıqlı münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə yüksəltməkdən ötrü sənədlər hazırlamışıq və onların imzalanması ənənəvi dostluq münasibətlərimizin daha da inkişaf etməsinin hüquqi bazası üçün əsas qoymalıdır. Həmin sənədlər sırasında dostluq və əməkdaşlıq haqqında müqaviləni xüsusi vurğulamaq istəyirəm. Burada respublikalarımız arasında ikitərəfli münasibətlərin əsas prinsipləri təsbit olunmuşdur. Bu münasibətlər beynəlxalq hüququn hamılıqla tanınmış norma və prinsipləri, qarşılıqlı hörmət, hüquq bərabərliyi əsasında inkişaf edəcəkdir. Müqavilə uzunmüddətli perspektiv üçün nəzərdə tutulan əməkdaşlığımızın sanballı bünövrəsi olmalıdır.

Bu, beynəlxalq aləmdə əməkdaşlığımıza da, regional strukturlar çərçivəsində və ikitərəfli əlaqələr formatında qarşılıqlı əlaqələrimizə də aiddir.

Ölkələrimiz arasında ticarət-iqtisadi əlaqələrin inkişafı üçün böyük potensial var, əmtəə dövriyyəsi keçən il rekord səviyyəyə çatmış və 140 milyon dollardan artıq olmuşdur. Tacikistanda təbii sərvətlərin, o cümlədən də enerji daşıyıcılarının zəngin ehtiyatları var. Azərbaycanlı tərəfdaşlarımızın zəngin təcrübəsi, malik olduqları texnologiyalar və

sərmayə imkanları bu sahələrdə faydalı əməkdaşlıq üçün baza ola bilər. Ölkəmizdə hidroenergetika potensialının artırılmasına, faydalı qazıntılar, o cümlədən neft və qaz hasilatına və digər sahələrə dair layihələr hazırlanmışdır. Rusiya, Çin, İran və bir sıra digər ölkələrlə birlikdə iş aparılır. Biz Azərbaycanın da bu prosesdə fəal iştirak etməsində maraqlıyıq.

Humanitar sahədə əməkdaşlığımız genişlənəcəkdir. Biz elmi, yaradıcılıq və təhsil müəssisələri arasında bilavasitə münasibətləri, insanlar arasında əlaqələri hər vasitə ilə təşviq edəcəyik. Düşünürəm ki, Tacikistanda Azərbaycan və Azərbaycanda Tacikistan mədəniyyəti günlərinin keçirilməsi bu sahədə qarşılıqlı əlaqələrə kömək edəcəkdir.

Tacikistan Cənubi Qafqazda vəziyyəti də izləyir və planetin bu mühüm regionunda problemlərin ancaq dinckliklə həllinə tərəfdardır. Azərbaycan və Ermənistan xarici siyasət idarələri başçılarının Cenevrədə keçirilən sonuncu görüşü Qafqazda uzunmüddətli sülh və sabitliyin bərqərar olacağına və region ölkələrinin münasibətlərinin normallaşacağına müəyyən nikbinlik və ümid doğurur. Hörmətli həmkarım İlham Heydəroviçlə biz bu məsələləri müzakirə etdik – ancaq danışıqlar, dialoq. Həm də ona görə ki, hazırda Cənubi Qafqazda inkişafın başlıca hərəkətverici qüvvəsi məhz Azərbaycandır. Biz çox sevinirik ki, son illərdə Azərbaycan iqtisadi inkişafın belə səviyyəsinə nail olmuşdur. Bu yaxşıdır.

Taciklərin atalar sözündə deyilir ki, əgər qonşunun işi yaxşıdırsa, deməli, sənin də işin yaxşıdır. Həqiqətən, indiki bu çətin zəmanədə, qışda Gürcüstanın vəziyyəti çox ağır olduğu vaxtda Azərbaycanın siyasi rəhbərliyi tərəfindən yardım əli uzadıldı və qonşu ölkə qazla təmin edildi. Hətta burada, Mərkəzi Asiyada biz, xalqımız buna çox müsbət reaksiya verdik.

Hörmətli İlham Heydəroviç, ölkəmizə səfərinizə, xalqlarımızın dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsi, dövlətlərimizin tərəqqisi naminə səmərəli işinizə

görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Biz Tacikistan–Azərbaycan əməkdaşlığının gələcəyinə nikbinliklə baxırıq və ölkələrimizin potensialından istifadə üçün lazım olan bütün işləri görməyə hazırıq. Əminəm ki, səfəriniz buna güclü təkan verəcəkdir.

Əziz dostlar, icazə verin, ümumi bayramımız Novruz ərəfəsində sizin hamınızı ürəkdən təbrik edim, sizə möhkəm cansağlığı və ölkələrimizin tərəqqisi, xalqlarımızın firavanlığı naminə yeni-yeni uğurlar arzulayım.

*Sonra Azərbaycan prezidenti İlham Əliyev çıxış edərək, rəsmi səfərə dəvətə görə prezident İmoməli Rəhmona təşəkkürünü bildirdi.*

**İ l h a m  Ə l i y e v:** Bu mənim prezident kimi, Tacikistana ilk rəsmi səfərimdir. Gözəl torpağınızda olduğumuz ilk dəqiqələrdən biz qonaqpərvərlik hiss edirik. Bu bir daha göstərir ki, xalqlarımızın qarşılıqlı münasibətlərinin qədim tarixi, ortaq mədəniyyətləri və ənənələri var. Xalqlarımız bu ənənələri çoxəsrlik əməkdaşlıqla yaşatmışlar və onlar indi inkişaf edərək möhkəmlənir. İki müstəqil dövlət – Tacikistan və Azərbaycan azadlıq, öz potensialını möhkəmlətmək yolu ilə inamla gedir.

Mən bu imkandan istifadə edərək, Sizi özünüz üçün əlverişli vaxtda ölkəmizə rəsmi səfərə dəvət etmək, aramızda olan fəal dialoqu davam etdirmək istəyirəm. Çox istərdim ki, səfər zamanı Sizin ölkəmizin regionlarına, o cümlədən dahi Azərbaycan şairi Nizaminin vətəni və onun məzarının yerləşdiyi Gəncə şəhərinə də getmək imkanınız olsun. İstərdim ki, qədim tarixi, xalqlarımızı birləşdirən kökləri bir daha duyasınız.

Həqiqətən, bu gün biz Sizinlə bu barədə danışdıq. Ümumi tarix çox şey deməkdir. Biz özgürlüyümüzü, öz dilimizi, öz mədəniyyətimizi, ənənələrimizi məhz bu tarixi köklər sayəsində qoruyub saxlamışıq. Dövlətlərimizin həm iqtisadi, həm də siyasi müstəvidə əməkdaşlığı belə möhkəm bünövrəyə əsaslanır. Ümidvaram ki, səfərim zamanı imzalanacaq

sənədlər fəal əməkdaşlıq üçün çox geniş imkanlar açacaqdır. Siyasi baxımdan biz müttəfiqlərik, bütün təşkilatlarda – BMT-də, ATƏT-də, İslam Konfransı Təşkilatında, MDB-də və digər forumlarda bir-birimizi dəstəkləyirik. İqtisadi baxımdan bizdə əmtəə dövriyyəsi kifayət qədər yüksək səviyyədədir və qarşıdakı illərdə onu artırmağa ümid edirik.

Humanitar sahədə əməkdaşlıq məsələlərində də aramızda tam fikir birliyi var. Bir-birimizi daha yaxşı tanıya bilməyimiz üçün ölkələrimizdə mədəni tədbirlər keçirilməsi ideyasına mən də qoşuluram.

Azərbaycanda bizim həll etdiyimiz çox mühüm məsələlər, ilk növbədə, energetika ilə bağlıdır və onlar sırf Cənubi Qafqaz regionunun çərçivəsindən çox tez-tez kənara çıxır və Mərkəzi Asiya, Avropa regionuna da potensial surətdə yayıla bilər. Biz bu istiqamətdə neft-qaz kəmərlərinin, habelə nəqliyyat infrastrukturunun tikintisi üçün çoxmilyardlıq layihələr həyata keçirmişik. Yaxın vaxtlarda Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə başlayırıq. O da Asiya ilə Avropa arasında körpüyə çevriləcəkdir. Düşünürəm ki, gələcəkdə həmin dəmir yoluna qoşulmaq Tacikistan üçün də maraq doğuracaqdır. Regional əməkdaşlığın bu elementi onda iştirak edəcək bütün ölkələrə sərfəli olacaqdır.

Regionda etimad tədbirlərinin, təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizmlə mübarizə – bütün bu məsələlər bizi narahat edir. Təəssüf ki, indi gördüyümüz kimi, dünya bu hədələrdən sığortalanmayıb, heç bir ölkə özünü tam təhlükəsiz hiss etmir, xüsusən də bizim region. Çünki burada həm daxildə, həm də ətrafda münaqişələr, təhdidlər mövcuddur. Ona görə də təbii ki, bu təhdidləri minimuma endirməklə, fəaliyyəti uzlaşdırmaqla məşğul olacaq strukturların qarşılıqlı əlaqəsi mühüm prioritetdir.

Biz sülh, sabitlik şəraitində yaşamaq və öz dövlətimizi, müstəqilliyimizi möhkəmlətmək, adamlarımız üçün daha yaxşı həyat şəraiti yaratmaq istəyirik. Əlbəttə ki, bunun üçün ilk növbədə təhlükəsizlik gərəkdir.

Narkotrafiklə əlaqədar məsələ bizi də narahat edir, çünki narkotrafikin bir hissəsi bizim ərazimizdən keçir və bununla mübarizə üçün bizdə fəal tədbirlər görülür. Odur ki, bu sahədə ölkələrimizin səylərinin əlaqələndirilməsi böyük fayda gətirərdi. Biz də BMT-nin müvafiq qurumları, digər təşkilatlarla əməkdaşlıq edir və narkotrafikin qarşısına güclü sipər çəkmək üçün öz tərəfimizdən mümkün olan bütün işləri görürük. Əlbəttə ki, bundan ötrü çox ciddi tədbirlər görmək, sərhədlərdə infrastruktur yaratmaq, yeni sərhədlər yaratmaq gərəkdir. Regionumuzda yeni sərhəd infrastrukturu yaradılmasına böyük tələbat var, çünki Azərbaycanla qonşu ölkələr arasında sərhədlər əslində şəffafdır. Ona görə də bu fəaliyyəti təkmilləşdirmək üçün böyük investisiyalar, habelə bu fəaliyyəti təkmilləşdirmək işində beynəlxalq təşkilatlarla əməkdaşlıq lazımdır.

Cənubi Qafqaz regionunda separatçı hərəkatlara gəlincə, bunların nəticəsində həm Gürcüstanın, həm də Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur və bu, təhlükənin başlıca amilidir. Artıq on ildən çoxdur ki, Azərbaycan ərazisinin bir hissəsi Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilmişdir. Bu çox böyük humanitar fəlakətdir. Səkkiz milyon yarım əhalinin bir milyonu erməni təcavüzü nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş adamlardır.

Biz məsələni nizama salmağa çalışır və ATƏT çərçivəsində danışıqlar aparırıq. Amma təəssüf ki, nəticələrdən danışmaq hələlik tezdir. Biz beynəlxalq hüququn prinsip və normalarını əsas tuturuq. Azərbaycanın ərazi bütövlüyünü dünyanın bütün dövlətləri, habelə Birləşmiş Millətlər Təşkilatı tanımışdır. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Lakin erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən dərhal çıxarılmasını tələb edən bu qətnamələr yerinə yetirilmir. Ona görə də beynəlxalq hüququn aliliyi və

ərazi bütövlüyü prinsipləri, əlbəttə, bu münaqişənin və oxşar münaqişələrin həlli zamanı əsas kimi götürülməlidir.

O ki qaldı millətlərin öz müqəddəratını təyin etmək hüququna – erməni tərəfi ona tez-tez əl atır – deməliyəm ki, erməni xalqı artıq öz müqəddəratını təyin etmişdir, onun Ermənistan dövləti var. Əgər Ermənistanın məntiqini götürsək, onda hər bir milli azlıq öz müqəddəratını təyin edəcək və bununla da ölkələrin ərazi bütövlüyünü pozacaqdır. Bunun nəyə gətirib çıxaracağı yaxşı məlumdur. Bu, fəlakətə gətirib çıxaracaqdır.

Ona görə də Azərbaycan münaqişənin sülh yolu ilə həllinə tərəfdardır, amma məhz beynəlxalq hüququn norma və prinsipləri əsasında. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən çıxarılmalıdır, Dağlıq Qarabağ erməniləri isə vahid Azərbaycan dövləti çərçivəsində yüksək özünüidarə və muxtariyyət statusu ala bilərlər.

Biz MDB çərçivəsində, digər beynəlxalq təşkilatlar çərçivəsində forumlarda tez-tez ünsiyyətdə olur, tez-tez görüşürük, İmoməli Rəhmonla bizim aramızda çox yaxın, çox səmimi münasibətlər yaranmışdır. Mənim buraya səfərim, ümidvaram, Tacikistan prezidentinin yaxın vaxtlarda cavab səfəri əlaqələrimizi daha da möhkəmləndirəcəkdir.

Təəssüf ki, müstəqillik əldə edildikdən sonra Tacikistanda da, Azərbaycanda da xalqlarımız daxili münaqişələrdən, vətəndaş müharibəsindən çox əziyyət çəkdilər. Biz bunu da yaşadıq, amma xoşbəxtlikdən bu o qədər də uzun sürmədi. Bu proses sizdə daha sürəkli, daha qanlı oldu və ölkənin bərpası üçün çox böyük səylər göstərməli oldunuz. Bunu necə uğurla etməyiniz onu göstərir ki, rəhbərliyin siyasəti düzgündür, əhali tərəfindən dəstəklənir. Dostlarınız və qonşularınız uğurlarınızı gördükdə sevinirlər.

Belə səmimi qəbula görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Tacikistanda olmağıma çox şadam. Ölkənizə bu mənim nəinki ilk rəsmi, həm də, ümumiyyətlə, birinci səfərimdir. Ümidvaram ki, bundan sonra tez-tez görüşəcək və

ünsiyyətdə olacağıq. Ümumi bayramımız – Novruz bayramı ərəfəsində öz adımdan bütün qardaş Tacikistan xalqına ən xoş arzularımı yetirmək istəyirəm.

* * *

*Martın 15-də Dövlət İqamətgahında geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan və Tacikistan arasında sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Əvvəlcə prezidentlər İlham Əliyev və İmoməli Rəhmon Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqaviləni imzaladılar.*

*Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında «Azərbaycan Respublikası və Tacikistan Respublikası vətəndaşlarının qarşılıqlı vizasız gediş-gəlişi haqqında» sazişi Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Tacikistanın Xarici İşlər naziri Xamroxon Zarupov imzaladılar.*

*Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında «İnvestisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında» sazişi Azərbaycanın İqtisadi İnkişaf naziri Heydər Babayev və «Tacikistan Respublikası İnvestisiyalar və Dövlət Əmlakının İdarəolunması üzrə Dövlət Komitəsinin sədri Şərif Raximov imzaladılar.*

*Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında «Ticarət-iqtisadi əməkdaşlıq haqqında» sazişi Azərbaycanın İqtisadi İnkişaf naziri Heydər Babayev və Tacikistanın İqtisadi İnkişaf və Ticarət naziri Qulomjon Boboyev imzaladılar.*

*Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında «Beynəlxalq avtomobil əlaqələri sahəsində əməkdaşlıq haqqında» sazişi Azərbaycanın*

*Nəqliyyat naziri Ziya Məmmədov və Tacikistanın Nəqliyyat və Kommunikasiyalar naziri Abdulraxim Aşurov imzaladılar.*

*Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında «Mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında» sazişi Azərbaycanın Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Tacikistanın Mədəniyyət naziri Mirzoşoxrux Asrorov imzaladılar.*

*Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında «Gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» sazişi Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Tacikistan Hökuməti yanında Gömrük Xidmətinin sədri Qurez Zaripov imzaladılar.*

*Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında «Turizm sahəsində əməkdaşlıq haqqında» sazişi Azərbaycanın Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Tacikistan Hökuməti yanında Gənclərin İşi, İdman və Turizm Komitəsinin sədri Davlatali Saidov imzaladılar.*

*Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında «Standartlaşdırma, metrologiya, sertifikasiya və akkreditasiya sahəsində əməkdaşlıq haqqında» sazişi Azərbaycanın Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Baş direktoru Ramiz Həsənov və Tacikistan Hökuməti yanında Standartlaşdırma, Metrologiya, Sertifikasiya və Ticarət Müfəttişliyi Agentliyinin direktoru Davlatali Hotəmov imzaladılar.*

*Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında «Dəmir yol nəqliyyatı sahəsində əməkdaşlıq haqqında» sazişi Azərbaycanın Nəqliyyat naziri Ziya Məmmədov və «Roxu Oxanu Tacikistan» Dövlət unitar müəssisəsinin sədri İmoməli Xokimov imzaladılar.*

*Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında «Hava əlaqəsi haqqında» sazişi «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş*

*direktoru Cahangir Əsgərov və «Tacikeyr» Dövlət unitar aviasiya müəssisəsinin Baş direktoru Xakimşo Tulloyev imzaladılar.*

**Tacikistanın Milli Tarix Muzeyi ilə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Düşənbədə Milli Tarix Muzeyi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevi muzeyin direktoru Saidmurad Bobolulloyev böyük hörmət və ehtiramla qarşıladı, muzeyi ziyarət etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O dedi ki, qədim dövlətçilik ənənələrinə malik Tacikistanın tarixini əks etdirən muzeydə 10 mindən çox arxeoloji eksponat, geyim dəstləri, məişət əşyaları, kənd təsərrüfatı alətləri və s. toplanmışdır. 2001-ci ildə yaradılmış muzeydə ölkənin bütün regionlarından gətirilmiş eksponatlar 22 bölmədə nümayiş etdirilir.*

*Prezident İlham Əliyev muzeyi gəzdi, ayrı-ayrı bölmələrlə tanış oldu və muzeyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Prezident İlham Əliyevə muzeyin xüsusi albomu hədiyyə olundu.*

## TACİKİSTANIN BAŞ NAZİRİ AKİL AKİLOV İLƏ GÖRÜŞ

*Düşənbə*

*15 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Düşənbədə onun üçün ayrılmış iqamətgahda Tacikistan Respublikasının Baş naziri Akil Akilovu qəbul etmişdir.*

*Prezident İlham Əliyevin bu rəsmi səfərini tarixi hadisə adlandıran Akil Akilov Azərbaycanda son illər əldə olunan iqtisadi inkişafdan məmnunluqla danışdı və bundan öz ölkəsinin də faydalanmaq fikrində olduğunu bildirdi. O, ölkələrimiz arasında əməkdaşlıq sahəsində potensial imkanların çox geniş olduğunu vurğuladı və dedi ki, əsas elektroenergetika, mədən sənayesi, neft-qaz sektoru, ümumiyyətlə, faydalı qazıntıların hasilatı sahəsində Azərbaycanın təcrübəsindən yararlanaraq, əlaqələri daha da genişləndirmək zəruridir. Kənd təsərrüfatı, infrastruktur, yolların və körpülərin salınması istiqamətində layihələr həyata keçirilə bilər.*

*Prezident İlham Əliyev bildirdi ki, iki ölkə arasında əməkdaşlığa regional xarakter vermək daha perspektivli və faydalıdır, əlaqələrin genişləndirilməsi üçün konkret sahələr üzrə işçi qruplarının yaradılması əhəmiyyətlidir.*

## AZƏRBAYCAN VƏ TACİKİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLA ÇIXIŞLARI

*Düşənbə, Dövlət iqamətgahı*

*15 mart 2007-ci il*

### Tacikistan prezidenti İmoməli Rəhmonun bəyanatı

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri! İlk növbədə, mən dostlarımızı – dost Azərbaycanın prezidenti, əziz dostum İlham Əliyevi və onu müşayiət edən nümayəndə heyətini Tacikistan hökuməti və xalqı adından hərarətlə salamlamaq istəyirəm.

Azərbaycan dövlət başçısının Tacikistana ilk rəsmi səfəri iki ölkənin rəhbərliyinin möhkəm çoxəsrlik ənənələri olan ölkələrimiz və xalqlarımız arasında münasibətlərə yeni təkan verməyə qarşılıqlı surətdə səy göstərdiyinə sübutdur.

Bu ənənələrdən danışarkən ilk növbədə, Azərbaycanın böyük oğlu, həm də tacik və fars ədəbiyyatının klassiki sayılan, poeziya dühaları sırasına daxil olan Nizami Gəncəvini nəzərdə tuturam. Tacik xalqı diyarımızın tərəqqisinə, Tacikistanda elmin, təhsilin, mədəniyyətin inkişafına sanballı töhfə vermiş Azərbaycan xalqının şanlı nümayəndələrinin adlarını heç zaman unutmayacaqdır.

Aparılmış danışıqların yekunları barədə demək istəyirəm ki, danışıqlar konstruktivlik və qarşılıqlı hörmət şəraitində, qarşılıqlı anlaşma və mövcud zəngin potensialdan əməkdaşlıq üçün istifadə edilməsinə maraq göstərilməsi ruhunda keçmişdir.

Səfər iki dövlətin uzunmüddətli əməkdaşlığı üçün hüquqi baza olacaq sənədlərin sanballı paketini hazırlamış nüma-

yəndələrimizin gərgin işinə əslində nöqtə qoymağa imkan verəcəkdir.

Bunların sırasında mən geniş əhatəli sənədi – Tacikistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin imzalanması faktını xüsusi vurğulamaq istəyirəm. Deyə bilərik ki, bu müqavilənin imzalanması ilə münasibətlərimiz beynəlxalq hüququn hamılıqla tanınmış prinsipləri və normalarına əsaslanan keyfiyyətcə yeni səviyyəyə çıxmışdır. Tərəflər ölkələrimiz arasında çoxşaxəli əməkdaşlıq yaratmaq arzusunu ifadə etmişdir və zənnimcə, indi bundan ötrü bütün zəruri ilkin zəmin var və olduqca əlverişli şərait yaradılmışdır.

Biz yaxın gələcəkdə qarşılıqlı fəaliyyət mexanizmini formalaşdırmağı nəzərdə tuturuq və münasibətlərin müqavilə-hüquq bazasını təkmilləşdirmək üzərində işi daimi əsasda davam etdirmək barədə razılığa gəldik. Biz aktual regional və beynəlxalq problemləri müzakirə etdik, fəaliyyətin, o cümlədən həm Tacikistanın, həm də Azərbaycanın daxil olduqları beynəlxalq təşkilatlar çərçivəsində mövqelərin əlaqələndirilməsi məqsədi ilə siyasi əlaqələri davam etdirməyi qərara aldıq.

Biz Mərkəzi Asiyada və Qafqazda cərəyan edən proseslər haqqında fikir mübadiləsi apardıq. Dövlətlər arasında bütün mübahisələrin dincliklə həllinin qəti tərəfdarı olan Tacikistan Dağlıq Qarabağ münaqişəsinin həllində tərəflər arasında danışıqların bərpasını alqışlayır və bunu dünyanın bu çox mühüm regionunda sülhün və sabitliyin möhkəmlənməsi üçün yeganə vasitə sayır.

Tacikistan tərəfi aparılmış danışıqları qiymətləndirərək hesab edir ki, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyevin rəsmi səfərinin birinci günü çox səmərəli olmuşdur. Mən ona, habelə Azərbaycan nümayəndə heyətinin bütün üzvlərinə ölkəmizə səfərin xoş keçməsini və ikitərəfli münasibətlərimizin möhkəmlənməsi naminə yeni-yeni uğurlar arzulayıram.

İndi isə İlham Heydəroviçdən səfərdən aldığı təəssüratını bizimlə bölüşməyi böyük məmnunluqla xahiş edirəm. Buyurun.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

İlk növbədə, mən qardaş Tacikistan torpağında belə səmimi qəbula, mənə və nümayəndə heyətimizin bütün üzvlərinə göstərilən qonaqpərvərliyə görə dostum İmoməli Şariroviçə bir daha dərin minnətdarlığımı bildirmək istərdim.

Bu, Azərbaycan prezidentinin Tacikistana ilk rəsmi səfəridir və artıq bu gün, demək olar ki, səfər çox uğurlu keçir. Çox ətraflı danışıqlar aparıldı, istər ikitərəfli əməkdaşlıqla, istərsə də beynəlxalq münasibətlərlə bağlı məsələlərin bütün spektri nəzərdən keçirildi. Həmçinin münasibətlərimizin inkişafının əsas yolları göstərildi, ikitərəfli siyasi, iqtisadi, humanitar əlaqələrin inkişaf istiqamətlərini bəri başdan müəyyən edəcək çox mühüm sənədlər imzalandı. Hətta bu sənədlərin özü ikitərəfli planda mövcud olan başlıca istiqamətləri göstərir. Bunlar həm siyasi, həm iqtisadi, həm də mədəni münasibətlərdir.

Biz ikitərəfli münasibətlərimizə çox böyük əhəmiyyət veririk və bunun parlaq təzahürü kimi, deyə bilərəm ki, Azərbaycanın Tacikistanda səfirliyinin açılması haqqında qərar qəbul etmişik. Ümidvaram ki, bu səfirlik yaxın vaxtlarda açılacaqdır. Bu, ikitərəfli əlaqələrimizi möhkəmləndirmək barədə niyyətlərimizin ciddiliyinin parlaq təsdiqidir.

Çox yaxşı perspektivlər var. Bizi ümumi mədəniyyət, ümumi tarixi keçmiş, ənənələr, zəngin mədəni irs, xalqlarımızın yaxınlığı, habelə müstəqilliyin bütün illəri ərzində ölkələrimizin və xalqlarımızın hiss etdikləri qarşılıqlı dəstək birləşdirir.

15 il əvvəl xalqlarımız azadlıq əldə etdilər, ölkələrimiz müstəqil dövlətlər oldu və oxşar problemlərlə – müharibə, dağıntılar, insanların bədbəxtlikləri ilə qarşılaşdı. Lakin

xalqlarımız bu ciddi sınaqdan şərəflə çıxdılar. Hazırda dövlətçilik sabit inkişaf edir, möhkəmlənir, öz vətəndaşlarımıza yaxşı həyat yaradılması üçün iş gedir.

Ölkələrimizin iqtisadiyyatlarının inkişaf sürəti çox aydın şəkildə göstərir ki, onlar ən ağır vaxtları, böhran dövrünü arxada qoymuşlar. Hərçənd bizim regionda – Cənubi Qafqazda problemlər hələ də var.

Azərbaycan Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasətindən zərər çəkmişdir. Bu etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. Azərbaycan ərazisinin 20 faizi işğal altındadır. Biz münaqişənin beynəlxalq aləmdə tanınmış hüquq normaları çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri nəzərə alınmaqla həll edilməsinə tərəfdarıq. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir.

Bununla yanaşı, biz 1994-cü ildə müvəqqəti barışıq yarandığı vaxtdan bəri iqtisadi potensialın möhkəmləndirilməsi, iqtisadiyyatımızın inkişafı üzərində fəal işləmişik və işləyirik. Bu istiqamətdə çox böyük uğurlar qazanmışıq. Biz çox böyük transmilli regional enerji və nəqliyyat layihələri həyata keçirmişik. Onlar bir tərəfdən, Azərbaycanın regionda və dünyada rolunu və mövqeyini möhkəmləndirir, digər tərəfdən isə, ölkəmizin malik olduğu çox böyük iqtisadi və intellektual potensialdan tam istifadə etmək imkanı verir.

Əminəm ki, məqsədyönlülük, öz gücümüzə, habelə haqqədalətə inam və əzmkarlıq elə amillərdir ki, onlar ölkəmizə işğalın nəticələrini aradan qaldırmağa və ərazi bütövlüyümüzü bərpa etməyə imkan verəcəkdir.

Bu gün mənim hörmətli İmoməli Şaripoviçlə ikitərəfli münasibətlərimizlə bağlı məsələlərin çox geniş dairəsini müzakirə etmək imkanım oldu. Ümumi anlayışımız belədir ki, münasibətlərimizi yalnız real, əməli işlərlə dolğunlaşdırmaqla yüksək səviyyəyə çıxarmaq olar. Mənim Tacikistana

səfərim də bu istiqamətdə mühüm addımlardan biridir. Mən dostum İmoməli Şaripoviçi onun üçün əlverişli vaxtda Azərbaycana rəsmi səfərə və bu cür fəal dialoqu davam etdirməyə dəvət etdim.

Səmimi qəbula görə bir daha təşəkkürümü bildirmək istəyirəm, burada özümü evimdəki kimi hiss edirəm. Ümidvaram ki, ölkələrimiz və xalqlarımız arasındakı münasibətlər gələcəkdə də möhkəmlənəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l (*Zərinə Nazarova, «Mir» Dövlətlərarası Teleradio Şirkəti*): İlham Heydəroviç, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığının perspektivləri necədir və Azərbaycan hansı investisiya layihələrində – xüsusən Tacikistanda – iştirak etmək niyyətindədir?**

**İ l h a m Ə l i y e v:** Əməkdaşlıq, ümumən, çox ugurla inkişaf edir. Biz Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarını, habelə sonra Qara dəniz hövzəsi regionlarını və Avropanı birləşdirən energetika və nəqliyyat layihələri üzərində işləyirik. Nəqliyyat və energetika layihələri, Mərkəzi Asiya ölkələri ilə əmtəə dövriyyəsinin artırılması öz bəhrələrini verir. Ona görə də bu istiqamət bizim üçün çox vacib, çox perspektivlidir. Asiya ilə Avropa arasında körpü olan Azərbaycan bu baxımdan özünün bütün vəzifələr, istər nəqliyyat, istərsə də energetika infrastrukturunu – bunlar həm də qaz kəmərləridir – Mərkəzi Asiyanın istehsalçıları və təchizatçılarının istifadəsinə verməyə hazırdır və verir.

O ki qaldı investisiya layihələrinə, deməliyəm ki, hələ ötən il Azərbaycan şirkətləri ölkəmizin hüdudlarından kənarda kapital qoyuluşu proqramını ciddi surətdə həyata keçirməyə başlamışlar. O vaxtadək bütün əsas səylərimiz daxili investisiyalara, iqtisadiyyatın real sektorunun inkişa-

fına və sənaye istehsalının artırılmasına yönəldilmişdi. Deməliyəm ki, bu çox hissolunan nəticələrini vermişdir. Keçən il Azərbaycan sənayesi əsasən sərmayələr, o cümlədən Azərbaycanın öz şirkətlərinin sərmayələri hesabına 40 faiz artmışdır.

Hazırda müəssisələrimizin dünyada yaxşı nüfuzu var, maliyyə imkanları var və sərmayə yatırımı prosesi başlanmışdır. Ona görə də bugünkü səfər, imzalanmış sənədlər, əminəm ki, fəal dialoqun gələcəkdə də davam etdirilməsi, nümayəndə heyətləri mübadiləsi – o cümlədən iqtisadi sahədə – vəsaitimizin Tacikistan iqtisadiyyatının hansı sektoruna yatırıla biləcəyi barədə daha tam təsəvvür yaradacaqdır. Biz bunu çox diqqətlə nəzərdən keçiririk və əminəm ki, hörmətli İmoməli Şaripoviçin Azərbaycana səfərinədək bu istiqamətdə birgə fəaliyyətimizin əsas cizgiləri artıq görünəcəkdir.

**S u a l (*Fərid İsgəndərov, Azərbaycanın «Space» teleşirkəti*): Mən prezidentləri salamlayıram. Sualım həm Azərbaycan prezidentinə, həm də Tacikistan prezidentinədir. Lütfən deyin, iki ölkə arasında humanitar, mədəni əlaqələrin inkişaf perspektivləri necədir?**

**İ m o m ə l i   R ə h m o n:** Bu gün biz geniş tərkibdə görüşümüzdə də mədəni-humanitar sahədə əlaqələrin inkişafı, o cümlədən Azərbaycanda Tacikistan mədəniyyəti günləri və Tacikistanda Azərbaycan mədəniyyəti günləri keçirilməsi məsələlərini müzakirə etdik. Özü də təkcə mədəniyyət günlərinin keçirilməsini deyil. Bu gün biz sənədlər imzaladıq və yaxşı bünövrə, sanballı hüquqi baza yaratdıq. Bu gün biz qapılarımızı açırıq – viza rejimi haqqında saziş imzaladıq. Bu, yaxşı perspektiv açır. Bu gün mən hörmətli və əziz dostum İlham Heydəroviçə məlumat verdim ki, respublikanın təşəkkülünün hətta ilk illərində, hələ keçmiş Sovet İttifaqı dövründə Azərbaycan ziyalılarının olduqca çox nümayəndəsi bu prosesdə iştirak edib, rəhbər vəzifələrdə, Tacikistan KP MK-nın katibləri olmuşlar. Tacikistanın birinci Daxili İşlər naziri məhz Azərbaycan diasporunun nümayəndəsi idi. İndi biz çox sanballı hüquqi baza yaratmışıq və

iqtisadiyyatdan, siyasi, diplomatik fəaliyyətdən tutmuş, bütün istiqamətlərdə, bütün sahələrdə inkişaf başlandığını bildirmişik. Ticarət-iqtisadi fəaliyyət xüsusilə inkişaf edir, ildən-ilə artır. İnkişaf sürəti çox yüksəkdir – əmtəə dövriyyəsi hər il 25–30 faiz artır. O, ötən il 140 milyon dollardan artıq olmuşdur ki, bu da 2005-ci ildəkinə nisbətən 2 faiz çoxdur. Bu gün hər iki tərəf mədəni-humanitar əlaqələrimizi inkişaf etdirmək niyyətində olduğunu təsdiqlədi.

**İ l h a m Ə l i y e v:** Əlavə etmək istərdim ki, biz əməkdaşlığımızın iqtisadi və siyasi sahələri kimi, bu istiqamətinə də ciddi yanaşırıq. Çünki qeyd olunduğu kimi, bizi həm də mədəniyyətlərin ümumiliyi birləşdirir. Sovet İttifaqının tərkibində olduğumuz dövrdə də qarşılıqlı əlaqələr çox fəal idi. Xalqlarımızın humanitar sahədə qarşılıqlı əlaqələr çərçivəsində yaratdıqları müsbət nə varsa, hamısını bu gün də həyata keçirmişik və ümid edirik ki, əlaqələrimiz möhkəmlənəcək, inkişaf edəcəkdir. Bundan ötrü çox sanballı baza var. Yeri gəlmişkən, ikitərəfli münasibətlərimizin əsasını da başlıca olaraq bu baza təşkil edir. Çünki böyük mədəni ümumilik olan ölkələrlə, xalqlarla ümumi dil tapmaq və münasibətlər qurmaq həmişə asandır. Bizim ənənələrdə də, ədəbiyyatda da, incəsənətdə də, bütün başqa sahələrdə də ümumiliyimiz mövcuddur. Hətta bayramlarımız da eynidir.

Bu imkandan istifadə edərək qardaş tacik xalqını üzümüzə gələn Novruz bayramı münasibətilə təbrik etmək, hamıya firavanlıq, xoşbəxtlik və ölkənizə tərəqqi arzulamaq istərdim.

**S u a l: (*Zarohoddin Sirocov, Tacikistan*): Mənim sualım Azərbaycan Respublikasının prezidentinədir. Hörmətli İlham Heydəroviç, Tacikistanda bir sıra işlənilməmiş neft və qaz yataqları var. Azərbaycan isə bu sahədə böyük təcrübəyə malikdir. Siz bu sahədə inkişafın mümkünlüyünə və perspektivliyinə necə baxırsınız?**

**İ l h a m Ə l i y e v**: Mən əvvəldə bu suala cavab verdim. Biz bütün bunları xaricdə gerçəkləşdirilən ciddi investisiya

layihələri çərçivəsində nəzərdən keçiririk. Artıq ötən ilin axırlarından belə layihələr həyata keçirilməyə başlanmışdır. Azərbaycan Dövlət Neft Şirkəti keçmiş İttifaqın bəzi respublikalarının infrastrukturuna on, yüz milyon dollarlarla sərmayə qoymuşdur. Bu proses davam edir. Dediyiniz kimi, bizim çox böyük təcrübəmiz var. Azərbaycan dünyada neftin ilk dəfə sənaye üsulu ilə çıxarıldığı, eləcə də dünyada ilk dəfə dəniz yataqlarından neft çıxarıldığı ölkədir. Əlbəttə, bu, böyük təcrübədir, üstəlik, indi onun çox ciddi iqtisadi kapitalı, milyardlarla dollar valyuta ehtiyatları olan dünyanın aparıcı neft şirkətləri ilə – dünyanın bütün aparıcı neft şirkətləri investorlar kimi Azərbaycandadır – əməkdaşlıq təcrübəsi ilə möhkəmləndiyi bir vaxtda Tacikistanda bir sıra layihələrdə birgə iştirak bizim üçün böyük maraq doğurardı. Amma bunun üçün təkcə xoş məram və niyyət azdır. Zənnimcə, əgər biz bunu daha ətraflı müzakirə etsək, onda vəziyyətlə daha ətraflı tanış olmaq və mümkün əməkdaşlığın yollarını müəyyənləşdirmək üçün Azərbaycan neft sənayesinin ekspertlərindən ibarət nümayəndə heyətinin Tacikistana göndərilməsindən danışmaq olar.

**S u a l (*Zənurə Talıbova, Azərbaycanın «ANS» teleşirkəti)*: Mənim sualım hər iki prezidentədir. Sizcə Azərbaycan prezidentinin Tacikistana rəsmi səfəri ölkələrimiz arasında siyasi dialoq üçün nə kimi yeni imkanlar açır?**

**İ m o m ə l i  R ə h m o n**: Ölkələrimiz bir çox beynəlxalq və regional təşkilatların üzvüdür. Əvvəla, biz BMT-nin, ATƏT-in, MDB-nin üzvüyük. Bu beynəlxalq təşkilatlarda uyğun gələn baxışlarımız, müzakirə və qəbul edilən qərarlarımız olduqca çoxdur. Yəni ölkələrimiz arasında siyasi əlaqələr, siyasi dialoq həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdiriləcəkdir. Biz Azərbaycanın mərhum prezidenti, uzun illər tanıdığımız və birlikdə işlədiyimiz Heydər Əliyeviçdən həmişə dəstək alırdıq. Heydər Əliyeviç bütün beynəlxalq və regional təşkilatlarda Tacikistanın mövqeyini dəstəkləyirdi. Düşünürəm

ki, belə ənənə gələcəkdə də davam etdiriləcəkdir. Biz bir-birimizi hər vasitə ilə dəstəkləyəcəyik. Hər vasitə ilə buna çalışacağıq. Bu gün biz razılığa gəldik və mən dostum İlham Heydəroviçin Azərbaycana rəsmi səfər etmək barədə dəvətini qəbul etdim. Çox təəssüf ki, bütün bu illər ərzində mən Azərbaycanda, Bakıda olmamışam. Odur ki, ilin sonunadək cavab səfərinə getmək niyyətindəyəm. Bu, işimizə kağız üzərində deyil, əməli surətdə təkan verəcəkdir. Bax, indi sual verirsiniz. Demək istəyirəm ki, bütün məsələlərimizi bir səfər ərzində dərhal həll etmək olmaz və dərhal sabah burada sərmayə olmayacaq, yaxud investisiya şirkəti işləməyəcək və digər iqtisadi layihələr həyata keçirilməyəcəkdir. Bu, həmin prosesə güclü təkan verəcək və onu sürətləndirəcəkdir. Qısa müddət ərzində yüksək səviyyədə görüşlər, ölkələrimizin diplomatik əlaqələri, biznes-forumları olacaqdır. Zənnimcə, cavab səfərində biznes qurumlarımızın nümayəndələrini də dəvət etmək yaxşı olardı.

İndi Tacikistanda 400-dən çox layihə hazırlanmış və sərmayələrin cəlb olunması üçün təqdim edilmişdir. Bunlar hidroenergetika sahəsinə, mineral ehtiyatların, qiymətli daşların, qiymətli metalların emalının inkişafı, kömür sənayesinin inkişafı sahəsinə aiddir. Tacikistan bunlarla zəngindir. Keçmiş Sovet İttifaqından bizə xəritə üzərində qalan neft və qaz yataqları Tacikistanın özünü neft və qaz ilə çox cüzi təmin etmək üçün kifayətdir. İlham Heydəroviç deyir ki, dünyanın ən iri şirkətləri Azərbaycanda bu sahədə işləyir. Bu bizi çox maraqlandırır. Düşünürəm ki, gələcəkdə biz bu şirkətləri yataqların işlənilməsinə, öyrənilməsinə, belə layihələrə sərmayə yönəltməsinə cəlb etməyin mümkünlüyünü nəzərdən keçirəcəyik.

**İlham Əliyev**: Əlavə etmək istərdim ki, İmoməli Şaripoviçlə bizim aramızda çox fəal dialoq mövcuddur. Biz müxtəlif beynəlxalq forumlarda tez-tez görüşürük və həmişə də ikitərəfli görüşlər keçirməyə, fikir mübadiləsi aparmağa imkan tapırıq. Mövqelərimiz üst-üstə düşür. Elə bugünkü

səfərim və istər təkbətək, istərsə də geniş formatda apardığımız ikitərəfli danışıqlar bir daha göstərir ki, baxışlarımız uyğun gəlir. İkitərəfli, regional əməkdaşlıq məsələlərində də, regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi məsələlərində də, ölkələrimizdə dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi məsələlərində də.

Əlbəttə ki, bütün bunlar çox fəal siyasi dialoqa kömək edir. Dediyim kimi, biz Azərbaycanın Tacikistanda səfirliyini açmağı qərara almışıq və bu mühüm siyasi addım siyasi əlaqələrimizi möhkəmləndirəcək və eyni zamanda, hər iki ölkənin potensialını daha yaxşı bilməyə imkan verəcək, iqtisadi münasibətləri də, humanitar əlaqələri də və s. inkişaf etdirməyə daha çox imkan yaradacaqdır.

Ona görə də biz münasibətlərimizin səviyyəsindən razıyıq, aramızda heç bir problem yoxdur. Əksinə, qarşılıqlı hörmət, dostluq hissləri mövcuddur və bu hisslər xalqlarımızın əməkdaşlığının çoxəsrlik təcrübəsi ilə möhkəmlənmişdir.

Bu gün İmoməli Şaripoviç Azərbaycanın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini və onların arasında mövcud olmuş səmimi münasibətləri də xatırladı. Azərbaycanda Heydər Əliyevin xətti və siyasəti bütün istiqamətlərdə davam edir. Mən bunu prezident vəzifəsinə yenicə başlayanda bildirmişdim və indi də bu, ölkəmiz üçün tərəqqiyə və çiçəklənməyə doğru yeganə yoldur. Təbii ki, əvvəlki illərdə mövcud olmuş siyasət bu gün ikitərəfli münasibətlərimizdə davam və inkişaf edir.

Daha bir məqamı da demək istəyirəm ki, İmoməli Şaripoviçlə ikilikdə keçirdiyimiz görüşlər bir çox ümumi cəhətlərimizin olduğunu göstərdi. Təəssüf ki, belə bir ümumi məqam o idi ki, nə mən indiyədək Tacikistanda olmuşdum, nə də o, Azərbaycanda olubdur. Bu, böyük nöqsan idi və bu gün mən onu aradan qaldırdım. Ümidvaram ki, İmoməli

Şaripoviç yaxın vaxtlarda ölkəmizə gələcək və biz fəal əməkdaşlığımızı davam etdirəcəyik.

**İ m o m ə l i R ə h m o n**: Əziz dostlar, əlavə olaraq deyim ki, Azərbaycanın indiki inkişaf səviyyəsi bizi çox sevindirir. Bizi Qazaxıstanın da inkişaf səviyyəsi çox sevindirir. Bütün ənənəvi, çoxəsrlik dostluq münasibətləri, sırf insani münasibətlər də. Bir də ki, onlar ən yaxın qonşularımızdır.

Taciklərin yaxşı bir məsəli var: qonşunun gün-güzəranı yaxşı olsa, ondan sənə də pay düşər. Əgər qonşunun vəziyyəti pisdirsə, onda sən də buna hazırlaş. Tacikistanda baş vermiş faciə – vətəndaş müharibəsinin başlanması, Əfqanıstanda baş vermiş və iyirmi iki ildən artıq davam etmiş faciə Tacikistanda vəziyyətə təsir göstərir. Uğurla inkişaf edən ölkə kimi yaxşı qonşumuz olduqda isə biz də qazanırıq. İndi hər il Qazaxıstandan Tacikistan iqtisadiyyatına 70 milyon dollardan çox vəsait yönəldilir. Halbuki beş il əvvəl Qazaxıstanın özünün belə imkanı yox idi. Düşünürəm ki, tezliklə Azərbaycandan da sərmayələr olacaqdır. Bu məgər pisdir? Yox, bu yaxşıdır. Bu gün biz çox yaxınıq. İlham Heydəroviç bu gün buraya təyyarə ilə cəmi iki saat yarıma gəldi. Bu məgər məsafədir? İndi bu məsafə heç nədir.

Hörmətli jurnalistlər, çox sağ olun. Bu gün mən mətbuat konfransının əvvəlində bayram münasibətilə sizi də təbrik etdim, üzümüzə gələn Novruz bayramı münasibətilə bir daha təbrik edirəm. Düşünürəm ki, o bizim hamımız üçün ümumi bayramdır. Odur ki, yaxşı ovqat, möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq arzulayıram.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Düşənbə, Dövlət iqamətgahı*

*15 mart 2007-ci il*

### Tacikistan prezidenti İmoməli Rəhmonun nitqi

Hörmətli İlham Heydəroviç!
Əziz dostlar!

İcazə verin, əziz dostlarımızı bir daha salamlayım. Biz toplanmış təcrübəni, ölkələrimizin və bir-birinə rəğbət hissləri bəsləyən xalqlarımızın qarşılıqlı münasibətlərini dəyərli hesab edirik və bunları gələcək nəsillər üçün qoruyub saxlamaq və artırmaq əzmindəyik. Sevindirici haldır ki, indi, ölkələrimizin müstəqil inkişafının yeni şəraitində xoş ənənələr – xalqlarımız arasında dostluq, qarşılıqlı rəğbət və etimad ənənələri öz əhəmiyyətini itirməyib və keyfiyyətcə yeni zəmində məntiqi davamı var.

Müstəqil inkişafın 15 ildən artıq dövrü ərzində qarşılıqlı əlaqələr sahəsində qiymətli təcrübə toplanmışdır. Fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, iki ölkənin əməkdaşlıq sahələrinin genişlənməsi və dərinləşməsi üçün Tacikistan bundan sonra da bütün zəruri səyləri göstərəcəkdir.

İndi hamı münasibətlərimizin bütün kompleksinin müzakirə edilməsinə maraq göstərir. İmzalanmış ikitərəfli sənədlər paketi, ilk növbədə dostluq və əməkdaşlıq haqqında dövlətlərarası müqavilə Tacikistan–Azərbaycan münasibətlərinin ardıcıl inkişafı üçün yaxşı perspektiv yaradır. Əminəm ki, keçirilmiş görüşlər və aparılmış danışıqlar birgə

qarşılıqlı əlaqələrimizə güclü təkan verəcək və faydalı əməkdaşlıq üçün geniş imkanlar açacaqdır.

Əziz dostlar, mənim əziz dostum, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydəroviç Əliyevin və bütün əziz dostlarımızın sağlığına böyük məmnuniyyətlə badə qaldırmağı təklif etmək istərdim. Tacikistan ilə Azərbaycan arasında dostluq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin inkişafı və dərinləşməsi şərəfinə, ölkələrimizin və xalqlarımızın əmin-amanlığı, tərəqqisi və firavanlığı şərəfinə!

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Çox hörmətli İmoməli Şaripoviç!

Əziz dostlar!

İcazə verin, qardaş Tacikistan torpağında mənim və nümayəndə heyətimin üzvlərinə göstərilən qonaqpərvərliyə görə sizin hamınıza bir daha təşəkkür edim.

Bu gün biz çox uğurlu danışıqlar apardıq, qeyd olunduğu kimi, mövqelərimiz üst-üstə düşür, onlar imzalanan bütün sənədlərdə, dostluq və əməkdaşlıq haqqında müqavilədə öz əksini tapmışdır. Bu, ikitərəfli münasibətlərimizin sürətli inkişafını bir sıra illər öncədən müəyyənləşdirəcəkdir. Bu gün siyasi, iqtisadi, humanitar sahələrdə hərtərəfli əməkdaşlığın çox möhkəm təməli qoyulur. Əminəm ki, imzalanmış sazişlərin bütün müddəalarının yerinə yetirilməsi nəticəsində biz bir-birimizə daha yaxın olacağıq.

Fəal regional iqtisadi əməkdaşlığın perspektivləri artıq indinin özündə görünməkdədir. Bu əməkdaşlığın əsas istiqamətləri artıq müəyyən edilmişdir. Əminəm ki, gələcəkdə münasibətlərimizin inkişaf etdirilməsi və müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin qarşılıqlı səfərləri əməkdaşlığımıza və əlaqələrimizə daha çox kömək edəcəkdir.

Bu gün mən dostum, çox hörmətli İmoməli Şaripoviçi rəsmi şəkildə Azərbaycana səfərə dəvət etdim və yeni görü-

şümüzü səbirsizliklə gözləyirəm. Bu gün mən özümü evimdəki kimi hiss edirəm, Tacikistana ilk dəfə səfər edirəm, amma mənə elə gəlir ki, ölkənizi çoxdan tanıyıram. Bu həqiqətən belədir. Ölkənizi kitablardan, tacik mədəniyyəti, incəsənəti incilərinin nümunələrindən tanıyırdım. Bu gün Milli Tarix Muzeyində olarkən bu torpağın nə qədər zəngin olduğunu, dünyaya həm memarlıq, həm mədəniyyət, həm də sənət əsərlərinin belə incilərini verən bu xalqın nə qədər qədim olduğunu bir daha yəqin etdim.

Bu gün mən bu badəni dostum İmoməli Şaripoviç Rəhmonun şərəfinə, qardaş Tacikistan xalqının şərəfinə qaldırmaq istəyirəm. Qoy İmoməli Şaripoviç Rəhmonun rəhbərliyi ilə ölkəniz gələcəkdə də uğurla inkişaf etsin, torpağınızda həmişə sülh, sabitlik və firavanlıq olsun! Tacikistan ilə Azərbaycan arasında dostluğun şərəfinə!

## TACİKİSTANIN MİLLİ MƏCLİSİNİN SƏDRİ MAHMADSAİD UBAYDULLOYEV İLƏ GÖRÜŞ

*Düşənbə*

*16 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Tacikistan Respublikası parlamentinin yuxarı palatasının – Milli Məclisin sədri Mahmadsaid Ubaydulloyev ilə görüşmüşdür.*

*Mahmadsaid Ubaydulloyev prezident İlham Əliyevi parlamentin binası qarşısında böyük hörmət və ehtiramla qarşıladı.*

*Görüş zamanı Mahmadsaid Ubaydulloyev zəhmətkeş və istedadlı Azərbaycan xalqının rəhbərini salamlamaqdan məmnunluğunu bildirərək dedi ki, zəngin tarixi və mədəniyyəti olan Azərbaycanla dostluq əlaqələrini genişləndirmək istəyimiz böyükdür. Sizin rəsmi səfərinizi yüksək qiymətləndirir və əminik ki, bu, əməkdaşlığımızda yeni səhifə açacaqdır.*

*Milli Məclisin sədri bildirdi ki, görkəmli dövlət xadimi Heydər Əliyev vaxtilə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən Tacikistan üçün mühüm strateji əhəmiyyət daşıyan Kulyab dəmir yolunun çəkilişində müstəsna rol oynamışdır. Tacikistanda iqtisadiyyatın inkişafı, yoxsulluğun azaldılması sahəsində görülən işlərdən söhbət açan Mahmadsaid Ubaydulloyev qeyd etdi ki, biz Azərbaycanda gedən inkişaf proseslərindən sevinirik. Azərbaycanda regional inkişaf proqramı uğurla icra olunur və biz ölkənizin bu təcrübəsindən yararlanmaq fikrindəyik. O, parlamentlərarası əməkdaşlıqdan danışaraq bildirdi ki, Tacikistan Milli Məclisində Tacikistan–*

*Azərbaycan dostluq qrupu yaradılıbdır və bu, əməkdaşlığımızı daha da dərinləşdirəcəkdir.*

*Prezident İlham Əliyev Azərbaycanda gedən iqtisadi inkişafdan, siyasi proseslərdən danışdı, Azərbaycan ilə Tacikistan arasında layihələrin həyata keçirilməsinin zəruriliyini, imzalanmış sənədlərin, parlamentlərarası əlaqələrin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında əlaqələrin genişlənməsi üçün möhkəm potensial, xalqlarımızın dostluğu, mədəni-tarixi yaxınlıqlar var və bütün bunlar yeni əməkdaşlıq üçün böyük imkan yaradır.*

*Bu səfərin ikitərəfli əlaqələrin genişlənməsində yeni mərhələ açacağını vurğulayan dövlətimizin başçısı qarşılıqlı mədəniyyət günlərinin keçirilməsinin qərara alındığını xatırlatdı.*

*Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzündən və onun ağır nəticələrindən, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsində ölkəmizin mövqeyindən ətraflı danışdı.*

* * *

*Martın 16-da Tacikistan prezidenti İmoməli Rəhmonun adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.*

* * *

*Martın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistana rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Tacikistanın Dövlət bayraqları ilə bəzədilmiş Düşənbə hava limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyevi Tacikistan prezidenti İmoməli Rəhmon və digər yüksək vəzifəli şəxslər böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Prezident İlham Əliyev həmin gün Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Xalqımızın ən əziz bayramı – Novruz bayramı münasibətilə sizi səmimi-qəlbdən təbrik edir, hər birinizə əsl Novruz əhval-ruhiyyəsi arzulayıram.

Kainatın qanunları ilə sıx bağlı olan bu bayram ulu əcdadlarımızdan yadigar qalmış adət-ənənələri özündə parlaq şəkildə əks etdirir. Azərbaycan torpağında baharın ilk gəlişi uzun əsrlərdir ki, bərqərar olmuş xüsusi mərasimlərlə qarşılanır. Xalqımızın mənəvi dünyasını bütün zənginliyi ilə ifadə edən bu el bayramı təbiətin dirçəlməsi və yeniləşməsi ilə səciyyələnir. O, gələcəyə inam hissi aşılayır, könüllərdə ən ali duyğular oyadır, insanları daha xeyirxah, mərhəmətli və mehriban olmağa çağırır.

Azərbaycan xalqı böyük milli-mənəvi gücə malik Novruz bayramını həmişə uca tutaraq tarixinin ən çətin, ən mürəkkəb dövrlərində belə, yad təsirlərdən qorumuş, ürəklərdə, yaddaşlarda daim ümidlə yaşatmışdır. Öz müstəqilliyini bərpa etdiyi gündən ölkəmizdə bayramın rəsmi səviyyədə keçirilməsinə başlanmışdır. Yurdumuzun hər bir guşəsində onun təntənəli surətdə qeyd olunması dövlət müstəqilliyimizin bəhrələrindəndir.

Bu bahar günlərində Azərbaycanın iqtisadi uğurları xüsusi qeyd edilməlidir. Respublikamızın bütün bölgələrində aparılan quruculuq işləri təbiətlə yanaşı, iqtisadiyyatımızın da yeniləşməsindən xəbər verir. Ölkəmizdə müşahidə olunan iqtisadi dirçəliş hər birimizdə yüksək əhval-ruhiyyə yaradır.

Mən torpaqlarımızın müdafiəsində dayanan mətin Azərbaycan əsgərinə bu əziz gündə xüsusi bayram təbriklərimi yetirirəm. Vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman övladların unudulmaz xatirəsini

dərin ehtiramla yad edərək, onlara Allahdan rəhmət diləyirəm.

Novruz bayramını müstəqil Azərbaycanın vətəndaşları ilə birlikdə müxtəlif xarici ölkələrdə yaşayan soydaşlarımız da böyük sevinc və fərəhlə qeyd edirlər. Dünya azərbaycanlılarının həqiqi həmrəylik rəmzi kimi, bu bayram olduqca böyük rol oynayır, onların ana Vətənə qırılmaz tellərlə bağlılıqlarını daha da gücləndirir.

Bu əziz bayram günündə hamınıza cansağlığı, xoşbəxtlik və səadət arzu edirəm.

Yurdumuzun baharı, xalqımızın Novruz bayramı mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 mart 2007-ci il*

## BAKIDA NÖVBƏTİ YOL QOVŞAĞININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ

*Bakı*

*19 mart 2007-ci il*

*Azərbaycan Respublikası prezidentinin «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006–2007-ci illər üçün Tədbirlər Planının təsdiq edilməsi haqqında» 2006-cı il 1 fevral tarixli sərəncamına uyğun olaraq, paytaxtda inşa ediləcək 9 yol qovşağından daha biri martın 19-da istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*

*Paytaxtın 20 Yanvar dairəsində – Tbilisi prospekti ilə Həsən bəy Zərdabi küçəsinin kəsişməsində tikilmiş müxtəlif səviyyəli yol qovşağının açılışına toplaşan inşaatçılar və şəhər sakinləri prezident İlham Əliyevi hörmət və ehtiramla qarşıladılar. Dövlətimizin başçısına gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev yol qovşağının layihəsinə, tikinti prosesini əks etdirən şəkillərə baxdı, habelə Tbilisi prospekti ilə Cavad xan küçəsinin kəsişməsində tikilən müxtəlif səviyyəli yol qovşağının sxemi ilə tanış oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov «Azərkörpü» Səhmdar Cəmiyyətinin tikdiyi yol qovşağının göstəriciləri barədə məlumat verdi. O bildirdi ki, mürəkkəb mühəndis-texniki qurğu olan yol qovşağının təməli 2006-cı ilin aprelində qoyulmuşdur. Bura 8 dairəli müxtəlif səviyyəli yol qovşağı – körpü və tuneldən ibarətdir. İşlər iki mərhələdə həyata keçirilmişdir. Birinci mərhələdə inşa olunan körpü-keçidin uzunluğu 1,12 kilometr, o cümlədən yolötürücü 290 metr, yanaşmalar 830*

*metr, istinad divarları 523 metr təşkil edir. Körpü-keçidin smeta dəyəri 24,1 milyon manatdır. O cümlədən yolötürücüsünün tikintisinə 11,5 milyon, yanaşma yollarına 6,7 milyon, abadlaşdırma və işıqlandırma işlərinə 1,1 milyon, kommunikasiyalar üçün 2,3 milyon və digər işlərə 2,5 milyon manat xərclənmişdir. Bütövlükdə yol qovşağının smeta dəyəri 31,5 milyon manatdır. İkinci mərhələdə görülən işlərə 7,4 milyon manat sərf olunmuşdur. Monolit dəmir-beton işlərinin həcmi 23 290, yığma dəmir-beton işlərinin həcmi 4 995 kubmetrdir.*

*Ziya Məmmədov vurğuladı ki, Rusiyanın Nəqliyyat Akademiyasının mütəxəssisləri körpünün davamlılığını yoxlamışlar. Bütün işləri yerli mütəxəssislər yerinə yetirmişlər. Xarici şirkətlərə ehtiyac qalmamışdır. Əgər bu işi Avropa şirkətləri görsəydilər, tikinti üç dəfə baha başa gələcəkdi. Aparılan xüsusi araşdırma göstərdi ki, körpü müasir standartlara cavab verir, çox davamlıdır, yükgötürmə qabiliyyəti layihədə nəzərdə tutulduğundan çoxdur. Layihədə müəyyən dəyişikliklər edilmiş, yeni qovşaqlar yaradılmış, yolların uzunluğu, hündürlüyü ilə bağlı əlavə düzəlişlər olmuşdur. Burada təhlükəsizlik zolağı da nəzərə alınmışdır. Nazir nəqliyyat problemlərinin həllinə göstərdiyi diqqət və qayğıya görə prezidentə minnətdarlığını bildirdi və qarşıdan gələn Novruz bayramı münasibətilə nəqliyyatçılar adından təbrik etdi.*

*Dövlətimizin başçısına aeroport istiqamətində çəkiləcək körpünün maketi hədiyyə olundu.*

*Prezident İlham Əliyev körpünün ümumi görünüşünün, işıqlandırma sisteminin gözəl və müasir olduğunu bildirdi. O, rəmzi açılışı bildirən lenti kəsdi və buraya toplaşan inşaatçılara və sakinlərə müraciətlə dedi:*

Sizi bu körpünün açılışı münasibətilə təbrik edirəm. Çox gözəl körpüdür. Siz bunu çox qısa müddətdə inşa etmisiniz və Bakının nəqliyyat probleminin həlli üçün böyük işlər görmüsünüz. Həm xarici görünüşü gözəldir, həm də bütövlükdə keyfiyyəti çox yüksək səviyyədədir. Çox sevindiricidir ki, bu gözəl işi yerli şirkət görübdür. Bakıda bir-iki yerdə

yox, doqquz yerdə belə gözəl körpülərin tikintisinə başlanmışdı. İkisi bundan əvvəl, ikisi də bu gün, bayram ərəfəsində istismara verildi. Ona görə mən sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun. Çox yaxşı işləmisiniz. Bundan sonra da Bakıda və Azərbaycanda çox işlər – tikinti, quruculuq, abadlıq işləri görüləcəkdir. Ona görə artıq sizin şirkətinizin böyük imkanları var, gələcəkdə böyük layihələrdə iştirak edəcəkdir.

Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

*İnçaatçılar və sakinlər dövlətimizin başçısını Bahar bayramı münasibətilə təbrik etdilər, Bakının müasirləşdirilməsinə göstərdiyi diqqətə görə minnətdarlıqlarını bildirdilər.*

* * *

*Sonra prezident İlham Əliyev körpünü gəzdi və tunelin yerləşdiyi əraziyə gəldi. Tunelin divarına «Yolötürücü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı əsasında 2006–2007-ci ildə inşa edilmişdir» sözləri yazılmış xüsusi lövhə vurulmuşdur.*

*Dövlətimizin başçısına paytaxtımızın Tbilisi prospektində inşa olunmuş tunelin göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, burada 1280 metrlik yolun 332 metri tuneldən keçir. Yolötürücünün tamamlanması ölkəmizin şimal istiqamətində nəqliyyatın şəhərə giriş-çıxışının asanlaşmasında, nəqliyyat axınının intensiv olduğu bu ərazidə hərəkətin tənzimlənməsində və bütövlükdə paytaxtın nəqliyyat probleminin həllində mühüm rol oynayacaqdır. Bu layihədə nəqliyyatın hərəkəti tunelə salınaraq, fasiləsizlik təmin olunmuş, tunelin üzərində qurulmuş qovşaq nəqliyyat vasitələrinin hərəkətini asanlaşdırmışdır. Bağlantı qollar sayəsində nəqliyyatın hər tərəfə sərbəst hərəkəti təmin olunmuşdur.*

*Tunel ikitərəfli hərəkət üçün nəzərdə tutulmuşdur. Hər tərəfdə üç hərəkət zolağı vardır. Uzunluğu 332 metr, eni 30*

*metr, hərəkət zolağının eni 25,5 metr (hər birinin eni 12,75 metr olan ikiistiqamətli yol), hündürlüyü 5,5 metrdir. Ayırıcı zolağın eni 3 metr, hər iki tərəfdə səkilərin eni 0,75 metrdir. Kənar yollar və digər yollarla 3 120 metr uzunluğunda bağlantılar inşa edilmişdir. Tunelin istinad divarları ilə birlikdə uzunluğu 986 metrdir. Tikinti-quraşdırma işləri zamanı uzunluğu 16,20 metr olan 398 ədəd yığma dəmir-beton tirlər quraşdırılmış, 1133 ədəd dirək vurulmuşdur. 25 685 kubmetr optimal çınqıl qarışığı, 18 115 kubmetr fraksiyalı qırmadaş, 35 500 ton asfalt-beton və 12,1 min kubmetr betondan istifadə edilmişdir. Tunel və köməkçi yollarda işıqlandırma, ventilyasiya, yanğından təhlükəsizlik, siqnalizasiya, rabitə və kamera sistemləri quraşdırılmışdır. Tikinti işləri zamanı 8 müxtəlif mühəndis-kommunikasiya xətləri köçürülmüşdür. 30 illik inşaat təcrübəsi olan Türkiyənin «Kolin» şirkəti tunelin tikintisini 10 aya başa çatdırmışdır.*

*Azərbaycan prezidenti tunelin rəmzi açılışını bildirən lenti kəsdi, xatirə şəkli çəkdirdi və piyada gəzərək tunellə tanış oldu.*

* * *

*Sonra prezident İlham Əliyev tunelin üzərində salınmış parkla tanış oldu.*

*Paytaxt sakinlərinin asudə vaxtlarını səmərəli keçirməsi üçün yaradılmış istirahət guşəsi şəhərimizə xüsusi yaraşıq verir. Burada hər cür rahatlıqla yanaşı, texniki təhlükəsizliyə nəzarət etmək üçün bütün imkanlar yaradılmışdır. Belə ki, hərəkətə və tunelin fəaliyyətinə daimi nəzarət kameraları, fövqəladə hallarda polis, yanğından mühafizə və səhiyyə xidmətləri ilə dərhal əlaqə yaratmaq üçün xüsusi qurğular quraşdırılmış və nəzarət otağı tikilmişdir. İşıqlandırma sistemləri, əkilmiş ağaclar və dekorativ bitkilər buraya gözəl görkəm vermişdir.*

*Paytaxtın şimal qapısında salınan parkın, yol qovşağının istifadəyə verilməsi Novruz ərəfəsində gözəl bayram hədiyyəsidir.*

* * *

*Prezident İlham Əliyev Tbilisi prospekti ilə Cavad xan küçəsinin kəsişməsində, metronun «20 Yanvar» stansiyasının yaxınlığında inşa olunacaq tunelin sxemi ilə tanış oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov, «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov məlumat verdilər ki, burada nəqliyyatın gediş-gəlişinin asanlaşdırılması üçün tədbirlər görülür. Artıq körpü tikilmişdir, tunel də çəkiləcəkdir. Mətbuat prospektindən mikrorayonlara hərəkət edən nəqliyyat vasitələri bu tuneldən keçəcəkdir. Layihədə müəyyən dəyişiklik edilmiş, piyadalar üçün keçidlər planlaşdırılmışdır. İşlər bayramdan dərhal sonra başlanacaq, ümumi yol qovşağının tikintisinin ikinci mərhələsi çərçivəsində yerinə yetiriləcəkdir. Tbilisi prospekti və Cavad xan küçəsindəki müxtəlif səviyyəli yol qovşağı ikinci mərhələdə inşa olunacaq və bütövlükdə, ölkəmizdə ən uzun qovşaq olacaqdır.*

*Bu ərazidə metrodan istifadə edənlərin və digər sərnişinlərin rahatlığı üçün mikroavtobusların xüsusi dayanacağı yaradılacaqdır. Tunel bu ilin oktyabrında istismara hazır olacaq və beləliklə, bu ərazidə tıxac problemi tamamilə aradan qaldırılacaqdır.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, bu əzəmətli yol qovşağının müasir standartlara cavab verdiyini, ən yüksək texnologiyanın tətbiq edildiyini, görünüşünün çox gözəl olduğunu vurğuladı. Dövlətimizin başçısı tikinti işlərini yüksək səviyyədə apardıqlarına görə inşaatçılara və sifarişçilərə təşəkkürünü bildirdi, müxtəlif istiqamətlərdə salınan yeni yolların sxemlərinə baxdı, nəqliyyat vasitələrinin hərəkətinin asanlaşdırılması, tıxacların aradan qaldırılması məqsədi ilə bundan sonra da tədbirlərin görüləcəyini söylədi, lazımi tövsiyə və tapşırıqlarını verdi.*

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN HOSPİTALININ YENİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ

*Bakı, Nərimanov rayonu*

*19 mart 2007-ci il*

*Martın 19-da Bakının Nərimanov rayonu ərazisində, Daxili İşlər Nazirliyinin general-leytenant Arif Heydərov adına hospitalının yeni binasının təməlinin qoyulması münasibətilə mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov dövlətimizin başçısına raport verdi. Hospitalın kollektivi prezident İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladı.*

*Dövlətimizin başçısı inşa olunacaq yeni binanın layihəsi ilə tanış oldu.*

*Məlumat verildi ki, ərazinin ümumi sahəsi 3 hektar, tikintinin sahəsi isə 2602 kvadratmetrdir. Beşmərtəbəli binanın sahəsi 14920 kvadratmetr olacaqdır. İnşaat işlərini «Vayzer Konstrukşion» tikinti şirkəti yerinə yetirəcəkdir. 320 çarpayılıq hospitalda 50 çarpayılıq terapiya şöbəsi, 50 çarpayılıq kardiologiya şöbəsi, stomatoloji cərrahiyyə bölməsi və ümumi cərrahiyyə, nevrologiya şöbələri, ümumi travmalar bölməsi və travmatologiya, uronefroloji, hemodializ, endokrinologiya, oftalmologiya və otolorinqologiya şöbələri fəaliyyət göstərəcəkdir. Hospitalda ortopedik travmatoloji, ixtisaslaşdırılmış və endoskopik əməliyyat otaqları, reanimasiya, intensiv terapiya, reabilitasiya və fizioterapiya müalicə şöbələri, şüa diaqnostikası, endoskopiya şöbələri, ultrasəs müayinəsi, qastroskopiya, bronxoskopiya kabinetləri, mərkəzi kliniki diaqnosti-*

*ka laboratoriyası və aptek olacaqdır. Kompleksin gələn il istifadəyə verilməsi nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev hospitalın maketinə baxdı, gələcəkdə onun ən müasir avadanlıqla təmin olunacağını söylədi.*

*Dövlətimizin başçısı dəmir gilizi binanın təməlinə qoydu və beton qarışığı tökdü.*

*Səhiyyə sahəsində göstərilən diqqət və qayğıya görə minnətdarlıq edən tibb işçiləri prezident İlham Əliyevi alqışlarla yola saldılar.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Krasnodar diyarında ahıllar evindəki yanğın və Kemerovo vilayətində «Ulyanovskaya» şaxtasındakı partlayış nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni son dərəcə kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 mart 2007-ci il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ NİTQ

*21 mart 2007-ci il*

*Doğma Azərbaycanımızın hər yerində xalqımız qədim el bayramı olan Novruzu böyük sevinc və yüksək əhval-ruhiyyə ilə qarşılayır. Azərbaycan prezidentinin Novruz bayramı münasibətilə xalqımıza təbrikində deyildiyi kimi, bu əziz bayramı müstəqil Azərbaycanın vətəndaşları ilə birlikdə müxtəlif xarici ölkələrdə yaşayan soydaşlarımız da böyük sevinc və fərəhlə qeyd edirlər. Dünya azərbaycanlılarının həqiqi həmrəylik rəmzi kimi, bu bayram olduqca böyük rol oynayır, onların ana Vətənə qırılmaz tellərlə bağlılıqlarını daha da gücləndirir.*

*Həmişə olduğu kimi, bu dəfə də baharın gəlişi münasibətilə ən izdihamlı bayram şənlikləri ölkəmizin paytaxtı Bakıda keçirilmişdir. Martın 20-də qədim İçərişəhərin darvazaları qarşısında – Gənclər meydanında bayram münasibətilə böyük mərasim təşkil olunmuşdu. Ətrafdakı binaları, əsrlərin şahidi olan qədim qala divarlarını al-əlvan plakatlar bəzəyirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva Novruz şənliklərində iştirak etmək üçün Gənclər meydanına gəldilər. Meydana toplaşmış minlərlə şəhər sakini dövlətimizin başçısını, onun xanımını hərarətlə, sürəkli alqışlarla qarşıladı, onlara bahar ətirli gül-çiçək dəstələri, Bahar qız isə el adətincə səməni və xonça təqdim etdi. Dövlətimizin başçısı Novruz tonqalını alovlandırdı.*

*Qədim tariximizi əks etdirən səhnələr – İçərişəhərin qala divarları üstündə dayanmış qılınc və qalxanlı döyüşçülər, Dədə Qorqudun xalqa xitabı, öyüd-nəsihəti, igidləri düşmən üzərində qələbəyə səsləməsi, Bahar bayramının millətimizə ruzi-bə-*

*rəkət gətirməsi üçün xeyir-dua verməsi qəhrəmanlıqla dolu keçmişimizin mənzərəsini canlandırırdı.*

*Şən, oynaq musiqi sədaları ətrafı bürümüşdü. Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları dalğa-dalğa hər tərəfə yayılır, bayram mərasiminin iştirakçılarında daha xoş ovqat doğururdu.*

*Prezident İlham Əliyev şənliyə toplaşmış paytaxt sakinləri ilə səmimiyyətlə salamlaşdı, onları Novruz bayramı münasibətilə təbrik etdi.*

*Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.*

Əziz həmvətənlər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı Azərbaycan xalqının ən sevimli bayramlarından biri – Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan xalqı bu gözəl bayramı əsrlər boyu öz qəlbində yaşatmışdır. Ancaq biz müstəqillik əldə edəndən sonra bu bayram Azərbaycanda rəsmi bayram kimi qeyd olunur. Bu il bu bayram Azərbaycanda beş gün qeyd ediləcəkdir. Əgər şənbə və bazar günlərini də əlavə etsək, belə çıxır ki, bir həftə ərzində Azərbaycanda bu bayram geniş şəkildə qeyd olunacaqdır. Birinci növbədə, bu onu göstərir ki, Novruz bayramı bizim üçün ən əziz, ən sevimli bayramdır. İkinci tərəfdən, bu bayramın yeddi gün ərzində qeyd olunması hər bir ailəyə imkan yaradır ki, məzuniyyətdən başqa, ildə bir dəfə ailə birlikdə olsun, istirahət etsin və dincəlsin. Hesab edirəm ki, Azərbaycanın indiki şəraiti bizə bu imkanları yaradır. Ölkəmiz sürətlə inkişaf edir, iqtisadi artım çox sürətlidir və belə olan halda, əlbəttə ki, gözəl bayramları qeyd etmək insanlara daha da xoşdur.

Novruz bayramı qeyd etdiyim kimi, bizim ən sevimli, ən əziz bayramımızdır və Azərbaycan xalqı bütün dövrlərdə bu

bayramı çox geniş şəkildə qeyd edib. Sadəcə olaraq, rəsmi bayram kimi bu, son 15 il ərzində qeyd olunur. Amma bütün ailələrdə əsrlər boyu bu bayram qeyd olunub və beləliklə, bayram, bizim milli mənəvi dəyərlərimiz, ənənələrimiz Azərbaycan xalqının inkişafında çox böyük rol oynamışdır. Azərbaycan xalqını bir xalq kimi qorumuşdur, möhkəmləndirmişdir. Baxmayaraq ki, müstəqillikdən məhrum idik, ancaq bizim ənənələrimiz, mədəniyyətimiz, milli mənəvi dəyərlərə bağlılığımız bizi bir millət kimi qorudu və möhkəmləndirdi.

Bu gün müstəqillik şəraitində Azərbaycan çox uğurla, çox inamla addımlayır. Qarşıda duran bütün vəzifələr – istər iqtisadi sahədə, istərsə də başqa sahələrdə – öz həllini tapır. Son üç il ərzində Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyada birinci ölkədir. Bu liderliyi əldə etmək çox çətin məsələ idi. Onu qoruyub saxlamaq isə bundan da çətin məsələdir. Çünki ildən-ilə artan iqtisadi potensialı yüksək səviyyədə saxlamaq, əlbəttə ki, çox böyük fədakarlıq tələb edir. Bu inkişaf bizim üçün çox böyük imkanlar açır. Azərbaycan xalqı bu gözəl imkanlardan artıq bəhrələnir. İqtisadi artım hər sahədə özünü göstərir. Aparılan geniş quruculuq-abadlıq işləri ölkəmizi hərtərəfli inkişaf etdirir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra olunur. Azərbaycanda yoxsulluq kəskin şəkildə aşağı düşübdür, işsizlik azalıbdır. Vəzifə isə ondan ibarətdir ki, Azərbaycanda yoxsulluq tamamilə aradan götürülsün və biz bunu edəcəyik. Üç il bundan əvvəl bu vəzifə qarşıya qoyulub və bu üç il ərzində görülən işlər göstərir ki, biz düzgün istiqamətdə inkişaf edirik.

Azərbaycanda siyasi proseslər çox müsbət istiqamətdə inkişaf edir. Bərqərar olunmuş ictimai-siyasi sabitlik ölkəmizin inkişafı üçün başlıca şərtdir. Ölkəmizdə qayda-qanun var, nizam-intizam var, eyni zamanda, hüquqi dövlət qurulur. Demokratikləşmə prosesləri çox sürətlə gedir. Azərbaycan dünya birliyinə çox sürətlə inteqrasiya edir və dün-

yada mövcud olan ən mütərəqqi təcrübəni tətbiq edir. Bu bizə imkan verəcək ki, dünya iqtisadiyyatına daha da sürətlə inteqrasiya edək, Azərbaycanda açıq cəmiyyət möhkəmlənsin, demokratik proseslər daha da sürətlə getsin. Bütün azadlıqlar təmin olunsun və qanunun aliliyi tam şəkildə təmin edilsin.

İqtisadi islahatlarla bərabər, siyasi islahatların da böyük önəmi var. Azərbaycanın müsbət təcrübəsi onu göstərir ki, bütün istiqamətlərdə addımlar vaxtında və düzgün atılmışdır. Bütövlükdə, ölkəmizin gələcəyi üçün çox gözəl şərait var. İqtisadi gücümüz artır, siyasi sabitlik bizə əlavə güc verir. Bölgədəki layihələrdə Azərbaycan fəal rol oynayır və bölgədəki imkanlarımız genişlənir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi bizim önəmimizi xeyli dərəcədə artırıbdır. Bu il Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin işə düşməsi nəzərdə tutulub və biz Azərbaycan üçün, bütün bölgə üçün çox böyük önəm daşıyan Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə də başlayacağıq. Uzun illər ərzində müzakirə olunan bu layihə artıq reallığa çevrilir. Bu bizim iradəmizin, bizimlə qonşu ölkələrin birgə səylərinin nəticəsidir. Azərbaycan xalqının iradəsinin nəticəsidir. Bu bir daha göstərir ki, bizim qarşımızda duran hər bir məsələ, hər bir vəzifə öz həllini tapır. Elə məsələ yoxdur ki, biz onu həll etmək istəyək, fəqət nail olmayaq. Bu bizim gücümüzü, Azərbaycanın müstəqil ölkə kimi möhkəm olduğunu göstərir. Biz müstəqil siyasət aparırıq. Bizim siyasətimiz yalnız və yalnız Azərbaycan xalqının milli maraqlarına söykənir və Azərbaycan xalqının milli maraqlarının təmin edilməsi üçün aparılır.

Bizim şəhərimiz, paytaxtımız Bakı da gözəlləşir. Bir müddət bundan əvvəl Bakının qəsəbələrinin inkişaf proqramı qəbul edilibdir. Bu proqram uğurla icra olunur. Çoxlu məktəblər, xəstəxanalar tikilir, bütün lazımi infrastruktur layihələr həyata keçirilir. O cümlədən şəhərimiz də gözəlləşir. Şəhər infrastrukturuna böyük investisiyalar qoyulur. Bildi-

yiniz kimi, dünən Bakının nəqliyyat probleminin həlli üçün yeni iki gözəl körpü və tunel istismara verilibdir. Bu, insanlara daha çox rahatlıq verəcəkdir. Bundan əvvəl iki körpü istismara verilmişdir və növbəti aylarda beş yerdə yeni körpülərin açılması nəzərdə tutulur. Biz bütün bunları insanların rahatlığı üçün, yaxşı yaşaması üçün edirik. Bu məsələlərə çox böyük vəsait sərf olunur. Bildiyiniz kimi, bu vəsait gəlir gətirən investisiyalar deyildir. Sadəcə olaraq, bakılıların rahatlığı üçündür. Bu məqsədlə bir müddət bundan əvvəl Bakını içməli su ilə təmin etmək üçün böyük su kəməri tikilməyə başlanmışdır. Bu da çox böyük layihədir. Uzun illər, bəlkə də onilliklər ərzində müzakirə olunan bu layihəni artıq biz öz vəsaitimizlə həyata keçiririk. Beləliklə, 2008-ci ilin sonuna qədər Bakının su problemi tamamilə aradan qaldırılacaqdır. Biz böyük neft layihələrini həyata keçirdik və o layihələrdən, neft kəmərlərindən əldə olunan gəlirləri məhz su kəmərinin tikintisinə yönəldirik. Bunun da çox böyük rəmzi mənası var. Yəni Azərbaycanın milli sərvətləri Azərbaycan xalqının yaxşı yaşamasına yönəldilir. Elə etmək istəyirik ki, Azərbaycanda insanları narahat edən heç bir məsələ qalmasın.

İndi Bakıda çox böyük, geniş quruculuq, abadlıq işləri aparılır. Tarixi binalar təmir olunur. Vəzifə qoymuşam ki, Bakının bütün tarixi binaları yüksək səviyyədə təmir olunsun, ən müasir standartlara cavab versin. Bununla bərabər, bütün muzeylərdə təmir işləri aparılır, onların həm daxili, həm də xarici görünüşü yeniləşir. Teatrlarda təmir işləri gedir. İndi Bakıda Yaşıl Teatrın təmir-bərpa işləri sona çatır. On ildən artıqdır ki, Yaşıl Teatr, bakılıların sevimli yeri yararsız, dağılmış vəziyyətdə idi. Biz onu ən yüksək səviyyədə bərpa edirik. Bakıda Muğam Teatrının tikintisinə başlanmışdır. Xalça muzeyi üçün çox möhtəşəm, əzəmətli və milli ənənələrə uyğun olan yeni binanın tikintisi nəzərdə tutulubdur. Başqa layihələr də var. Yəni bizim gözəl şəhəri-

miz daha da gözəlləşməlidir. Biz bunu edirik və edəcəyik, çünki imkanlarımız artır.

Bildiyiniz kimi, biz bütün imkanları Azərbaycanın dünyada mövqelərinin möhkəmlənməsinə yönəldirik, daxili məsələlərin həllinə və insanların gündəlik tələbatlarının ödənilməsinə yönəldirik. Bu baxımdan sosial məsələlərin həlli də çox önəmlidir. Maaşlar və pensiyalar ildə ən azı iki dəfə artırılır. Minimum əməkhaqqı qaldırılır və bu proses bundan sonra da gedəcəkdir. Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşamalıdır və yaşayacaqdır. Məqsəd qoymuşuq ki, yoxsulluq aradan qaldırılsın və orta təbəqə güclənsin, xalqımız daha da yaxşı yaşasın və biz buna nail olacağıq.

Mən bu gözəl gündə xaricdə yaşayan soydaşlarımızı bayram münasibətilə təbrik etmək istəyirəm. Xaricdə yaşayan azərbaycanlılar öz doğma torpağına, doğma Vətəninə bağlıdırlar. Biz çalışırıq ki, onlar öz Vətənləri ilə əlaqələrini itirməsinlər. Xaricdə yaşayan azərbaycanlılar, onların övladları, uşaqları, nəticələri də milli ruhda tərbiyə alsınlar. Azərbaycan dilini bilsinlər, Azərbaycanla bağlı olsunlar. Əlbəttə, onlar yaşadıqları ölkələrin vətəndaşlarıdır və o ölkələrin qanunları ilə yaşamalıdırlar. Ancaq eyni zamanda, biz imkan verə bilmərik ki, onlar yaşadıqları ölkələrdə öz milli ənənələrini unutsunlar, yaxud da assimilyasiya olunsunlar. Bu məqsədlə biz çalışırıq ki, dünyada yaşayan bütün azərbaycanlıları Azərbaycana dəvət edək, onlar Azərbaycanla sıx bağlı olsunlar. Bizim bu sahədəki bütün fəaliyyətimiz buna yönəldilibdir. İlk növbədə, onların həyat səviyyəsinin yaxşılaşması, xaricdə rahat yaşaması üçün tədbirlər görürük, Bakıda çoxlu tədbirlər keçiririk. Eyni zamanda, onların Vətənlə əlaqələri də möhkəm olmalıdır.

Mən bu gün Azərbaycanın ərazi bütövlüyünün qorunmasında iştirak edən, səngərdə ölkəmizi müdafiə edən, təhlükəsizliyi təmin edən əsgərləri salamlayıram və onları bu gözəl bayram münasibətilə təbrik edirəm. Azərbaycanın ordusu güclənir, bizim ordu potensialımız möhkəmlənir. Bizim

ordumuz istənilən anda ən çətin, ən ağır vəzifəni icra etməyə hazırdır və buna qadirdir. Mən heç şübhə etmirəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bizim xeyrimizə həll olunacaqdır. Azərbaycanın mövqeyi birmənalıdır və bizim mövqeyimiz günü-gündən möhkəmlənir. Bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır və artıq bütün dünya, dünyanın bütün ölkələri, xüsusilə aparıcı ölkələri birmənalı şəkildə, açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün tanınmasını və müdafiəsini bəyan edir. Bu, əlbəttə, bizə əlavə güc verir. Amma ilk növbədə, öz gücümüzə istinad etməliyik, biz güclü olmalıyıq. Biz güclü iqtisadiyyat yaratmalıyıq, güclü ordu yaratmalıyıq və elə etməliyik ki, istənilən anda bu və ya digər yolla öz ərazi bütövlüyümüzü bərpa edək.

Qarşı tərəf sadəcə, vaxt uzatmaqla məşğuldur. Sadəcə, qeyri-konstruktiv mövqe nümayiş etdirir. Amma bilməlidir ki, vaxt onların yox, bizim xeyrimizə işləyir. Bu gün Azərbaycanın iqtisadiyyatı Ermənistanın iqtisadiyyatından 7 dəfə böyükdür. Nəzərə alsaq ki, biz hələ böyük enerji layihələrinin əvvəlindəyik, onların ilkin mərhələsini yaşayırıq, onda görmək çətin olmaz ki, bir neçə ildən sonra, iki-üç ildən sonra bizim üstünlüyümüz mütləq üstünlük olacaqdır. Belə olan halda, istənilən məsələ asanlıqla öz həllini tapacaqdır.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Mən xoşbəxtəm ki, bizim ölkəmiz çox sürətlə inkişaf edir. Azərbaycanın həm beynəlxalq imici möhkəmlənir, həm də ölkə daxilində sabitlik, sülh, əmin-amanlıq var. İnsanlar sülh, əmin-amanlıq şəraitində yaşayırlar. Çalışıram və çalışacağam ki, bundan sonra hər bir vətəndaşın həyatında müsbət dəyişikliklər daha da çox olsun, insanlar ildən-ilə daha da yaxşı yaşasınlar, ölkəmiz möhkəmlənsin, qüdrətlənsin, çiçəklənsin. Güclü Azərbaycan bizim hamımızın qürur mənbəyidir.

Mən bu gözəl gündə sizi bir daha ürəkdən təbrik edirəm. Arzu edirəm ki, ölkəmiz bundan sonra da inkişaf yolu ilə uğurla getsin və Azərbaycan xalqı rahat, firavan yaşasın.

Bayramınız mübarək olsun!

* * *

*Azərbaycan prezidenti İlham Əliyev İçərişəhərdə keçirilən Novruz şənliklərində iştirak etdi. Bakının ayrı-ayrı rayonlarının buraya toplaşan nümayəndələri prezidenti hərarətlə salamladılar. Dövlətimizin başçısı Bakı sakinləri və şənlik iştirakçıları ilə mehribancasına görüşdü, hal-əhval tutdu, onları bayram münasibətilə təbrik etdi. Bahar qız Azərbaycan prezidentini xalqımızın qədim el bayramı münasibətilə ürəkdən təbrik etdi, Azərbaycanın xoşbəxt gələcəyi, firavanlığı, ölkəmizin dirçəlişi və ərazi bütövlüyünün bərpası naminə gördüyü işlərdə ona uğurlar arzuladı.*

*İncəsənət ustaları, bədii özfəaliyyət kollektivləri xalqımızın adət-ənənələrini, qədim el sənətlərini nümayiş etdirdilər, «Kosa, Keçəl və Bahar qız» tamaşasını göstərdilər, rəngarəng konsert proqramı ilə çıxış etdilər. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər. Şənlik iştirakçıları qədim xalq mahnılarını ifa edir, milli musiqinin sədaları altında rəqs edirdilər. Novruz şənliklərinin elementlərindən olan xoruz döyüşü də unudulmamışdı.*

*Prezidenti özlərinə xas sevinclə salamlayan paytaxtın balaca sakinləri unudulmaz Heydər babaya, Vətənə və dövlətimizin başçısına həsr olunmuş mahnılar ifa etdilər.*

*Sonra prezident İlham Əliyevi Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar. Kosa dövlətimizin başçısına müraciətlə dedi:*

– Cənab Prezident, bayramınız mübarək. Mən Kosa, bu da Keçəl, elimizin içində olmuşuq, onların dərdinə, arzularına şərik çıxmışıq. Allah Sizin canınızı sağ eləsin. İnşal-

lah, xalqımızın arzuları çin olacaq, Sizin rəhbərliyinizlə qələbə bizim olacaqdır. Xalqımızın ümummilli lideri, ulu öndərimiz Heydər Əliyevin gördüyü tarixi işlər unudulmur, onun siyasəti Sizin tərəfinizdən ləyaqətlə həyata keçirilir. Ölkəmiz günbəgün inkişaf edir. İnşallah, dövlətimiz bundan sonra daha da güclənəcək, ölkəmiz inkişaf edəcək və xalqımız bir-birindən gözəl bayramlar keçirəcəkdir.

*Kosa və Keçəl arzu və istəklərinin çin olması üçün prezidentlə və onun xanımı ilə yumurta döyüşdürdülər.*

*Bakının müxtəlif rayonlarından gəlib Novruz şənliyində iştirak edənlər dövlətimizin başçısını səmimiyyətlə salamladılar. Prezident İlham Əliyev burada təndirdə kabab və çörək bişirilməsinə, ipəyirmə, naxışvurma, xalçatoxuma və digər qədim el sənətlərinin nümayişinə baxdı, kəndirbazın çıxışına maraqla tamaşa etdi.*

*Daha sonra aşıq İslam Qobustanlı prezidentin şərəfinə mahnı oxudu. Dünya memarlığının gözəl nümunələrindən olan qədim Qız qalasının qarşısında folklor və rəqs qruplarının çıxışı da maraqla qarşılandı.*

*Dövlətimizin başçısı onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və respublika paytaxtının qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.*

*Novruz bayramı münasibətilə keçirilən şənliklərdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

## ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ VƏ İCTİMAİ XADİMİ MSTİSLAV LEOPOLDOVİÇ ROSTROPOVİÇƏ

Hörmətli Mstislav Leopoldoviç!

Sizi 80 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə xoşbəxtlik, cansağlığı və bənzərsiz fəaliyyətinizdə uğurlar arzulayıram.

Sizin sənətiniz violonçel ifaçılığı tarixində yeni bir dövr açmışdır. Yaradıcılığınızı tədqiq edənlər xüsusi vurğulayırlar ki, ifanızda nəinki bütünlüklə dünya violonçel musiqisinin repertuarı, eləcə də Sizin üçün bəstələnmiş yüzdən artıq əsər səslənmişdir. Hazırda dünyanın müxtəlif guşələrindəki istedadlı və gənc violonçelçalanları bir araya gətirən ən nüfuzlu müsabiqənin şərəfinizə keçirilməsi vurğunu olduğunuz çalğı aləti haqqında mövcud təsəvvürləri dəyişə bilməyinizin bariz göstəricisidir.

Dirijor kimi fəaliyyətiniz müasir musiqi sənətini özünəməxsus duyumunuzun təzahürüdür. Dünyanın ən tanınmış simfonik orkestrləri ilə çıxışlarınızla Siz incəsənət xəzinəsinə dəyərli töhfələr bəxş etmisiniz. Mötəbər teatrlarda klassik və müasir musiqi incilərinin səhnə təcəssümü ilə bağlı layihələriniz də Sizə böyük şöhrət qazandırmışdır.

Totalitarizmə qarşı atdığınız addımlar, Berlin divarı və Moskvada parlament binası önündəki çıxışlarınız siyasi fəaliyyətinizin yaddaqalan nümunəsi olmuş və XX əsrin tarixinə aid dərsliklərə daxil edilmişdir. Əldə etdiyiniz uğurları bəşər övladının mənafeyi naminə yönəltməyiniz yalnız Sizə xas olan xüsusiyyətlərdəndir. Bütün dünyada, o cümlədən Azərbaycanda mədəniyyət, təhsil və səhiyyə sahələrində gördüyünüz xeyriyyəçilik işləri bunu bir daha təsdiq edir.

İnanıram ki, yaradıcılığınızı səciyyələndirmək cəhdi bütün hallarda ifadəsi qeyri-mümkün olan ucsuz-bucaqsız bir aləmi anlatmaq istəyindən başqa heç nə olmayacaqdır. Sizin fəaliyyətiniz, şübhəsiz, elə bir fenomendir ki, onu həm musiqiçilər, həm də siyasətçilər zaman keçdikcə dərk edəcəklər. Yalnız onu deyə bilərəm ki, şəxsən mənim üçün Sizinlə hər ünsiyyətim hamını təkrarsız şəxsiyyəti, müdrikliyi, cazibəsi və iti zəkası ilə heyran edən qeyri-adi bir insanın dünyasına nüfuz etmək imkanıdır. Dmitri Şostakoviçin 100 illik yubileyinə həsr edilmiş Bakı festivalı günlərindəki son görüşümüz zamanı mən buna bir daha əmin oldum.

Azərbaycanda musiqi mədəniyyətinin inkişafı naminə etdiklərinizi olduqca yüksək qiymətləndirirlər. Bakıda Sizinlə görüşmək fürsəti tapan hər kəs qeyd edir ki, musiqiləriniz müxtəlif səs yazılarında nə qədər gözəl səslənsə də, canlı ifanız onun təsir gücünü daha da artırır. Bütün həmyerliləriniz əmindirlər ki, konsertlərinizdə, ustad dərslərinizdə və ya Sizinlə istənilən görüşdə yaratdığınız heyrətamiz abhava hər şeyi kökündən dəyişdirməyə qadirdir.

Unudulmaz Heydər Əliyevlə Sizi dərin dostluq telləri bağlayırdı. Filarmoniyada onun xatirəsinə ithaf etdiyiniz musiqinin səsləndiyi konsert bizim yaddaşımızdan heç zaman silinməyəcəkdir.

Siz tərcümeyi-halı, həyat yolu Bakı şəhərindən başlayan bir dünya vətəndaşısınız. Bu gün ev-muzeyinizin yerləşdiyi bu şəhər həm də sadəcə olaraq, Sizin evinizdir. Bu doğma evinizdə gözəl insan kimi daim yolunuzu gözləyir, dahi musiqiçi kimi Sizi sevir və görkəmli ustad-müəllim kimi şəxsiyyətinizə pərəstiş edirlər.

Ən səmimi və xoş arzularla, Sizin

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 mart 2007-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MSTİSLAV ROSTROPOVİÇİN 80 İLLİYİ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA SƏFƏRİ**

*27 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya şöhrətli musiqiçi və dirijor, maestro Mstislav Rostropoviçin 80 illiyi ilə bağlı yubiley tədbirlərində iştirak etmək üçün martın 27-də Moskvaya yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Moskvaya gəlmişdir.*

*Vnukovo hava limanında Azərbaycan dövlətinin başçısını və xanımını Rusiya XİN-in yüksək vəzifəli nümayəndələri və digər rəsmi şəxslər qarşıladılar.*

* * *

*Martın 27-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva zəmanəmizin görkəmli musiqiçisi və dirijoru, həmyerlimiz Mstislav Rostropoviçin 80 illiyi şərəfinə Rusiya prezidenti Vladimir Putin tərəfindən Dövlət Kreml sarayında təşkil olunmuş rəsmi qəbulda iştirak etmişlər.*

*Qonaqlar arasında maestronun pərəstişkarları – Avropanın kral ailələrinin üzvləri, Monako knyazı II Albert, RF hökumətinin rəsmi şəxsləri, Rusiyanın bəzi regionlarının rəhbərləri də vardı.*

**Mstislav Rostropoviç:** Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən özümü ən xoşbəxt adam sanıram: ailəm, dostlarım və həmkarlarım mənimlədirlər. Bu hədiyyəyə – yubileyi əziz dostlarımın arasında bayram etməyə görə sizə və prezidentə təşəkkür edirəm. Əgər bu gecə sizin üçün xoş olarsa, mən daha xoşbəxt olaram. Mən buna çox ümid bəsləyirəm. Çox sağ olun.

**Vladimir Putin:** Hörmətli Mstislav Rostropoviç!

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Bu gün təkcə vətənimizin mədəniyyətində deyil, həm də dünya mədəniyyətində böyük hadisədir. Çünki bu gün biz görkəmli musiqiçinin və gözəl insanın yubileyini qeyd edirik. Rostropoviçin əli nəyə toxunursa-toxunsun – istər violonçelin kamanı olsun, istərsə də dirijor çubuğu, fərqi yoxdur – hamısından istedad ətri gəlir. Bilirik ki, Rostropoviçi dünya insanı adlandırırlar. Həqiqətən də belədir. Lakin onun Rusiyanı necə həssaslıqla duyduğunu və öz ölkəsini necə sevdiyini şəxsən mən də bilirəm, salondakıların çoxu da bilir. Hakimiyyətdə olan bir çox insanlar Rostropoviç yaradıcılığını sevirlər. Lakin onun qüdrəti milyonlarla sadə insanın sevgisindədir. Mstislav Rostropoviç təkcə görkəmli musiqiçi deyil, o həm də 25 ildir xeyriyyəçiliklə məşğuldur.

Əziz Slava, biz səni yubiley münasibətilə səmimi-qəlbdən, ürəkdən təbrik edirik!

Bu təntənəli gündə bildirmək istəyirəm ki, mən Mstislav Rostropoviçin Rusiyanın ali mükafatlarından biri ilə – «Vətən qarşısında xidmətlərə görə» ordeninin I dərəcəsi ilə təltif edilməsi haqqında fərman imzalamışam.

*Sonra Rusiya prezidenti mükafatı yubilyara təqdim etdi.*

**İ l h a m Ə l i y e v:** Əziz Slava!

Əziz Qalina Pavlovna!

Hörmətli xanımlar və cənablar!

Bu gün, bu gözəl gündə şanlı yubiley münasibətilə bütün Azərbaycan xalqının hərarətli salamını və ən xoş arzularını əziz həmyerlimizə çatdırmaq istəyirəm. Azərbaycanda biz belə böyük həmyerlimizlə fəxr edirik. Bakıda Rostropoviçlərin adını daşıyan küçə var. Slava hər il öz Vətəninə gəlir, ustad dərsləri keçir, gənc istedadlara, xəstə uşaqların müalicəsinə kömək edir, öz Vətəni üçün çox böyük humanitar iş görür.

Məlum olduğu kimi, Azərbaycan uzunömürlülər diyarıdır. Dünyanın ən məşhur uzunömürlü insanı Azərbaycanda yaşamış və o, 160 yaşınadək ömür sürmüşdür. Lakin bu heç də yeganə hal deyildir. 120–130 il yaşayan çoxlu adam var. Odur ki, Azərbaycan meyarlarına görə Slava hələ çox cavandır. Ruhən də gəncdir. O həmişə ətrafdakılarda nikbinlik doğurur, həmişə öz enerjisi, təşəbbüsü və fəallığı ilə ilham verir. Biz həyatı sevməyi, həyatdan kam almağı və xeyirxah işlər görməyi ondan öyrənirik.

Hamı bilir ki, Slava Rostropoviç böyük musiqiçi, böyük vətənpərvər, böyük humanistdir. O ən ağır anlarda belə, öz prinsiplərinə sadiq qalmış, həmişə haqq-ədalət uğrunda mübarizə aparmış insandır. Lakin necə gözəl insan olduğunu yalnız onu tanıyan adamlar bilirlər. Onun özünə dost bildiyi adamlar bununla haqlı olaraq fəxr edirlər.

Bu gözəl gündə elan etmək istəyirəm ki, Azərbaycan dövləti özünün görkəmli həmyerlisini Azərbaycanın ən ali ordeni ilə – Slavanın dostunun adını daşıyan ordenlə, «Heydər Əliyev» ordeni ilə təbrik etmişdir. İndi mən bu ordeni təqdim etmək istəyirəm.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev «Heydər Əliyev» ordenini Mstislav Rostropoviçə təqdim etdi.*

* * *

*Qəbul başa çatdıqdan sonra Dövlət Kreml sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Vladimir Putinin görüşü oldu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞÜ

*Moskva, Kreml sarayı*

*27 mart 2007-ci il*

*Martın 27-də Moskvada, Dövlət Kreml sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü oldu.*

*Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladılar.*

*Prezidentlər qarşılıqlı münasibətlərin dərinləşməsində yüksək səviyyələrdə keçirilən görüşlərin xüsusi əhəmiyyəti olduğunu qeyd etdilər. Ölkələrimiz arasında etibarlı tərəfdaşlıq prinsiplərinə əsaslanan əməkdaşlığın genişlənməsindən məmnunluqlarını bildirdilər.*

*Söhbət zamanı prezidentlər Azərbaycan–Rusiya əməkdaşlığının bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını vurğuladılar.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.*

* * *

*Zəmanəmizin görkəmli musiqiçisi və dirijoru Mstislav Rostropoviçin 80 illiyi münasibətilə Moskvada keçirilmiş yubiley tədbirlərində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Vətənə yola düşmüşdür.*

*Azərbaycan dövlətinin başçısını və xanımını Vnukovo hava limanında Rusiya Xarici İşlər Nazirliyinin yüksək vəzifəli nümayəndələri və digər rəsmi şəxslər yola saldılar.*

* * *

*Prezident İlham Əliyev həmin gün Bakıya gəldi.*

*Dövlətimizin başçısını Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## BELARUSUN BAŞ NAZİRİ SERGEY SİDORSKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Prezident sarayında Belarusun Baş naziri Sergey Sidorskini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin inkişafından məmnun olduğunu bildirdi. O, Belarusa rəsmi səfərindən qısa müddət keçməsinə baxmayaraq, əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində artıq konkret nəticələrin əldə olunduğunu vurğuladı. Pezident İlham Əliyev Belarusun Baş nazirinin Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin bundan sonra da inkişafına öz tövfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Sergey Sidorski Belarusun prezidenti Aleksandr Lukaşenkonun salamlarını prezident İlham Əliyevə çatdırdı. O, Belarus prezidentinin Azərbaycana bu yaxınlarda həyata keçiriləcək rəsmi səfərinə hazırlıq işlərinin aparıldığını və bu səfərin əlaqələrimizin daha da möhkəmlənməsinə mühüm töhfə verəcəyini bildirdi. Belarusun Baş naziri Azərbaycan prezidentinin Belarusa səfəri zamanı imzalanmış sənədlərin həyata keçirilməsi sahəsində görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev Belarusun prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdalığını bildirdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ SERGEY MİRONOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Prezident sarayında Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan prezidenti bildirdi ki, istər dövlət orqanları, hökumət qurumları, istərsə də parlamentlərarası əlaqələr ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. Beynəlxalq təşkilatlar çərçivəsində də nümayəndələrimiz fəal əməkdaşlıq edirlər.*

*Dövlətimizin başçısı martın 27-də Rusiya prezidenti Vladimir Putinlə keçirdiyi görüşü xatırladaraq bildirdi ki, bu görüş zamanı münasibətlərimizin müxtəlif sahələri ilə bağlı səmərəli fikir mübadiləsi aparıldı və bütün məsələlərə yanaşmada fikirlərin üst-üstə düşməsi əlaqələrimizin uğurlu inkişafını bir daha təsdiq etdi.*

*Sergey Mironov Azərbaycan prezidentinin Rusiya prezidenti ilə keçirdiyi görüş barədə dediyi fikirlərin nümayəndə heyətində böyük məmnunluq hissi doğurduğunu vurğuladı. O qeyd etdi ki, Rusiya ali qanunverici orqanının üzvləri də dövlət başçılarının keçirdiyi bu görüşün ruhuna uyğun olaraq, ikitərəfli münasibətlərin hüquqi bazasının daha da möhkəmləndirilməsi istiqamətində bundan sonra da fəal çalışacaqlar. O, Milli Məclisdə keçirdiyi görüşlər barədə məlumat verərək bildirdi ki, səfəri zamanı parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində atılacaq konkret addımlarla bağlı səmərəli müzakirələr aparılmışdır.*

## SENEQAL RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAY VADA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Seneqal xalqını ürəkdən təbrik edirəm.

Əminəm ki, dost ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli inkişafı üçün bundan sonra da səylərimizi davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 mart 2007-ci il*

## ABŞ-ın ATƏT-dəki SƏFİRİ CULİ FİNLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Prezident sarayında ABŞ-ın ATƏT-dəki səfiri Culi Finlinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə ATƏT arasındakı əməkdaşlığın səviyyəsindən razı qaldığını bildirdi. Prezident İlham Əliyev bu səfərin ölkəmizlə təşkilat arasında əlaqələrin gələcək perspektivlərini müzakirə etmək üçün yaxşı imkan yaratdığını qeyd etdi.*

*Culi Finli ölkəmizə ilk dəfə səfər etməkdən böyük məmnunluq duyduğunu bildirdi. O, səfərində məqsədin Azərbaycan–ATƏT əməkdaşlığına dair geniş məlumat almaqdan və bu əməkdaşlıqla bağlı Azərbaycan prezidenti ilə fikir mübadiləsi aparmaqdan ibarət olduğunu söylədi. Qonaq Azərbaycanın ATƏT ilə əməkdaşlığın bir sıra sahələrində, o cümlədən insan alverinə qarşı mübarizə sahəsində böyük uğurlar əldə etdiyini vurğuladı.*

## QIRĞIZISTANIN MÜDAFİƏ NAZİRİ İSMAİL İSAKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Prezident sarayında Qırğızıstanın Müdafiə naziri İsmail İsakovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan–Qırğızıstan münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında bütün istiqamətlərdə əlaqələrin genişlənməsi zərurətini bildirdi. Prezident İlham Əliyev Qırğızıstanın Müdafiə nazirinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin, o cümlədən müdafiə sahəsində əməkdaşlığın inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Qırğızıstanın Müdafiə naziri İsmail İsakov prezident İlham Əliyevə Qırğızıstan prezidenti Kurmanbek Bakiyevin salamlarını çatdırdı. O, Azərbaycana səfəri zamanı ölkələrimizin Müdafiə nazirlikləri arasında əlaqələrin perspektivlərinin müzakirə edildiyini vurğuladı.*

*Prezident İlham Əliyev Qırğızıstan prezidenti Kurmanbek Bakiyevin salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarının ona çatdırılmasını xahiş etdi.*

## ABŞ-ın «BECHTEL CORPORATİON» ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ VƏ AVROPA, AFRİKA, YAXIN ŞƏRQ, CƏNUB-QƏRBİ ASİYA REGİONLARI ÜZRƏ PREZİDENTİ ÇARLZ REDMAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 mart 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Prezident sarayında ABŞ-ın «Bechtel Corporation» şirkətinin Baş vitse-prezidenti və Avropa, Afrika, Yaxın Şərq, Cənub-Qərbi Asiya regionları üzrə prezidenti Çarlz Redmanı qəbul etmişdir.*

*Çarlz Redman Azərbaycanda iqtisadi sahədə çox böyük uğurların əldə edildiyini vurğulayaraq, təmsil etdiyi şirkətin ölkəmizlə əməkdaşlığa böyük maraq göstərdiyini bildirdi. O, səfəri zamanı bu əməkdaşlığın gələcək perspektivlərinin konkret istiqamətləri barədə səmərəli müzakirələr apardığını söylədi.*

*Dövlətimizin başçısı Azərbaycanın bütün digər sahələrlə yanaşı, iqtisadi sahədə də sürətli inkişafa nail olduğunu bildirdi. Prezident İlham Əliyev xarici şirkətlərin Azərbaycanda səmərəli fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını və ölkəmizin bu sahədə yaxşı təcrübəyə malik olduğunu vurğuladı.*

## 31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

31 Mart – Azərbaycanlıların soyqırımı günü ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildən bəri Azərbaycan Respublikasında hər il dövlət səviyyəsində qeyd edilir. Bu tarix bilavasitə 1918-ci il martın sonunda erməni silahlı birləşmələrinin azərbaycanlılara qarşı törətdiyi qırğınlar və talanlarla bağlı olsa da, onun xronologiyası çox genişdir. İki yüz ilə yaxın bir müddətdə erməni millətçilərinin xalqımıza qarşı hərbi, siyasi, ideoloji və başqa vasitələrlə yürütdüyü siyasətin məqsədi azərbaycanlıları öz doğma torpaqlarından sıxışdırıb çıxarmaq, fiziki cəhətdən məhv etməklə yeni ərazilər ələ keçirmək, mifik «böyük Ermənistan» dövləti yaratmaq idi. XIX əsrin əvvəllərində Qarabağa və Zəngəzura İrandan və Osmanlı imperiyasından çoxlu sayda erməni ailələrinin köçürülməsi, 1905-ci və 1918-ci illərdə erməni hərbi dəstələrinin Qafqazın müxtəlif bölgələrində həyata keçirdiyi kütləvi qətllər və talanlar, 1948–53-cü illərdə soydaşlarımızın Ermənistan Respublikası ərazisindəki ata-baba yurdlarından deportasiya edilməsi, 1988-ci ildən başlayaraq Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi güdən genişmiqyaslı müharibə və onun bu gün də davam edən acı nəticələri, 1992-ci ilin Xocalı faciəsi – bunlar təcavüzkar erməni millətçilərinin azərbaycanlılara qarşı planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin qanlı səhifələridir. Bu məkrli siyasət nəticəsində tarixi Azərbaycan torpaqları zaman-zaman ermənilər tərəfindən qəsb edilmiş, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə

düşmüş, on minlərlə insan həlak olmuşdur. Hazırda Azərbaycan Respublikası ərazisinin 20 faizi erməni hərbçilərinin işğalı altındadır.

Azərbaycan hökuməti və vətəndaşları, xaricdə yaşayan soydaşlarımız qarşısında bu gün bir-biri ilə sıx bağlı olan iki mühüm vəzifə durur: ərazilərimizin işğaldan azad olunmasına, məcburi köçkünlərin öz doğma yerlərinə qaytarılmasına nail olmaq və azərbaycanlıların soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, hiyləgər erməni təbliğatının saxta tezislərini ifşa etmək. Bu vəzifələrin həlli üçün biz işğalçı Ermənistana qarşı siyasi, hüquqi, iqtisadi, ideoloji təzyiq vasitələrindən istifadə etməli, bütün daxili və xarici imkanlardan bəhrələnməliyik. Ermənistan iqtisadi və hərbi potensial baxımından bizimlə rəqabət aparmaq gücündə deyildir. Beynəlxalq təşkilatlarda, dünya parlamentlərində Azərbaycan həqiqətləri getdikcə daha çox təsdiqini tapır, Ermənistan işğalçı dövlət adlandırılır, ondan qəsb etdiyi əraziləri azad etmək tələb olunur.

Lakin nəzərə almalıyıq ki, qarşımızda ideoloji təxribatlar və dezinformasiya sahəsində «zəngin təcrübəyə», bir sıra ölkələrdə təsirli lobbiyə və mütəşəkkil diaspora malik olan rəqib dayanır. Erməni şovinist millətçiləri öz məqsədlərinə çatmaq üçün heç bir çirkin vasitədən çəkinmir, diqqəti işğal faktından yayındırmaq üçün daim yeni saxta ideyalar uydururlar. İnformasiya və əks-təbliğat işimizi quran zaman bu amilləri nəzərə almalıyıq. Müxtəlif ölkələrdə soydaşlarımızın keçirdiyi tədbirlər daha əzəmətli və davamlı olmalı, dünya ictimaiyyətinin və siyasi dairələrin diqqətini cəlb etməlidir. Həm də bu işlər türk və bizimlə həmrəy olan digər diaspor təşkilatlarının fəaliyyəti ilə əlaqələndirilməlidir. Bu günlərdə Bakıda keçirilən Azərbaycan və türk diaspor təşkilatlarının I forumu göstərdi ki, biz birgə fəaliyyət göstərdikdə daha güclü oluruq.

Əminəm ki, insanlarımızın vətənpərvərliyi, mütəşəkkilliyi və Azərbaycan rəhbərliyinin məqsədyönlü fəaliyyəti, siyasi

iradəsi sayəsində biz qarşımızda duran bütün problemlərin həllinə, o cümlədən ərazi bütövlüyü və suverenliyimizin bərpasına, xalqımıza qarşı əsl soyqırımı siyasəti həyata keçirənlərin, başqa xalqlara düşmənçilik və nifrət ideologiyasının daşıyıcılarının ifşa edilməsinə nail olacağıq.

Əziz həmvətənlər! Hörmətli soydaşlar!

Bu kədərli anım günlərində soyqırımı qurbanlarının əziz xatirəsini dərin hüzn və ehtiramla yad edir, Allahdan onlara rəhmət, xalqımıza rifah və səadət diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 mart 2007-ci il*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*30 mart 2007-ci il*

*Martın 30-da Polşa Respublikasının Prezidenti Lex Kaçinski Azərbaycana ikigünlük rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Polşanın Dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Polşa dövlətinin başçısını və xanımını təyyarənin pilləkəni yanında Azərbaycanın Baş naziri Artur Rasizadə, Xarici İşlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər qarşıladılar.*

*Milli geyimli uşaqlar Polşa prezidentinə və xanımına gül dəstəsi təqdim etdilər.*

*Prezident Lex Kaçinski və Baş nazir Artur Rasizadə hava limanının ali qonaqlar salonunda qısa protokol söhbəti keçirdilər.*

* * *

*Martın 30-da Prezident sarayında Polşa prezidenti Lex Kaçinskinin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın qarşısındakı rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Polşa prezidenti Lex Kaçinskini səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Polşa prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Polşanın və Azərbaycanın Dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Polşa prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan dövləti və hökumətinin rəsmi şəxsləri Polşa prezidenti Lex Kaçinskiyə, Polşa nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim edildi.*

*Dövlət başçıları Prezident sarayında rəsmi şəkil çəkdirdilər.*

* * *

*Polşa Respublikasının Prezidenti Lex Kaçinski martın 30-da Fəxri xiyabana gəlmişdir.*

*Burada ali qonağı və nümayəndə heyətinin üzvlərini Azərbaycan Xarici İşlər nazirinin müavini Xələf Xələfov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər qarşıladılar.*

*Polşanın dövlət başçısı türk dünyasının görkəmli oğlu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anaraq məzarı önünə əklil qoydu.*

*Polşa prezidentinin xanımı Mariya Kaçinska görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə gül dəstəsi qoydu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Fəxri xiyabanın tarixi barədə məlumat verdi.*

* * *

*Polşa prezidenti Lex Kaçinski martın 30-da Şəhidlər xiyabanını ziyarət etmişdir.*

*Polşanın dövlət başçısını və nümayəndə heyətinin üzvlərini Azərbaycan Xarici İşlər nazirinin müavini Xələf Xələfov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və di-*

*gər qəsmi şəxslər qarşıladılar. Burada ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Polşa prezidenti Lex Kaçinski və nümayəndə heyətinin üzvləri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman övladlarımızın məzarları üçtünə gül-çiçək düzdülər. Polşanın dövlət başçısı «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Polşanın və Azərbaycanın Dövlət himnləri səsləndi. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

*Prezident Lex Kaçinski Azərbaycan paytaxtının mənzərəsini maraqla seyr etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİ İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*30 mart 2007-ci il*

*Martın 30-da Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Polşa prezidenti Lex Kaçinskinin təkbətək görüşü olmuşdur.*

*Görüşdə siyasi, iqtisadi və humanitar sahələrdə Azərbaycan–Polşa əlaqələrinin uğurla inkişaf etdiyi vurğulandı. Bildirildi ki, dövlət başçılarının qarşılıqlı səfərləri bu əlaqələrin genişlənməsinə təkan verir. Beynəlxalq təşkilatlarda, habelə Avropa qurumlarına inteqrasiya sahəsində əməkdaşlıq dinamik inkişaf edir.*

*Görüşdə əməkdaşlığın genişləndirilməsi perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİ İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*30 mart 2007-ci il*

*Martın 30-da Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Polşa prezidenti Lex Kaçinskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

*Prezident İlham Əliyev Polşa prezidenti Lex Kaçinskini və səfərdə onu müşayiət edən nümayəndə heyətinin üzvlərini salamlayaraq bu səfərə çox böyük əhəmiyyət verdiyini vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident, hörmətli qonaqlar! Mən sizi bir daha Azərbaycanda ürəkdən salamlayıram. Xoş gəlmisiniz! Biz ikitərəfli münasibətlərə çox böyük əhəmiyyət veririk və əminəm ki, Sizin Azərbaycana rəsmi səfəriniz bu münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Bu gün Sizinlə təkbətək görüşdə ikitərəfli münasibətlərin bütün aspektlərini geniş müzakirə etdik və görürük ki, bizim aramızda çox yaxşı siyasi münasibətlər, dostluq əlaqələri var. Biz çox istəyirik ki, bu əlaqələr daha da güclənsin. Görüşümüzdə həm ikitərəfli münasibətlər geniş şəkildə müzakirə olundu, həm də Avropa İttifaqı– Azərbaycan münasibətləri və regional məsələlər.

Bu Sizin Azərbaycana ilk səfərinizdir və əminəm ki, səfər çox uğurlu olacaqdır. Bir daha xoş gəlmisiniz!

**L e x  K a ç i n s k i:** Hörmətli cənab Prezident, xanımlar və cənablar! Mən istəyirəm ki, ilk növbədə, Bakıya səfərimdən olduqca məmnunluğumu bildirim. Bakı çox gözəl şəhərdir. Ümumiyyətlə, Bakıya gəlmək mənim üçün böyük şərəfdir.

Cənab Prezident, Sizinlə görüşməyimdən olduqca məmnunam. Düzdür, dediyim kimi, mən Azərbaycana, Bakıya ilk rəsmi səfərimə çıxmışam, lakin biz cənab Prezidentlə bundan əvvəl bir-birimizlə tanış olmaq imkanına malik olmuşuq. Aramızda dostluq münasibətləri var.

*Polşa rəhbəri bildirdi ki, onun bu səfəri ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə yanaşı, regionda və dünyada gedən proseslərlə bağlı fikir mübadiləsi aparılması baxımından da çox əhəmiyyətlidir.*

* * *

*Martın 30-da Prezident sarayında dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Lex Kaçinski birgə bəyannamə imzaladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARI

*Prezident sarayı*

*30 mart 2007-ci il*

*Martın 30-da Prezident sarayında birgə bəyannamənin imzalanmasından sonra Azərbaycan və Polşa prezidentlərinin birgə mətbuat konfransı olmuşdur. Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Hörmətli cənab Prezident, mən Sizi və Polşadan gəlmiş nümayəndə heyətinin bütün üzvlərini Azərbaycanda bir daha salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Əminəm ki, bu səfər çox uğurlu olacaq və səfərin nəticələri də bizim aramızda olan münasibətlərin inkişafında çox böyük rol oynayacaqdır.

Polşa ilə Azərbaycan arasında əlaqələr çox uğurla inkişaf edir. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra biz həmişə Polşanın dəstəyini hiss etmişik. Həm ikitərəfli münasibətlərimiz çox uğurludur, səmimidir və dostluq əsasında qurulubdur, eyni zamanda, Polşa Avropa İttifaqına və NATO-ya daxil olandan sonra Azərbaycanın Avroatlantik inteqrasiyada atdığı addımları həmişə dəstəkləmişdir. Xüsusilə Avropa İttifaqı ilə Azərbaycan arasında «Yeni

qonşuluq siyasəti»nə dair fəaliyyət planının imzalanmasında Polşanın çox böyük rolu olmuşdur və buna görə biz sizə öz minnətdarlığımızı bildirmək istəyirik.

Bu gün bizim aramızda çox açıq, səmimi diskussiya, müzakirələr olmuşdur. İkitərəfli münasibətlər təhlil olunmuş və gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparılmışdır. Xüsusilə bizim regionda mövcud olan vəziyyət, perspektivlər, təhlükələr, regionda gərginlik yaradan münaqişələr və onların həlli yolları geniş müzakirə olunmuşdur. Mən cənab Prezidentə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixini çatdırdım, eyni zamanda, danışıqlar prosesində əldə olunan nailiyyətlər və problemlər haqqında geniş söhbət açıldı.

Polşa Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləmişdir və bu bizim üçün çox önəmlidir, vacibdir.

Energetika sahəsində mümkün olan əməkdaşlıq haqqında danışdıq və bildiyiniz kimi, Azərbaycan bu sahədə öz siyasətini uğurla aparır. Bizim neft strategiyamız Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasına yönəldilibdir. Eyni zamanda, regional məsələlərə də öz təsirini göstərir. Bizim siyasətimiz müstəqil siyasətdir və Azərbaycan xalqının milli maraqlarının üstündə qurulubdur və bütün dost ölkələrlə bütün sahələrdə, o cümlədən bu sahədə də əməkdaşlıq etmək fikrindəyik. Azərbaycanın artan enerjidaşıyıcıları dünya, Avropa bazarlarına çıxarılır və Polşa ilə bu sahədə əməkdaşlıq çox uğurlu ola bilər. Biz bu sahəyə böyük əhəmiyyət veririk və ümid edirəm ki, gələcəkdə bizim əməkdaşlığımızın yeni formaları yaranacaqdır.

Eyni zamanda, Avropa İttifaqı–Azərbaycan münasibətləri müzakirə olundu və bu sahədə də bizim aramızda fikir ayrılığı yoxdur. Əksinə, bizim fikirlərimiz üst-üstə düşür və bir daha demək istəyirəm ki, Azərbaycanın «Yeni qonşuluq siyasəti»nə qoşulması, eyni zamanda, Avropa İttifaqı ilə energetika sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalanması bizim niyyətimizi açıq şəkildə ifadə

edir. Bu bizim üçün çox önəmli istiqamətdir və əminəm ki, bu vaxta qədər olduğu kimi, Polşa bundan sonra da Azərbaycanı bu işlərdə dəstəkləyəcəkdir.

Bütövlükdə deyə bilərəm ki, bizim söhbətimiz çox səmimi şəkildə keçmişdir. Biz bir-birimizi tanıyırıq, əvvəllər də görüşmüşük və bu söhbətlər əvvəlki illərdə yaranmış səmimi münasibətlərin davamıdır. Eyni zamanda, ölkələrimizin arasında münasibətlər çox səmimidir, çox açıqdır və biz bundan çox məmnunuq.

Beləliklə, artıq indidən demək olar ki, səfərin nəticələri çox uğurludur. İmzalanmış birgə sənəd bizim siyasi niyyətimizi əks etdirir. Əminəm ki, nümayəndə heyətinin üzvləri burada bütün sahələrdə öz həmkarları ilə geniş fikir mübadiləsi aparacaqlar və beləliklə, bizim dostluğumuz davam edəcək, əməkdaşlığımız daha da möhkəmlənəcəkdir.

Əziz qonaqlar, mən sizi Azərbaycanda bir daha salamlayıram. Əminəm ki, sizin Azərbaycana səfəriniz xoş keçəcək və vətəninizə xoş təəssüratlarla gedəcəksiniz. Sağ olun.

**Polşa prezidenti Lex Kaçinskinin bəyanatı**

Hörmətli cənab Prezident!

Sizə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm ki, məni bu səfərə dəvət etmisiniz. Cənab Prezident, əminəm ki, Sizi yenidən Polşada görəcəyik.

Bizim uzun çəkən təkbətək görüşümüz oldu və mən heç də gizlətmirəm ki, bu görüşdən sox məmnunam. Biz siyasi məsələləri, Azərbaycan Respublikasını maraqlandıran məsələləri, Avropa İttifaqına aid olan və digər məsələləri müzakirə etdik. Öz regionumuzda olan vəziyyəti, Avropa İttifaqının mövqeyini müzakirə etdik. Avropa İttifaqının enerji siyasətini müzakirə etdik və bu baxımdan bizim əməkdaşlıq imkanlarımızdan danışdıq. Bu əməkdaşlıq daha da inkişaf etdirilə bilər.

İkitərəfli münasibətlərin səviyyəsini yüksəltmək üçün mən cənab Prezidenti Varşavaya dəvət etdim. Hesab edirəm

ki, Varşavada keçirəcəyimiz görüşdə biz çox məsələləri müzakirə edəcəyik. Onu da deməliyəm ki, mən öz səlahiyyətlərimi icra etdiyim vaxtla müqayisədə daha çox təcrübə toplayacağam və cənab prezident Əliyevlə keçirdiyim görüşdə aldığım məlumatları öz işimdə istifadə edəcəyəm.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l (*Polşa televiziyası*): Mənim sualım cənab prezident Əliyevədir. Siz bildirdiniz ki, Polşa Azərbaycan nefti və qazının Avropa və dünya bazarlarına çatdırılmasında böyük rol oynaya bilər. Qaz məsələsində, hər hansı nəqletmə layihələrində Polşa şirkətlərinin iştirakı barədə konkret təkliflər varmı?**

**İ l h a m Ə l i y e v:** Azərbaycan qədim neft ölkəsidir və deyə bilərəm ki, istər quruda, istərsə də dənizdə sənaye üsulu ilə ilk neft Azərbaycanda hasil edilmişdir. İndi Azərbaycan öz neft potensialını çox sürətlə artırır. Azərbaycanda son 13 il ərzində həyata keçirilən neft strategiyası bizə imkan verib ki, neft hasilatını kəskin şəkildə artıraq. Bu il Azərbaycanda hasil olunacaq neftin həcmi təxminən 42-43 milyon ton təşkil edəcəkdir. Növbəti illərdə, iki-üç ildən sonra isə Azərbaycanda təxminən 60 milyon ton neft hasil olunacaqdır. Neftin ixracı üçün üç boru kəməri tikilmişdir. Artıq Azərbaycanın nefti Avropa və dünya bazarlarına çox rahat şəkildə çatdırılır.

O ki qaldı qaz hasilatına, bu vaxta qədər Azərbaycanda hasil olunan qaz bizim öz tələbatımızı ödəmirdi və bu ilin əvvəlinə qədər xaricdən qaz alırdıq. Ancaq Azərbaycanda böyük «Şahdəniz» qaz yatağının istismara verilməsi nəticəsində yaxın illərdə qaz hasilatının artımı gözlənilir. Əminəm ki, bir neçə ildən sonra Azərbaycanda kifayət qədər qaz çıxarılacaq ki, Avropa bazarına çatdırılsın. Biz hətta ümid

edirik ki, «Şahdəniz» yatağından çıxarılacaq müəyyən miqdarda Azərbaycan qazı bu ilin sonuna qədər Avropa İttifaqı bazarına çatdırılsın. Bu sahədə biz işləyirik.

Əlbəttə ki, qaz hasilatının artması nəticəsində imkanlarımız da artacaq və biz Avropa İttifaqının bazarına çox maraq göstəririk. Biz artıq bu bazara daxil oluruq və o cümlədən Polşa ilə də bu sahədə əməkdaşlıq edə bilərik. Əməkdaşlığın konkret parametrləri haqqında isə hələ bir şey deyə bilmərəm. İlk növbədə, biz Azərbaycanda qaz hasilatını artırmalıyıq ki, ixrac olunacaq qaz bizim tərəfdaşlarımızın tələbatını ödəsin.

Bir daha demək istəyirəm ki, texniki cəhətdən Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istismara verilməsi nəticəsində Azərbaycan qazı bu il Avropa İttifaqının bazarlarına çatdırıla bilər.

**S u a l (*ATV telekanalı*): Mənim sualım hər iki prezidentədir. Azərbaycan ilə Polşa arasında mədəni əlaqələrin uzun tarixi var. Mədəni və humanitar əməkdaşlığın genişləndirilməsi üçün konkret layihələr müzakirə edilibmi?**

**L e x K a ç i n s k i:** Biz Varşava Üsyanı Muzeyinin həyətində xatirə lövhəsinin açılışında iştirak etmişik və bu haqda cənab Prezidentlə danışmadıq. Lakin mən demək istəyirəm ki, Polşa bir çox sahələrdə Azərbaycanla yaxşı münasibətlərin qurulmasında olduqca maraqlıdır. Bu təkcə enerji sahəsi deyildir. Bəli, enerji sahəsi vacibdir, bilirik ki, bu, Azərbaycanın apardığı siyasətin əsas istiqamətlərindən biridir. Lakin mən hesab edirəm ki, eyni zamanda, mədəni sahədə də əməkdaşlığımız davam etdiriləcəkdir. Bu həm prezidentlər, həm Baş nazirlər, həm də Mədəniyyət nazirləri səviyyəsində aparıla bilər.

Cənab Prezident, mən bir daha təkrar edirəm, ümid edirəm ki, Sizi öz ölkəmdə görəcəyəm.

**İ l h a m Ə l i y e v:** Mən əlavə etmək istəyirəm ki, bizim mədəniyyət sahəsində əlaqələrimizin çox böyük tarixi var. Hələ XIX əsrin sonları – XX əsrin əvvəllərində Polşadan gəlmiş

mütəxəssislər Azərbaycanda müxtəlif sahələrdə çox fəal işlər görmüşlər. Bakının memarlıq simasının yaranmasında böyük işlər görmüşlər. Bakının bir neçə gözəl tarixi binalarının müəllifləri Polşa memarları olmuşdur. Onu da qeyd etmək istəyirəm ki, hələ 1909-cu ildə Bakıda «Polşa Evi» yaradılmışdı. Yəni bu tarixi əlaqələr, əlbəttə ki, indiki münasibətlərə çox gözəl təsir göstərir.

Bir məsələni də demək istəyirəm ki, indi Azərbaycanda katolik kilsəsinin tikintisi davam edir. Bu ilk növbədə, Azərbaycanda mövcud olan dözümlülüyün, tolerantlığın əlamətidir. Digər tərəfdən, sirr deyil ki, Azərbaycanda əvvəllər yaşamış və indi yaşayan katoliklər Polşa mənşəlidirlər. Yəni bu çox gözəl və güclü zəmindir. Bu zəmin əsasında indiki mərhələdə mədəni əlaqələrin inkişafı mümkündür. Biz bu sahəyə böyük əhəmiyyət veririk. Cənab Prezidentin sözləri ilə razıyam və mən də demək istəyirəm ki, bizim münasibətlərimizin gündəliyi çox genişdir. Bu gündəliyi hansısa konkret bir məsələyə yönəltmək düzgün olmazdı. Həm siyasi, həm ikitərəfli iqtisadi münasibətləri, energetika sektorunu, təhlükəsizlik məsələlərini əhatə edir. Məsələn, biz başqa ölkələrlə birlikdə sülhməramlı missiyanı həyata keçiririk. Yəni bu sahələr çoxşaxəlidir. Əlbəttə ki, bu istiqamətdə mədəni əlaqələrin də öz rolu var. Əminəm ki, bu səfərdən sonra bu əlaqələr daha da yüksək səviyyəyə qalxacaqdır.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİ HEYDƏR ƏLİYEV FONDUNDA

*30 mart 2007-ci il*

*Polşa prezidenti Lex Kaçinski və Azərbaycan prezidenti İlham Əliyev martın 30-da Heydər Əliyev Fondunda olmuşlar.*

*Prezident İlham Əliyev Polşa dövlətinin başçısını və xanımını müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin adını daşıyan fondda görməkdən məmnun qaldıgını bildirdi.*

*Dövlətimizin başçısı ali qonağı və onu müşayiət edən nümayəndə heyətinin üzvlərini fondun zəngin ekspozisiyaları ilə tanış etdi.*

*Ulu öndərin uşaqlıq, gənclik, təhsil illərinə aid fotoşəkillər, sənədlər, öz əlilə çəkdiyi rəsmlər, xüsusi xidmət orqanlarında çalışdığı dövrü, respublikaya rəhbərliyinin hər iki mərhələsindəki, habelə Moskvadakı fəaliyyətini əks etdirən eksponatlar qonaqlarda xüsusi maraq oyatdı.*

*Keçmiş SSRİ-nin rəhbərlərindən biri kimi yüksək nüfuz qazanmış görkəmli şəxsiyyətin sovet rəhbərliyinin siyasətinə etiraz əlaməti olaraq bəyanat verib Sov.İKP sıralarından çıxmasının böyük cəsarət olduğunu bildirən Lex Kaçinski Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasında və bunun əsas təməli olan iqtisadi islahatların həyata keçirilməsində Heydər Əliyevin oynadığı həlledici rolu yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev Polşa prezidentini ulu öndərin zəkasının bəhrəsi olan və indi onun adını daşıyan Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac boru kəmərinin maketi ilə tanış etdi,*

*bu layihənin nəinki regionda, həm də bütün Avropada geosiyasi vəziyyətə böyük təsir göstərdiyini vurğuladı.*

*Lex Kaçinski Heydər Əliyevin dünyanın nüfuzlu siyasi xadimləri, dövlət və hökumət rəhbərləri ilə görüşlərini, dünyanın müxtəlif ölkələrində onun xatirəsinə ucaldılan abidələri əks etdirən fotoşəkillərə maraqla baxdı.*

*Polşa prezidenti Xatirə kitabına ürək sözlərini yazdı və fondla tanışlıqdan zəngin təəssürat aldığını bildirdi.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Polşa prezidentinə xatirə hədiyyəsi təqdim etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMI MEHRİBAN ƏLİYEVANIN ADINDAN POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİNİN VƏ XANIMI MARİYA KAÇİNSKİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Gülüstan sarayı*

*30 mart 2007-ci il*

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

Hörmətli cənab Prezident!
Hörmətli xanım Kaçinska!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!
Əziz qonaqlar, mən sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram, xoş gəlmisiniz!

Rolşa prezidentinin Azərbaycana rəsmi səfərinin birinci günü başa çatır. Ancaq artıq demək olar ki, səfər çox uğurlu keçir. Bunun müxtəlif səbəbləri var, o cümlədən bizim tarixi keçmişimiz. Xalqlarımız arasında həmişə çox gözəl münasibətlər olmuşdur. Müxtəlif dövrlərdə Polşadan gəlmiş insanlar Azərbaycanda yaşamış, yaratmışlar. Rolşadan gəlmiş mütəxəssislər – neft mühəndisləri, memarlar Azərbaycanın inkişafında çox böyük rol oynamışlar. XX əsrin əvvəllərində Azərbaycanda minlərlə polyak yaşamışdır və hətta Bakıda «Polşa Evi» fəaliyyət göstərirdi. Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yarananda, onun fəaliyyətində polyaklar da iştirak etmişlər. Mən bu gün cə-

nab Prezidentə dedim ki, Bakının bir neçə gözəl binalarının memarları polyaklar olmuşdur.

Bu tarixi əlaqələr, əlbəttə, indiki dönəmdə bizim münasibətlərimizin möhkəmlənməsində böyük rol oynayır. İndi isə bizim münasibətlərimiz çox sürətlə inkişaf edir. Siyasi, iqtisadi, mədəni sahələrdə – bütün sahələrdə biz münasibətlərimizin səviyyəsindən çox məmnunuq və şübhə etmirəm ki, Polşa prezidentinin Azərbaycana rəsmi səfəri bu istiqamətdə atılmış çox böyük və uğurlu addımdır.

Bu gün çox geniş fikir mübadiləsi aparılmışdır. Danışıqlar və imzalanmış birgə bəyannamə bizim niyyətimizi ifadə edir və ikitərəfli münasibətlərin inkişafı üçün çox gözəl töhfədir. Onu da qeyd etmək istəyirəm ki, Polşa Azərbaycanın Avratlantik strukturlarına inteqrasiya siyasətini həmişə dəstəkləmişdir və xüsusilə Azərbaycanın Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə qoşulmasında çox böyük rol oynamışdır. Biz əməkdaşlığın perspektivlərini çox gözəl görürük və bu əməkdaşlıq çoxşaxəli olacaqdır. O cümlədən energetika sektorunda da əməkdaşlığın perspektivləri çox gözəldir.

Son illər ərzində Azərbaycanda həyata keçirilən nəhəng infrastruktur, nəqliyyat və boru kəmərləri layihələri ölkəmizin imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin istismara verilməsi, gələcəkdə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin həyata keçirilməsi əlbəttə, bizim nəqliyyat və ixrac imkanlarımızı artırır. Bu layihələrin həyata keçirilməsi nəticəsində Polşa–Azərbaycan münasibətləri də inkişaf edəcəkdir.

Biz bu gün eyni zamanda, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını müzakirə etdik. Mən Polşa prezidentini danışıqlar prosesində mövcud olan vəziyyətlə tanış etdim və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə Polşaya bir daha öz minnətdarlığımı bildirmişəm. Bütün münaqişələr, o cümlədən Ermənistan–Azərbaycan münaqişəsi beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır. Bu məsələdə Azərbaycanın mövqeyi də-

yişməzdir və bütün dünya ictimaiyyəti bizim mövqeyimizi dəstəkləyir.

Bir sözlə, bizim ikitərəfli münasibətlərimiz həm ölkələrimiz üçün çox böyük əhəmiyyət daşıyır, həm də regionda gedən proseslərə öz müsbət təsirini göstərir. Mən çox şadam ki, Polşa prezidentinin Azərbaycana səfəri çox uğurlu keçir və əminəm ki, əlaqələrimiz bundan sonra da ancaq və ancaq yüksələn xətlə davam edəcəkdir.

Bu badəni Polşa prezidentinin şərəfinə, xanım Kaçinskanın şərəfinə və Polşa–Azərbaycan dostluğunun şərəfinə qaldırıram!

**Polşa prezidenti Lex Kaçinskinin nitqi**

Çox hörmətli cənab Prezident!
Hörmətli xanım Mehriban Əliyeva!
Hörmətli Baş nazir!
Hörmətli parlament sədri!
Hörmətli xanımlar və cənablar!

Mən bu gün cənab Prezidentlə və buraya gəlmiş qonaqlarla görüşün keçirilməsi üçün yaradılmış imkana görə hamıya bir daha minnətdarlığımı bildirmək istəyirəm. Polşa Azərbaycanla daha gözəl münasibətlərin qurulması üçün çox səylər göstərir. Polşa Azərbaycan və polyak xalqları arasında dostluğun daha da möhkəmləndirilməsində maraqlıdır. Bu, sadəcə, hazırda Azərbaycanın enerji baxımından dünyada ən mühüm ölkələrdən biri olması ilə bağlı deyildir. Bizim səylərimiz və niyyətlərimiz məhz Polşa öz müstəqilliyini bərpa etdikdən sonra onun vacib hesab etdiyi fəlsəfədən irəli gəlir. Mən cənab prezident Əliyevlə ilk dəfə Varşava Üsyanı Muzeyində tanış olmuşam. Biz cənab Prezidentlə orada Varşava üsyanında iştirak etmiş və həlak olmuş Azərbaycan əsgərlərinin xatirə lövhəsinin açılışında iştirak etdik. Mən bunu ona görə xüsusilə vurğulayıram ki, bu, bizim çoxillik tarixi olan əlaqələrimizin bir rəmzidir. Bizim

ümumi əlaqələrimiz təkcə İkinci dünya müharibəsindən sonrakı dövrü əhatə etmir, təbii ki, bizim bundan əvvəlki vaxtlarda, yəni çar Rusiyası zamanı da geniş münasibətlərimiz olubdur. Cənab Prezident burada çox düzgün qeyd etdi ki, polyaklar həmin dövrlərdə Azərbaycana gəlmiş, burada yaşamış və yaratmışlar. Mən burada xüsusilə xatırlatmaq istəyirəm ki, Polşanın müstəqilliyinə həsr olunmuş və ölkədə çox oxunan romanların biri Polşa istiqlaliyyətinin məhz Azərbaycanla bağlı səhifələri ilə başlayır. Həmin müstəqillik uğrunda aparılan mübarizənin əsas qəhrəmanlarından biri burada təhsil almışdır. Daha sonra inqilab baş vermiş və o, Polşaya qayıtmışdır. Həmin romanın yazılması özlüyündə bizim yaşadığımız ümumi taleyi bir daha sübuta yetirir. Belə deyə bilərik ki, həmin əlaqələrin fəlsəfəsi bizim hazırda həyata keçirdiyimiz siyasətin fəlsəfəsini təşkil edir. Polşa NATO-ya və Avropa İttifaqına üzv olduqdan sonra tarixən istədiyi istiqamətə bir daha qayıtdı. Tarix artıq bizə belə bir dərs verib ki, ümumiyyətlə, tariximiz Polşanın şərq hissəsindəki sərhədlə bitmir, yəni Buq çayının sahili ilə bitmir. Həmin istiqamətdən cənuba doğru da tarixi hadisələr baş vermişdir və bu, bizim ümumi böyük tariximizdir. Həmin hadisələr zamanı biz də təcrübə qazanmışıq.

Bu gün qəhrəman Qafqaz ölkələri azadlıq yolunu seçmişdir. Lakin həmin xalqların hər biri müxtəlif şəraitlərdədir və onların getdiyi yol eyni deyildir. Bizim fikrimizcə, Azərbaycan ən optimal yolu seçmişdir. Siz məhz bu səbəbdən bizə daha yaxınsınız.

Bu gün apardığım söhbət Polşa prezidenti kimi mənim üçün ən maraqlı söhbət oldu. Hesab edirəm ki, bu fikir bizim hadisələrə verdiyimiz ümumi qiymətdən və ümumi biliklərimizdən irəli gəlir.

Biz bir çox məsələlər haqqında danışdıq və eyni zamanda, mürəkkəb olan Dağlıq Qarabağ məsələsini müzakirə etdik. Polşa qətiyyətlə bəyan etmək istəyir ki, kim haqlıdır, kim haqsız. Biz münaqişənin dinc yolla həllini görmək is-

təyirik. Lakin yaşadığımız bugünkü dünyada iki həqiqət nəzərə alınmalıdır. Birincisi, heç kim etdiyi təcavüzün nəticələrindən istifadə etməməlidir. İkincisi isə ondan ibarətdir ki, heç kim «parçala və hökm sür» prinsipindən istifadə etməməlidir.

Sonda mən bir daha öz təşəkkürümü bildirirəm və eyni zamanda, onu da demək istəyirəm ki, əfsuslar olsun, bu gün dünya ölkələrində polyak dili tədris edilən universitetlər çox deyildir. Amma Bakı Slavyan Universiteti bu dilin tədris edildiyi universitetlər sırasındadır və biz buna görə sizə minnətdarlığımızı bildiririk.

Cənab Prezident, mən bu badəni Sizin sağlığınıza, xanım Əliyevanın sağlığına, qonaqlarımızın sağlığına, Azərbaycan və Polşa xalqları arasında dostluğun şərəfinə qaldırıram!

**MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SİDİ MƏHƏMMƏD ULD ŞEYX ABDELLAHİYƏ**

Hörmətli cənab Prezident!

Mavritaniya İslam Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Mavritaniya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınızın rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 mart 2007-ci il*

## BMT BAŞ KATİBİNİN MƏCBURİ KÖÇKÜNLƏRİN İNSAN HÜQUQLARI ÜZRƏ NÜMAYƏNDƏSİ VALTER KALİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Prezident sarayında BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Ermənistanın Azərbaycana təcavüzü və xalqımıza qarşı həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımızın doğma torpaqlarından didərgin düşdüklərini və uzun müddət ərzində ağır şəraitdə yaşadıqlarını qeyd etdi. Son illər ərzində qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması işinə Azərbaycan hökumətinin yüz milyonlarla ABŞ dolları məbləğində vəsait xərclədiyini bildirən prezident İlham Əliyev qaçqınlar və məcburi köçkünlər üçün bütün lazımi şəraiti olan şəhərciklərin salındığını, bu il sonuncu çadır düşərgəsinin ləgv olunacağını vurğuladı. Bununla yanaşı, dövlətimizin başçısı görülən bu tədbirlərin müvəqqəti xarakter daşıdığını bildirdi, qaçqınların və məcburi köçkünlərin tezliklə öz doğma torpaqlarına qayıdacaqlarına əminliyini ifadə etdi.*

*Valter Kalin ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi. BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi kimi fəaliyyəti barədə prezident İlham Əliyevə*

*məlumat verən qonaq missiyasının yekunlarına dair BMT-nin İnsan Hüquqları Şurasına hesabat verəcəyini bildirdi. Valter Kalin Azərbaycan hökumətinin qaçqınların və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması istiqamətində gördüyü böyük işlərdən məmnun qaldığını vurğuladı.*

## FƏRMAN SALMANOVUN AİLƏSİNƏ

Fərman Qurban oğlu Salmanovun vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan sizə, Fərman Salmanovun bütün qohumlarına və yaxınlarına ən dərin hüznlə başsağlığı verirəm.

Görkəmli dövlət xadimi və ictimai xadim, məşhur neft ustası, böyük tədqiqatçı alim və nadir istedadlı praktik neftçi olan Fərman Salmanovun adı Azərbaycanın, Rusiyanın neft və qaz sənayesinin, bütün dünyanın yanacaq-energetika kompleksinin inkişafının şanlı salnaməsində layiqli yer tutur.

Fərman Salmanov gözəl insan, özünün bütün həyat və fəaliyyətini xalqa sədaqətlə xidmətə, seçdiyi işə – planetin neft-qaz sərvətlərinin axtarışına və işlənilməsinə həsr etmiş yorulmaz və fədakar əmək adamı kimi xatirəmizdə əbədi qalacaqdır.

Agır itki ilə əlaqədar dərdinizi ürəkdən bölüşür, sizinlə birlikdə kədərlənirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 aprel 2007-ci il*

## ŞƏHİDLƏR XİYABANINDA APARILACAQ TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*2 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Şəhidlər xiyabanına gəlmişdir.*

*Prezident İlham Əliyevin «Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında» aprelin 2-də imzaladığı sərəncamda vahid kompleks olaraq mənzərəsi mərhələ-mərhələ formalaşmış Şəhidlər xiyabanının ümumi görkəminin memarlıq baxımından yenidən işlənməsinə ciddi ehtiyac duyulduğu xüsusi vurğulanmışdır. Bununla bağlı Bakı Şəhər İcra Hakimiyyətinə əlaqədar qurumlarla birlikdə Şəhidlər xiyabanının yeni layihəsinə dair təkliflərini bir ay müddətində dövlət başçısına təqdim etmək tapşırılmışdır.*

*Prezident İlham Əliyev xiyabanı gəzdi, kompleksin azərbaycançılıq fəlsəfəsinin meyarlarına uyğunlaşdırılmasının zəruriliyini vurğuladı. Bildirdi ki, xatirə-memorial və memarlıq komplekslərinin ümumi bədii-estetik görkəmi milli-mənəvi dəyərlərlə ahəngdarlıq təşkil etməli, onların yerləşdikləri ərazilər yüksək səviyyədə abadlaşdırılmalıdır.*

*Dövlətimizin başçısı Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən oğullarının uyuduğunu və buranın ziyarətgaha çevrildiyini nəzərə alaraq, xiyabanın yüksək səviyyəli xatirə-memarlıq kompleksi kimi yenidən qurulmasına dair fikirlərini söylədi.*

*Sonra prezident İlham Əliyev vaxtilə Kirovun heykəlinin yerləşdiyi əraziyə gəldi. Xatırladaq ki, dövlət başçısı 2006-cı ilin dekabrında Bakıda İstiqlal muzeyinin yaradılması və İstiqlal*

*abidəsinin ucaldılması haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən, həmin muzey və abidə bu ərazidə yerləşəcəkdir. Prezident İlham Əliyev sərəncamın icrası ilə bağlı görüləcək işlərlə maraqlandı və müvafiq tapşırıqlarını verdi.*

*Dövlətimizin başçısı paytaxtın ümumi mənzərəsini seyr etdi. Məhz prezident İlham Əliyevin təşəbbüsü, diqqət və qayğısı ilə hazırda qədim Bakının abadlaşdırılması, bütün tarixi binaların və abidələrin bərpası ilə əlaqədar genişmiqyaslı işlər görülür. Prezident İlham Əliyev bu işlərin ən yüksək səviyyədə və ardıcıl şəkildə davam etdirilməsinin vacibliyini vurguladı, bununla bağlı konkret tapşırıqlarını çatdırdı.*

## «HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DİN SİYASƏTİ: GERÇƏKLİKLƏR VƏ PERSPEKTİVLƏR» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – «Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər» mövzusunda Bakıda keçirilən Beynəlxalq konfransın iştirakçılarını ürəkdən salamlayır, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Tarixən dünya dinlərinin yayıldığı və dinc yanaşı fəaliyyət göstərdiyi qədim Azərbaycan torpağında yüz illərlə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər sistemi formalaşmışdır. Diqqətəlayiq faktdır ki, ölkəmizdə həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanmasında Azərbaycan xalqının və islam dininin misilsiz tarixi rolu danılmazdır.

Çoxmillətli və çoxkonfessiyalı dövlət olan müstəqil Azərbaycan Respublikasının bütöv bir tarixi mərhələsi bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən dövlət-din münasibətlərinin sivil prinsiplərə uyğun olaraq tənzimlənməsində, dini etiqad və vicdan azadlığının maneəsiz təminatında, dini-mənəvi, əxlaqi-etik dəyərlərin cəmiyyətin prioritet yaşayış normalarına çevrilməsində müstəsna xidmətlər göstərmiş, bu sahədə özündən sonra böyük siyasi irs və dövlətçilik təcrübəsi miras qoymuşdur.

1998-ci ilin dekabrında Bakıda keçirilmiş «İslam sivilizasiyası Qafqazda» adlı Beynəlxalq simpoziumda Heydər Əliyevin transmilli münasibətlərdə və cəmiyyət həyatında din amili, dünyada gedən mürəkkəb etno-siyasi proseslərdə islam dininin yeri və rolu, bəşəriyyətin gələcək taleyi naminə sivilizasiyalararası dialoqun zəruriliyi kimi qlobal məsələləri əhatə edən tarixi çıxışı bu gün də öz aktuallığını və siyasi dəyərini saxlamaqdadır.

Müasir mərhələdə Azərbaycan hökumətinin din siyasəti Heydər Əliyevin demokratik dövlət quruculuğu kursuna əsaslanır. Ölkədə mövcud ictimai-siyasi sabitlik, milli-mənəvi həmrəylik, etnik-dini tolerantlıq mütərəqqi tarixi ənənələrdən bəhrələnən belə uğurlu siyasətin məntiqi nəticəsidir.

Bu gün ölkəmizdə dini etiqad və vicdan azadlığının Azərbaycan Respublikasının Konstitusiyasına, eyni zamanda, beynəlxalq hüquqi sənədlərin tələblərinə uyğun olaraq təmin edilməsi üçün zəruri hüquqi-siyasi şərait yaradılmışdır. Azərbaycanda dünya dinləri ənənəvi olaraq qarşılıqlı etimad və əməkdaşlıq şəraitində fəaliyyət göstərir, yüzlərlə islam və qeyri-islam dini icmaları və təriqətlər dini inanclarını azad və sərbəst şəkildə icra edirlər. Son illər tarixi mədəniyyət abidələrinin, məscid və ziyarətgahların, yəhudi və xristian məbədlərinin bərpası və təmiri, o cümlədən regionda ən böyük sinaqoqun inşası, vaxtilə bolşeviklər tərəfindən dağıdılmış rus pravoslav kilsə kompleksinin əsaslı surətdə yenidən qurularaq dindarların istifadəsinə verilməsi – bütün bunlar Azərbaycan gerçəkliyini əks etdirən sağlam dini-mənəvi durumun göstəriciləridir.

Hörmətli konfrans iştirakçıları!

Azərbaycanda dini etiqad azadlığı və dözümlülük mühiti dünya ictimaiyyəti, nüfuzlu beynəlxalq təşkilatlar və görkəmli din xadimləri tərəfindən dəyərli örnək kimi qiymətləndirilir. Əminəm ki, əhəmiyyətli bir mövzunun müzakirəsinə həsr olunan toplantınız Azərbaycanda tarixən formalaşmış milli-mənəvi mədəniyyətin, tolerantlıq ənənələrinin,

ümummilli lider Heydər Əliyevin zəngin irsinin və dövlət-din münasibətləri sahəsində Azərbaycan Respublikasının nümunəvi təcrübəsinin beynəlxalq miqyasda öyrənilməsində və təbliğində mühüm rol oynayacaq, mədəniyyətlərarası dialoqa və əməkdaşlığa öz layiqli töhfəsini verəcəkdir.

Bu xeyirxah və gərəkli fəaliyyətinizdə hər birinizə can-sağlığı, konfransın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 aprel 2007-ci il*

## ABŞ KONQRESMENİ PİT HOEKSTRANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Prezident sarayında ABŞ konqresmeni Pit Hoekstranın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini, parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı bu səfərin Azərbaycan–ABŞ münasibətlərinin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini bildirdi.*

*Pit Hoekstra bu səfərin ABŞ–Azərbaycan parlamentlərarası əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etdiyini söylədi. O, ikitərəfli münasibətlərin durmadan inkişaf etdiyini, parlamentlərarası əlaqələrin inkişafının faydalı olduğunu vurğuladı.*

## QAZAXISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ KARİM MASİMOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Prezident sarayında Qazaxıstanın Baş naziri Karim Masimovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Karim Masimovu Qazaxıstan Respublikasının Baş naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı.*

*Baş nazir Qazaxıstan prezidenti Nursultan Nazarbayevin salamlarını Azərbaycan dövlətinin başçısına çatdırdı. O, ölkələrimizin uğurlu əməkdaşlığını vurğulayaraq bildirdi ki, Azərbaycana səfəri zamanı müzakirə olunan məsələlər xalqlarımızın və dövlətlərimizin mənafeləri naminə əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə öz töhfəsini verəcəkdir.*

*Prezident İlham Əliyev Qazaxıstan prezidenti Nursultan Nazarbayevin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Qazaxıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZURAB NOĞAİDELİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, iqtisadi əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə edildi.*

*Azərbaycan prezidenti və Gürcüstanın Baş naziri iqtisadi əlaqələrimizin bundan sonra daha da genişlənəcəyinə əmin olduqlarını bildirdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA TAXIL TERMİNALININ AÇILIŞ MƏRASİMİNDƏ

*Bakı, Hövsan qəsəbəsi*

*4 aprel 2007-ci il*

*Aprelin 4-də Bakının Hövsan qəsəbəsində taxıl terminalının açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Qazaxıstanın Baş naziri Karim Masimov mərasimdə iştirak edirdilər.*

*Mərasimə toplaşanlar Azərbaycan prezidentini və Qazaxıstanın Baş nazirini hərarətli alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev dost ölkənin nümayəndələri ilə görüşdü, terminalın ərazisini gəzdi. Məlumat verildi ki, Azərbaycan–Qazaxıstan hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyasının üçüncü (2005-ci il, 22 may) və dördüncü (2006-cı il, 29 aprel) iclaslarının protokollarına əsasən, hər iki ölkənin taxıl bazarında səmərəli və davamlı sistemin yaradılması üçün Qazaxıstanın Aktau dəniz ticarət limanındakı taxıl terminalının imkanlarından istifadə etməklə, Azərbaycanda taxıl terminalının tikilməsi qərara alınmışdı. Bu məqsədlə Qazaxıstan Kənd Təsərrüfatı Nazirliyinin «Ak Biday-Terminal» Səhmdar Cəmiyyəti və Azərbaycanın «Planet L» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən təsis fondu yaradılmaqla, ötən ilin martında «Bakı Taxıl Terminalı» Məhdud Məsuliyyətli Cəmiyyəti təşkil edilmişdir. Cəmiyyətin nizamnamə fondu 6 milyon ABŞ dollarıdır və hər iki tərəfdən bərabər səviyyədə ödənilmişdir.*

*Prezident İlham Əliyev və Baş nazir Karim Masimov kompyuter vasitəsilə terminalı işə saldılar. Qazaxıstandan gətirilən taxıl gəmidən birbaşa anbarlara vuruldu.*

*Azərbaycan prezidenti və Qazaxıstan hökumətinin başçısı bu prosesi izlədilər, terminalın əsas göstəriciləri ilə tanış oldular, bu nəhəng obyektin tikintisinin gedişini əks etdirən fotoşəkillərə baxdılar.*

*Ötən il mayın 6-da hər iki dövlətin hökumət rəhbərlərinin iştirakı ilə təməli qoyulmuş terminalın layihə-smeta sənədləri Qazaxıstanın layihə institutunda hazırlanmışdır. Terminal üçün avadanlığın alınmasına dair müsabiqədə dünyanın qabaqcıl şirkətləri iştirak etmişdir. Nəticədə İspaniyanın «Silos Cordoba», Belçikanın «Viqan», Fransanın «Telemechanics» firmaları ilə müqavilə bağlanaraq avadanlıq alınıb quraşdırılmışdır.*

*Xəzər dənizi regionunda yüksək texnologiyaya malik və müasir standartlara uyğun olan bu terminalda eyni vaxtda 15 min ton taxıl saxlamaq mümkündür. Onun illik dövriyyəsi 500 min tona qədərdir. Terminal Azərbaycanın taxılla təmin edilməsindən əlavə, Qazaxıstan taxılının Qafqaz ölkələrinə və Avropa ölkələrinə daşınmasına da imkan verəcəkdir. İkinci mərhələdə terminalın bazasında gündəlik gücü 150 ton olan müasir un dəyirmanının tikilməsi də nəzərdə tutulmuşdur. Hazırda terminalda 60 nəfər üçün iş yeri açılmışdır. Dəyirman kompleksi işə düşəndən sonra iş yerlərinin sayı 100-ə çatacaq və burada əsasən Hövsan qəsəbəsinin sakinləri işlə təmin ediləcəklər. Ümumiyyətlə, terminalın tikintisinin ayrı-ayrı mərhələlərində 600 nəfərdən çox adam çalışmışdır. Taxıl terminalının tikintisi çərçivəsində uzunluğu 145 metr olan yanalma körpüsü əsaslı təmir edilmiş, inzibati bina inşa olunmuşdur.*

*Azərbaycan prezidenti görülən işləri yüksək qiymətləndirdi və terminalın inşasında əməyi olanlara minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Qazaxıstan nümayəndə heyəti ilə terminalın önündə xatirə şəkli çəkdirdi.*

## RUSİYA FEDERASİYASININ REGİONAL İNKİŞAF NAZİRİ VLADİMİR YAKOVLEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Prezident sarayında Rusiya Federasiyasının Regional İnkişaf naziri Vladimir Yakovlevi qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Rusiya ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Regional iqtisadi əlaqələrin genişləndiyini vurğulayan prezident İlham Əliyev müxtəlif qurumlar arasında əlaqələrin və qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Azərbaycan prezidenti Rusiya Federasiyasının Regional İnkişaf nazirinin ölkəmizə bu səfərinin əlaqələrin daha da genişlənməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Rusiya Federasiyasının Regional İnkişaf naziri Vladimir Yakovlev xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini məmnunluqla xatırladı. O, əlaqələrimizin bütün sahələrdə yüksək səviyyədə olduğunu vurğulayaraq əməkdaşlığımızın bundan sonra daha da genişlənəcəyinə əmin olduğunu bildirdi.*

## TÜRKİYƏNİN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ OSMAN PEPEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Prezident sarayında Türkiyənin Ətraf Mühitin Mühafizəsi və Meşə Təsərrüfatı naziri Osman Pepeni qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Bu yaxınlarda Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərinə toxunan prezident İlham Əliyev dedi ki, vaxtaşırı olaraq Türkiyədən Azərbaycana müxtəlif qurumların nümayəndələri gəlir və bu səfərlər qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar açır. Azərbaycan prezidenti ölkəmizdə ekologiya sahəsində genişmiqyaslı proqramların həyata keçirildiyini bildirdi və bu sahədə Azərbaycanla Türkiyənin müvafiq qurumlarının əməkdaşlığının əhəmiyyətini vurğuladı.*

*Nazir Osman Pepen Azərbaycan–Türkiyə münasibətlərinin bütün sahələrdə inkişaf etdiyini bildirdi. O qeyd etdi ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dostluq, qardaşlıq və əməkdaşlıq münasibətləri Azərbaycan prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Qonaq ətraf mühitin qorunması sahəsində ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın həyata keçirildiyini bildirdi.*

## TÜRKİYƏNİN RADİO-TELEVİZİYA ALİ ŞURASININ SƏDRİ ZAHİD AKMAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Prezident sarayında Türkiyənin Radio-Televiziya Ali Şurasının sədri Zahid Akmanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Türkiyə münasibətlərinin bütün sahələrdə sürətlə inkişaf etdiyini vurğuladı. Azərbaycanda Türkiyə, Türkiyədə isə Azərbaycan televiziyalarının yayımlanmasının əhəmiyyətini vurğulayan prezident İlham Əliyev bu sahədə gələcək işbirliyinin genişləndirilməsi haqqında müzakirələrin aparılmasını zəruri hesab etdi.*

*Qonaq bildirdi ki, Türkiyə–Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin davam etdirilməsi və gələcək nəsillərə çatdırılması üçün mədəniyyətlərin tanınmasına böyük ehtiyac var. O bu baxımdan televiziyaların rolunu yüksək qiymətləndirdi və bu istiqamətdə əlaqələrin daha da inkişaf etdiriləcəyinə əminliyini ifadə etdi.*

**SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ**

Hörmətli cənab Prezident!

Suriya Ərəb Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri, ikitərəfli əlaqələrimiz bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Suriya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 aprel 2007-ci il*

## DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETƏ

Ülyahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, Azərbaycan–Danimarka münasibətlərinin, dostluq əlaqələrimizin və əməkdaşlığımızın inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə ugurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 aprel 2007-ci il*

**AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA**

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın bütün xristianlarını ürəkdən təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik arzularımı yetirirəm.

Əsrlər boyu dünya dinləri Azərbaycanda qarşılıqlı etimad və əmin-amanlıq şəraitində fəaliyyət göstərərək insanlar arasında humanizm, həmrəylik, dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasında, cəmiyyətimizdə mükəmməl etnik-dini tolerantlıq mühitinin formalaşmasında böyük rol oynamışdır.

Müasir mərhələdə milli azlıqların dil və mədəniyyətinin inkişafı, etnik-mədəni müxtəlifliyin, tarixi-mənəvi irsin qorunub saxlanması Azərbaycan hökumətinin xüsusi diqqət və qayğıyla yanaşdığı məsələlərdəndir. Müstəqil Azərbaycan Respublikasında dövlət-din münasibətləri demokratik prinsiplərə və beynəlxalq hüquq normalarına uyğun olaraq tənzimlənmiş, vicdan azadlığının maneəsiz həyata keçirilməsi üçün lazımi siyasi-mənəvi şərait təmin olunmuşdur. Bu gün ölkənin dindar təbəqəsi, o cümlədən xristian icması öz dini etiqad və inanclarını, adət-ənənələrini, bayram və mərasimlərini azad və sərbəst şəkildə icra edir, respublikanın ictimai-siyasi, mədəni-mənəvi həyatında və vətəndaş cəmiyyəti quruculuğunda yüksək fəallıq göstərir.

Hər il Azərbaycanda təntənə ilə keçirilən Pasxa bayramı xeyirxahlığın, mərhəmət və şəfqət duyğularının ifadəsidir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 aprel 2007-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MASALLI VƏ CƏLİLABAD RAYONLARINA SƏFƏRİ

*9 aprel 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 9-da Masallı rayonuna gəlmişdir. Prezident İlham Əliyev Masallı şəhərinin girəcəyində tikilmiş alaqapı ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yaraşıqlı alaqapıdan şəhərin mərkəzinə doğru uzanan 2,5 kilometrlik Heydər Əliyev prospekti başlayır. Təzə asfalt döşənmiş, abadlaşdırılmış prospekt boyunca yeni yaşayış binaları tikiləcəkdir. Burada 200 ədəd palma əkilmişdir. Nəzərdə tutulan başqa layihələr də vardır. İlin sonuna qədər Heydər Əliyev adına parkın salınması, Heydər Əliyev muzeyinin, mebel salonunun tikintisi başa çatdırılacaqdır. Masallıda qədim dövrlərdə fəaliyyət göstərmiş Qalabazarı yenidən qurulacaqdır.*

*Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, rayonda ənənəvi istehsal sahələri bərpa olunur, turizm inkişaf etdirilir və bunun da sayəsində insanların sosial rifahı yaxşılaşır. Təkcə son 3 ayda 442 yeni iş yeri açılıb ki, bunun da 232-si daimidir. Bakı–Astara yolunun Masallı hissəsində 7 min ağac və kol əkilmişdir. İlin sonunadək yüzlərlə iş yeri yaradılacaq, Azərbaycan Beynəlxalq Bankının Masallı filialı üçün bina inşa olunacaqdır.*

*Prezident İlham Əliyev yeni yaradılacaq obyektlərin gələcək görünüşünü əks etdirən fotoşəkillərə baxdı, müvafiq tapşırıq və tövsiyələrini verdi, qısa müddət ərzində rayonda görülən işlərdən razılığını bildirdi, nəzərdə tutulan işlərin yüksək səviyyədə, keyfiyyətlə yerinə yetirilməsinin vacibliyini söylədi.*

## Masallı Olimpiya İdman Kompleksinin təntənəli açılışı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Masallı şəhərində Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimində iştirak etmişdir.*

*Mərasimə toplaşan masallılılar, o cümlədən gənc idmançılar Azərbaycan prezidenti İlham Əliyevi, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikeyi və onun xanımını böyük hörmətlə və hərarətli alqışlarla qarşıladılar. Onların əllərində Azərbaycanın Dövlət bayraqları, idmana həmişə diqqət və qayğı göstərmiş ümummilli lider Heydər Əliyevin müdrik kəlamları yazılmış transparantlar, dövlətimizin başçısını salamlayan şüarlar var idi. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun inşa olunan bu kompleksə idman oyunları, güləş, boks, ağır atletika və gimnastika salonları, örtülü üzgüçülük hovuzu, süni örtüklü voleybol və basketbol meydançaları, iki tennis kortu, mini-futbol meydançası daxildir. Olimpiya kompleksində avtomobil dayanacaqları və digər xidmət obyektləri də tikilmiş, idmançılar üçün hər cür şərait yaradılmışdır. Dördulduzlu mehmanxana səviyyəsində 10-dan çox kottec tikilmişdir. 60 nəfərlik yeməkxana müasir tələblərə cavab verən mətbəx avadanlığı ilə təchiz edilmişdir. Azərbaycan Milli Olimpiya Komitəsi tərəfindən obyektin inşasına 1,5 milyon manat vəsait ayrılmışdır. Kompleksin layihəsini «S.Modus» şirkəti vermiş, podratçı təşkilat isə «EL» tikinti şirkətidir.*

*Masallı Olimpiya İdman Kompleksinin təməli 2004-cü il noyabrın 9-da prezident İlham Əliyev tərəfindən qoyulmuşdur. Dövlətimizin başçısı 2005-ci ilin sentyabr və oktyabr aylarında tikintinin gedişi ilə yaxından tanış olmuş, işlərin sürətləndirilməsi və keyfiyyətlə aparılması üçün müvafiq tövsiyə və tapşırıqlarını vermişdir. Bütün tövsiyə və tapşırıqlara əməl olunmuş və məhz bunun sayəsində bu idman obyekti istifadəyə bu ilin mayında yox, aprelində hazır olmuş və hazırda idman-*

*çıların ixtiyarına verilir.*

*Kompleksdə 700-dən çox tamaşaçı yeri olan böyük salonda bütün əl oyunları, mini-futbol, güləş və digər idman növləri üzrə beynəlxalq səviyyəli yarışlar keçirmək mümkündür. Uzunluğu 25 metr olan üzgüçülük hovuzu Avropa ölkələri layihəsi əsasında inşa olunmuşdur və beynəlxalq standartlara uyğundur. Respublikamızda sayca 11-ci olan bu kompleksdən cənub zonasında yerləşən digər rayonların idmançıları da istifadə edə biləcəklər.*

*Ölkəmizdə gənclərə göstərilən qayğının, idmanın və bədən tərbiyəsinin inkişafı istiqamətində həyata keçirilən dövlət siyasətinin – ümummilli lider Heydər Əliyevin dövründə əsası qoyulan siyasətin prezident İlham Əliyev tərəfindən davam etdirilməsinin daha bir təzahürü olan yeni kompleks Azərbaycanın müasir idman qurğuları sırasında layiqli yerini tutacaqdır. Azərbaycanın gözəl guşələrindən biri olan Masallının mülayim iqlimi, əlverişli coğrafi mövqeyi burada respublikanın müxtəlif idman növləri üzrə yığma komandalarının təlim-məşq toplanışlarının, beynəlxalq yarışların keçirilməsinə əlverişli imkan yaradacaqdır. Kompleksin ərazisinin ümumi sahəsi 3,5 hektardır. Burada park salınmış, su təchizatı üçün artezian quyusu qazılmışdır. 10 kilovoltluq yüksək gərginlikli elektrik xətti çəkilmiş və 160 kilovatlıq transformator quraşdırılmışdır. Elektrik enerjisinin verilməsində fasiləsizliyi təmin etmək üçün əlavə olaraq 160 kilovatlıq dizel generatoru və 250 kilovatlıq gərginlik tənzimləyicisi qoyulmuşdur. İstilik təchizatı üçün ərazidə qazanxana tikilmiş, Türkiyədən müvafiq avadanlıq gətirilmişdir. Polşa, Çexiya və Türkiyə istehsalı olan avadanlıqdan istifadə olunmaqla, ventilyasiya sistemi quraşdırılmışdır.*

*Kompleksin ümumi sahəsi 6 230 kvadratmetr olan üçmərtəbəli binasının tikintisində yerli xammal və materiallardan istifadə edilmişdir.*

*İdmançıların həkim yardımından istifadə etməsi üçün lazımi avadanlıqla təchiz olunmuş tibb məntəqəsi yaradılmışdır.*

*Kompleksin ikinci mərtəbəsində gimnastika və boks, üçüncü mərtəbəsində isə güləş, trenajor salonları yerləşir. Kom-*

*pleksə açıq səma altında müasir standartlara cavab verən otüstü xokkey stadionu daxildir. Sahəsi 6,3 min kvadratmetr olan stadionun 210 tamaşaçı tutan tribunası var.*

*Azərbaycan prezidenti İlham Əliyev və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikey kompleksin xarici görünüşünə baxdılar, Cəlilabad və Lənkəranın otüstü xokkey komandalarının yoldaşlıq görüşünə tamaşa etdilər və idmançılarla xatirə şəkli çəkdirdilər.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikey Olimpiya İdman Kompleksinin rəmzi açılışını bildirən lenti kəsdilər və ölkəmizin Olimpiya oyunları mükafatçılarına həsr olunmuş guşəyə, kompleksin idman salonlarına və xidmət otaqlarına, üzgüçülük hovuzuna baxdılar.*

*Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimi oldu. Mərasimdə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, voleybol üzrə gənclərdən ibarət milli yığma komandanın üzvü Şəfəq Kərimova və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikey çıxış etdilər.*

* * *

*Cənab Patrik Hikey Avropa Olimpiya Komitəsi adından Azərbaycan prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

## MASALLI OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*9 aprel 2007-ci il*

Əziz qonaqlar!

İlk növbədə, mən sizin hamınızı Masallı Olimpiya İdman Kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanda səfərdə olan Avropa Olimpiya Komitəsinin prezidenti cənab Patrik Hikeyi və onun xanımını ürəkdən salamlayıram.

Bildiyiniz kimi, Azərbaycanın idman ictimaiyyəti beynəlxalq idman qurumları ilə çox sıx əlaqədədir. Azərbaycanın Milli Olimpiya Komitəsi uzun illərdir ki, Avropa və beynəlxalq olimpiya komitələri ilə çox sıx əməkdaşlıq edir, birgə tədbirlər keçirilir və Azərbaycan olimpiya hərəkatında çox fəal iştirak edir. Təsadüfi deyil ki, beynəlxalq və Avropa olimpiya komitələrinin prezidentləri Azərbaycana səfərlər edir, buradakı vəziyyətlə tanış olurlar. Bizim birgə səylərimiz nəticəsində Azərbaycan qısa müddət ərzində idman ölkəsinə çevrilibdir. Bu gözəl olimpiya kompleksinin tikilib istifadəyə verilməsi bir daha göstərir ki, Azərbaycanda idmanın inkişafına çox böyük diqqət yetirilir. İdmanın hərtərəfli inkişafı bizim üçün vacibdir və bu məqsədlə ilk növbədə, idmanın maddi-texniki bazasının yaradılması və möhkəmlənməsi çox böyük əhəmiyyət daşıyır. Sirr deyil ki, əvvəllər Azərbaycanın bölgələrində idmanla məşğul olmaq üçün kifayət qədər imkan yox idi. Vaxtilə tikilmiş idman qurğuları yararsız vəziyyətə düşmüşdü və bizim idmançılarımız məşq etmək, yaxud da yarışlar keçirmək üçün çətinliklərlə üzləşmişdilər. Məhz bunu nəzərə alaraq, 2000-ci

ildən Milli Olimpiya Komitəsinin təşəbbüsü və bilavasitə iştirakı ilə Azərbaycanın bölgələrində yeni, müasir olimpiya kompleksləri tikilməyə başlamışdır. İlk kompleksin açılışını biz 2000-ci ildə etdik və onun açılışında Avropa Olimpiya Komitəsinin o vaxtkı prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin indiki prezidenti cənab Jak Roqq iştirak etmişdir. Yəni bu gözəl ənənə davam edir, beynəlxalq olimpiya hərəkatının rəhbərləri ilə çox sıx əməkdaşlığımız var. Eyni zamanda, Azərbaycanın müxtəlif rayonlarında yeni gözəl komplekslərin tikintisi davam edir.

2000-ci ildən bu günə qədər 11 gözəl, müasir olimpiya kompleksi tikilmişdir. Bundan əlavə, federasiyalar tərəfindən ixtisaslaşdırılmış olimpiya kompleksləri tikilmişdir və onların da sayı 10-a yaxındır. Hazırda 14 olimpiya kompleksinin tikintisi başlanmışdır, yaxud da buna hazırlıq işləri gedir. Yəni bizim məqsədimiz bütün bölgələrdə gözəl, müasir komplekslər tikməkdir və bu, artıq reallığa çevrilir. Bu bir daha onu göstərir ki, Azərbaycanda çox güclü idman potensialı var. Biz istəyirik ki, hər bir insan, xüsusilə gənclər, uşaqlar, yeniyetmələr idmanla məşğul olsunlar. Çünki idman sağlamlıq, sağlam həyat tərzi deməkdir. Son illər ərzində Azərbaycanda idman bölmələrinə müşahidə olunan kütləvi axın onu göstərir ki, idman cəmiyyətimizin çox önəmli amilinə çevrilibdir.

Bununla bərabər, vaxtilə Bakıda tikilmiş əzəmətli idman qurğularında yenidənqurma və bərpa işləri aparılır. Bakı İdman Sarayı əsaslı təmir olunubdur. Heydər Əliyev adına İdman–Konsert Kompleksində çox böyük yenidənqurma və bərpa işləri aparılır. Mingəçevirdə Beynəlxalq Avarçəkmə bazası və mərkəzi yaradılır. O, vaxtilə sovet məkanında yeganə baza idi ki, il ərzində orada təlim-məşq toplanışları keçirilirdi. Biz indi o bazanı faktiki olaraq yenidən qururuq. Ancaq bir addım da irəliyə getmişik. İndi həm təlim-məşq toplanışları keçirilməsi üçün imkanlar yaradırıq, eyni zamanda, orada ən mötəbər yarışlar, hətta dünya çempionatları da keçirmək mümkün olacaqdır. Bütün bu

işlər, əlbəttə ki, böyük vəsait tələb edir və Azərbaycanın indi iqtisadi imkanları bizə belə şəraiti yaradır. İdman sahəsinə qoyulan vəsait insanların sağlamlığına qoyulan vəsaitdir.

Azərbaycan eyni zamanda, bir sıra beynəlxalq yarışların keçirilməsi üçün çox tanınan ölkələrdən birinə çevrilibdir. Artıq bir neçə ildir ki, Azərbaycanda beynəlxalq yarışlar təşkil olunur və bu il güləş üzrə dünya çempionatı, bədii gimnastika üzrə Avropa çempionatı keçiriləcəkdir. Olimpiya oyunlarına lisenziya verən iki turnir keçiriləcəkdir. 2004-cü il Olimpiya oyunları ərəfəsində üç lisenziya turniri keçirilmişdir. Yəni bütün bunlar Azərbaycanın idman gücünü göstərir. Bir tərəfdən, beynəlxalq idman qurumları ilə səmərəli əməkdaşlığımız, digər tərəfdən, maddi-texniki bazanın möhkəmləndirilməsi və gözəl, əzəmətli komplekslərin tikintisi. Siz də görürsünüz ki, bu kompleks eyni zamanda, memarlıq abidəsidir. Bizim məqsədimiz sadəcə, idmanla məşğul olmaq üçün bir salon, yaxud da ki, bina tikmək deyildir. Özü də təkcə Bakıda yox, Azərbaycanın müxtəlif rayonlarında tikilən bu komplekslər məhz dünya standartlarına cavab verir.

Bunlar Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının tərkib hissəsidir. Sosial sahəyə diqqət də həmçinin. Son 3 il ərzində Azərbaycanda təxminən 800 məktəb tikilibdir. Məktəb tikintisi gələcək nəslə olan dəstəkdir. Bilik, savad, elm – bizim gənclərimiz həm əqli, həm də fiziki cəhətdən hazırlıqlı, güclü olmalıdırlar. Onlar gözəl şəraitdə həm oxumalıdırlar, həm də idmanla məşğul olmalıdırlar. İnsanların sağlamlığı üçün indi Azərbaycanın müxtəlif bölgələrində yeni, müasir diaqnostika və müalicə kompleksləri tikilir. Biz bunu edirik ki, insanlara ən yüksək tibbi xidmət göstərilsin. Qonşu şəhərdə, Lənkəranda ən müasir diaqnostika və müalicə mərkəzi yaradılıbdır və artıq orada açıq ürək üzərində əməliyyatlar aparılır. Masallılılar da o imkanlardan istifadə edəcəklər. İndi biz hər bir bölgədə

belə müalicə-diaqnostika kompleksləri yaradırıq ki, yaxın rayonlarda yaşayanlar da ondan istifadə edə bilsinlər.

Amma vaxt gələcək, hər bir rayonda belə gözəl müalicə mərkəzləri tikiləcəkdir. Yəni biz bu məsələyə kompleks şəkildə yanaşırıq. O cümlədən idmanın inkişafı həm ölkəmizin imicinə çox böyük töhfədir, Azərbaycanı dünyada tanıdır, eyni zamanda, millətimizin sağlamlığı üçün çox lazımdır və bu iki amil burada birləşir.

İdmanın inkişafı idmançıların uğurları ilə ölçülür. Mən çox şadam ki, Azərbaycan idmançıları ölkəmizin idman şöhrətini çox uca tutur, beynəlxalq yarışlarda – dünya, Olimpiya, Avropa yarışlarında Azərbaycanı ləyaqətlə təmsil edirlər. 2004-cü ilin Yay Olimpiya oyunlarında idmançılarımız beş medal qazanmışlar. Bu çox böyük göstəricidir. Eyni zamanda, dünya və Avropa çempionatlarında da çox uğurla çıxış edirlər.

Hər il Azərbaycan idmançıları müxtəlif beynəlxalq yarışlarda yüzlərlə medal qazanırlar. Bu da Azərbaycanın idman gücünü göstərir. İdmançılara olan diqqət, idmançılara olan hörmət, onların nailiyyətlərinin qiymətləndirilməsi, tanınmış idmançılara cəmiyyətdə olan münasibət uşaqlarda stimul doğurur. Görəndə ki, idmançı Azərbaycanda çox böyük hörmətə layiq bir insandır, onlar da idman bölmələrinə çox həvəslə gedirlər. Yəni bu işlər bir-biri ilə sıx bağlıdır.

Əlbəttə ki, Azərbaycanın Milli Olimpiya Komitəsinin prezidenti və ölkə prezidenti kimi, qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan sözün əsl mənasında, idman ölkəsidir. Biz bundan sonra da bütün bu sahədəki işlərimizi çox böyük səmərə ilə aparacağıq, Azərbaycanın idman şöhrətini qaldıracağıq və elə edəcəyik ki, hər yerdə idmanla məşğul olmaq üçün imkanlar olsun.

Mən bizim üçün yeni olan bir məsələyə toxunmaq istəyirəm. Bildiyiniz kimi, bu yaxınlarda Azərbaycan 2016-cı ildə Yay Olimpiya oyunlarinin ölkəmizdə keçirilməsi üçün rəsmi qaydada müraciət etmişdir. Deyə bilərəm ki, bu, postsovet məkanında Yay Olimpiya oyunlarinin keçirilməsi üçün ilk

belə bir müraciətdir. Mən onu deyə bilərəm ki, bir neçə il bundan əvvəl bəlkə də heç kimin ağlına gəlməzdi ki, biz belə bir təşəbbüslə çıxış edərik. Ancaq bu gün Azərbaycanın həm idman potensialı, həm idmanın maddi-texniki bazası, idmançılarımızın nailiyyətləri, eyni zamanda, ölkəmizin maddi imkanları belə qərarın qəbul olunmasında ən başlıca rol oynamışdır. Yəni bizim ölkəmiz Olimpiya oyunlarını keçirməyə hazırdır, buna qadirdir və bütün imkanlar var. Mən ümid edirəm ki, beynəlxalq idman qurumları bizim müraciətimizə diqqətlə yanaşacaqdır. Onu da başa düşürük ki, adətən, ilk dəfə edilən müraciət təmin olunmur. Yəni bilirsiniz, Olimpiya oyunlarını keçirmək istəyən çox ölkələr var, şəhərlər var, hansılar ki, artıq bir neçə dəfə belə müraciətlər etmişlər, ancaq buna nail ola bilməmişlər. Yəni biz bu məsələyə real yanaşmalıyıq. Amma biz Azərbaycanda nəinki 2016-cı ildə, hətta indi Olimpiya oyunlarını ən yüksək səviyyədə keçirməyə qadirik. Bu, ölkəmizin potensialını, bizim iqtisadi gücümüzü göstərir. Sirr deyil ki, Azərbaycan son üç il ərzində dünya miqyasında iqtisadi cəhətdən ən dinamik inkişaf edən ölkədir. Bizim iqtisadi artımın dünyada analoqu yoxdur. Artım 2005, 2006-cı illərdə 26 və 35 faiz olmuşdur. Bu il də iqtisadiyyatımız təxminən həmin səviyyədə artacaqdır. Bölgələrimiz inkişaf edir, iş yerləri açılır, yeni müəssisələr yaradılır. Hər bir bölgənin problemi diqqət mərkəzindədir, o cümlədən Masallıda da inkişaf üçün lazımi tədbirlər görülür. Ümid edirəm ki, Masallıda gedən quruculuq-abadlıq işlərinin nəticələri yaxın zamanlarda özünü göstərəcəkdir. Rayonun çox böyük potensialı var və biz bu potensialdan tam şəkildə istifadə edəcəyik.

Olimpiya kompleksinin açılışı, əlbəttə ki, özlüyündə böyük hadisədir. Bununla bərabər, mən buna geniş səpkidə rayonların inkişafı kontekstində baxıram. Mənim məqsədim Azərbaycanda hər bir rayonun inkişaf etməsidir. Hər bir rayonda inkişaf səviyyəsi Avropa səviyyəsində, dünya səviyyəsində olmalıdır. Azərbaycan xalqı buna layiqdir və biz birgə səylərlə buna nail olacağıq.

Əziz dostlar, mən sizi bu gözəl gündə bu gözəl kompleksin açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, masallılılara bütün işlərində uğurlar arzulayıram. Sağ olun!

* * *

*Rəsmi hissədən sonra incəsənət ustalarının konserti, idmançıların nümunəvi çıxışları oldu.*

## AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKEY İLƏ GÖRÜŞ

*Masallı Olimpiya İdman Kompleksi*

*9 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Masallı Olimpiya İdman Kompleksinin açılış mərasimindən sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikey ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanda idmanın və bədən tərbiyəsinin inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə dövlət səviyyəsində yüksək qayğı göstərildiyi xüsusi vurğulandı. Bildirildi ki, məhz belə kompleks tədbirlər sayəsində Azərbaycan idmançıları Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında, müxtəlif beynəlxalq yarışlarda yüksək nəticələr göstərirlər.*

*Azərbaycanda mütəmadi olaraq ən mötəbər beynəlxalq yarışların keçirilməsi təqdirəlayiq hal kimi dəyərləndirildi. Paytaxtda və bölgələrdə istifadəyə verilən olimpiya idman komplekslərinin gənc nəslin sağlam böyüməsində böyük əhəmiyyəti qeyd olundu.*

*Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikey Azərbaycanda idmana dövlət səviyyəsində bu cür qayğının ölkəmizin idmançılarının Pekin olimpiadasında da yüksək nəticələr göstərmələri üçün geniş imkanlar açdığını bildirdi.*

*Görüşdə Azərbaycanın beynəlxalq idman təşkilatları, o cümlədən Avropa Olimpiya Komitəsi ilə əməkdaşlığının yüksək səviyyədə olduğu bir daha vurğulandı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏLİLABAD RAYONUNDA

*9 aprel 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 9-da Masallıdan Cəlilabad rayonuna gəlmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə avtovağzalın yenidən qurulan binası ilə tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, 1982-ci ildə tikilmiş ikimərtəbəli bu avtovağzal binası son beş ay ərzində tamamilə yenidən qurulmuşdur. Bu işlər prezidentin tapşırığına əsasən rayonda aparılan abadlıq işləri çərçivəsində görülmüşdür. Avtovağzaldan gün ərzində 400–500 sərnişin yola salmaq mümkündür. Hər gün 30–40 avtobus respublikanın müxtəlif bölgələrinə sərnişin daşıyır. Binada sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq, təxminən iki ay ərzində bütün işlər başa çatdırılacaqdır. Hazırda Ələt–Astara avtomobil yolunun bir hissəsi əsaslı təmir olunmuş, Cəlilabad şəhəri ərazisindən keçən hissə genişləndirilmiş, yolun kənarındakı yöndəmsiz tikililərin yerində milli üslubda yeni binalar inşa olunmuş, işıqlandırma sistemi yenidən qurulmuşdur.*

*Məlumat verildi ki, hazırda şəhərdə Heydər Əliyev seyrəngahının, ulu öndərin adını daşıyacaq muzeyin, parkın, habelə məktəbin və yeni iş yerlərinin açılacağı beş obyektin tikintisi davam etdirilir. Bildirildi ki, ötən əsrin 70–80-ci illərində xalqımızın ümummilli lideri Heydər Əliyevin sayəsində Cəlilabadın siması tamamilə dəyişmişdi və hazırda prezidentin diqqət və qayğısı nəticəsində rayon yeni inkişaf dövrünü yaşayır.*

*Prezident İlham Əliyev rayonda tikilmiş və inşası davam etdirilən obyektlərin layihələri və fotoşəkilləri ilə tanış oldu,*

*bütün işlərin vaxtında və yüksək keyfiyyətlə görülməsinin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, həqiqətən də 70–80-ci illərdə Cəlilabad dirçəlişdə idi və indi də inkişaf etmiş ən qabaqcıl rayonlardan olacaqdır.*

## CƏLİLABAD ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV SEYRƏNGAHININ TİKİNTİSİ İLƏ TANIŞLIQ

*9 aprel 2007-ci il*

*Prezident İlham Əliyev aprelin 9-da Cəlilabad şəhərində Heydər Əliyev seyrəngahının tikintisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər haqqında məlumat verildi. Bildirildi ki, şəhərin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması üçün 6 min metr əsas, 5,5 min metr məhəllədaxili su xətləri çəkilmişdir. Privolnoye kəndinin su təchizatının yaxşılaşdırılması üçün 3 min metr su xətti təzələnmişdir. Cəlilabad şəhərində yeni kanalizasiya sisteminin tikintisinə başlanılıb və 6 min metrdən artıq xətt çəkilmişdir.*

*Rayonda yeni tibb müəssisəsinin, Göytəpə şəhərində mədəniyyət evinin, Cəlilabad şəhərində doğum evinin, idman kompleksinin tikintisi üçün torpaq sahəsi ayrılmışdır. Əlillər və şəhid ailələri üçün də yaşayış binasının inşası nəzərdə tutulmuşdur. Cəlilabadda 16 mənzilli yaşayış binası istifadəyə verilmişdir. 7 nömrəli şəhər orta məktəbi üçün 1100 şagirdlik binanın tikintisi davam etdirilir.*

*Cəlilabadlıların sevimli istirahət yeri olacaq Heydər Əliyev seyrəngahında, ulu öndərin adını daşıyacaq muzeyin tikintisində işlər başa çatır. Heydər Əliyev prospekti əsaslı şəkildə yenidən qurulmuş, 1,5 kilometrlik məsafədə nəqliyyatın ikitərəfli hərəkəti təmin edilmiş, 19,4 min kvadratmetr asfalt döşənmişdir. 12 min kvadratmetr ərazidə çəmənliklər salınmış, suvarma məqsədi ilə üç artezian quyusu qazılmış və çənlər qoyulmuşdur. Rayonda taxılçılığın inkişafına xüsusi diqqət yetirilir. 2006-cı ildə 125 625 ton taxıl (2005-ci ildəkindən 2 621*

*ton çox) istehsal olunmuş, hər hektardan 26,1 sentner məhsul götürülmüşdür.*

*Fiziki və hüquqi şəxslər tərəfindən 729 hektar sahədə üzüm bağları salınmışdır. Damazlıq quşçuluq təsərrüfatının və broyler fabrikinin fəaliyyətinin bərpası üçün də işlər gedir. Hazırda fabrikin dörd sexi bərpa edilmiş və 200 ton quş əti istehsal olunmuşdur.*

*Sonra dövlətimizin başçısı rayon ağsaqqalları ilə görüşdü.*

**Ədalət Əsgərov** (*Cəlilabad Rayon Təhsil Şöbəsinin müdiri*): Cənab Prezident, icazə verin öz adımdan, ağsaqqallar adından, rayon ictimaiyyəti adından, rəhbərlik adından Sizə minnətdarlıq edim. Qədəmləriniz mübarək olsun. Siz bu gün bizi şərəfləndirdiniz, bizə ilham verdiniz. Xoş gəlmisiniz, ulu öndərimizin yadigarı İlham müəllim. Siz Cəlilabadı həmişə yaşatmısınız. Ulu öndərimiz də rayonumuzu yaşatmışdır. Cəlilabad 40 ildir ulu öndərimizin qoyduğu yol ilə gedir, Allah qoysa, hələ 40 il bundan sonra da inkişaf yolu ilə gedəcəkdir. Biz Sizə çox minnətdarıq ona görə ki, bu gün bir daha Cəlilabada gəlməklə bizə yeni ruh verdiniz. Bu gün Sizin qarşınıza çıxarmağa az-çox işimiz var. Yadınızdadırsa, Heydər Əliyev adına məktəbin açılışına gələndə buranın vəziyyəti barədə məndən soruşmuşdunuz. Onda xəcalət çəkirdim, indi görün necə dəyişibdir. Fikirləşirdim ki, cənab Prezident buranı məndən niyə soruşur?

**İlham Əliyev:** O, 2004-cü il idi.

**Ədalət Əsgərov:** Bəli, layihəni Siz o vaxt vermişdiniz. İndi bura tanınmır. Səhər-səhər işə gələndə hər kəs rayonda yenilik görür. İnsanlarda böyük həvəs var, inciyirlər, deyirlər ki, bəs bizi niyə işlətmirsiniz? Hər kəs istəyir ki, işləməklə iz qoysun. Biz ulu öndərimizin layiqli davamçısı İlham Əliyevi çox istəyirik, rəhmətlik Heydər Əliyev Cəlilabadı çox sevirdi. Ulu öndərimizi Azərbaycanın hər yerində çox sevirlər, ancaq Cəlilabadda hamıdan çox sevirlər. Bu sözü Sizə tam səmimiyyətlə deyirəm. O vaxt ümummilli liderimiz Cəlilabada 3 dəfə səfər etmişdi və rayonumuza hər

gəlişində burada bir iz qoyurdu. Allah Sizin ömrünüzü uzun, canınızı da sağ eləsin. Çünki Siz rəhmətlik Heydər Əliyevin ideyalarını uğurla davam etdirirsiniz. Allah Sizi bizlərə çox görməsin.

Cənab Prezident, Sizdən bir xahişim var, bu obyektlərin açılışında iştirak edin.

**İlham Əliyev:** Mən də o illəri çox yaxşı xatırlayıram. Ulu öndər həmişə Cəlilabada gələndə mən də onunla gəlirdim. Burada dəfələrlə olmuşam, bu yerləri çox yaxşı xatırlayıram və bura mənim üçün çox əzizdir. Ona görə 2004-cü ildə sizdən soruşdum ki, bura nə vəziyyətdədir. Sizin sözünüzdən bildim ki, o qədər də yaxşı vəziyyətdə deyil. Fikirləşdim ki, biz mütləq burada böyük yenidənqurma işləri aparmalıyıq. 70–80-ci illərdə Heydər Əliyev Cəlilabadı, demək olar ki, inkişaf etdirdi, burada üzüm bağları salındı, çox işlər görüldü, insanlar yaxşı pul qazandılar, ev tikdilər, maşın aldılar. İndi biz Cəlilabada yeni həyat veririk.

Artıq müasir səviyyədə, yəni dünya səviyyəsində. Dünyanın istənilən ölkəsinə getmək olar, amma bu gözəlliyi orada görmək mümkün deyildir. Hər yer abadlaşır, hər yer gözəlləşir. Mən indi avtovağzalın binasına baxdım. Müasir, gözəl binadır, orada gözəl xidmət göstəriləcəkdir. Bu yerlər abadlaşır, insanların rahatlığı, istirahəti üçün park salınacaqdır. Bunlar Cəlilabadın ümumi inkişafının dinamikasını göstərir. Bizim də məqsədimiz odur ki, insanlar rahat yaşasınlar. Gözəl binalar, istirahət, dincəlmək üçün yaxşı yerlər olsun, iş yerləri olsun, məktəb tikilsin. Sizin çox gözəl məktəbiniz var. Yadımdadır, o vaxt açılışında da oldum.

**Ədalət Əsgərov:** Cənab Prezident, ondan da gözəl məktəbimiz olacaq və Siz açılışına gələcəksiniz.

**İlham Əliyev:** Bəli, indi ondan da gözəl məktəb tikilir, şəkilləri görmüşəm, buradan sonra gedib baxacağam. Yəni bütün bunları edirik ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın. Maaşlar, pensiyalar artırılır, bu öz yerində, amma belə gözəl məktəb, istirahət yerləri də olmalıdır. Xü-

susilə ağsaqqallar üçün, onlar böyük zəhmət çəkiblər, Azərbaycanın inkişafında çox fəal iştirak ediblər. Bu gün də iştirak edirlər və onların fəaliyyəti gənc nəsil üçün böyük örnəkdir.

Mən bu yerin ilkin planını görəndə oraya bəzi düzəlişlər etdim. Yəni bilirəm ki, burada nələr olacaqdır. Çünki bu yerin planını özüm təsdiq etmişəm və şəkildəkindən də gözəl olmalıdır. Şəkildə çox gözəldir, həyatda ondan da gözəl olmalıdır. Ona görə bu işlər tezliklə başa çatacaq və mən də bundan sonra buraya dəfələrlə gələcəyəm.

**Ədalət Əsgərov:** Cənab Prezident, ümummilli liderimiz gənclərə çox böyük qayğı göstərirdi. Çox şadıq ki, o xətti Siz ləyaqətlə davam etdirirsiniz. Təyin etdiyiniz kadrlar Sizin iş sürətinizlə işləyirlər.

**İlham Əliyev:** Onlar mənim tələblərimi bilirlər və təyin edəndə deyirəm ki, get düz işlə, insanlara qulluq et, qur, yarat, rayonu gözəlləşdir. Çalış ki, insanlara maksimum dərəcədə kömək edəsən. Yəni, mənim iş prinsiplərim belədir.

**Ədalət Əsgərov:** Sizin bir kəlamınız var: «Azərbaycan Heydər Əliyevin şah əsəridir». Allah buna görə də ona rəhmət eləsin.

**Vədud Məmmədov** (*rayon ağsaqqalı*): Ümummilli liderimiz Heydər Əliyevin çox sevdiyi və rəğbət bəslədiyi Cəlilabad torpağına xoş gəlmisiniz! Qədəmləriniz mübarək, gəlişiniz uğurlu olsun!

Hörmətli Prezident, biz Sizin istər xarici, istərsə də regionlara səfərlərinizi diqqətlə izləyirik. Xarici səfərləriniz dövlətlər arasında ünsiyyət, mehribanlıq, əməkdaşlıq yaradır və buna sevinirik. Respublikanın regionlarında olarkən əhali Sizə, Siz əhaliyə yaxınlaşırsınız, xalq Sizi sevir, camaatın Sizə rəğbəti artır, Sizin camaata rəğbətiniz artır. Hamı ürəyində istilik hiss edir, qəlblərə işıq, nur çökür. Bilir ki, qayğıkeşi, problemlərə diqqətlə yanaşanı var. Bizim rayona da xoş gəlmisiniz. Biz çox sevinirik, neçə illərdir Sizinlə görüşməyi gözləyirdik.

**İ l h a m  Ə l i y e v:** İllər yox, mən 2004-cü ildə gəlmişdim. Ondan əvvəl 2003-cü ildə prezident seçkilərində də gəlmişdim. İndi də gəlmişəm, bundan sonra da gələcəyəm.

**H i d a y ə t  B a b a y e v** (*rayon ağsaqqalı*): Qədəmləriniz nurlu olsun, bu gəlişinizlə üç bayram bir yerə düşür. Sizin səfəriniz, yazın gəlişi və burada bu cür abadlığın aparılması. Buna kim şad olmaz ki?! Bütün cəlilabadlılar sevinirlər. Ümummilli liderimiz Heydər Əliyev həmişə cəlilabadlıları sevib, bizə həmişə qayğı göstəribdir. Həmişə deyərdi ki, Cəlilabad ictimaiyyətinə, Cəlilabad əhalisinə mənim az xidmətim olmamışdır. Bu həqiqətən də belədir. Heydər Əliyevin fəaliyyəti həm də Cəlilabadla bağlı idi. Heydər Əliyevin və onun ailəsinin cəlilabadlıların qəlbində məhəbbəti elə həkk olunub ki – atalar demişkən, «südlə girib, sümüklə bərkiyibdir» – heç bir qüvvə, heç bir təsir onu bizim qəlbimizdən çıxara bilməz.

Cənab Prezident, Sizin və xanımınızın ingilis dilində çıxışlarınız bizi həddindən çox sevindirir. Bütün arzularınız çin olsun, torpaqlarımız azad edilsin. Ölkəmizin iqtisadi cəhətdən daha da sürətlə inkişaf etməsi, əhalinin rifah halının yüksəlməsi, ürəyinizdəki bütün arzular çin olsun.

**İ l h a m  Ə l i y e v:** Mənim bir arzum var ki, Azərbaycan möhkəm olsun, güclü olsun.

**S ə n a n  D ö v l ə t o v** (*rayon ağsaqqalı*): Sizin bütün xarici səfərlərinizi izləyirik, çıxışlarınızı diqqətlə dinləyirik. Sizin daxili və xarici siyasətinizi bəyənirik. Çünki Siz xalqın qayğısına qalırsınız. Cəlilabad əhalisi Sizinlədir və Sizi sevir, fəxr edir. Siz bizim fəxri vətəndaşımızsınız.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, mən çox şadam.

**R ə ş i d  Ə s g ə r o v** (*rayon ağsaqqalı*): Cənab Prezident, Cəlilabad rayonunda 1971-ci ildə ulu öndər Heydər Əliyevlə görüşdə mən də iştirak etmişəm. O həmin vaxt Rayon Partiya Komitəsinin binasına daxil olmadı, bağa getdi, əlini ağaca qoyub söykəndi və bütün camaat başına toplaşdı.

Orada camaatla söhbət etdi. Söhbətin əsas mövzusu rayonda üzümçülüyün inkişaf etdirilməsi idi. Həqiqətən də, o bu

məsələni ətraflı öyrəndi, müəyyən vaxtdan sonra Cəlilabad rayonunda 31 min hektar üzüm bağları salındı və üzüm istehsalı 265 min tona çatdı. Ancaq onun bir nigarançılığı var idi. Mən bunu həmişə demişəm, bundan sonra da deyəcəyəm. O nigarançılıq bu idi ki, Azərbaycan nə vaxt müstəqil olacaq və ona nə vaxt rəhbərlik edəcəkdir. Allaha şükür ki, ona da nail oldu. İndi Siz onu əvəz edirsiniz. Bu, böyük işdir. Sizin planlarınız var, qəzetdən oxuyuram. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı şəhərlərdə yox, daha çox kəndlərdə həyata keçirilir. Görülən işlərin hamısı onun nəticəsidir. Azərbaycan xalqı nə qədər əziyyət çəkibsə, onun səfasını görməlidir və indi görür. İndi həmin məqamdır və ulu öndərin istəklərini həyata keçirdiyiniz üçün Sizə çox sağ olun deyirik.

**İlham Əliyev:** 1969-cu ilə qədər Azərbaycan bütün sovet respublikaları arasında ən geridə qalanlardan idi. Ulu öndər 1969-cu ildə hakimiyyətə gəldi və Azərbaycan 1982-83-cü illərdə birinci yerə çıxdı. Təkcə iqtisadi göstəricilərə görə deyil, həm də insanların həyat səviyyəsinə görə, xüsusilə kəndlərdə. O nədən başladı? Rayonların inkişafından. Ondan sonra 90-cı illərin əvvəllərində Azərbaycan çox çətin vəziyyətə düşdü, faktiki olaraq, ölkəmiz dağılırdı, bizim müstəqilliyimiz də şübhə altında idi. İqtisadi tənəzzül, hərbi-siyasi böhran ölkəni parçalayırdı və Azərbaycan dünya xəritəsindən silinə bilərdi. Yenə ulu öndər 90-cı illərin əvvəllərində hakimiyyətə gəldi, ən çətin vəziyyətdə olan Azərbaycanı dünyanın inkişaf edən ölkəsi səviyyəsinə çıxardı. Bu gün biz taleyimizi özümüz həll edirik. Neftimiz Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edir. Büdcəmiz 1 milyard dollardan 6,5 milyard dollara qalxdı. May ayında yenə düzəliş edəcəyik və əlavə vəsait ayrılacaqdır.

**Rəşid Əsgərov:** İqtisadi artım 34,5 faiz olmuşdur.

**İlham Əliyev:** Bəli, siz bunları yaxşı bilirsiniz. Bu artım heç bir başqa ölkədə yoxdur. Özü də bir il deyil, ardıcıl olaraq ikinci və üçüncü ildir ki, dünyada lider ölkəyik. Biz

bütün abadlıq işlərini bunun hesabına görürük. Əgər 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə «Əsrin müqaviləsi» imzalanmasaydı, bunun heç birini edə bilməzdik. Məhz bunun hesabına indi Azərbaycan dirçəldi, bizdə güc var, maddi imkanlar var, siyasi iradə var, xalqın dəstəyi var. Bizim bütün ölkələrlə münasibətlərimiz qarşılıqlı hörmət əsasındadır. Biz heç kimin qarşısında gözükölgəli deyilik.

Biz bölgədə, bütün işlərdə təşəbbüskar oluruq. Daxili sabitlik, xarici siyasət, iqtisadi islahatlar, insanların həyat səviyyəsinin yaxşılaşması, məktəb, xəstəxana, idman komplekslərinin tikintisi, abadlıq işləri, parkların, xiyabanların salınması – Azərbaycanın bugünkü reallıqları budur. Mən rayonların abadlaşdığını, gözəlləşdiyini görəndə çox şad oluram.

Bakıda oturub çox gözəl qərarlar vermək olar. Əgər onlar yerlərdə icra olunmursa, heç bir əhəmiyyəti yoxdur. Ona görə kadrlara – siz dediniz, bu, xüsusi məhəbbətin əlamətidir – tapşırıq vermişəm, qısa müddət ərzində gözəl işlər görəcəklər.

*Prezident İlham Əliyev ağsaqqallarla xatirə şəkli çəkdirdikdən sonra tikinti işləri ilə tanış oldu. Məlumat verildi ki, seyrəngahda süni göl də yaradılacaq, şəhərə xüsusi yaraşıq verəcək yeni mehmanxana tikiləcək, sakinlərin asudə vaxtını səmərəli keçirməsi üçün hər cür şərait yaradılacaqdır. Bütün işlər təxminən üç ay ərzində başa çatdırılacaqdır.*

*Dövlətimizin başçısı işlərin nəzərdə tutulan vaxtda keyfiyyətlə başa çatdırılmasının zəruriliyini bildirdi, müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## Cəlilabad şəhər orta məktəbinin tikintisi ilə tanışlıq

*Prezident İlham Əliyev aprelin 9-da 7 nömrəli Cəlilabad şəhər orta məktəbinin tikintisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 1100 şagirdlik məktəb binasında son tamamlama işləri aparılır. Bu təhsil*

*ocağı yüksək standartlara cavab verəcək, sinif otaqlarından əlavə, fənn kabinetləri, idman zalı, yeməkxana, idman meydançası, internetə qoşulmuş kompyuter otağı da olacaqdır.*

*Prezident İlham Əliyev tikinti işlərinin keyfiyyətlə görülməsinin, binanın xarici görünüşünün gözəl olmasının, burada hər bir şəraitin yaradılmasının zəruriliyini xatırlatdı.*

*Bildirildi ki, rayonun Komanlı kəndində 480 şagirdlik orta məktəb binası, Burovar kənd orta məktəbi üçün əlavə sinif otaqları tikilib istifadəyə verilmişdir. Xəlilabad, Şiləvəngə və Zopun kəndlərinin hər birində 260 yerlik orta məktəb binalarının tikintisi üçün yer ayrılmışdır.*

*Bununla da Azərbaycan prezidentinin Masallı və Cəlilabad rayonlarına səfəri başa çatdı.*

## AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ TƏMİR-BƏRPA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*10 aprel 2007-ci il*

*Prezident İlham Əliyev aprelin 10-da Milli Elmlər Akademiyasının Azərbaycan Tarixi Muzeyində təmir-bərpa işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının göstərişi ilə təmir edilən çoxsaylı tarixi binalardan biri olan Azərbaycan Tarixi Muzeyinin binası Bakının ən gözəl memarlıq abidələrindəndir. Muzeydə qədim dövrdən başlayaraq, Azərbaycan tarixinin bütün mərhələlərinə dair qiymətli eksponatlar toplanmışdır. Lakin uzun illər əsaslı təmir edilmədiyindən bərbad vəziyyətə düşmüşdü. 2004-cü ilin dekabrında muzeydə yaranmış vəziyyətlə yaxından tanış olan prezident İlham Əliyev binanın əsaslı təmiri və bərpası barədə göstəriş vermiş, 2005-ci ilin sentyabr ayından bu işlərə başlanmışdır.*

*İşlərin gedişi ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, bütövlükdə bərpa prosesi son mərhələyə daxil olubdur. Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin sifarişi ilə təmir işlərini yerinə yetirən «Azəraqrartikinti» Səhmdar Cəmiyyəti mühəndis-texniki qurğuların, kommunikasiya sisteminin yeniləşdirilməsini yekunlaşdırır. Binanın dam örtüyü tamamilə təzələnmiş, yüksək zövq və məharətlə bəzədilmiş otaqlarında və salonlarında bərpa işləri dəqiqliklə görülür. Bu prosesə cəlb olunmuş İtaliyanın «Eleka» şirkəti divarlarda, arakəsmələrdə, tavan və döşəmələrdə yüz il əvvəlki bəzək və naxışları aşkarlayıb ilkin formada bərpa edir. O dövrdə quraşdırılmış qapı-pəncərələr, istilik və işıq sistemləri original üslubda yeniləşdirilibdir. Bütövlükdə ikinci*

*mərtəbədə Hacı Zeynalabdin Tağıyevin Xatirə muzeyi yerləşəcəkdir.*

*Prezident İlham Əliyev otaqların və salonların əvvəlki görünüşdə tərtibatına xüsusi diqqət yetirilməsini tövsiyə etdi.*

*Muzey həm də Milli Elmlər Akademiyasının strukturunda elmi-tədqiqat və mədəni-maarif müəssisəsi funksiyasını yerinə yetirir. Binanın üçüncü mərtəbəsindəki otaqlar bu məqsəd üçün nəzərdə tutulmuşdur.*

*Dövlətimizin başçısı tariximizin tədqiqi, öyrənilməsi və təbliği baxımından burada çalışan mütəxəssislərin üzərinə yüksək məsuliyyət düşdüyünü xatırlatdı və elmi araşdırmalar üçün onlara hərtərəfli şərait yaradılması ilə bağlı tapşırıqlarını verdi.*

*Muzeyin direktoru, AMEA-nın müxbir üzvü Nailə Vəlixanlı tariximizə və mədəni irsimizə həssaslıqla yanaşan prezident İlham Əliyevə ölkəmizin sürətli inkişafına dair problemlərin həlli ilə yanaşı, çoxsaylı abidələrə və mədəniyyət ocaqlarına ikinci həyat bəxş etdiyinə görə dərin minnətdarlığını bildirdi.*

## TÜRKİYƏNİN «MƏRMƏRƏ QRUPU»nun RƏHBƏRİ AKKAN SÜVƏR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Prezident sarayında Türkiyənin «Mərmərə Qrupu»nun rəhbəri Akkan Süvəri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, Azərbaycan və Türkiyənin müxtəlif qurumları arasında əlaqələrin və qarşılıqlı səfərlərin bu münasibətlərin möhkəmlənməsinə öz töhfəsini verdiyi qeyd edilmiş, ölkəmizlə «Mərmərə Qrupu» arasında əməkdaşlığın gələcəkdə də uğurla inkişaf edəcəyinə əminlik ifadə olunmuşdur.*

## ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Anadan olmağınızın 80 illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz bütün həyat və fəaliyyətinizlə ümumbəşəri dəyərləri tərənnüm edərək insanlar arasında qarşılıqlı anlaşma, dostluq və həmrəylik münasibətlərinin bərqərar olması naminə yorulmadan çalışırsınız.

Müqəddəs Taxt-taca rəhbərlik edərək insanları mərhəmət, şəfqət və ülfətə çağırışlarınızla, şəxsi nümunə və fədakarlığınızla bütün dünyada böyük rəğbət və nüfuz qazanmısınız.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, möhkəm cansağlığı, xoşbəxtlik, humanizm ideallarının təntənəsi naminə ali missiyanızda uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 aprel 2007-ci il*

## HİNDİSTANIN TİCARƏT ÜZRƏ DÖVLƏT NAZİRİ CAİRAM RAMEŞİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında Hindistanın ticarət üzrə Dövlət naziri Cairam Rameşin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Hindistan arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi. İqtisadi əlaqələrin ölkələrimizin potensialına uyğun gəlmədiyini deyən prezident İlham Əliyev Dövlət nazirinin səfərinin bu əlaqələrin gələcək inkişafına öz töhfəsini verəcəyinə ümid etdiyini bildirdi.*

*Cairam Rameş ölkəmizə səfərindən böyük məmnunluq duyduğunu söylədi. Bakıda keçirəcəyi görüşlər və müzakirə edəcəyi məsələlər barədə dövlətimizin başçısına məlumat verən qonaq səfərinin iki ölkə arasında iqtisadi sahədə əlaqələrin genişləndirilməsi işinə kömək edəcəyinə əminliyini ifadə etdi.*

## RUSİYA FEDERASİYASI KURQAN VİLAYƏTİNİN QUBERNATORU OLEQ BOQOMOLOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Prezident sarayında Rusiya Federasiyası Kurqan vilayətinin qubernatoru Oleq Boqomolovu qəbul etmişdir.*

*Qubernator Oleq Boqomolov ölkəmizə ötən səfərlərini və xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini məmnunluqla xatırladı. O, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1985-ci ildə Kurqan vilayətində keçirilən tədbiri yada salaraq, bunun vilayətin iqtisadi həyatında əhəmiyyətli rol oynadığını vurğuladı. Oleq Boqomolov Kurqandakı Azərbaycan diasporunun vilayətin sosial-ictimai həyatında fəal iştirak etdiyini qeyd etdi.*

*Dövlətimizin başçısı ölkəmizin Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Kurqan vilayəti ilə əlaqələrinin Azərbaycan–Rusiya münasibətlərinin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyini bildirdi və vilayətlə əməkdaşlığın gələcəkdə də fəal surətdə həyata keçiriləcəyinə ümidvar olduğunu söylədi.*

# BÖYÜK BRİTANİYANIN İNGİLTƏRƏ–AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ LORD FREYZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Prezident sarayında Böyük Britaniyanın İngiltərə–Azərbaycan Cəmiyyətinin sədri Lord Freyzerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Lord Freyzer bu il İngiltərə–Azərbaycan Cəmiyyətinin yaradılmasının 10 ilinin tamam olduğunu və bununla bağlı Bakıda xüsusi tədbir keçirilməsinin planlaşdırıldığını söylədi.*

*Görüşdə Azərbaycan–Böyük Britaniya münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, iki ölkənin müxtəlif strukturları arasındakı əməkdaşlığın ikitərəfli əlaqələrin genişləndirilməsi üçün əhəmiyyəti qeyd edildi və İngiltərə–Azərbaycan Cəmiyyətinin Azərbaycan–Böyük Britaniya münasibətlərinin inkişafına töhfə verdiyi bildirildi.*

# CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİNİN RUSİYALI HƏMVƏTƏNLƏR TƏŞKİLATLARININ BAKIDA KEÇİRİLƏN REGİONAL KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Prezident sarayında Cənubi Qafqaz ölkələrinin rusiyalı həmvətənlər təşkilatlarının Bakıda keçirilən regional konfransının iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Sizin hamınızı Azərbaycanda salamlamağıma şadam və ümidvaram ki, ölkəmizə səfəriniz yaddaqalan olacaqdır. Mən bu konfransın məhz ölkəmizdə keçirilməsini çox mühüm hadisə hesab edirəm. Biz bu hadisəyə hazırlaşırdıq və ümid edirik ki, konfrans, fikir mübadiləsi Cənubi Qafqaz ölkələrinin rus icmalarının nümayəndələri arasında daha böyük qarşılıqlı anlaşmaya gətirib çıxaracaqdır.

Bilirəm ki, əlaqələr var və icmaların nümayəndələri müxtəlif beynəlxalq tədbirlərdə, o cümlədən də Moskvada həmvətənlərin hər il keçirilən tədbirində görüşürlər. Lakin Bakıda görüşün öz formatı var.

Azərbaycanda biz millətlərarası münasibətlərə çox böyük diqqət yetiririk. Azərbaycan çoxmillətli ölkədir. Bir çox onilliklər və əsrlər ərzində müxtəlif millətlərin və dinlərin nümayəndələri Azərbaycanda mehriban ailə kimi yaşamış və yaşayırlar. Bu bizim ölkəmizin sərvətidir. Çox vacibdir ki, ölkəmizdə müstəqillik əldə olunduqdan sonrakı dövr də millətlərarası həmrəylik və sülhlə səciyyələnir, belə halı biz

digər ölkələrdə heç də həmişə müşahidə etmirik. Tolerantlığın yüksək səviyyəsi, digər millətin nümayəndələrinə hörmətcil münasibət müstəqil Azərbaycan üçün səciyyəvi haldır. Ona görə də belə formatda görüş bizim üçün həm də təcrübə mübadiləsi baxımından vacibdir. Təbii ki, siz konfrans, ünsiyyət zamanı təəssüratınızı bölüşəcək, mövcud problemlər barədə fikir mübadiləsi aparacaqsınız. Ümidvaram ki, ölkəmizdə keçirəcəyiniz bu günlər sizə Azərbaycanla daha yaxından tanış olmağa kömək edəcəkdir.

Azərbaycana qarşı təcavüz problemi, ölkəmizin ərazisinin bir hissəsinin işğal edilməsi Cənubi Qafqazda ümumi vəziyyətə mənfi təsir göstərir. Düşünürəm ki, bir müddətdən sonra bu problem də həllini tapacaqdır.

Bir daha demək istəyirəm ki, millətlərarası həmrəylik və sülh Azərbaycanın uğurlu inkişafının əsasıdır. İndi, iqtisadi baxımdan, sosial problemlərin həlli baxımından çox böyük uğurlara nail olduğumuz bir vaxtda məhz açıq, demokratik ölkə kimi, bütün xalqların özlərini yaxşı hiss etdikləri ölkə kimi inkişaf etmək çox vacibdir. Prezident kimi, mən də bu istiqamətə çox böyük əhəmiyyət verirəm. Gələcək uğurlarımızın rəhni məhz bundadır. Milli azlıqların nümayəndələrinə hörmətcil münasibət həm də xalqın mədəniyyətinin təzahürü deməkdir.

Onu da demək istərdim ki, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər həmin istiqamətdə Azərbaycanda gedən müsbət proseslərin mühüm amilidir. Bu, təbii olaraq, həm Azərbaycanda yaşayan rusların ovqatına, həm də Rusiyada yaşayan azərbaycanlıların ovqatına təsir göstərən mühüm amildir. Son illər ikitərəfli münasibətlərimizin uğurlu inkişafı, təbii ki, ümumən Cənubi Qafqazda vəziyyətin sabitləşməsi amilidir və təbii olaraq, millətlərarası əlaqələr baxımından çox mühüm rol oynayır. Çünki münasibətlər gərgin və ya gərilmiş olsaydı, istəsək də, istəməsək də bunu Rusiyada yaşayan azərbaycanlılar da, Azərbaycanda yaşayan ruslar da öz üzərlərində hiss edəcəkdilər. Ölkələrimiz

arasında dostluq, mehriban qonşuluq münasibətlərinin – Rusiya prezidentinin də, mənim də strateji tərəfdaşlıq kimi səciyyələndirdiyimiz münasibətlərin dinamik inkişafı isə cəmiyyətdə ümumi əhval-ruhiyyəyə – o cümlədən millətlərarası münasibətlər baxımından – çox müsbət təsir göstərir.

Ona görə də bu istiqamətin vacibliyini xüsusi vurğulamaq və sizə bir daha demək istərdim ki, Azərbaycanda mövcud olan millətlərarası həmrəylik və sülh bizim uğurlu inkişafımızın əsasıdır. Düşünürəm ki, burada keçirəcəyiniz günlərdə bunu siz özünüz yəqin edəcəksiniz. Azərbaycanlıların rus xalqına, rus dilinə, ədəbiyyatına, rus dilində təhsilə necə münasibət bəslədiklərini də yəqin edəcəksiniz.

Sizi bir daha salamlayaraq demək istərdim ki, öz müşahidələriniz hər cür sözlərdən daha yaxşı olacaqdır. Sizin kifayət qədər geniş proqramınız var. Ümidvaram ki, bu günlərdən sizdə yaxşı təəssürat qalacaqdır.

**Mixail Zabelin** (*Azərbaycanın rus icmasının sədri*): Söz yox ki, konfrans iştirakçılarının burada keçirəcəkləri günlərdən biz tam səmərəli istifadə etməyə, Bakını, Azərbaycanın nə ilə zəngin olduğunu, Azərbaycan xalqının yüksək tolerantlığını, respublika rəhbərliyinin bizim bütün qayğılarımıza və problemlərimizə diqqətlə yanaşdığını onlara göstərməyə çalışacağıq. Çox sağ olun.

**Valeri Svarçuk** (*Xaricdəki Rusiyalı Həmvətənlərin Əlaqələndirmə Şurasının üzvü):* Mən həmkarımın minnətdarlıq sözlərinə qoşulmaq və burada, Azərbaycanda çox gözəl qarşılandığımıza görə, bizə göstərilən və hiss etdiyimiz səmimiliyə və mehribanlığa görə təşəkkürümü bildirmək istərdim.

Bizim bir çoxumuz Azərbaycanda tez-tez oluruq, nümayəndə heyətimizin üzvləri artıq ikinci gündür buradadır. Biz Bakıda baş vermiş müsbət dəyişikliklərə heyranıq. Nə qədər yeni tikililər, nə qədər yaxşı işlər var! Azərbaycan rəhbərliyinin rus icmasına, rus dili və mədəniyyətinə münasibətdə apardığı müdrik siyasəti xüsusi vurğulamaq istərdim. Yaxşı olardı ki, bunu bütün ölkələrdə nəzərə alsınlar.

**A l e k s a n d r   Ç e p u r i n** (*Rusiya XİN-in departament direktoru*): Mən uzun müddət Qərbi Avropada işləmişəm və bu gün Bakının dənizkənarı parkından keçərkən ora mənə Neapolu çox xatırlatdı. Azərbaycanda əvvəllər də olmuşam və təsdiq etmək istəyirəm ki, Bakıya ilyarım əvvəl olan axırıncı gəlişimdən sonra şəhərin simasında böyük dəyişikliklər baş vermişdir. Dünən mən Rusiyanın Xarici İşlər naziri ilə ətraflı danışdım və o, konfrans iştirakçılarına təbrik məktubu göndərdi.

Bakıda toplaşmaq imkanına görə çox sağ olun. Biz görürük ki, tolerantlıq və millətlərarası həmrəylik barədə deyilən sözlər, həqiqətən ölkə üçün də, burada yaşayan insanlar, o cümlədən ruslar üçün də çox vacibdir. Ona görə mən də həmkarlarıma qoşulmaq və ruslara, rus dilinə belə xoş münasibətə görə çox sağ olun demək istəyirəm. Belə münasibət xeyli dərəcədə dövlətlər arasındakı münasibətlərlə də bağlıdır.

**İ l h a m   Ə l i y e v**: Ölkəmiz haqqında, şəhərimiz haqqında deyilən səmimi sözlərə görə sizə çox təşəkkür edirəm. Doğrudan da ölkəmizdə çox sürətli inkişaf gedir. Hazırda biz şəhərin bütün tarixi binalarını bərpa edirik. Onlar təmizlənir, işıqlandırılır. Çoxlu yeni binalar tikilmişdir. İqtisadi baxımdan son üç ildə dünyada ən yaxşı göstəricilər Azərbaycandadır. Birinci rübdə iqtisadi artım 40 faiz olmuşdur. Bu, keçən il 35 faizə, 2005-ci ildə 26 faizə bərabər idi. Bu çox ciddi artımdır və əlbəttə ki, təkcə Bakının deyil, bütün ölkənin simasında da özünü göstərir. Siz dəyişiklikləri Azərbaycanın rayonlarında da görəcəksiniz və insanlar gündəlik həyatlarında da bunu hiss edirlər. Başlıca islahat insanların həyatını daha yaxşı etmək, onların rifahını yüksəltməkdir. Biz bu istiqamətdə olduqca çox tədbirlər görürük. O cümlədən də əməkhaqqının qaldırılması sahəsində. Bu yaxınlarda biz büdcə təşkilatlarında əməkhaqqını, pensiyaları 25 faiz artırdıq. Bizdə minimum əməkhaqqı artıq, demək olar, 60 dollar, orta əməkhaqqı təxminən 200 dollardır, ilin yekunlarına görə, təxminən 250 dollar təşkil edə-

cəkdir. Orta pensiya 70 dollar olacaqdır. Yəni bunların hamısı insanlara lazım olan məsələlərdir.

Hazırda biz məktəb tikintisinə çox böyük diqqət yetiririk. Son üç ildə təxminən 800 yeni məktəb tikilmişdir, o cümlədən də İvanovkada məktəbin inşası başa çatmaqdadır. Bütün dövlət universitetlərində rus dilində bölmələr var.

Ermənistanla münaqişə həll edilmədiyinə və davam etdiyinə görə – münaqişənin aradan qaldırılması ilə məşğul olanların, yəni prezidentlərin, Xarici İşlər nazirlərinin əlaqələrindən başqa – əlbəttə, bizim əlaqələrimiz məhdudlaşmışdır. Bu da təbiidir. Lakin bu, belə bir konfransın keçirilməsinə maneə olmadı. Bizim üçün konfransın keçirilməsi faktının özü vacibdir. O haqlı olaraq Bakıda keçirilir, çünki Cənubi Qafqazda ən böyük rus icması bizim ölkəmizdədir.

* * *

*Görüşdən sonra qonaqlar Azərbaycan prezidenti ilə xatirə şəkli çəkdirdilər.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin paytaxtında çoxsaylı insan tələfatına səbəb olmuş partlayışlar törədilməsi xəbərini dərin kədər və hiddət hissi ilə qarşıladıq.

Biz terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyir, belə dəhşətli cinayət əməllərinə qarşı mübarizədə birgə səylər göstərilməsini zəruri hesab edirik.

Baş vermiş facið ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 aprel 2007-ci il*

**ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ**

Zati-müqəddəsləri!

Tacqoyma gününüzün ildönümü münasibətilə Sizə öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əmin olduğumu bildirirəm ki, Azərbaycan–Vatikan münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın qarşılıqlı iradəsinə və məramına uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, bütün həmməzhəblərinizə sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 aprel 2007-ci il*

## NİDERLAND KRALİÇASI ÜLYAHƏZRƏT II BEATRİKSƏ

Ülyahəzrət!

Niderland Krallığının milli bayramı – Kraliça günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Niderland münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, ikitərəfli əlaqələrimizin, dostluq və əməkdaşlığımızın hərtərəfli inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 aprel 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2007-ci İLİN BİRİNCİ RÜBÜNÜN YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA NİTQ*

*Prezident sarayı*

*13 aprel 2007-ci il*

Nazirlər Kabinetinin bugünkü iclası ilin birinci rübünün yekunlarına həsr olunur. Son illər ərzində Azərbaycan iqtisadiyyatında müşahidə olunan müsbət meyillər 2007-ci ilin birinci rübündə də davam edir. İqtisadiyyatımız çox yüksək sürətlə artır. Son üç ildə Azərbaycan iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə artmışdır – 2005-ci ildə 26 faiz, 2006-cı ildə 35 faiz. 2007-ci ilin birinci rübündə isə Azərbaycanda ümumi daxili məhsul istehsalı təxminən 40 faiz artmışdır. Bu onu göstərir ki, Azərbaycanda aparılan iqtisadi islahatlar öz səmərəsini verir və bizim müəyyən etdiyimiz bütün proqramlar vaxtlı-vaxtında icra olunur. Bir daha demək istəyirəm ki, bu yüksək göstəricilər heç bir başqa ölkədə müşahidə edilmir. İnkişaf etmiş ölkələrdə ümumi daxili məhsul, adətən, 3-4 faiz artır, keçmiş Sovet İttifaqının respublikalarında, yəni postsovet məkanında isə orta hesabla təxminən 7-8 faiz artım var. Azərbaycanda isə artım çox böyükdür və bu bizə imkan verir ki, öz iqtisadi potensialımızı daha da möhkəmləndirək.

---

* İclasda Maliyyə naziri Samir Şərifov, İqtisadi İnkişaf naziri Heydər Babayev, Vergilər naziri Fazil Məmmədov, Gənclər və İdman naziri Azad Rəhimov, Milli Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov və Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev çıxış etmişlər.

Sevindirici haldır ki, eyni zamanda, sənaye istehsalı da artır və birinci rübdə təxminən 39 faiz təşkil edir. Bu bizim sənaye potensialımıza çox böyük dəstəkdir.

Bununla bərabər, insanların həyat səviyyəsi yaxşılaşır. Birinci rübdə orta əməkhaqqı 163 manat, yəni 190 dollar təşkil etmişdir və ilin sonuna qədər 200 dollardan çox olacaqdır. Yəni artıq bu, yaxşı göstəricidir.

Nəzərə alsaq ki, gələcəkdə Azərbaycana çox böyük gəlirlər daxil olacaq, əlbəttə, orta əməkhaqqı daha da artacaqdır. Birinci rübdə insanların sosial vəziyyətinin yaxşılaşdırılması üçün çox böyük tədbirlər görülübdür. Büdcədən maliyyələşən təşkilatlarda çalışanların maaşları 25–50 faiz artıbdır. Minimum əməkhaqqı yanvar ayında 50 manata çatdırılıbdır. İndi Azərbaycanda orta pensiya 60 manat, yəni 70 dollar təşkil edir. Əlbəttə ki, bu bizi tam şəkildə qane edə bilməz. Ancaq nəzərə alsaq ki, bir neçə il bundan əvvəl həm minimum əməkhaqqı, həm də pensiyalar çox aşağı səviyyədə idi, bugünkü nailiyyətlər bizi, əlbəttə, çox sevindirir. Biz bundan sonra da çalışacağıq ki, Azərbaycanda aparılan iqtisadi islahatlar, görülən işlər ilk növbədə insanların sosial vəziyyətinə təsir göstərsin.

Sosial məsələlərin həlli bizim üçün prioritet xarakter daşıyır. Bilirsiniz ki, indi artıq ünvanlı sosial yardım proqramı icra edilir, 55 min ailə bu proqramla əhatə olunub və hər bir ailəyə orta hesabla təxminən 70 dollar səviyyəsində yardım göstərilir. Bu da çox böyük proqramdır. Bunun üçün çox böyük təşkilatçılıq işləri də görülməli, müəyyən olunmalı idi ki, bu proqrama kimlər daxil olunmalıdır. Əfsuslar olsun ki, bəzi hallarda ayrı-ayrı, heç də kasıb olmayan vətəndaşlar da özlərini bu proqrama daxil etməyə çalışmışlar. Ona görə burada çox ciddi nəzarət olmalıdır. Əlbəttə, meyarlar gözlənilməlidir ki, məhz ehtiyacı olan insanlar bu proqrama daxil edilsinlər.

Bütövlükdə, Azərbaycanda yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşübdür və bu da çox sevindirici haldır. Dünya praktikasından bilirik ki, neftlə zəngin ölkələrdə və böyük

neft hasilatına nail olan ölkələrdə heç də həmişə yoxsulluq aşağı düşmür. Əksinə, bəzi hallarda o ölkələrdə təbəqələşmə prosesi gedir, zənginlər daha da zənginləşir, kasıblar daha da kasıblaşır. Azərbaycanda isə biz bunun tam əksini görürük. Azərbaycanda orta sinif formalaşır, yoxsulluğun səviyyəsi, kasıbların sayı aşağı düşür. Bu onu göstərir ki, Azərbaycanda neft-qaz əməliyyatları nəticəsində əldə edilən gəlir cəmiyyətdə ədalətli və çox şəffaf şəkildə bölünür. Bu məqsədlə bir neçə il bundan əvvəl Azərbaycan şəffaflıq təşəbbüsünə qoşulmuşdur. Beynəlxalq maliyyə qurumları tərəfindən verilən qiymətə görə, biz bu təşəbbüsdə qabaqcıl yerdəyik və bizim təcrübəmiz başqa ölkələrdə də öyrənilir və tətbiq edilir.

Bizim valyuta ehtiyatlarımız hazırda 4 milyard 100 milyon dollar təşkil edir. Bu da çox böyük məbləğdir və növbəti illərdə burada kəskin artım olacaqdır. Çünki hazırda bizim neft-qaz əməliyyatlarımız ilkin mərhələdədir, gələcəkdə çox böyük gəlirlər daxil olacaq və əlbəttə, onlar da çox şəffaf şəkildə Neft fondunda yerləşdiriləcəkdir.

Əhalinin pul gəlirləri birinci rübdə 33 faiz təşkil etmişdir və bu da çox gözəl göstəricidir. Xüsusilə nəzərə alsaq ki, birinci rübdə inflyasiyanın səviyyəsi qalxmışdır və bu bizi çox narahat edir. İnflyasiya 16 faizə qalxmışdır. Hesab edirəm ki, bu, müvəqqəti bir haldır. İkinci rübdə və ümumiyyətlə, ilin sonuna qədər biz inflyasiyanı birrəqəmli səviyyədə saxlaya biləcəyik. Ancaq buna baxmayaraq, əhalinin pul gəlirləri 33 faiz, yəni inflyasiyaya nisbətdə iki dəfə çox artmışdır. Bu onu göstərir ki, real artım çox güclüdür və insanların sosial müdafiəsi məsələləri də öz həllini tapır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir. 2003-cü ilin oktyabr ayından indiyə qədər 535 min yeni iş yeri açılmışdır ki, bunların da tam əksəriyyəti daimi iş yerləridir. Yeni iş yerlərinin 83 faizi regionlarda açılmışdır. Bu da regionların həyatında öz əksini tapır. Mən də mütəmadi qaydada bölgələrdə oluram və gözəl abadlıq-quruculuq işlərinin getdiyini görürəm. Yeni müəssisələr açılır, yollar

çəkilir, rayonlar abadlaşır, müasir görkəm alır.

Əsas məqsəd odur ki, biz kəndlə şəhər arasında fərqi azaldaq, eyni zamanda, rayonlardan böyük şəhərlərə miqrasiya meyillərini də gərək dayandıraq. Faktiki olaraq biz buna nail olmuşuq. Bunu davamlı etmək üçün ilk növbədə rayonlarda bütün sosial infrastruktur yeniləşməlidir. Biz də bunu edirik. İndi hər bir bölgədə müasir diaqnostika-müalicə mərkəzi tikilir. Hər bir bölgədə məktəblər, digər sosial obyektlər, idman kompleksləri tikilir. Bölgələrdə enerji təchizatı xeyli dərəcədə yaxşılaşıbdır. Yəni, bütün sosial infrastruktur və iş yerləri olduğu təqdirdə, əlbəttə ki, insanlar böyük şəhərlərə miqrasiya etməyəcəklər.

2007-ci ilin birinci rübündə Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq tam gücü ilə işləməyə başlamışdır. Bu, böyük tarixi nailiyyətdir, bizim böyük uğurumuzdur və bu kəmərin fəaliyyətinə şübhə ilə yanaşanlara gözəl cavabımızdır. Yəqin xatırlayırsınız, bəzi xarici ölkələrin mətbuatında belə bir informasiya gedirdi ki, Bakı–Tbilisi–Ceyhan kəmərini doldurmaq üçün mütləq başqa ölkələrin nefti lazımdır, Azərbaycanın kifayət qədər neft ehtiyatları yoxdur. Azərbaycan beynəlxalq ictimaiyyəti çaşdırmaq, aldatmaq istəyir. Ancaq biz həmişə demişik və bu gün də sübut edirik ki, Bakı–Tbilisi–Ceyhan kəməri Azərbaycan nefti üçün tikilibdir. Azərbaycan nefti artıq çox rahat şəkildə dünya bazarlarına çatdırılır və gündəlik gücü bir milyon barrel olan kəmər indi gündə bir milyon barrel neft nəql edir. Bu o deməkdir ki, 2008-ci ildə Azərbaycan 50 milyon ton neft ixrac edəcəkdir. 2007-ci ildə isə Azərbaycanda ümumi neft hasilatı 42-43 milyon ton olacaq və bu da çox böyük həcmdir.

2007-ci ilin birinci rübündə digər tarixi hadisə baş vermişdir. «Şahdəniz» yatağından çıxarılan Azərbaycan qazı Bakı–Tbilisi–Ərzurum qaz kəməri vasitəsilə ixrac edilməyə başlamışdır. Bu da çox böyük nailiyyətdir. Azərbaycan artıq təkcə neft ölkəsi deyil, həm də qaz ölkəsidir. Bizim çox böyük qaz ehtiatlarımız var. Bu yaxınlarda Dövlət Neft Şirkətindən mənə

verilən məlumata görə, təkcə «Şahdəniz» yatağında artıq təsdiq olunmuş qaz ehtiyatları 1 trilyon 200 milyard kubmetrdir. Yəni bu, artıq xarici şirkətlər tərəfindən də təsdiqlənir. Baxmayaraq ki, ilk illərdə xarici şirkətlər daha da təvazökar rəqəmlər üzərində dayanmışdılar. Azərbaycan Dövlət Neft Şirkətinin mövqeyi isə həmişə elə olub ki, «Şahdəniz» qaz yatağında minimum 1 trilyon kubmetr qaz ehtiyatı vardır. Artıq biz görürük ki, bu ehtiyat 1 trilyon 200 milyard kubmetrdir. Əgər Azərbaycan ancaq öz daxili tələbatını təmin etsə, yəni fərz edək ki, qazı ixrac etməsə, bu bizə 100 ilə kifayət edəcəkdir. Bu baxımdan Azərbaycan özünü təbii ehtiyatlarla ən çox təmin edən ölkəyə çevrilir.

Nəzərə alaq ki, bizim başqa yataqlarda da qaz ehtiyatlarımız var, xüsusilə « Azəri», «Çıraq» yataqlarında «dərin qaz» adlandırılan qaz layları var. Orada qaz ehtiyatları ən azı 300 milyard kubmetrdir. Şübhəsiz ki, başqa yataqlarda da vardır. Bu, Azərbaycanın enerji təhlükəsizliyini uzun illər, onilliklər ərzində təmin edəcək və Azərbaycanı qaz ixrac edən ölkəyə çevirəcəkdir. Artıq biz buna nail ola bilmişik. Düzdür, ilin əvvəlində hələ ki, qaz hasilatını daxildə bizi təmin edə biləcək səviyyəyə çatdıra bilməmişik. Ona görə, bir növ xarici idxaldan asılı idik. Amma idxal dayanandan sonra biz gördük ki, Azərbaycan zərrə qədər də zərər çəkmədi. Biz sübut etdik ki, özümüzü istənilən yolla təmin edə biləcəyik. Nəinki özümüzü, hətta qış aylarında problemlərlə üzləşən dost Gürcüstan xalqını da qazla təmin etdik. İndi isə «Şahdəniz» yatağından çıxan qaz artıq Gürcüstan bazarına daxil olur və yaxın zamanlarda Türkiyəyə də daxil olacaqdır. Ondan sonra isə Avropa bazaarlarına göndəriləcəkdir.

Bizim region ölkələri ilə, Avropa ölkələri ilə bu sahədə münasibətlərimizi tənzimləyən müxtəlif sazişlər var. Eyni zamanda, keçən ilin noyabr ayında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalanmışdır. Bu ilin birinci

rübündə Amerika ilə Azərbaycan arasında da buna bənzər sənəd – enerji təhlükəsizliyi sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalanmışdır.

Əlbəttə, bütün bunlar Azərbaycanın imkanlarını xeyli dərəcədə artırır. İlk növbədə, bizim iqtisadi vəziyyətimiz daha da yaxşı olacaqdır. Biz xaricə nəql edilən neft və qazın satışından milyardlarla dollar vəsait əldə edəcəyik. Şübhəsiz ki, indiki zamanda enerji məsələləri dünya siyasəti gündəliyinin, demək olar, birinci məsələləri sırasına daxil olubdur. Ona görə də bizim siyasi çəkimiz artacaq və artır. Biz də bunu görürük. Azərbaycanın müstəqil, çox açıq siyasəti, cəsarətli addımları o cümlədən məhz bu amilə söykənir.

Bizim iqtisadi, siyasi gücümüz var, Azərbaycan regionda lider dövlətdir. Bizim iştirakımız olmadan regionda heç bir məsələ həll olunmur və Azərbaycanın çəkisi, önəmi getdikcə artacaqdır. Biz uğurlu iqtisadi islahatlar aparmışıq. Regional əməkdaşlıq sahəsində bir çox hallarda təşəbbüskarlıq göstəririk və ölkəmiz hərtərəfli inkişaf edir. O cümlədən siyasi islahatlar və bütün başqa məsələlər də öz həllini tapır.

Çox simvolik, rəmzi xarakter daşıyan hal odur ki, birinci rübdə neftdən əldə olunan gəlirlər hesabına Neft fondu tərəfindən maliyyələşən Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisinə başladıq. Yəni, o kəmərin təməli qoyuldu. Bu doğrudan da rəmzi xarakter daşıyır: neftdən əldə olunan gəlirlər Bakını içməli su ilə, keyfiyyətli su ilə təmin etmək üçün istifadə olunur. Ümid edirəm ki, gələn il biz bu kəmərin istifadəyə verilməsinə nail olacağıq və beləliklə, Bakının su problemi aradan qaldırılacaqdır. Uzun illər ərzində bu layihə müzakirə olunurdu. Çünki oradakı böyük su mənbələri çoxdan aşkar edilmişdi. Ancaq maddi imkanlarımız yox idi ki, bu işlərə başlayaq. Kreditlər axtarırdıq. Bilirsiniz ki, bu, neft sektoru deyil ki, banklar istənilən məbləğdə kreditlər versin. Adətən, bu sahəyə kreditlər verilmir. Ancaq artıq bizə kredit lazım deyil, biz öz pulumuzla, Dövlət Neft Fondunun vəsaiti hesabına bu kəmərin tikintisinə nail olacağıq.

Bu layihə sırf sosial xarakter daşıyır, bunun heç bir iqtisadi önəmi yoxdur. O kəmərin tikintisinə qoyulan vəsait bəlkə yüz illər sonra da qayıtmayacaq. Ancaq biz bunu edirik ki, insanları narahat edən problemlər aradan qaldırılsın.

Bütövlükdə, biz öz iqtisadi potensialımızı ölkənin sosial məsələlərinə yönəldirik. Azərbaycanda yüzlərlə məktəb tikilir. Son üç il ərzində 800-ə qədər məktəb, onlarca xəstəxana, poliklinika, tibb məntəqəsi tikilib, körpülər, yollar salınır. Yəni bütün bu görülən işləri sadalamaq üçün saatlarla vaxt lazım olar. Əsas odur ki, biz bütün istiqamətlərdə inamla irəliləyirik və hər sahədə düşünülmüş proqramlarımız var. Bunun da əsası bizim iqtisadi gücümüzdür. Uğurlu iqtisadi inkişafla, Heydər Əliyevin neft strategiyasının davam etməsi ilə təmin edirik.

2007-ci ilin birinci rübü tarixi hadisələrlə çox zəngin olubdur. Onlardan biri də Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə dair əldə olunmuş razılaşmalardır. Fevral ayında Tbilisidə Gürcüstan, Azərbaycan prezidentləri və Türkiyənin Baş naziri üçtərəfli saziş imzalamışlar. Bilirsiniz ki, bu layihə də uzun illər ərzində müzakirə olunurdu. Biz Avropa İttifaqı ilə, digər qurumlarla, beynəlxalq maliyyə qurumları ilə bunu müzakirə etmişdik. Ancaq bu layihəyə kredit tapmaq məsələsi çox çətinləşmişdi. Bunun başqa səbəbləri var, burada iqtisadi amillərdən söhbət getmir. Çünki iqtisadi cəhətdən bu dəmir yolunun tikintisi çox səmərəlidir. Sadəcə, ermənipərəst qüvvələr və dünyadakı erməni lobbisi bu məsələyə müdaxilə edərək, beynəlxalq maliyyə qurumlarını bu işdən çəkindirmişdir. Təəssüflər olsun ki, bəzi ölkələri, bizim tərəfdaşlarımızı və beynəlxalq təşkilatları da bu işdən çəkindirmişdir. Halbuki bu, birinci növbədə, regional əməkdaşlıq üçün çox önəmli bir layihədir. İkinci növbədə, bu, tarixi İpək Yolunun bərpasıdır. Üçüncü növbədə, Bakı–Tbilisi–Qars dəmir yolu Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft, qaz kəmərlərinin məntiqi davamıdır. Dördüncü növbədə, bu, Azərbaycanı Türkiyə ilə, Avropanı Asiya ilə

birləşdirən dəmir yoludur, yeni bir nəqliyyat dəhlizidir.

Bütün bu amillər bir yana, bir tərəfdən də guya ki, bu, Ermənistanı təcridetmə planlarıdır. Əfsuslar olsun ki, onların fikirləri bizim tərəfdaşlarımıza təsir göstərmişdir. Ancaq Azərbaycan bu gün bütün regional məsələləri özü həll edə bilər və biz də Gürcüstan hökumətinə 200 milyon dollar həcmində kreditin ayrılmasına qərar verdik. Bu kreditin hesabına Gürcüstanda dəmir yolunun tikintisi təmin ediləcəkdir. Bir daha deməк istəyirəm ki, əgər beynəlxalq maliyyə qurumları bu məsələdə iştirak etsəydi, biz şad olardıq. Şad olardıq ki, Avropa İttifaqı, bizim tərəfdaşlarımız, böyük ölkələr bu məsələdə iştirak edəydi. Ancaq nə edək ki, erməni lobbisinin təsiri buna imkan vermədi. Amma buna baxmayaraq, bir daha demək istəyirəm ki, biz öz bildiyimizi edirik və edəcəyik.

O ki qaldı Ermənistanı təcridetmə planlarına, Ermənistan beynəlxalq layihələrdən özü-özünü təcrid etmişdir. Bizim mövqeyimiz belədir və mən bunu bir daha bəyan etmək istəyirəm ki, biz regional layihələrdə Ermənistanın iştirakına heç vaxt imkan verməyəcəyik. Ermənistan artıq iqtisadi, nəqliyyat baxımından dalana dirənibdir. Ermənistanın işğalçı siyasəti, qonşulara qarşı təcavüzkar siyasəti bu ölkəni, faktiki olaraq, bütün layihələrdən təcrid edibdir. Əgər təcriddən söhbət gedirsə, o zaman Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi– Ərzurum neft, qaz kəmərləri də Ermənistandan yan keçir.

Nədənsə beynəlxalq maliyyə qurumları və bu layihələrə müsbət yanaşan ölkələr o zaman bizim qarşımızda belə şərt qoymamışdılar ki, kəmərlər mütləq Ermənistandan keçməlidir. Bunun da səbəbi aydındır. Çünki bizim neftimiz, qazımız o ölkələrə lazımdır. Ancaq bizim dəmir yolumuz da o ölkələrə lazım olacaqdır. Lakin bunlar, ilk növbədə, Azərbaycana lazımdır və biz bütün siyasətimizi bu amil, Azərbaycanın milli maraqları üzərində qururuq. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars

layihələri Azərbaycanın milli maraqlarına xidmət edir. Belə olan halda, heç bir xarici təzyiq, yaxud da ki, xaricdən gələn mesajlar bizim iradəmizə təsir göstərə, bizi yolumuzdan döndərə bilməz.

O ki qaldı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, biz hesab edirik ki, əgər Ermənistan rəhbərliyi konstruktivlik nümayiş etdirərsə, bu məsələ öz həllini tapa bilər. Bizim mövqeyimiz birmənalıdır və beynəlxalq birlik tərəfindən dəstəklənir: Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və işğalçı qüvvələr işğal edilmiş torpaqlarımızdan qeyd-şərtsiz çıxmalıdır, etnik təmizləmədən əziyyət çəkmiş soydaşlarımız öz torpaqlarına qayıtmalıdırlar. Çox müsbət haldır ki, danışıqlar Praqa prosesi çərçivəsində məhz bu formatda aparılır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya ölkələri tərəfindən tanınıb, dəstəklənib, Dağlıq Qarabağda keçirilən qanunsuz referendum dünya birliyi tərəfindən pislənibdir. Amerika, Fransa, Rusiya, Türkiyə, Avropa İttifaqı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, bütün ölkələr və beynəlxalq təşkilatlar bunu pislədilər. Nə üçün? Çünki bu qanunsuzdur. Çünki Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Birləşmiş Millətlər Təşkilatı tərəfindən Azərbaycan torpağı kimi tanınır. Ona görə danışıqların məhz bu istiqamətdə aparılması, əlbəttə ki, bizim diplomatik və siyasi uğurumuzdur. Ümid etmək istəyirəm ki, Ermənistan tərəfi də bunu başa düşəcək və özünü bu çıxılmaz vəziyyətdən çıxaracaqdır.

Bəzi hallarda Ermənistanın rəsmiləri həm öz ölkəsinin ictimai rəyinə təsir etmək üçün, həm də beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün müxtəlif uydurmalar irəli sürürlər ki, Qarabağa müstəqillik veriləcək, Dağlıq Qarabağ öz taleyini özü müəyyən edəcəkdir. Bütün bunlar yalandır və əgər belə olsaydı, o zaman Ermənistan tərəfi xahiş etməzdi ki, onlarda keçiriləcək parlament seçkilərinə qədər danışıqlar aparılmasın. Əgər danışıqlar formatı və danışıqların gedişatı onları qane edirsə və onların xeyrinədirsə, nə üçün

onda bizdən bu fasiləni istəyiblər? Əksinə, əgər doğrudan da danışıqlar onların xeyrinədirsə, öz daxili vəziyyətini yaxşılaşdırmaq üçün israr etməlidirlər ki, gəlin tezliklə bu danışıqları sürətləndirək. Onlar dedilər ki, gəlin danışıqları hələlik dayandıraq, çünki bu bizim daxili vəziyyətimizə mənfi təsir göstərə bilər. Yəni bu özlüyündə onu göstərir ki, danışıqlar hansı prinsiplər ətrafında gedir. Mən də detallara getmək istəmirəm. Çünki danışıqlar məxfi xarakter daşıyır. Halbuki bəzi məqamlar artıq ictimaiyyət üçün də bəllidir. Bir şeyi deyə bilərəm ki, heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək, heç vaxt Dağlıq Qarabağ Ermənistana birləşməyəcəkdir. Əgər ermənilər öz müqəddəratını təyin etmək istəyirlərsə, onların artıq öz dövləti var – Ermənistan. Erməni xalqı öz müqəddəratını təyin edibdir. Əgər Dağlıq Qarabağda yaşayanlar da öz müqəddəratını təyin etmək istəyirlərsə, onlar buyurub Ermənistana – Azərbaycanın tarixi torpaqları üzərində qurulan bir dövlətə köçə bilərlər.

Bir sözlə, Azərbaycanda həm iqtisadi, həm siyasi sahədə aparılan islahatlar, qazanılan uğurlar bizdə nikbinlik hissi oyadır. Eyni zamanda, Azərbaycanda siyasi proseslər də çox müsbət istiqamətdə gedir. İctimai-siyasi proseslər, demək olar ki, iqtisadi və siyasi islahatların nəticəsidir. Belə olan halda, Azərbaycanda istənilən məsələ həll edilə bilər və siyasi iradəmiz, proqramlarımız bizi bütün bu işlərə yaxınlaşdırır.

## YEKUN NİTQİ

Xatırlayıram, 2006-cı ilin yekunlarına həsr olunmuş iclasdakı çıxışımda mən bütün nailiyyətlərlə yanaşı, bizi narahat edən məsələlərə də toxundum və bir daha bu barədə danışmaq istəyirəm. Xüsusilə Azərbaycanda müşahidə olunan iqtisadi artım, büdcənin artımı, maaşların və pensiyaların artması istər-istəməz inflyasiyanın da artmasına təsir göstərir. Burada qeyd olundu, 2007-ci ilin birinci rübündə inflyasiya 16 faiz təşkil etmişdir. Bu çox böyük rəqəmdir və biz çalışmalıyıq ki, ikinci rübdə və ilin sonuna qədər inflyasiyanı maksimum dərəcədə aşağı salaq. Əminəm ki, biz buna nail olacağıq. Hər bir sürətlə inkişaf edən ölkədə istər-istəməz qiymətlər artır. Bu, bazar iqtisadiyyatının qanunudur. Azərbaycan da bazar iqtisadiyyatına tam şəkilldə öz sadiqliyini göstəribdir. Bizim uğurlu iqtisadi islahatlarımız və iqtisadi sahədə əldə etdiyimiz nailiyyətlər məhz buna əsaslanır.

Bazar iqtisadiyyatı bütün inkişaf etmiş ölkələrdə uzun illər ərzində mövcud olan prinsipdir və əks yanaşmanın, yəni planlı iqtisadiyyatın nə ilə nəticələnəcəyini də biz yaxşı bilirik. Sovet İttifaqının dağılmasının səbəblərindən biri də o idi ki, planlı iqtisadiyyat dünyada gedən rəqabətə artıq dözə bilmirdi. Məhz bazar iqtisadiyyatı prinsipləri hər bir ölkənin iqtisadi tərəqqisini təmin edir. Azərbaycan da artıq dünya birliyinin bir hissəsidir. Biz dünya iqtisadiyyatına çox sürətlə inteqrasiya edirik və əlbəttə ki, dünyada gedən proseslər, xüsusilə iqtisadi sahədə gedən proseslər, neftin qiymətinin kəskin şəkildə artması bizə də öz təsirini göstərir, çünki hələ ki, bizim istehlak bazarımız xeyli dərəcədə idxaldan asılıdır.

Bizim bütün səylərimiz yerli istehsalın gücləndirilməsinə yönəldilmişdir. Sahibkarlığın inkişaf etdirilməsinin, Dövlət İnvestisiya Şirkətinin yaradılmasının da əsas səbəbi odur ki, Azərbaycanda istehlak olunan mallar, məhsullar daxildə istehsal edilsin. Belə olan halda, biz xüsusilə dünyada neftin

qiymətinin artması ilə müşahidə olunan ümumi bahalaşmaya davam gətirə biləcəyik. Çünki son 2-3 il ərzində neftin qiyməti 3 dəfə qalxıbdır və beləliklə, bütün malların qiyməti artıbdır və bu bizə təsir göstərir. Bunlar təbii səbəblərdir.

Eyni zamanda, süni səbəblər də var. Heç cür başa düşmək mümkün deyil ki, nə üçün məhz Azərbaycanda istehsal olunan məhsulların qiyməti kəskin şəkildə artır. Bunun heç bir təbii izahı yoxdur. Sadəcə olaraq, burada qeyri-sağlam rəqabətdən, inhisarlardan söhbət gedir və möhtəkirlikdən söhbət gedir. Bu məsələyə biz çox ciddi diqqət verməliyik. Çünki qiymətlərin artımı məni çox narahat edir.

Bizim bütün sahələrdə çox gözəl iqtisadi uğurlarımız var: makroiqtisadi göstəricilər, ümumi daxili məhsulun artımı, əməkhaqlarının, pensiyaların, sosial müavinətlərin artırılması, eyni zamanda, investisiya proqramlarımız, regionların abadlaşması, məktəb, xəstəxana tikintisi. Yəni haraya baxsan, hər bir sahədə bizdə çox ciddi irəliləyiş var. İqtisadiyyatda yeganə yaralı yerimiz qiymətlərin artımıdır. Biz bununla mübarizə aparırıq.

Yarmarkaların təşkil olunması, əlbəttə ki, bu istiqamətdə atılan çox mühüm addımdır. Ancaq başqa addımlar da atılmalıdır.

Mən yenə də demək istəyirəm ki, bizim inzibati imkanlarımız bir qədər məhduddur. Çünki bizdə, ümumiyyətlə, iqtisadiyyatın, demək olar ki, 80 faizi özəl sektorda formalaşır. Ticarətə gəldikdə isə, 100 faiz özəl sektordadır. Bütün dükanlar, bazarlar, bütün məişət xidməti obyektləri özəl mülkiyyətdədir. Ona görə dövlətin buna təsiri məhduddur. Ancaq imkanlardan da istifadə etməliyik, o cümlədən inzibati amillərdən istifadə etməliyik. Qanunsuz əməllərə yol verən sahibkarları cəzalandırmalıyıq. Süni şəkildə qiyməti qaldıran firmalara, şəxslərə qarşı ciddi təzyiq göstərilməlidir, onlar cəzalandırılmalıdırlar. Yoxsa belə çıxır ki, biz bütün bu işləri görürük, 3-4 il ərzində icmal büdcəni 1 milyard dollardan 8 milyard dollara çatdırmışıq. Əməkhaq-

ları, pensiyalar kəskin şəkildə artıbdır. Ancaq bundan da möhtəkirlər faydalanır, onlar bu gözəl imkanlardan istifadə edir, daha da varlanırlar. Ona görə biz buna yol verə bilmərik, həm makroiqtisadi sahədə ciddi tədbirlər görülməlidir, eyni zamanda, inzibati addımlar da atılmalıdır.

Biz büdcə artımlarını dayandıra bilmərik. Yəqin ki, gələn ay büdcəyə yenidən baxılacaq, dürüstləşdirmə aparılacaqdır. Büdcənin artımı da olacaqdır və bu, istər-istəməz, yenə də inflyasiyanın artmasına təsir göstərəcəkdir.

Digər tərəfdən, o da var ki, bazar hər şeyi özü tənzimləyir. Məndə olan məlumata görə, bazarda məhsul qalmır, hər şey satılır. Bu onu göstərir ki, Azərbaycanda alıcılıq qabiliyyəti yüksəkdir. Amma o da faktdır ki, hər kəs bunu ala bilmir. Yəni orta təbəqə formalaşıbdır, yaxud da zəngin təbəqə var və qiymətlərin artımı onlara o qədər də böyük təsir göstərmir. Amma kasıblar da var. Onlar o məhsulları, ərzaq məhsullarını ala bilmirlər. Biz onların haqqında fikirləşməliyik.

Ona görə bir də deyirəm ki, bazarın bu işləri tənzimləməsi bizi arxayın etməməlidir ki, bazar iqtisadiyyatı şəraitində yaşayırıq, bazarda hər şey satılır, deməli, tələblə təklif uzlaşır. Bu belədir. Amma biz fikirləşməlyik ki, yoxsul təbəqə bu qiymətlərə necə dözsün.

Şübhəsiz ki, biz bundan sonra da sosial proqramları daha ciddi reallaşdıracağıq və inflyasiyanın qalxması bizi əməkhaqlarının, pensiyaların artırılmasından çəkindirməyəcəkdir. Çünki bu, təbii prosesdir və Azərbaycan xalqının rifah halı yaxşılaşır. Mənim giriş sözümdə gətirdiyim rəqəmlər bunu bir daha göstərir. Baxmayaraq ki, birinci rübdə 16 faiz inflyasiya var, ancaq əhalinin pul gəlirləri 33 faiz artmışdır. Növbəti aylarda biz inflyasiyanı aşağı salacağıq. Ancaq bu məsələ barədə biz çox ciddi fikirləşməli və lazımi işlər görməliyik. Ona görə mən xüsusilə bu məsələyə bir daha diqqət yönəltmək istəyirəm, çünki bizi ən çox narahat edən məsələlərdən biri də budur.

O ki qaldı başqa istiqamətlərə, bütün işlər proqramlar

üzrə gedir. Bütün sahələri əhatə edən – istər iqtisadi sahədə, tikinti sahəsində, infrastruktur layihələrdə, sosial məsələlərin həllində proqramlar var. İndi biz faktiki olaraq, Azərbaycanda bütün məktəb infrastrukturunu yeniləşdiririk. İndiyədək 800-ə yaxın məktəbin tikilməsi və gələcək illərdə yüzlərlə məktəbin tikintisi məktəb sahəsinin maddi-texniki bazasının yeniləşməsini, təhsilin keyfiyyətini, avadanlıqla təchizatı da təmin edir. Eyni zamanda, hesab edirəm ki, indi biz mövcud məktəblərin təmirinə də daha çox vəsait ayırmalıyıq. Çünki buna böyük ehtiyac var, xüsusilə Bakı şəhərində. Yəqin ki, bu il, gələn il Bakı şəhərində yerləşən bütün məktəblərin istilik təchizatı problemləri həll olunmalıdır. Bu, həll ediləcəkdir. Başqa şəhər və rayonlarda da biz bunu həll etməliyik və mövcud məktəbləri çox gözəl səviyyəyə gətirib çıxarmalıyıq.

Bu sahədə vəsaitə qənaət etməməliyik. Çünki təhsilə qoyulan vəsait ölkəmizin gələcəyinə qoyulan vəsaitdir. Bütün inkişaf etmiş ölkələrin uğurlarının səbəbi də məhz ziyalı təbəqəsidir, elmi-texniki tərəqqidir, texnoloji yeniliklərdir. Biz də bu yolu seçmişik. İstəyirik ki, bizim insanlarımız, gənc nəsil bilikli, savadlı olsun və ölkəmizin inkişafında çox böyük rol oynasınlar.

Enerji təhlükəsizliyi məsələlərinə də biz çox ciddi yanaşırıq. Bildiyiniz kimi, keçən il və bu ilin əvvəlində 5 yeni elektrik stansiyası istismara verilmişdir. Bu proses davam edəcəkdir. Biz özümüzü tam şəkildə təmin edəcəyik, eyni zamanda, gələcəkdə elektrik enerjisinin ixracına da başlaya bilərik. Bununla bərabər, hesab edirəm ki, elektrik stansiyaları kifayət qədər tikilib və tikilməkdə olan stansiyalarla birlikdə bu problemi həll edəcəkdir. İndi biz diqqəti ötürücü xətlərə yönəltməliyik. Orada da investisiyalara böyük tələbat var. Təsadüfi deyil ki, mən Prezident Fondundan 15 milyon manatı məhz ötürücü xətlərin yeniləşməsinə yönəldirəm. Bu həmin işin nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Ümid edirəm ki, 2007–2008-ci illərdə

elektrikötürmə xətlərində tam yeniləşmə gedəcəkdir. Paylayıcı qurumlar bunu öz vəsaiti hesabına etməlidir, amma, əlbəttə ki, dövlət də yardımını əsirgəməyəcəkdir.

Azərbaycan bütövlükdə dünya enerji bazarında öz yerini tutan bir ölkədir. İldən-ilə artan neft-qaz hasilatımız, əlbəttə ki, bizim imkanlarımızı artırır. Eyni zamanda, Azərbaycanın güclü neft-qaz ölkəsi kimi mövcudluğu bütün regiona çox müsbət təsir göstərir. Əlbəttə ki, bu günə qədər olduğu kimi, biz növbəti illərdə də böyük neft-qaz hasilatından səmərəli istifadə edəcəyik. Bütün neft gəlirləri Neft fondunda şəffaf şəkildə saxlanılacaq və yalnız büdcə formalaşanda ondan transfer məsələləri həll olunacaq və parlament də bu məsələyə öz münasibətini bildirəcəkdir. Parlament vasitəsilə, demək olar ki, bütün Azərbaycan xalqı büdcənin formalaşmasında və eyni zamanda, neft gəlirlərinin ədalətli bölüşdürülməsində iştirak edir. Bu, başlıca şərtdir və bizim uğurlarımızın əsasıdır. Çünki Azərbaycanda bütün neft gəlirləri şəffaf şəkildə həm saxlanılır, həm də onların xərclənməsi xalq tərəfindən həyata keçirilir.

Biz bu il kənd təsərrüfatına yardım proqramına başladıq. Əminəm ki, ayrılan 80 milyon manat vəsait kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaqdır. Yəqin ki, birinci rübdə kənd təsərrüfatı istehsalının 5 faiz artmasının səbəblərindən biri də budur. Çünki keçən il kənd təsərrüfatı istehsalında o qədər də böyük artım olmamışdır. Ancaq bu həm iqtisadiyyat üçün çox böyük sahədir, həm də bunun böyük sosial mənası var. Əhalinin, demək olar ki, yarısı kəndlərdə yaşayır. Kənd təsərrüfatının inkişafına lazım olan bütün dəstəyi verməliyik və inkişaf etmiş ölkələrin təcrübəsini də öyrənməliyik. Bir sıra inkişaf etmiş ölkələrdə kənd təsərrüfatına dövlət subsidiyaları verilir və biz də buna getməliyik. İndi iqtisadi imkanlarımız buna yol verir. Bu sahədə həm böyük potensial var, həm də, əlbəttə ki, emal müəssisələri yaranmalıdır. Bu məsələlər bir-biri ilə bağlıdır.

Dövlət İnvestisiya Şirkətinin fəaliyyətə başlaması məni

sevindirir. Ləng hərəkətlərinə görə mən əvvəllər onları çox tənqid etmişdim. Ancaq indi görürəm ki, Dövlət İnvestisiya Şirkətinin artıq real layihələri var. Bu layihələr, əlbəttə ki, Azərbaycanın iqtisadi potensialını qaldıracaq və xarici investorların xüsusilə qeyri-neft sektoruna cəlb olunması üçün çox müsbət rol oynayacaqdır.

Bizim indi neft-qaz sahəsində investisiyalara böyük ehtiyacımız yoxdur. İndi özümüz xaricə investisiyalar qoyuruq, Neft Şirkətinin prezidenti bu barədə danışdı, bir qədər sonra mən də bu məsələlərə toxunacağam. Amma qeyri-neft sektoruna investisiyaların cəlb olunması bizim üçün indi prioritet məsələdir. Dövlət İnvestisiya Şirkətinin fəaliyyəti və investor kimi layihələrdə iştirakı xarici investorları, yaxud da ki, yerli investorları daha da ruhlandırır, onları investisiya qoymağa sövq edir. Beləliklə, 100 milyon kapitalı olan Dövlət İnvestisiya Şirkəti yəqin ki, ən azı, 300 milyon dollar kredit resursları da cəlb edə bilər.

Qeyri-neft sektorunun inkişafında müsbət meyillər var, 12 faiz artıbdır. Bu da çox böyük göstəricidir. Bizə zidd olan qüvvələr bəzən iqtisadi uğurlarımızı ancaq neft amili ilə bağlamaq istəyirlər. Halbuki, bunda da heç bir qəbahət yoxdur, bir sıra ölkələr var ki, onların bütün siyasi və iqtisadi siyasəti enerji üzərində qurulubdur. Onların uğurları məhz bunun əsasında qurulubdur və hər bir ölkənin təbii ehtiyatları o ölkənin inkişafına xidmət göstərir. Haradasa kənd təsərrüfatı inkişaf edib, o da təbii resursdur. Haradasa neft-qaz, haradasa başqa təbii sərvətlər var. Yəni bunda heç bir qəbahət yoxdur. Amma bununla bərabər, bizim siyasətimiz ondan ibarətdir ki, arxayınçılığa yol verməyək. Baxmayaraq ki, bir daha demək istəyirəm, bizim neftimiz, qazımız Azərbaycan xalqına ən azı 100 il xidmət edəcəkdir. Ən azı! Nəzərə alsaq ki, 100 ildən sonra yəqin yeni texnologiyalar kəşf ediləcək və Yerin təkinin daha dərin laylarına çatmaq mümkün olacaq, deməli, ondan sonra da təmin edəcəkdir. Amma bizim siyasətimizin əsas özəlliyi ondadır ki, neft

gəlirləri ölkəyə hələ təzə-təzə daxil olmağa başlasa da, biz indidən bunları qeyri-neft sektoruna, iqtisadiyyatın başqa sahələrinə yönəldirik. Qeyri-neft sektorunda 12 faiz artımın olması özlüyündə çox böyük göstəricidir və məni çox sevindirir. Əlbəttə ki, buna, bizim bütün iqtisadi uğurlarımıza təkan verən neft amilidir. Mən rayonlara, regionlara çox tez-tez gedir, yerli sahibkarlar tərəfindən tikilən, yaradılan müəssisələrlə tanış oluram. Bir çox hallarda o ilkin kapitalın mənşəyi də neft amilindən asılıdır. Yerli şirkət xarici neft şirkətləri üçün hansısa bir müqaviləni həyata keçirib pul əldə edib və onu investisiya kimi qoyur. Yəni bunu biz bilməliyik, bu, uzun illər ərzində hələ Azərbaycanın iqtisadi potensialını müəyyən edəcəkdir.

Ancaq bir daha demək istəyirəm ki, qeyri-neft sektoru inkişaf edir, sahibkarlıq inkişaf edir. Dövlət xətti ilə Sahibkarlığa Kömək Milli Fondundan kreditlər ayrılır, onların məbləği ildən-ilə artır. Bu il səhv etmirəmsə, 100 milyon dollardır, gələn il bəlkə də bunu artırdıq. Dövlət İnvestisiya Şirkətinin də 100 milyon kapitalı var. Bu 200 milyon birbaşa dövlət tərəfindən Azərbaycana qoyulan investisiyalardır. Özəl sektoru da əlavə etsək, görərik ki, daxili investisiyalar bunun hesabına qoyulur. Keçən il Azərbaycana qoyulan investisiyaların təxminən 40 faizi daxili investisiyalardır. Əvvəlki illərdə bəlkə 5 faiz, 10 faiz idi. Amma bu 40 faiz milyardlarla dollarla ölçülür. Yəni bu onu göstərir ki, Azərbaycanda güclü biznes qurumları yaranır və mən də bunu çox alqışlayıram. Mən istəyirəm ki, ölkəmizdə bizneslə məşğul olan bir çox güclü şirkətlər olsun. Onlar həm ölkəmizin iqtisadi potensialına öz töhfəsini versinlər, həm də dünya bazarlarına çıxsınlar, başqa ölkələrdə layihələrdə iştirak etsinlər. Əlbəttə ki, biz dövlət tərəfindən gələcəkdə də bunu təşviq edəcəyik.

Prioritetlərdən biri də informasiya-kommunikasiya texnologiyalarıdır. Mən buna çox böyük əhəmiyyət verirəm. Bu, ölkənin ümumi inkişaf dinamikasını göstərən bir sahədir. Bu sahədə çoxlu yeniliklər, çoxlu ixtiralar var. Azər-

baycan da bu sahədə qabaqcıl yerlərdədir. Biz bu sahəyə böyük investisiyalar qoymaq fikrindəyik. Xarici şirkətləri, dünyanın aparıcı informasiya-kommunikasiya şirkətlərini Azərbaycana dəvət etmişik və onların da Azərbaycanla işləməyə böyük maraqları var. Biz indi texnoparkların yaradılması üzərində işləyirik. Bir də demək istəyirəm ki, dövlət öz tərəfindən bu sahəyə investisiya qoymağa hazırdır. Biz tanınmış şirkətlərlə sadəcə, tərəfdaşlıq etmək istəyirik. Bu sahənin çox böyük gələcəyi var və bəlkə də neft sektorundan sonra ölkəmizi inkişaf etdirən ikinci sahə ola bilər.

Turizm sahəsinə diqqət göstərilir və 2007-ci ildə bu sahədə xüsusilə qış turizminin inkişafı üçün böyük işlər görmək planlaşdırılır. Yəqin ki, yaxın zamanlarda Azərbaycanda müasir, dünya səviyyəli qış kurortunun yaradılması üçün təqdimat keçiriləcəkdir. Qusar rayonunda artıq yerlər müəyyən olunub və Azərbaycan qış turizmi mərkəzinə çevrilə bilər. Bunun bütün şimal bölgəsinə, orada yaşayan insanlara çox müsbət təsiri olacaqdır.

Biz artıq ikinci rübdə 2008-ci ilin büdcəsi üzərində də işləməyə başlamalıyıq və baxmalıyıq ki, büdcənin əsas parametrləri nə olacaqdır. Bir daha demək istəyirəm ki, makroiqtisadi vəziyyəti qorumaq şərtilə biz eyni zamanda, büdcəmizi də artırmalıyıq. Həm sosial proqramların həlli üçün, həm də maaşların, pensiyaların artırılması üçün buna böyük ehtiyac, böyük tələbat var. Maaşlar, pensiyalar çox sürətlə artır, amma hələ ki, bizi tam şəkildə qane etmir. Baxmayaraq ki, Azərbaycanda orta əməkhaqqı təxminən 200 dollardır. Bu, postsovet məkanında yerləşən ölkələr üçün çox böyük göstəricidir. Amma bundan da böyük olmalıdır. Yəni Azərbaycanda əməkhaqqı insanın tələbatını tam ödəməlidir və biz bu yolda uğurla addımlayırıq. Ona görə biz makroiqtisadi sabitliyi nəzərə almaqla, büdcə artımına getməliyik. Yaxşı olar ki, bunu nəinki Neft fondundan transferlər hesabına, daha çox daxili imkanlar hesabına, maliyyə nizam-intizamının möhkəmlənməsi hesabına edək.

Neft fondunun və Milli Bankın valyuta ehtiyatları bizim strateji resursumuzdur. İndi bu, 4 milyard 100 milyon dollardır. Daha sonra 10 milyard dollar olacaqdır. Beynəlxalq Valyuta Fondu indi yeni bir rəqəm bildirdi ki, Azərbaycan 200 milyard dollar qazanacaqdır. Bir neçə ay bundan əvvəl 140 milyard dollar demişdi, indi orada da dəqiqləşmə getdi və 200 milyard dollar deyirlər. Bu bizi arxayın etməməlidir. Biz bunu saxlamalıyıq və əlbəttə, ölkənin ehtiyacları üçün istifadə etməliyik. Ancaq çalışmalıyıq ki, büdcəmizi daxili imkanlar hesabına formalaşdıraq.

Bizdə büdcə artımı çox sürətlə gedir. 2006-cı ildə büdcə xərcləri 77 faiz artmışdır. 2007-ci ilin büdcəsi 2006-cı ilə nisbətən 45 faiz artmışdır. Bilirsiniz ki, bu da çox nadir hallarda müşahidə olunan artımdır. Yəni biz bütün sahələrdə çox yüksək sürət götürmüşük. Mənim də tələbim budur ki, işi keyfiyyətlə, qısa müddət ərzində görmək və Azərbaycanın bütün ehtiyaclarını maksimum dərəcədə təmin etmək. İnfrastruktur layihələr çox böyük əhəmiyyət kəsb edir. İndi biz enerji infrastrukturunu yeniləşdiririk, stansiyalar tikilib, yenə tikiləcəkdir. Özəl şirkətlər tərəfindən də maraq göstərilir və mən də buna müsbət baxıram. Qoy özəl şirkət gəlsin, elektrik stansiyası tiksin və özü də işlətsin. Yollar, körpülər, abadlıq işləri. İndi bütün magistral yollarda tikinti gedir və bu yaxınlarda yenə gedəcəkdir. Bakı–Rusiya, Bakı–Gürcüstan, Bakı–İran sərhədlərinə gedən yollarda müasir dünya səviyyəsində əsaslı tikinti işləri gedir. Şəhərlərarası yollar təmir edilir. Biz bu yaxınlarda «Azəryolservis» şirkəti yaratdıq ki, bu sahədə daha da səmərəli işlər görülsün.

Bakı şəhərinin yollarında tıxac problemi aradan qaldırılır, gözəl körpülər tikilir. 9-u planlaşdırılıb, amma indi mənə deyirlər ki, bu, kifayət etməyəcəkdir. Bundan sonra da tikəcəyik, bütövlükdə bütün avtomobil hərəkəti sistemini müasir səviyyəyə çatdırmalıyıq. Ancaq təkcə yolların, körpülərin tikintisi kifayət deyildir. İnkişaf etmiş ölkələrdəki kimi, bizdə də müasir tənzimləmə sistemi olmalıdır.

Bir sözlə, biz bu yüksək sürəti saxlamalıyıq və artırmalıyıq. Çünki yenə də deyirəm, mən istəyirəm ki, çox qısa müddət ərzində Azərbaycan sözün əsl mənasında güclü, müasir infrastruktura malik olan ölkəyə çevrilsin. İstəyirəm ki, Azərbaycanda qısa müddət ərzində bütün təhsil ocaqları normal görkəm alsın. Tibb ocaqları təmir olunsun. Buna böyük ehtiyac var. İndi biz bütün bölgələrdə xəstəxanalar, müalicə-diaqnostika mərkəzləri açırıq. Bunun insanlara nə qədər böyük köməyi var, insanların həyatını nə qədər yüngülləşdirir, onlar gözəl tibbi xidmət alırlar. Biz bunu etməliyik. Yəni bizdə hər bir sahədə ən yüksək səviyyə olmalıdır. Bu mənim istəyimdir, tələbimdir.

Eyni zamanda, bizim əsas gəlir mənbəyimiz olan, iqtisadiyyatın lokomotivi olan Neft Şirkətinin fəaliyyətini daha da gücləndirməliyik. Neft Şirkəti beynəlxalq şirkətə çevrilməlidir. Mən giriş sözümdə dedim ki, bizim indi nə qədər neft-qaz ehtiyatlarımız var. Bu, dövlətin ehtiyatlarıdır və dövlət tərəfindən bu sahəyə cavabdehliyi Dövlət Neft Şirkəti daşıyır. Yəni Neft Şirkətinin bütün imkanları var ki, dünyanın aparıcı neft şirkətinə çevrilsin. Bunu etmək üçün indi orada struktur islahatları gedir, onlar yeni mühasibat formatına keçməlidirlər, audit aparılmalıdır. Yəni müasir, dünya səviyyəli şirkət olmalıdır. Çox böyük ehtiyatlar var, çox böyük hasilat var. Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə ildə ixrac ediləcək 50 milyon ton neftin 40 milyon tonu yaxın zamanlarda Azərbaycanın payına düşəcəkdir. Nəyə görə?! Çünki neftin qiyməti qalxdı və pay bölgüsü də dəyişilir. Bizim də bütün müqavilələrimiz pay bölgüsü əsasında imzalanıbdır. Bu da 1994-cü ildə atılan çox böyük və müdrik bir addım idi. Ona görə qiymət artdıqca, ölkənin gəlirləri də artır, xarici şirkətlərin gəlirləri faiz baxımından aşağı düşür. Yəni bu, böyük bir ehtiyatdır, böyük bir gücdür. İndi Neft Şirkətinin xarici ölkələrdə fəaliyyəti, xüsusilə Gürcüstanda böyük terminalın alınması və oraya investisiyanın qoyulması Qara dənizdə bizim mövqelərimizi möhkəmləndirir.

Biz Qara dəniz – Xəzər dənizi – Orta Asiya dəhlizində fəal rol oynayırıq və Azərbaycan burada əsas məntəqədir, əsas yerdir. Bundan istifadə edirik. Bütün nəqliyyat, energetika, kommunikasiya işlərində fəallıq və təşəbbüskarlıq göstəririk. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə bir daha qayıtmaq istəyirəm. Bu məsələyə də müxtəlif yanaşmalar var idi ki, bu, siyasi layihədir, sadəcə, Ermənistanı sıxmaq üçün, təcrid etmək üçündür və sair. Mən bu məsələyə aydınlıq gətirdim. Əlbəttə, biz Ermənistanı bütün işlərdən təcrid edəcəyik. Edirik, buna gücümüz çatır və edəcəyik.

Ancaq bu layihənin iqtisadi səmərəsi də çox böyükdür.

Bu yaxınlarda Qazaxıstanın Baş naziri Azərbaycanda olarkən mənə dedi ki, dəmir yolu işə düşəndə Qazaxıstan bu yolla 10 milyon ton əlavə yükün nəql edilməsinə hazırdır. Bax, budur bu yolun iqtisadi səmərəliliyi. Biz əgər təşəbbüskarlıq göstərməsəydik, 200 milyon dollar kredit ayırmasaydıq və bu işdə Gürcüstan, Türkiyədən olan həmkarlarımızla inadkarlıq göstərməsəydik, bu yol da olmayacaqdı və yüklər başqa yolla gedəcəkdi. Bu həm iqtisadi, həm regional, həm də siyasi layihədir. Bunu heç kim gizlətmir və biz də gizlətmək istəmirik. Amma biz bunu edirik və tək deyil, tərəfdaşlarımızla birlikdə. Bütövlükdə çox böyük ehtimal var ki, Çindən Avropaya gedən yüklər bizim ərazimizdən keçəcəkdir. Bunun nə demək olduğunu əlavə izah etmək lazım deyildir. Bütün bu məsələlər – nəqliyyat, energetika, Neft Şirkəti bir-birilə bağlı olduğuna görə, mən buna böyük diqqət göstərirəm. Bizim Nəqliyyat Nazirliyi, hökumət çox böyük işlər görüblər və biz bütün istədiyimizə nail oluruq. Bir daha demək istəyirəm, elə bir məsələ yoxdur ki, biz onu həll etmək istəyək, amma ona nail ola bilməyək.

O cümlədən başqa sahələrdə də. Burada qeyd olundu və bir daha demək istəyirəm ki, sosial məsələlərin həlli, idman komplekslərinin tikintisi – bu işlər bütün ölkədə gedir. Tarixi binaların bərpası da həmçinin. Bu günlərdə mən Tarix muzeyində idim. Orada təmir-bərpa işləri ilə tanış oldum.

Bu da məni çox sevindirir. Bu bizim tariximizdir. Biz öz tariximizə sözdə yox, əməldə çox böyük hörmətlə yanaşmalıyıq və tarixi ədaləti də bərpa etməliyik. Vaxtilə Hacı Zeynalabdin Tağıyev Azərbaycan xalqı üçün çox böyük xidmətlər göstərmişdir.

Onun əməlləri Azərbaycan xalqının qəlbində bu günə qədər yaşayır. Bizim borcumuz idi ki, onun evini bərpa edək. Yenə də deyirəm, mən buna təkcə Tarix muzeyi kimi baxmıram, Hacı Zeynalabdin Tağıyevin evi kimi baxıram. Çox şadam ki, biz buna nail oluruq və onun da ruhu şaddır.

Bütün istiqamətlərdə bizim proqramlarımız var, onları icra edirik. Çox işgüzar komandamız var, çox səmərəli işlər görürlər. Mən də bundan çox razıyam. Belə olan halda, istənilən məsələ öz həllini tapa bilər. Xüsusilə nəzərə alsaq ki, Azərbaycanda bütün iqtisadi islahatları aparmaq üçün gözəl ictimai-siyasi mühit var, sabitlik var, xalqla iqtidar arasında birlik var. Bizim siyasətimiz dəstəklənir və əlbəttə ki, ilk növbədə, həm daxili və xarici siyasəti müstəqil şəkildə aparmaq üçün, digər tərəfdən, ölkəmizə lazım olan bütün işlərin görülməsi üçün bizə əlavə güc verir. O ölkələrdə ki, sabitlik pozulur, orada əbədi böhran yaşanır. Qonşuluqda yerləşən ölkələrin vəziyyətini televiziya vasitəsilə görürük. O ölkələrdə ki, qanunsuz hərəkətlər mövcuddur, daxili qarşıdurma var, orada iqtisadiyyat da dağılıb gedir. İqtisadiyyat, ölkənin inkişafı qalır bir tərəfdə, siyasi mübarizə, siyasi ambisiyalar və hakimiyyət uğrunda mübarizə keçir ön plana. Azərbaycan da 90-cı illərin əvvəllərində bu acı tarixini yaşayıbdır. O kitab bağlandı və ona dönüş heç vaxt olmayacaqdır. Biz ancaq və ancaq irəliyə gedəcək, ölkəmizi gücləndirəcəyik. Elə edəcəyik ki, Azərbaycan xalqı xoşbəxt və firavanlıq içində yaşasın. Bu işdə sizə uğurlar arzulayıram. Sağ olun.

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

İkinci dünya müharibəsi zamanı yəhudi xalqı misli görünməmiş soyqırımı siyasətinə məruz qalmış, milyonlarla mülki əhali, o cümlədən qocalar, qadınlar, uşaqlar xüsusi amansızlıqla və kütləvi şəkildə məhv edilərək faşizmin qurbanı olmuşdur.

1943-cü ilin aprelində Varşava gettosunda saxlanan yəhudi məhbuslar faşizmə, etnik-dini ayrı-seçkiliyə qarşı üsyana qalxmış, qeyri-bərabər ölüm-dirim mübarizəsində öz milli mənliyi, insani ləyaqəti və şərəfi uğrunda canlarını fəda etmişlər. Tarixdə yəhudi xalqının müsibəti və qəhrəmanlığı günü kimi əbədiləşən bu hadisə hər il mütərəqqi dünya ictimaiyyəti tərəfindən ehtiramla qeyd edilir, soyqırımı qurbanlarının xatirəsi ürək ağrısı ilə yad olunur.

Son iki əsrdə ermənilərin əli ilə törədilən soyqırımı, deportasiya, etnik təmizləmə kimi dəhşətli faciələri öz taleyində yaşamış Azərbaycan xalqı harada törədilməsindən asılı olmayaraq, hər cür irqçiliyə, ayrı-seçkiliyə, o cümlədən antisemitizmə qarşı barışmaz mövqedə olmuş, belə milli fəlakətlərə biganə qalmamışdır. Təsadüfi deyildir ki, 270 il bundan əvvəl milli-dini təzyiqlərə və zorakılığa məruz qalanda yəhudi xalqının bir qismi məhz Azərbaycan torpağına pənah gətirmiş və əmin-amanlığa qovuşmışdur.

Bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan yəhudi vətəndaşlarımız Azərbaycanda dostluq və qardaşlıq şəraitində firavan həyat sürür, dil və mədəniyyətini, adət-ənənələrini

qoruyüb saxlamaqla, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edirlər.

Əziz həmvətənlər!

Yəhudi xalqının milli hüzn günündə bir daha kədərinizə şərik olduğumu bildirir, irticanın bütün günahsız qurbanlarına Allahdan rəhmət diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 aprel 2007-ci il*

**TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CAKAYYA KİKVETEYƏ**

Hörmətli cənab Prezident!

Tanzaniyanın milli bayramı – Birlik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 aprel 2007-ci il*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Azadlıq günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı münasibətlərin inkişafı xalqlarımızın dostluğuna və əməkdaşlığına xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 aprel 2007-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN KOREYA RESPUBLİKASININ «CU AND LİBO» QƏZETİNİN BAŞ REDAKTORU VƏ RƏHBƏRİ GANQ KYU LİYƏ VƏ QƏZETİN MÜXBİRİ Lİ SEK-HUYA VERDİYİ MÜSAHİBƏ

*Prezident sarayı*

*16 aprel 2007-ci il*

**M ü x b i r: Cənab Prezident, ilk növbədə, qiymətli vaxtınızdan bizə ayırdığınıza görə xüsusi təşəkkürümü bildirmək və Sizin Koreya Respublikasına qarşıdan gələn səfərinizi alqışlamaq istəyirəm.**

**İ l h a m Ə l i y e v:** Sağ olun. Bəli, mən sizin ölkəyə səfərə çıxıram.

**M ü x b i r: Ən əvvəl, xalqımız Sizin Cənubi Koreyaya səfərinizin gündəliyi haqqında bilmək istərdi.**

**İ l h a m Ə l i y e v:** Bu səfər Koreya Respublikası prezidentinin Azərbaycana səfərindən sonra başlanmış güclü dialoqun davamıdır. Hazırda münasibətlərimiz yeni mərhələdədir. Onların olduqca geniş gündəliyi var. Prezidentinizin ölkəmizə səfəri zamanı biz ikitərəfli münasibətlərə, iqtisadi əməkdaşlığa aid məsələləri və iqtisadi inkişafın müxtəlif aspektlərini müzakirə etdik. Bildiyiniz kimi, sizin ölkənizdə səfirliyimizi açdıq. Bu, ölkənizlə olduqca möhkəm əməkdaşlıq edilməsinə olan maraqdan irəli gəlir. Əlbəttə ki, səfərin gündəliyi geniş olacaqdır. Hazırda biz öz infrastrukturumuzu inkişaf etdiririk. İqtisadi artım böyük sürətlə gedir. Bir sözlə, bizim böyük həcmdə əlavə maliyyə ehtiyatlarımız var. Biz təcrübəli, peşəkar və Azərbaycanda iş

görməyə marağı olan şirkətlərlə işləmək istəyirik. Bu meyarlara cavab verən bir çox xarici şirkətlər var. Ümidvaram ki, səfər uğurlu olacaqdır.

Bundan əlavə, Azərbaycandan olan bir çox iş adamları Cənubi Koreyaya səfər edəcək və orada biznes-forum keçiriləcəkdir. Hesab edirəm ki, nəticələr çox müsbət olacaqdır.

**M ü x b i r: Buraya gəlməzdən əvvəl mən bəzi məlumatlarla, o cümlədən Sizin ölkənizdə son zamanlardakı iqtisadi artımı nümayiş etdirən statistik göstəricilərlə tanış oldum. Misal üçün, Siz 30 faizdən artıq real iqtisadi inkişafa nail olmusunuz.**

**İ l h a m Ə l i y e v:** Bəli, ötən il ərzində ÜDM-in artımı təqribən 35 faiz olmuşdur. Lakin 2005-ci ildə bu rəqəm 26 faiz idi. 2007-ci ilin birinci rübündə bizdə ÜDM-in artımı 40 faiz olmuşdur. Bu, dünyada analoqu olmayan bir göstəricidir. Artıq üçüncü ildir ki, biz iqtisadiyyatın sürətli inkişafına görə birinci yeri tuturuq.

**M ü x b i r: Cənab Prezident, bu cür uğurun sirri nədədir?**

**İ l h a m Ə l i y e v:** İlk növbədə, iqtisadi islahatlar və siyasi sabitlik. Bunlar əsas səbəblərdir. Təbii ki, bir çox müxtəlif proqramlar, özəl sektorun həvəsləndirilməsi, xarici sərmayələrin cəlb olunması amillərini də buraya əlavə etmək olar. Sovet İttifaqı respublikaları arasında adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan hər zaman birinci yerdə olubdur. Bizim liberal qanunlarımız, olduqca əlverişli sərmayə mühitimiz və çox proqnozlaşdırılan gələcəyimiz var. Beləliklə, xarici və yerli şirkətlər sərmayə qoymağa başlamışlar. Misal üçün, ötən il ərzində sərmayələrin təxminən 40 faizi yerli şirkətlər tərəfindən yatırılmışdır. Onlar özəl sektoru və eyni zamanda, əlbəttə ki, enerji sektorunu stimullaşdırır. Neft və qaz hasilatının artması da ÜDM-in artmasına kömək edir.

**M ü x b i r: Beləliklə, neft yataqları, böyük həcmdə təbii sərvətlər iqtisadiyyatınıza gözəçarpan nağd vəsait gətirə bilər. İdarəçilik baxımından, sosialist cəmiyyətindən bazar iqti-**

**sadiyyatına keçdiyiniz zaman hər hansı çətinliyiniz olubmu?**

**İ l h a m Ə l i y e v:** İlk illərdə təbii ki, olubdur. Buna səbəb bir sistemdən digər sistemə genişmiqyaslı keçiddir. Sovet İttifaqı dağıldıqdan sonra tamamilə ağır vəziyyətə düşmüş Azərbaycanda həmin dəyişiklik başlayan zaman tam qarışıqlıq hökm sürürdü. Biz ən yüksək sərvətimiz olan müstəqilliyi əldə etmişdik. Lakin iqtisadi vəziyyət ağır idi, həmin vaxt iqtisadiyyatımız tamamilə sıradan çıxmışdı. Yalnız 1993-cü ildən etibarən, ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra həmin çətinlikləri aradan qaldırmağa başladıq. Çox sürətli iqtisadi və siyasi islahatlar aparıldı və keçid mərhələsi sürətlə getməyə başladı. İlk illərdə çətinliklər mövcud idi, lakin 1996–97-ci illərdən başlayaraq, iqtisadi və siyasi vəziyyət sabitləşəndən sonra ölkə dinamik şəkildə inkişaf etməyə başladı. Bu gün, müstəqilliyimizin 15 ili arxada qaldıqdan sonra ölkədə ÜDM-in 80 faizini özəl sektor verir. Halbuki, 1991-ci ildə hər şey yüz faiz dövlətin mülkiyyətində idi.

Deyə bilərəm ki, bu 15 il ərzində biz böyük uğura nail olduq və keçid dövrü artıq başa çatıbdır. Biz tam şəkildə bazar iqtisadiyyatına əsaslanırıq. Olduqca güclü sosial siyasət həyata keçirməyə çalışırıq ki, xalqımız həmin keçiddən əziyyət çəkməsin. Adətən, keçid dövründə insanlar özlərini çox narahat hiss edir, bir çox sosial çətinliklərlə üzləşirlər.

Beləliklə, güclü sosial siyasət, əməkhaqlarının və pensiyaların artırılması, sürətli bazar islahatları ilə müşayiət olunan sosial infrastrukturun yaradılması və nəhayət, siyasi sabitlik uğurlu inkişafın səbəbləridir. Bu gün biz regionda yerimizi möhkəm tutmuşuq. Hazırda regional inkişafa böyük təsir göstərən nəhəng transmilli enerji və nəqliyyat layihələrini həyata keçiririk.

**M ü x b i r: Siz əminsiniz ki, siyasi sabitlik iqtisadi islahatlar və inkişaf üçün ilkin şərtdir?**

**İ l h a m Ə l i y e v:** Bəli, tamamilə belədir. Misal üçün, siz görə bilərsiniz ki, sabitlik olmayan bir sıra ölkələr-

də iqtisadiyyat işləmir. Həmin ölkələr tam böhran və ümumiyyətlə, toqquşma və daxili mübarizə içərisindədir. Biz 90-cı illərin əvvəllərində həmin təhlükəli anları yaşamışıq. Azərbaycan xalqı bütün bu çətinlikləri xatırlayır. Ona görə də hökumətin və xalqın iradəsi güclü dövlət qurmaqdan ibarətdir. Biz buna şüarlar və bəzi populist bəyanatlarla yox, diqqətimizi həyatımızın real aspektlərinə – xalqın gündəlik görəcəyi və duyacağı real işlərə yönəltməklə nail ola bilərik.

**M ü x b i r: Bir çox ölkələr sosializm sistemindən bazar iqtisadiyyatına keçməyə çalışır, lakin bu sahədə ən çətini insanların düşüncə tərzini dəyişməkdr. Bu, vaxt və mübarizə tələb edir. Bu baxımdan Sizin xüsusi siyasətiniz varmı?**

**İ l h a m Ə l i y e v:** Siz haqlısınız. Bu həmçinin psixoloji dəyişiklikdir, çünki 70 ildən çox biz sosializm sistemində yaşamışıq. O tamamilə fərqli bir sistem idi. Bir çox nəsillər həmin sistemdə formalaşmışdır. Gənc nəsil üçün bu keçid asan, yaşlı nəsil üçün isə daha çətin olmuşdur. Ona görə də biz bunu nəzərə almalıyıq və xalqın bütün təbəqələri üçün daha yaxşı şərait yaratmağa çalışmalıyıq. Bundan əlavə, Azərbaycanda biznesin güclü inkişafı psixoloji dəyişikliyə də müsbət təsir göstərir. Çünki insanlar azaddır, onlar istədiyi yerlərə səfər edə bilir, biznesini qurur, şirkətlər yaradır və pul qazanırlar. Bir sözlə, bütün bunlar keçmişdə mövcud olanlardan fərqli, müsbət inkişafdır. Biz özəl biznesə təkan veririk. Builki büdcəmizdə təkcə özəl sektora veriləcək kiçik kreditlər üçün 100 milyon dollar həcmində vəsaitin ayrılması nəzərdə tutulubdur. Həmin kreditlərin 83 faizi regionlara sərf olunacaq ki, onların inkişafına təkan verilsin. Bundan başqa, biz daxildə sərmayə yatırılması məqsədi ilə ilkin kapitalı 100 milyon dollar olan Dövlət İnvestisiya Şirkəti yaratmışıq. Beləliklə, biz insanlara öz biznesini başlamağa kömək edirik, çünki kapital olmadan bunu etmək çətindir. Hökumət necə yardım edə bilər? Əlverişli sərmayə mühiti yaratmaq, dövlət orqanlarının biznesə müdaxiləsinin qarşısını almaq və pul vəsaitləri ilə təmin etmək yolu ilə.

**M ü x b i r: Bəzi bürokratik əngəllər və qaydalar mövcuddur. Siz bunları aradan qaldırmağı planlaşdırırsınızmı?**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, biz biznes mühitini liberallaşdırırıq. Bir çox dəyişikliklər edilməkdədir.

**M ü x b i r: Mənə belə gəlir ki, indi iqtisadiyyatınızda əsas məsələ pulu necə qazanmaq yox, onu hansı şəkildə idarə etməkdən ibarətdir. Pulun xərclənməsi və inflyasiyanın artmasına yol verilməməsi xalq üçün olduqca vacibdir.**

**İ l h a m Ə l i y e v:** İndiki mərhələdə bu, həqiqətə uyğundur. Lakin həmişə belə deyildi. 2004-cü ilə qədər biz həmişə pulu necə qazanmaq haqqında düşünürdük. Əgər bizim büdcə göstəricilərimizə nəzər yetirsəniz görərsiniz ki, 2003-cü ildə Azərbaycanın büdcəsi cəmi 1,5 milyard ABŞ dollarına bərabər idi. Bu il isə həmin rəqəm 6,5 milyard dollara çatıbdır. Üç il ərzində biz büdcəmizi bir neçə dəfə artırmışıq. May ayında büdcəyə yenə dəyişikliklər edəcək və onun həcmini artıracağıq. Bu, yalnız büdcə xərclərinə aiddir. Lakin eyni zamanda, Neft fondundan da xərclər ayrılır. Beləliklə, ümumilikdə Azərbaycanın icmal büdcəsi 8 milyard dollar təşkil edir. Əsas problem ondan ibarətdir ki, gəlirlərin xərclənməsi inflyasiyanın yaranmasına səbəb olur. Əməkhaqlarının, pensiyaların artırılması, infrastruktur layihələr və növbəti üçüncü ildə hələlik 40 faizlik iqtisadi artım iqtisadiyyat üçün çox böyük yükdür. Birincisi, biz xalqın tələbatını ödəməyə, layihələrimizi həyata keçirməyə və eyni zamanda, inflyasiyanı təkrəqəmli həddə saxlamağa çalışırıq. Ümid edirəm ki, bunun öhdəsindən gələ biləcəyik. Biz Neft fondunun timsalında neftdən gələn vəsaitlərin xərclənməsi üçün olduqca şəffaf mexanizmə malikik. Fond tam şəffaf strukturdur. O, beynəlxalq səviyyədə auditdən keçir. Beynəlxalq Valyuta Fondunun son bəyanatlarına əsasən, gələn 20–25 il ərzində Azərbaycan enerji layihələrindən 200 milyard dollardan çox vəsait əldə edəcəkdir. Bu, olduqca böyük vəsaitdir. Biz ondan lazımi qaydada istifadə etmək üçün çox müdrik olmalıyıq.

**M ü x b i r: Siz olduqca açıq iqtisadiyyat yaratmağa hazırlaşırsınız. Bu, maliyyə sektoruna da aiddirmi? Xarici bankları dəvət edirsinizmi?**

**İ l h a m Ə l i y e v:** Bəli, biz ölkəmizdə əsas xarici bankları görməkdən çox şad olardıq. Hazırda burada belə banklar yoxdur. Bizim ölkədə qonşu dövlətlərdən olan və böyük hesab edilməyən bir neçə bank var. Biz enerji sektorunun dünya liderləri kimi, bank sahəsinin də dünya liderlərini ölkəmizdə görmək istəyirik. Dünyanın bir çox əsas şirkətləri Azərbaycanda işləyir və onlar uzun illərdir ki, bizim tərəfdaşlarımızdır. Biz eyni vəziyyəti maliyyə sektorunda da görmək istəyirik. Hazırda biz sürətlə artan iqtisadiyyatımızdan, coğrafi mövqeyimizdən və artıq mövcud infrastrukturumuzdan istifadə etmək məqsədi ilə Azərbaycanda xüsusi iqtisadi zonaların yaradılması proqramını həyata keçirməyə başlayırıq.

İndi biz böyük nəqliyyat dəhlizi – İpək Yolunun bərpası və Azərbaycanı Avropa ilə, Azərbaycan vasitəsilə Avropanı Mərkəzi Asiya və daha sonra Şərqi Asiya ölkələri ilə birləşdirəcək Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi üzərində işləyirik. Çox güman ki, Cənubi Koreya da bundan bəhrələnə bilər. Çünki bu, İpək Yolunu bərpa edəcək yeni marşrut ola bilər, Asiyadan mallar Avropaya daşına bilər. Bu yolun tikintisi başa çatdıqdan dərhal sonra bu marşrutla mallarını göndərmək istəyən tərəflər artıq bizim qarşımızda ciddi öhdəliklər götürüblər. Bu yol 2009-cu ildə hazır olacaqdır. Beləliklə, enerji siyasəti, regional inkişaf və yerləşdiyimiz məkan bizə bir çox üstünlüklər verir. Lakin həmin üstünlüklər bizim yaratdığımız üstünlüklərdir. Əgər işləməsək, bu heç vaxt baş verməyəcəkdir. Əgər çalışmasaq, heç vaxt dənizin dibindən neft və qaz hasil etməyəcəyik və yaxud əgər dəmir yolunun tikintisi üçün zəhmət çəkilməsə, heç kim mallarını buradan göndərməyəcəkdir. Biz bunu yaratmalıyıq! Hazırda da bunu edirik.

**M ü x b i r: Cənab Prezident, düzünü desəm, mən çox**

**təəccübləndim ki, Siz prezident olmağınızla yanaşı, bir çox mürəkkəb iqtisadi göstəriciləri, statistik məlumatları və rəqəmləri yadınızda saxlayırsınız. Siz həmin statistik göstəricilərin hamısını necə yadda saxlaya bilirsiniz? Axı Siz prezidentsiniz, siyasətçisiniz, lakin iqtisadçı deyilsiniz.**

**İ l h a m Ə l i y e v:** Mən öz ölkəmdə siyasətçi və iqtisadçıyam. Mən məsuliyyət daşıyıram. Xalq tərəfindən seçilmişəm və yaxşı işləməliyəm. Mən iqtisadi, siyasi və sosial inkişaf üçün işləyirəm. Azərbaycanın siyasi, iqtisadi və sosial həyatı barədə sizə istənilən rəqəmi gətirə bilərəm. Bu mənim işimdir.

**M ü x b i r: Azərbaycan özünün vacib siyasi, iqtisadi, hərbi və diplomatik roluna görə böyük əhəmiyyətə malik olan ölkədir. Siz fövqəlgüclərin, o cümlədən ABŞ, Rusiya və Çinin əhatəsində olan bir məkanda yerləşirsiniz. Xüsusən də Rusiya ilə ABŞ-ın təsirinin ortasındasınız. Siz bu məsələləri siyasi və diplomatik baxımdan necə tənzimləyirsiniz?**

**İ l h a m Ə l i y e v:** Biz öz siyasətimizi olduqca açıq və səmimi şəkildə həyata keçiririk. Bu çox vacib məsələdir, çünki bizim tərəfdaşlarımız – Rusiya, ABŞ və ya Avropa İttifaqı, yaxud hər hansı digər tərəf bilir ki, onlar bizə etimad göstərə bilər. Biz siyasətimizi yalnız Azərbaycanın milli maraqlarına əsaslanaraq aparırıq. Regional inkişaf, müxtəlif ölkələr və təşkilatlar ilə əlaqələrimiz gənc müstəqil ölkə kimi, bizim üçün vacibdir. Lakin Azərbaycanın milli maraqları hər şeydən üstündür. Azərbaycan əməkdaşlıq məkanıdır və bu əməkdaşlıq tərəqqiyə və xalqın daha yaxşı həyat tərzinə apardığı təqdirdə bizim üçün sərfəlidir. Bəzən mən eşidirəm ki, bizim region maraqların kəsişdiyi region adlandırılır. Dünyanın bir çox regionları maraq kəsb edir. Xüsusən də enerji gündəliyi dünya məsələlərində əsas yer tutduğu təqdirdə, zəngin təbii sərvətlərə malik regionlar maraq obyektinə çevrilir. Bir sözlə, biz olduqca açıq siyasət həyata keçiririk və ABŞ, Rusiya, Avropa İttifaqı, İslam Konfransı Təşkilatı ilə, digər qonşu ölkələrlə çox yaxşı müna-

sibətlərimiz var. Bir sözlə, bu mümkündür.

**M ü x b i r: İcazə verin, bir daha ikitərəfli münasibətlərimiz məsələsinə qayıdaq. Cənubi Koreyanın iqtisadi məsələləri üzrə jurnalist kimi, hesab edirəm ki, ölkəmizin iqtisadiyyatında əldə olunanları uğur kimi qiymətləndirə bilərik. Hazırda isə ölkəmizin üzləşdiyi problemləri həll etməyə çalışırıq. Əldə etdiyimiz təcrübəni Sizin ölkənizlə bölüşə bilərik. Biz bir çox məsələlərdə uğurlar əldə etmişik, lakin eyni zamanda uğursuzluqlarımız da olubdur. Siz Koreya şirkətləri və hökuməti ilə iqtisadi əməkdaşlıq çərçivəsində nə etməyi planlaşdırırsınız?**

**İ l h a m Ə l i y e v:** Hesab edirəm ki, biz bir çox məsələlərdə ölkənizin təcrübəsindən istifadə edə bilərik. Sizin ölkəniz heç bir təbii sərvətə malik olmadan yoxsulluqdan sürətli iqtisadi inkişafa nail olmuşdur. Bu, olduqca müsbət təcrübədir. Siz sübuta yetirdiniz ki, uğurla yaşaya və ölkənizi inkişaf etdirə bilərsiniz. Azərbaycanda işləməyə böyük marağını artıq ifadə etmiş olduqca güclü şirkətləriniz var. Söhbət yalnız sərmayədarlar və podratçılardan getmir, çünki gələn illər ərzində bizim bir çox infrastruktur layihələrimiz olacaqdır. Çox müasir infrastruktur və xidmətlərə malik müasir ölkə qurmaq məqsədi ilə çoxlu planlarımız var. Sizin şirkətləriniz çox peşəkardır. Biz bir yerdə çox uğurla işləyə bilərik. Biz ola bilsin, bir gün sizin ehtiyac duyacağınız enerji resurslarına malikik. Sizdə isə bizə lazım olan texnologiyalar, müasir yanaşma və peşəkarlıq vardır. Beləliklə, biz bu maraqları uzlaşdıra bilərik. Hesab edirəm ki, bu cür uzlaşdırmanın anlaşılması artıq mövcuddur. Məhz bu, əlaqələrimizin olduqca sürətli inkişafının səbəbidir. Uzun illər ərzində, Azərbaycan müstəqilliyini əldə etdiyi vaxtdan etibarən, bizim çox geniş münasibətlərimiz olmayıbdır. Bir-birimizi yaxşı tanımırdıq, hər hansı nümayəndə heyətimizin səfəri və ya təmaslarımız yox idi. Amma hazırda Koreya prezidenti Azərbaycana səfər etdi. Mən sizin ölkənizə səfər edəcəyəm. İşgüzar dairələr bir yerə toplaşacaqlar. Bizim artıq səfirliklərimiz və birgə işləməyə yaxşı marağımız var. Sizin iqtisadi

məsələlərə yanaşmanızı və siyasi inkişafa aid mövqeyinizi olduqca yüksək qiymətləndiririk. Biz eyni baxışlara malikik. Hər hansı ölkənin daxili işlərinə müdaxilə etməmək ən münasib yoldur. Əgər bütün ölkələr bir-birinin işlərinə qarışmasalar, onda dünya daha təhlükəsiz olar və proqnozlaşdırıla bilər.

**M ü x b i r: Bildiyimə görə, Cənubi Koreyanın bir çox şirkətləri ölkənizin iqtisadiyyatında və inkişaf proqramlarında fəal iştirak edir. Nəinki tikinti şirkətləri, elektron cihazlarının istehsalçıları, hətta bir çox banklar, neft şirkətləri və digər şirkətlər Sizin ölkənizə dərhal gəlməyə hazırdır. Onların həqiqi mənada ölkənizə gəlməsini və sizinlə əməkdaşlıq etməsini istəyirsinizmi?**

**İ l h a m Ə l i y e v:** Bəli, əlbəttə. Biz onların üzünə açığıq. İqtisadi əməkdaşlıq sahəsində açıq qapılar siyasəti aparırıq və ciddi məramı, nüfuzu, yüksək iş göstəriciləri və bizimlə işləmək bacarığına malik olan bütün şirkətləri alqışlayırıq. Ölkəmizdə çoxlu belə şirkətlər var. Onların Azərbaycanda işləməkdə maraqlı olması da faktdır. Bu bizim üçün vacibdir. Bu, uğurlarımızın mühüm əlamətidir. Əgər onlar buranın biznes üçün münasib yer olduğuna əmin olmasalar, gəlməzlər. Siz özəl sektoru məcbur edə bilməzsiniz. Onlar hiss edirlər və bunları bilirlər. Həmin şirkətlərin özləri biznes üçün hansı ölkəni seçmək məqsədi ilə qiymətləndirmə və monitorinq aparırlar. Biz Cənubi Koreyanın biznes dairələri ilə daha geniş gündəlik əsasında işləməkdən son dərəcə şad olardıq.

**M ü x b i r: Cənab Prezident, müsahibəyə vaxt ayırdığınıza görə çox minnətdaram.**

## *bp* ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Prezident sarayında bp şirkətinin kəşfiyyat və hasilat işləri üzrə Baş icraçı direktoru Endi İnqlisi qəbul etmişdir.*

*Dövlətimizin başçısı 1994-cü ildən başlayaraq respublikamızda həyata keçirilən neft strategiyasının hazırda gözəl nəticələr verdiyini və ölkəmizin energetika sahəsində yeni inkişaf mərhələsində olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın bp şirkəti ilə əlaqələrinin bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

*Endi İnqlis artıq Bakı–Tbilisi–Ceyhan neft boru kəməri vasitəsilə böyük həcmdə neftin dünya bazarlarına çıxarıldığını qeyd edərək ümimmilli lider Heydər Əliyevin Azərbaycanın neft strategiyası ilə bağlı bütün ideyalarının reallığa çevrildiyini bildirdi. Qonaq təmsil etdiyi şirkətin Azərbaycan ilə əməkdaşlığını gələcəkdə də inkişaf etdirəcəyinə əminliyini ifadə etdi.*

## LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ ARTİS PABRİKSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Prezident sarayında Latviyanın Xarici İşlər naziri Artis Pabriksin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan–Latviya münasibətlərinin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Latviyaya rəsmi səfəri zamanı birgə əməkdaşlığa dair ətraflı müzakirələrin aparıldığını və bundan sonra ölkələrimiz arasında əlaqələrin daha da genişləndiyini vurğuladı. Prezident İlham Əliyev Latviya Xarici İşlər nazirinin ölkəmizə səfərinin iki ölkə arasında əlaqələrin gələcək inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu söylədi.*

*Prezident İlham Əliyevin Latviyaya səfərinin uğurlu olduğunu bildirən Artis Pabriks dedi ki, Azərbaycan regionda iqtisadi liderdir və onun ölkəsi rəsmi Bakı ilə iqtisadi əməkdaşlığa böyük önəm verir. Qonaq aprelin 16-da Latviyanın ölkəmizdə səfirliyinin rəsmi açılış mərasiminin olacağını məmnunluqla vurğuladı.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA**

Hörmətli cənab Prezident!

Virciniya Texnoloji Universitetinin tələbə şəhərciyində çoxsaylı insanın atəşə tutularaq həlak olması xəbəri bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 aprel 2007-ci il*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MOŞE KATSAVA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İsrail arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 aprel 2007-ci il*

## QAZAXISTANIN MANGİSTAU VİLAYƏTİNİN HAKİMİ KRİMBEK KUŞERBAYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Prezident sarayında Qazaxıstan Respublikasının Mangistau vilayətinin hakimi Krimbek Kuşerbayevi qəbul etmişdir.*

*Krimbek Kuşerbayev Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi strategiyanın prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam edildiyini və bu sahədə ölkəmizin böyük nailiyyətlər əldə edərək regionda iqtisadi cəhətdən lider dövlətə çevrildiyini vurğuladı. O, ölkəmizə səfəri zamanı Azərbaycanla birgə əməkdaşlığa dair konkret perspektiv layihələr ətrafında müzakirələr aparıldığını qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycanla Qazaxıstanın dinamik surətdə inkişaf etdiyini vurğulayaraq həyata keçirilən birgə layihələrin hər iki ölkə üçün böyük əhəmiyyət kəsb etdiyini bildirdi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən enerji, nəqliyyat sahələrində uğurla inkişaf etdiyini xatırladaraq ayrı-ayrı regionlarla əməkdaşlığın bu əlaqələrin daha da genişlənməsinə xidmət etdiyini vurguladı.*

## AVSTRİYANIN OMV ŞİRKƏTİNİN İCRAİYYƏ ŞURASININ SƏDRİ VOLFQANQ RUTTENSTORFER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Prezident sarayında Avstriyanın OMV şirkətinin İcraiyyə Şurasının sədri Volfqanq Ruttenstorferi qəbul etmişdir.*

*OMV-nin Mərkəzi Avropa, Orta Asiya və bir sıra digər yerlərdə fəaliyyət göstərdiyini bildirən Volfqanq Ruttenstorfer şirkət haqqında Azərbaycan prezidentinə məlumat verdi. Azərbaycanın energetika sahəsində böyük uğurlar əldə etdiyini vurğulayan qonaq təmsil etdiyi şirkətin ölkəmizlə əlaqələrə böyük maraq göstərdiyini bildirdi.*

*Görüşdə Azərbaycan qazının Avropa bazarlarına nəql edilməsi və Nabukko layihəsinin həyata keçirilməsi sahəsində OMV şirkətinin Azərbaycanla əməkdaşlığının perspektivləri ilə bağlı məsələlər müzakirə olundu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN KOREYA RESPUBLİKASINA SƏFƏRİ

*22 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Koreya Respublikasına üçgünlük dövlət səfərinə gəlmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqları ilə bəzədilmiş Seul Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Ali qonağın şərəfinə 21 yaylım atəşi atıldı. Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Koreya Respublikasının dövlət və hökumət nümayəndələri və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 23-də Seulda «Milli hərbi memorial» abidə kompleksini ziyarət etmişdir.*

*Ali qonağı kompleksin rəhbərliyi, Koreya ordusunun diviziya komandiri ehtiramla qarşıladı.*

*Prezidentə məlumat verildi ki, bu abidə kompleksinin ərazisində Koreya Respublikasının müstəqilliyi, dövlətçiliyi üçün böyük xidmətlər göstərmiş hərbçilər və polis zabitləri dəfn olunmuşlar.*

*Abidə kompleksi ilə tanış olan dövlətimizin başçısı ora əklil qoydu və Xatirə kitabına ürək sözlərini yazdı.*

* * *

*Aprelin 23-də Seulda Koreya Respublikası Prezidentinin «Çonqvade» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təntənəli rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Xatırladaq ki, rəsmi qarşılanma mərasimi ilk dəfə idi tamamilə yeni proqram əsasında hazırlanmışdı. Belə ki, dövlətimizin başçısını gətirən maşın həyətin girişində milli geyimli koreyalılar tərəfindən əhatəyə alındı və onların müşayiəti ilə sarayın qarşısına gətirildi. Bu, Azərbaycana və onun dövlət başçısına hörmətin təzahürü idi.*

*Azərbaycan prezidentinin şərəfinə sarayın qarşısında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Sarayın önündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Koreya Respublikasının Prezidenti Ro Mu Hyun və xanımı Kvon Yanq Suk böyük hörmət və ehtiramla qarşıladılar.*

*Dövlət başçıları və xanımları milli bayramı nümayiş etdirən bayraqların altından keçdilər.*

*Hər iki ölkənin Dövlət himnləri səsləndirildi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin önündən keçdilər.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və xanımı bu maraqlı qarşılanma mərasimini izləmək üçün buraya toplaşan məktəblilərlə mehribancasına görüşdülər. Onların əllərində hər iki ölkənin Dövlət bayraqları var idi. Uşaqlar ali qonağı və onun xanımını hərarətlə salamladılar.*

*Azərbaycanın nümayəndə heyəti prezident Ro Mu Hyuna, Cənubi Koreyanın rəsmi şəxsləri isə prezident İlham Əliyevə təqdim olundu.*

*Azərbaycan prezidenti sarayın Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ KOREYA RESPUBLİKASININ PREZİDENTİ RO MU HYUNUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Seul, «Çonqvade» sarayı*

*23 aprel 2007-ci il*

*Aprelin 23-də Seulda «Çonqvade» Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Koreya Respublikasının Prezidenti Ro Mu Hyunun nümayəndə heyətinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Prezident Ro Mu Hyun Azərbaycan prezidentini və nümayəndə heyətini salamladı, bir il bundan əvvəl ölkəmizə rəsmi səfərini, onun gedişində birgə bəyannamə və bir sıra sənədlər imzalandığını xatırlatdı.*

*Prezident İlham Əliyev özünə və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi.*

*Görüşdə hazırda rabitə, nəqliyyat, energetika, şəhərsalma, kənd təsərrüfatı, habelə mədəniyyət, təhsil və digər sahələrdə iri layihələr üzərində iş getdiyini məmnunluqla vurğulayan dövlət başçıları xüsusən qeyri-neft sahələrinin inkişafı istiqamətində əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini bildirdilər.*

*Danışıqlarda Cənubi Koreyanın iş adamlarının regionda lider dövlətə çevrilmiş Azərbaycanla əlaqələri daha da fəallaşdırmaq və ölkəmizin iqtisadiyyatına əhəmiyyətli investisiya qoymaq niyyəti açıqlanmışdır.*

*Tərəflər Azərbaycan–Cənubi Koreya ikitərəfli münasibətləri, ölkəmizin sürətli iqtisadi inkişafı, dünyanın, o cümlədən Cənubi Koreyanın aparıcı şirkətlərinin Azərbaycana mara-*

*ğının artması və digər məsələlər barədə geniş fikir mübadiləsi apardılar.*

**Sənədlərin imzalanma mərasimi**

*Aprelin 23-də «Çonqvade» sarayında dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Koreya Respublikasının Prezidenti Ro Mu Hyunun iştirakı ilə Azərbaycan və Cənubi Koreya arasında ikitərəfli əməkdaşlığa dair sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Əvvəlcə prezidentlər İlham Əliyev və Ro Mu Hyun Azərbaycan Respublikası və Koreya Respublikası arasında birgə bəyannamə imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında sazişi Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Heydər Babayev, Cənubi Koreya tərəfindən Xarici İşlər və Xarici Ticarət naziri Son Min Sun imzaladılar.*

*Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Koreya Respublikasının İnformasiya və Rabitə Nazirliyi arasında elektron hökumətin formalaşdırılması sahəsində əməkdaşlıq üzrə anlaşma memorandumunu Azərbaycan tərəfindən Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov, Cənubi Koreya tərəfindən İnformasiya və Rabitə naziri Ho Cjun Hyun imzaladılar. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında intellektual nəqliyyat sistemi sahəsində əməkdaşlıq üzrə anlaşma memorandumunu Azərbaycan tərəfindən Nəqliyyat naziri Ziya Məmmədov, Cənubi Koreya tərəfindən Tikinti və Nəqliyyat naziri Li Yon So imzaladılar.*

*Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Koreya Respublikasının Milli Fövqəladə Halların İdarə Olunması Agentliyi arasında fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunu Azər-*

*baycan tərəfindən Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov, Cənubi Koreya tərəfindən Milli Fövqəladə Halların İdarə Olunması Agentliyinin rəhbəri Lum Von Kyon imzaladılar.*

*Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Koreya Respublikasının Milli Neft Korporasiyası arasında anlaşma memorandumunu Azərbaycan tərəfindən Sənaye və Energetika naziri Natiq Əliyev, Cənubi Koreya tərəfindən Milli Neft Korporasiyasının icraçı direktoru Hvan Tu-Yul imzaladılar. Xatırladaq ki, Nəqliyyat nazirlikləri arasında imzalanan sənəd çərçivəsində Cənubi Koreya Bakı şəhərində nəqliyyatın intellektual idarəetmə sisteminin yaradılmasına kömək edəcəkdir. Layihənin ilkin qiymətləndirilməsi 50–55 milyon dollar, həyata keçirilməsi müddəti üç ildir. Bundan sonra müsabiqə elan olunub-olunmaması nəzərdə tutulur. Cənubi Koreya ekspertləri tərəfindən aparılmış araşdırmalar göstərmişdir ki, birgə fəaliyyət nəticəsində Azərbaycan paytaxtında analoji sistemin qurulması mümkündür. Bu sistemin yaradılması nəticəsində nəqliyyat vasitələrinin hərəkəti, sürəti, dayanacaqları, nəqliyyat qəzaları, tixaclar və sair barədə operativ məlumatların mərkəzi dispetçerə ötürülməsi mümkün olacaqdır.*

## DÜNYA TAEKVONDO FEDERASİYASININ PREZİDENTİ ÇANQ VON ÇUN İLƏ GÖRÜŞ

*Seul, «Şilla» mehmanxanası*

*23 aprel 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 23-də onun üçün ayrılmış iqamətgahda – «Şilla» mehmanxanasında Dünya Taekvondo Federasiyasının prezidenti Çanq Von Çunu qəbul etmişdir.*

*Söhbət zamanı Azərbaycanda idmanın bütün sahələrinin, o cümlədən taekvondonun inkişaf etdiyi və yüksək nailiyyətlər qazanıldığı bildirildi, Azərbaycanda bu idman növünün inkişafına Dünya Taekvondo Federasiyası tərəfindən bundan sonra da lazım olan köməyin göstəriləcəyi vurğulandı.*

*Federasiyanın rəhbəri prezident İlham Əliyevin Azərbaycanda idmana göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirdi və bir sıra beynəlxalq yarışların ölkəmizdə keçirilməsini müsbət hal kimi səciyyələndirdi.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ KOREYA RESPUBLİKASININ PREZİDENTİ RO MU HYUNUN BİRGƏ MƏTBUAT KONFRANSI

*Seul, «Çonqvade» sarayı*

*23 aprel 2007-ci il*

*Aprelin 23-də Seulda «Çonqvade» sarayında sənədlərin imzalanma mərasimi başa çatdırdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Koreya Respublikasının Prezidenti Ro Mu Hyun birgə mətbuat konfransı keçirmişlər.*

*Dövlət başçıları bəyanatlarla çıxış etdilər.*

*Koreya prezidenti Ro Mu Hyun Azərbaycan ilə fəal əməkdaşlığa üstünlük verdiklərini, iqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsinə, yeni texnologiyaların tətbiqi sahəsində əlaqələrin dərinləşdirilməsinə böyük maraq göstərdiklərini bildirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev bəyanatında Cənubi Koreyaya dövlət səfərinin yüksək səviyyədə keçdiyini söylədi. Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən dövlətimizin başçısı imzalanan birgə bəyannamədə iqtisadi, siyasi, mədəni və digər sahələrdə əməkdaşlıq haqqında müddəaların əks olunduğunu xatırlatdı. Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Daqlıq Qarabağ münaqişəsinin ədalətli həllində tutduğu mövqeyə görə Koreya Respublikasının Prezidentinə təşəkkürünü bildirdi və Azərbaycanın bu münaqişənin beynəlxalq hüquq normaları əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə tərəfdar olduğunu vurğuladı. Dövlətimizin başçısı iqtisadiyyatın inkişafında ölkə-*

*mizin əldə etdiyi uğurlardan, həyata keçirilən beynəlxalq enerji layihələrindən, infrastruktur proqramlarından, Azərbaycanda xarici sərmayədarlara yaradılan əlverişli şəraitdən və digər məsələlərdən bəhs etdi.*

*Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər. Prezident İlham Əliyev enerji, informasiya texnologiyaları, infrastruktur sahəsində və digər layihələrdə Cənubi Koreyanın iş adamlarının iştirak edə bilməsi üçün Azərbaycanda hər cür şəraitin olduğunu vurğuladı və hər iki ölkənin iş adamlarının iştirakı ilə keçiriləcək biznes-forumda konkret layihələrin müəyyənləşdiriləcəyini söylədi. Dövlətimizin başçısı Azərbaycanın neft və qaz sektoru barədə də geniş məlumat verdi.*

*Mətbuat konfransında ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin daha da genişləndirilməsinin zəruriliyi vurğulandı. İqtisadi cəhətdən dünyanın inkişaf etmiş ölkələrindən biri kimi, Cənubi Koreyanın hazırda iqtisadi inkişaf sürətinə görə dünyada lider olan Azərbaycanla yaxın perspektivdə konkret layihələrin həyata keçirilməsində əməkdaşlığından söhbət açıldı. Müasir texnologiyalara malik Koreya Respublikasının yüksək texnologiyaların tətbiqinin genişləndirilməsinə xüsusi əhəmiyyət verən Azərbaycanla bu sahədə əməkdaşlığının perspektivlərindən danışıldı və imzalanan sənədlər üzrə konkret işlərin görüləcəyi bildirildi.*

*Koreya Respublikasının Prezidenti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «İnam» yatağına maraq göstərdiklərini bildirdi və bununla bağlı danışıqların aparıldığını xatırlatdı. O bildirdi ki, Azərbaycanla ikitərəfli əlaqələrin daha da genişləndirilməsi üçün hökumət işçi qrupu yaratmışdır.*

*Prezident İlham Əliyev Azərbaycanın Koreya şirkəti ilə əməkdaşlığa maraq göstərdiyini, gələcəkdə əsasən energetika, nəqliyyat, kənd təsərrüfatı, informasiya texnologiyaları sahəsində əməkdaşlığın genişləndirilməsinə hazır olduğunu bildirdi. Dövlətimizin başçısı «İnam» yatagı ilə əlaqədar dedi ki, hazırda danışıqlar gedir və yəqin ki, müsbət nəticələr əldə olunacaqdır.*

## Koreya Respublikasının Prezidenti Ro Mu Hyunun bəyanatı

Koreya Respublikasına səfər edən ilk Azərbaycan prezidenti, zati-aliləri cənab İlham Əliyevə xoş gəlmisiniz deyirəm. Cari il bizim əlaqələrimiz üçün çox mühüm il olmuşdur. Çünki bu il biz ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 15-ci ildönümünü qeyd edirik. On bir ay bundan əvvəl Bakıda prezident Əliyevlə keçirdiyimiz zirvə görüşündən sonra dostluq münasibətlərinin inkişaf etdirilməsinin davamı olaraq Azərbaycan Respublikasının prezidentini Seulda görməkdən olduqca məmnunam.

Zirvə görüşümüzün sonunda biz Koreya–Azərbaycan birgə bəyannaməsini imzaladıq və əməkdaşlığımızın daha da möhkəmləndirilməsində və yeni sahələrin müəyyənləşdirilməsində maraqlı olduğumuzu bildirdik. Bundan əlavə, biz razılığa gəldik ki, iki ölkə arasında sərmayələrin təşviqi və qorunması haqqında imzalanmış saziş qarşılıqlı sərmayə qoyuluşu imkanlarını daha da genişləndirəcəkdir.

Ölkələrimiz əməkdaşlıq üçün təsisat əsaslarını gücləndirəcək və bu nəticə bir çox sahələrdə, o cümlədən enerji resursları, elektron hökumətin formalaşdırılması, informasiya texnologiyaları, təhsil, nəqliyyat və infrastruktur kimi sahələrdə imzalanmış anlaşma memorandumları əsasında əldə olunacaqdır. Xüsusən də biz Xəzərdə neft yataqlarının işlənilməsi və sosial infrastrukturun formalaşması işində əməkdaşlıq edərək qarşılıqlı surətdə faydalı olan münasibətlərimizin daha da inkişaf etdirilməsini vurğuladıq.

Mən böyük məmnunluq hissi ilə qeyd edirəm ki, son illər ərzində Azərbaycan illik həcmi 30 faizdən çox olan iqtisadi artıma nail olmuşdur. Əlbəttə, Azərbaycan çox zəngin təbii sərvətlərə malikdir. Lakin bu cür inkişafın əsası həmin təbii sərvətlər deyil, ölkənin gələcəyini dərindən düşünən dövlət başçısının müdrik və həlledici siyasətidir.

Biz ümid edirik ki, sürətlə dəyişən Azərbaycanda aparılan işlərdə Koreya şirkətləri də yaxından iştirak edəcəklər.

Həmin şirkətlərin fəaliyyətini dəstəkləmək məqsədilə biz daha fəal iqtisadi əməkdaşlıq naminə işgüzar dairələrlə işləyəcəyik. Onların Azərbaycanın inkişafında daha geniş şəkildə iştirakına çalışacaq birgə işçi qrupu yaradılır.

Koreyanın iqtisadi inkişaf sahəsində keçmişdə müxtəlif sahələrdə əldə etdiyi təcrübənin Azərbaycanda yüksək dəyərləndirildiyini bilməkdən çox şadam. Azərbaycan Hökuməti Koreya şirkətlərinə çox diqqətlə yanaşır və bu günə qədər onlar üçün lazımi şəraitin yaradılmasına çalışıbdır.

Bu gün mən və prezident Əliyev ölkələrimiz arasında əməkdaşlıq üçün daha geniş potensialın olduğunu bir daha vurğuladıq və münasibətlərimizin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi barədə razılığa gəldik.

Çox sağ olun.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyanatı

Mən ilk növbədə, burada nümayəndə heyətimizə göstərilmiş səmimi qonaqpərvərliyə görə Koreya prezidentinə və bütün koreyalı dostlarımıza minnətdarlığımı bildirmək istəyirəm.

Bu səfər ötən ilin may ayında Koreya Respublikasının Prezidenti Azərbaycana səfər etdikdən sonra ölkələrimiz arasında başlanmış olduqca fəal və güclü dialoqun davamıdır. Tam qısa müddət ərzində ölkələrimiz, habelə işgüzar dairələr arasında bir çox işlər görülmüşdür və bu gün imzalanmış sənədlər tərəfdaşlığımızı davam etdirmək və gücləndirməkdə hər iki tərəfin olduqca böyük marağını sübuta yetirir.

Prezidentlərin imzaladığı birgə bəyannamə siyasi münasibətlərimizə ümumi baxışı, ikitərəfli əlaqələrə və regional inkişafa dair mövqeyimizi əks etdirir. Bu sənəd müxtəlif sahələrdə olduqca güclü əməkdaşlığımız üçün möhkəm əsasdır.

Biz beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində tutduğu mövqeyinə görə Cənubi Koreya hökumətinə xüsusilə minnətdarıq. Bu gün apardığımız olduqca geniş müzakirə zamanı biz ikitərəfli münasibətlərimizin bütün vacib elementlərini nəzərdən keçirdik.

Biz enerji sektorunda, neft və qaz əməliyyatları sahəsində, eləcə də Azərbaycandakı infrastruktur layihələrdə, informasiya texnologiyaları, daşımalar və bir çox digər sahələrdə fəal şəkildə əməkdaşlıq etməyi planlaşdırırıq.

Biz qeyd etdik ki, Koreya müstəqillik əldə etdikdən sonra qısa müddət ərzində olduqca böyük uğurlar qazanaraq ən qabaqcıl texnologiyalara malik olan çox güclü ölkəyə çevrilmişdir. Ona görə də sizin təcrübəniz bizim üçün, yəni Azərbaycan kimi gənc müstəqil ölkə üçün çox maraqlıdır və sizin əldə etdiyiniz uğurları öyrənirik.

Azərbaycan böyük neft və qaz sərvətlərinə malik olan ölkədir, Koreya isə qabaqcıl texnologiyalar ölkəsidir. Burada olduqca tanınmış və peşəkar şirkətlər var və biz ölkələrimizin gələcək iqtisadi inkişafına töhfə verə bilərik. Bu, artıq baş verir.

Olduqca qısa müddət ərzində ölkələrimizin səfirlikləri fəaliyyət göstərməyə başladı. Müzakirələr üçün bizim artıq geniş gündəliyimiz var. Əminəm ki, imzalanmış bir çox anlaşma memorandumları yaxın zamanlarda praktik müqavilələrə zəmin yaradacaqdır. Mən şübhə etmirəm ki, çox qısa müddət ərzində biz əməkdaşlığımızın praktik nəticələrini görəcəyik.

Biz Azərbaycanda ikitərəfli münasibətlərə böyük əhəmiyyət veririk və mən əminəm ki, bu səfərdən sonra əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

Sağ olun.

* * *

*Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Sualım hər iki prezidentədir. Koreya Respublikası müasir yüksək texnologiyaları ilə tanınan bir ölkədir. Azərbaycan da iqtisadiyyatında yüksək texnologiyaların tətbiqini və bu sahədə əlaqələrin genişləndirilməsini prioritet istiqamətlərdən biri hesab edir. Bu baxımdan ikitərəfli əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?**

**R o M u H y u n:** Əməkdaşlığın xüsusi sahələri barədə təfərrüatı danışmazdan əvvəl mən Cənubi Koreya ilə Azərbaycanın daha münasib formada işbirliyini mümkün edəcək təkrarolunmaz mühiti və ya xüsusi şəraitləri qeyd etmək istərdim.

Cənubi Koreya bir çox sahələrdə dünyada aparıcı ölkələrdən biri kimi tanınır, lakin ən yüksək standartlara nail olmaq üçün bizim qarşımızda bir neçə sahə var və biz orada hələ də iş aparmalıyıq. Həqiqətdir ki, qabaqcıl sahələrdən bəziləri hətta dünyada yaxşı tədqiq olunmayıbdır. Cənubi Koreyanın təcrübəsi texnologiyalar sahəsində nəinki əladır, eyni zamanda, inkişaf prosesi zamanı əldə olunmuş ən son nailiyyətlərin hamısını özündə əks etdirir. Bununla yanaşı, hazırda ölkədə bir sıra sınaqlar və səhvlər, o cümlədən uğursuzluqlarla yadda qalmış yolda əldə etdiyimiz biliklər mövcuddur.

Cənubi Koreyanın iqtisadi inkişafı zamanı əldə olunmuş təcrübə və texnologiyaların əsasən 30 və ya 40 illik tarixi var. Bütün bu təcrübə həm özəl sektorun, həm də hökumətin yaddaşındadır. Bizdən fərqli olaraq, inkişaf etmiş ölkələrdə bu təcrübənin tarixi 100–150 ildən çoxdur. Onlar öz təcrübələrini həmin müddət ərzində tədricən toplamış və lap əvvəlki təcrübələrini yaddan çıxarmışlar.

Mən demək istəyirəm ki, Cənubi Koreya texnologiyaları sadəcə, biliklərin toplusu deyildir. Onlar marağımız və işə sədaqətliyimizdən irəli gəlir. Hesab edirəm ki, Cənubi Koreya qətiyyətli dövlət rəhbərliyi altında ictimai marağı təşviq etməklə sürətlə uğurlar qazanmağa ümid bəsləyən hər hansı ölkə üçün yaxşı tərəfdaşa çevrilə bilər.

Cənubi Koreya neft və təbii qaz kimi enerji ehtiyatlarının işlənilməsində dünyamiqyaslı texnologiyalara malikdir, bax-

mayaraq ki, bu fakt hələ də lazımi şəkildə qlobal nüfuz səviyyəsinə qalxmayıbdır. Bundan əlavə, ölkə qətiyyətlə enerji imkanlarını inkişaf etdirməyə çalışır, çünki onun böyük həcmdə enerji resurslarına ehtiyacı var.

Cənubi Koreyanın təcrübəsi və texnologiyaları şoselərin, dəmir yollarının, limanların, elektrik stansiyalarının və gəmiqayırma zavodlarının tikintisi sahəsində lazımi qaydada nümayiş etdirilibdir. Ölkəmiz sərmayələr qoymaqda olduqca maraqlıdır. Şəhərsalma və yaşayış sahələrinin tikintisi sahəsində də zəngin təcrübəsi olan ölkəmiz hazırda yaşayış problemlərini qətiyyətlə aradan qaldırmağa çalışır. Çünki bu hələ də tam həll olunmayıbdır. İstər inşaat, istərsə də layihə sahələrində Koreya xalqı onunla birgə işləyən işçilərə etimad göstərir və onlarda böyük maraq oyadır. Koreyalılar digərlərinin ideyalarını müəyyən etmək və inkişafa çalışmaq məqsədilə onlara həvəsləndirici müsbət təsir göstərirlər.

Cənubi Koreya və Azərbaycan intellektual nəqliyyat sistemi və elektron hökumət sahəsində anlaşma memorandumlarını imzaladılar. İnformasiya və kommunikasiya texnologiyaları Azərbaycanla fərəh hissi ilə əməkdaşlıq etmək istədiyimiz sahələrdən biridir.

**İlham Əliyev:** Cənab Prezident ölkəsinin ən qabaqcıl texnologiyaları olan sahələri qeyd etdi. Biz Azərbaycanda infrastrukturumuzun müasirləşdirilməsi prosesindəyik. Azərbaycan maliyyə baxımından nəhəng infrastruktur layihələrə böyük sərmayələr qoymağa qadir olan ölkəyə çevrilməkdədir. Ona görə bizim üçün Cənubi Koreya şirkətləri ilə işləmək olduqca faydalıdır, çünki onlar qabaqcıl texnologiyalara, yaxşı peşəkarlığa, olduqca yüksək nüfuza malikdir və biz onları öz tərəfdaşlarımız arasında görmək istərdik.

Biz Cənubi Koreya şirkətlərini sərmayədar və podratçılar qismində alqışlayırıq. Hazırda Azərbaycanda infrastruktura, elektrik stansiyalarına, magistral yollara və digər vacib layihələrə böyük sərmayələr yatırılır. Gələcək illər ərzində Azərbaycanda infrastruktur sahəsinə milyardlarla sərmayə qoyulacaqdır.

Beləliklə, bizim iqtisadi əməkdaşlığımızın olduqca böyük gündəliyi var. Bu, enerji sektoru, yükdaşımalar və informasiya texnologiyaları, infrastruktur sahəsi, o cümlədən kiçik və orta sahibkarlıq sahəsində biznes əlaqələrini əhatə edir. Biznesi birgə aparmağa olduqca böyük maraq var. Sabah keçiriləcək Koreya–Azərbaycan biznes-forumu bu marağın bariz nümunəsidir. Çox qısa müddət, yəni sadəcə, bir il ərzində biz əməkdaşlığımızın xüsusi sahələrini müəyyən edə bildik. Bir çox anlaşma memorandumu imzalanmışdır. Ümid edirəm ki, çox yaxın vaxtlarda onlar öz bəhrəsini verəcəkdir. Biz birgə iqtisadi əməkdaşlığımıza böyük nikbinlik hissi ilə baxırıq.

**S u a l: Sualım prezident cənab İlham Əliyevədir. Mənim Xəzər dənizində enerji sahəsində beynəlxalq əməkdaşlıqdan xəbərim var. Koreya Milli Neft Korporasiyası Azərbaycanın «İnam» neft yatağının işlənilməsində 20 faiz pay əldə etmək istəyir. Cənab Prezident, bu cür müqavilənin mümkünlüyünə necə baxırsınız?**

**Cənubi Koreya Azərbaycanın digər neft yataqlarında da işləməyə maraq göstərir. Siz neft və təbii qaz yataqlarının işlənilməsində Koreya şirkətlərini tərəfdaş kimi necə qiymətləndirirsiniz?**

**İ l h a m Ə l i y e v:** Biz şadıq ki, Cənubi Koreya şirkətləri müxtəlif layihələrində bizimlə birgə işləməyə maraq göstərir. Lakin onu da təəssüf hissi ilə deməliyəm, bu bir qədər gec baş verdi. Azərbaycan 1994-cü ildən etibarən iri xarici neft şirkətləri ilə özünün neft və qaz yataqlarında işlənilmə əməliyyatları aparır. Tərəfdaşlarımız arasında dünyanın bütün əsas neft şirkətləri var. Bizim çox əlverişli sərmayə şəraitimiz var və Azərbaycandakı bütün sərmayələr qəti şəkildə qorunur. Azərbaycan müxtəlif neft şirkətləri ilə 20-dən çox müqavilə imzalamışdır. Gələn il Azərbaycanın ixrac etdiyi neftin həcmi gündə 1 milyon barrel təşkil edəcəkdir. Mən Cənubi Koreya şirkətlərinin bir az yubandığını qeyd edəndə onu demək istəyirdim ki, bütün əsas müqavilələr artıq imzalanıbdır. Bu baxımdan «İnam» neft yatağı ilə bağlı

saziş də imzalanıbdır. Ona görə biz hazırda ARDNŞ ilə Koreya şirkəti arasında ARDNŞ-in müqavilədəki payına aid alqı-satqı sazişini müzakirə edirik. Bu razılaşma kommersiya əsasları ilə qarşılıqlı fayda gətirən formada əldə olunmalıdır. Həmin razılaşma əldə ediləndən sonra biz Cənubi Koreya şirkətini tərəfdaşlar arasında görməkdən məmnun olardıq.

Lakin eyni zamanda, Cənubi Koreya şirkəti üçün Xəzərin Azərbaycan sektorundakı müxtəlif kəşfiyyat bloklarını da nəzərdən keçirmək faydalı olardı. Gələcəkdə həmin şirkət o yerlərdə Azərbaycan ilə neft və qaz əməliyyatlarında əməliyyatçı kimi iştirak edə bilər. Bizim olduqca böyük ehtiyatlarımız var. Bir layihədə hesablanmış neft ehtiyatlarının həcmi 9 milyard barrelə bərabərdir. Biz Azərbaycan neftini dünya bazarlarına çıxarmaq məqsədilə müxtəlif boru kəmərləri çəkmişik. Gələn bir çox onilliklər ərzində Azərbaycanın neft və qaz sektoru xarici şirkətlər üçün cəlbedici olaraq qalacaqdır. Əminəm ki, gələcəkdə bizim çox səmərəli və qarşılıqlı surətdə faydalı əməkdaşlığımız olacaqdır.

**R o M u H y u n:** Mətbuat konfransını başa çatdırmazdan əvvəl mən bir neçə kəlmə əlavə etmək istəyirəm. Hazırda Cənubi Koreya bir çox dünya ölkələri ilə birgə inkişaf layihələrini həyata keçirir. Ötən ilin may ayında Azərbaycana səfər etdikdən sonra Azərbaycanla iqtisadi inkişaf və əməkdaşlıq sahəsində təcrübəni bölüşmək məqsədilə Cənubi Koreya Hökuməti nəzdində işçi qrupu yaradıldı. Demək istəyirəm ki, həmin işçi qrupu çox fəaldır.

Mən onu da bildirmək istəyirəm ki, digər ölkələrə maraq göstərərkən biz məhz Azərbaycan Hökumətinin xüsusi marağını nəzərə alaraq onunla əməkdaşlığa başladıq. Hesab edirəm ki, ölkənin inkişafının ən vacib elementi həm özəl sektorun, həm də hökumət rəsmilərinin birgə fəal və ürəkdən işləməyə çalışmasından ibarətdir. Əlbəttə, bu sahədə dəqiq rəqəmlər demək çətin olardı. Lakin bilirəm ki, əldə olunmuş səviyyə yüksəkdir və Azərbaycanın bu qədər sürətlə inkişaf etməsi və Koreya şirkətlərinin layihələrdə iştirak etməyə marağı göz qabağındadır.

Əminəm ki, hazırda Azərbaycanda fəaliyyət göstərən Cənubi Koreya şirkətləri ölkəniz haqqında müsbət təsəvvürə malikdir və bu mənim hökumətimin tutduğu mövqe ilə üst-üstə düşür. Biz əminik ki, Azərbaycan böyük sərmayələrin yatırılması üçün münasib yerdir.

Cənab Prezident, sonda onu etiraf etmək istəyirəm ki, Siz olduqca gərgin iş aparırsınız və sizin hökumət də fəal çalışır.

Çox sağ olun.

# KOREYA RESPUBLİKASININ PREZİDENTİ RO MU HYUNUN VƏ XANIMI KVON YANQ SUKUN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMI MEHRİBAN ƏLİYEVANIN ŞƏRƏFİNƏ VERİLMİŞ DÖVLƏT NAHARINDA NİTQ

*23 aprel 2007-ci il*

## Koreya Respublikasının Prezidenti Ro Mu Hyunun nitqi

Zati-aliləri hörmətli Prezident Əliyev!

Xanımlar və cənablar!

Mən prezident Əliyevi və onun xanımını Koreya Respublikasına ilk dövlət səfəri çərçivəsində salamlamaqdan məmnunam və Koreya xalqı adından Sizə səmimi-qəlbdən «xoş gəlmisiniz!» deyirəm.

Azərbaycana etdiyim səfəri, Azərbaycan xalqı ilə görüşümü səmimiyyətlə xatırlayıram və bilirəm ki, bütün vətəndaşlarınız çiçəklənən dövlət qurulması işində iştirak edirlər. Mənə böyük təəssürat bağışlamış gözəl Bakı şəhəri və paytaxtın müxtəlif yerlərində tikinti-abadlıq işlərinin aparılması xüsusi olaraq yadımdadır.

Azərbaycan olduqca gözəçarpan iqtisadi artıma nail olmuşdur. Bu göstərici 2005-ci ildə 26 faiz, ötən il isə 35 faiz təşkil etmişdir və beləliklə, ölkə son iki il ərzində ümumi daxili məhsulunu sürətlə artırmışdır. Azərbaycan nəinki öz milli infrastrukturunu genişləndirir, o cümlədən energetika, inşaat, elektron cihazların istehsalı və turizm kimi sahələri əsasında öz sənayesinin şaxələndirilməsinə çalışır.

Tam əminəm ki, Azərbaycan Qafqaz regionunda əsas iştirakçı kimi öz fəaliyyətini davam etdirəcəkdir. Mən Sizin rəhbərliyinizi və Azərbaycan xalqının bacarığını yüksək dəyərləndirirəm.

Cənab Prezident, hesab edirəm ki, ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq üçün yeni üfüqlər açılır. Mənim səfərim və Sizin indiki səfəriniz bu əməkdaşlığı daha dərin və geniş edir.

Ötən il birgə bəyannaməni imzaladıqdan sonra bu gün biz yeni birgə bəyannaməyə imza atdıq. Sərmayələrin təşviqi və qorunması haqqında saziş, habelə müxtəlif sahələrdə bir sıra anlaşma memorandumu da imzalanmışdır.

Cənubi Koreyanın bir çox şirkətləri Azərbaycanda hasilat sənayesindən tutmuş, elektrik stansiyalarının tikintisinə qədər, işləmək üçün yeni imkanlar araşdırır, informasiya texnologiyaları sahəsində işləyir.

Hesab edirəm ki, enerji sektorundan əlavə, dəmir yollarının çəkilməsi, limanların tikintisi və digər müxtəlif sahələrdə geniş əməkdaşlıq imkanları mövcuddur. Düşünürəm ki, inzibati idarəçilik sistemində əldə etdiyimiz təcrübə ölkənizdə və paytaxtda yeni idarəçiliyin qurulması üçün göstərdiyiniz səylər baxımından xüsusilə faydalı ola bilərdi.

Eyni zamanda, ölkələrimizə səfər edənlərin get-gedə artan sayını görməkdən də məmnunam. Bu, Azərbaycan mədəniyyətini bizim ölkədə tanıdır. Ümidvaram ki, Azərbaycan ilə Cənubi Koreya iki dost kimi, ümumi firavan gələcək naminə işləyəcəkdir.

Xanımlar və cənablar!

Sizi Azərbaycan Respublikasının Prezidentinin və birinci xanımının şərəfinə, Azərbaycanın gələcəyi və ölkələrimiz arasında dostluğun şərəfinə qaldırdığım badəyə qoşulmağa dəvət edirəm.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli birinci xanım!

Xanımlar və cənablar!

Gözəl ölkənizə səfərim zamanı mənə və nümayəndə heyətimə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə öz minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün apardığımız danışıqlar çox səmərəli olmuş, ikitərəfli münasibətlərin bütün aspektlərini əhatə etmişdir. İmzaladığımız sənədlər gələcək siyasi və iqtisadi əməkdaşlığı əvvəlcədən müəyyən edir və biz bu əməkdaşlığımıza böyük nikbinlik hissi ilə baxırıq. Koreya Respublikasının Prezidenti ötən ilin may ayında Azərbaycana rəsmi səfər etdikdən sonra münasibətlərimizdə yeni mərhələ başlandı. Mənim hazırkı səfərim isə təqribən bir il bundan əvvəl formalaşmış güclü dialoq və tərəfdaşlığın davamıdır.

Bir ildən az müddət ərzində biz ikitərəfli əlaqələrimizdə çox nailiyyətlər əldə etdik. Cənubi Koreyanın Azərbaycandakı səfirliyi və Azərbaycanın ölkənizdəki səfirliyi artıq fəaliyyət göstərir. Biz olduqca güclü iqtisadi əməkdaşlıq ərəfəsindəyik.

Ölkənizlə münasibətlərimiz bizim üçün çox vacibdir. Biz istəyirik ki, Cənubi Koreya şirkətləri ölkəmizə yeni texnologiyalar gətirsin. Biz onların bizim güclü tərəfdaşlarımıza, sərmayədarlara və podratçılara çevrilməsini arzulayırıq. Əminəm ki, yaxın zamanlarda bunun şahidi olacağıq.

Cənubi Koreya müstəqillik qazandığı vaxtdan etibarən böyük nailiyyətlər əldə edibdir. Yoxsulluq içərisində olarkən ölkəniz güclü iqtisadiyyat qurmaqda israrlı idi və bu gün Cənubi Koreya dünyanın ən inkişaf etmiş ölkələrindən biridir.

1991-ci ildə müstəqilliyini qazanan Azərbaycanın vəziyyəti Cənubi Koreyanın ilk müstəqillik illərində üzləşdiyi

vəziyyətə bənzəyirdi. Lakin güclü siyasi və iqtisadi islahatlar siyasəti sayəsində və Azərbaycan xalqının göstərdiyi səylər nəticəsində biz siyasi və iqtisadi inkişaf sahəsində qısa müddət ərzində böyük uğurlar qazana bildik.

Artıq növbəti, üçüncü ildir ki, Azərbaycan ümumi daxili məhsulun artımına görə dünyada birinci yeri tutur. Bu gün bizim əsas məqsədimiz infrastrukturumuzu müasirləşdirmək, şaxələndirilmiş güclü iqtisadiyyat yaratmaq və xalqın həyat tərzini yaxşılaşdırmaqdan ibarətdir. Ona görə də biz həmin məqsədlərə nail olmaq üçün Cənubi Koreya rəsmiləri və şirkətləri ilə əməkdaşlıq etməkdə çox maraqlıyıq.

Eyni zamanda, Azərbaycan böyük neft və qaz ehtiyatlarına malik olan ölkədir. Bizim Cənubi Koreya ilə enerji məsələləri üzrə apardığımız əməkdaşlıq çox fəaldır. Əlbəttə ki, Azərbaycan da Koreya şirkətləri üçün maraqlı ölkədir və bu gün biz bu istiqamətdə artıq ilk praktik addımları görürük. Bu o deməkdir ki, biz birgə səylərlə ölkələrimizin iqtisadi inkişafına və enerji təhlükəsizliyinə töhfə verə bilərik.

Eyni zamanda, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Cənubi Koreya rəhbərliyinin tutduğu ədalətli mövqeyinə görə minnətdarıq. Bu münaqişə yalnız beynəlxalq hüquq normaları və prinsipləri, o cümlədən Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində həll oluna bilər. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğalı azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti ilə müşayiət olunmuşdur. Bunun nəticəsində bir milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində yerinə yetirilməyibdir. Bütün beynəlxalq ictimaiyyət, Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşır. Əminəm ki, bu məsələnin yeganə həll yolu beynəlxalq hüquq

normaları və prinsiplərinə tam əməl etməkdən və Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızdan çıxarılmasından ibarətdir. Əminəm ki, bu belə də olacaqdır.

Gördüyünüz kimi, Cənubi Koreya ilə bizim əməkdaşlığımız çox genişdir və o siyasi, iqtisadi və habelə mədəni aspektləri əhatə edir. Azərbaycanda universitetdə Koreya dili, tarixi və mədəniyyəti tədris edilir və biz bunu görməkdən çox məmnunuq.

Mən göstərilmiş qonaqpərvərliyə və gözəl ölkənizə səfərə dəvətə görə koreyalı ev sahiblərinə bir daha öz minnətdarlığımı bildirmək istəyir, Koreya xalqına rifah və uğurlar arzulayıram.

Mən badəmi Koreya Respublikasının Prezidentinin, birinci xanımının şərəfinə və dost Koreya xalqının şərəfinə qaldırmaq istəyirəm.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ SEUL VƏ PUSAN ŞƏHƏRİNDƏ BİR SIRA OBYEKTLƏRLƏ TANIŞ OLMUŞDUR

*24 aprel 2007-ci il*

## Seulda nəqliyyatın hərəkətinin idarə edilməsinin intellektual sistemi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Respublikasına dövlət səfərinin ikinci günü – aprelin 24-də Seulun Nəqliyyat Əməliyyatları və İnformasiya Xidmətində (TOPİS) olmuşdur.*

*Paytaxtın vitse-meri Kim Hyun Kvon 12 milyon əhalisi olan Seulda nəqliyyatın idarə edilməsi üçün yaradılmış bu sistem barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Bildirildi ki, şəhər nəqliyyatının intellektual idarəetmə sistemi olan TOPİS Seulda nəqliyyatın hərəkətinin idarə olunması, o cümlədən ictimai nəqliyyatın hərəkətinin tənzimlənməsi, gur saatlarda əlavə avtobusların cəlb edilməsi, tıxaclar yarandığı zaman müvafiq göstərişlərin verilməsi və alternativ yolların seçilməsi funksiyalarını yerinə yetirir. Həmçinin bu mərkəz vasitəsilə küçələrdə qanunsuz dayanmış avtomobillərin oradan aparılması təcili təmin olunur, baş verən qəzaların qeydə alınması və araşdırılması ilə bağlı məlumat toplanır.*

*Prezident İlham Əliyev bu intellektual idarəetmə sistemi ilə yaxından tanış oldu.*

*Ümumiyyətlə, Bakı şəhərində də analoji mərkəzin yaradılması nəzərdə tutulur və bu barədə Azərbaycanın Nəqliyyat Nazirliyi ilə Cənubi Koreyanın Tikinti və Nəqliyyat Nazirliyi arasında aprelin 23-də Seulda Anlaşma memorandumu im-*

*zalanmışdır. İlkin hesablamalara görə, dəyəri 50–55 milyon dollar olan layihənin icrasına bu ilin ikinci yarısında başlamaq və 2009-cu ildə başa çatdırmaq nəzərdə tutulur. Bakı şəhərində hərəkətin tənzimlənməsi və idarə olunması üçün bütün məlumatlar bu mərkəzdə toplanacaq və internet, mobil telefon, televiziya kanalı və radio dalğaları vasitəsilə həm sərnişinlərə, həm də sürücülərə çatdırılacaqdır.*

*Dövlətimizin başçısı digər ölkələrdə də bu cür sistemin olduğunu, Bakı şəhərinin sosial-iqtisadi inkişafını və nəqliyyat vasitələrinin sayının artmasını nəzərə alaraq paytaxtımızda belə sistemin yaradılmasının vacibliyini vurğuladı.*

## Kyonbokkun saray kompleksi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 24-də Seulda Koreya memarlığının ən gözəl abidələrindən sayılan nəhəng Kyonbokkun saray kompleksində olmuşlar.*

*Dövlətimizin başçısını və xanımını sarayın müdiriyyəti böyük hörmətlə qarşıladı.*

*Prezident İlham Əliyev sarayın Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:* «Mən bu gözəl saraya gəlməkdən və Koreya Respublikasının tarixi və mədəniyyətini daha yaxşı öyrənməkdən çox məmnunam. Mən bütün Koreya xalqına sülh və firavanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*24 aprel 2007-ci il*».

* * *

*Sonra dövlətimizin başçısı və xanımı sarayla yaxından tanış oldular. Məlumat verildi ki, bu saray 1394-cü ildə Li sülaləsinin (1392–1910-cu illər) banisi Kral Txeçjonun vaxtında tikilmişdir. 330 müxtəlif ümumi binadan ibarət saray kom-*

*pleksi 1593-cü ildə yaponlar tərəfindən dağıdılmışdır. 1868-ci ildə yenidən bərpa edilsə də, əvvəlki görkəmini qaytarmaq mümkün olmamışdır. 1950–53-cü illər müharibəsi zamanı yenidən dağıdılmışdır. 1990-cı ildə burada təmir-bərpa işlərinə başlanılmışdır. Məqsəd saray kompleksinin əvvəlki görkəmini qaytarmaqdır. Sarayın əsas qapılarının təmiri isə 2009-cu ildə başa çatdırılacaqdır.*

*Saray kompleksi inzibati binalardan, çoxsaylı yaşayış evlərindən, parklardan ibarətdir. Burada süni göl də yaradılmışdır.*

*Prezident İlham Əliyev kralın xatirəsini əks etdirən lövhəyə, xarici qonaqların qəbul olunduğu yerə, iş və yataq otaqlarına, kralın həyat yoldaşı üçün tikilmiş iqamətgaha, 4 hektardan çox ərazini əhatə edən parklara və süni gölə baxdı, sarayın baş planı ilə tanış oldu.*

*Sarayla tanışlıqdan xoş təəssüratla ayrılan prezident İlham Əliyevə kompleks barədə məlumat kitabları təqdim olundu.*

## Panq Yo yeni şəhər informasiya mərkəzi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Seuldan 50 kilometr aralıda yerləşən Panq Yo yeni şəhər informasiya mərkəzinə gəlmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı mərkəzin rəhbərliyi böyük hörmət və ehtiramla qarşıladı.*

*Cənubi Koreya Torpaq Korporasiyasının prezidenti Ce Hyun Kim Azərbaycan prezidentinə mərkəz barədə ətraflı məlumat verdi. Bildirildi ki, yeni şəhər informasiya mərkəzində bütün işlər korporasiya tərəfindən həyata keçirilir və idarə olunur. Ərazilərin səmərəli şəkildə inkişafı və idarəçiliyin təmin olunması üçün 1975-ci ildə yaradılan korporasiya Cənubi Koreyanın iqtisadi inkişafının təmin olunmasına, həyat şəraiti standartlarının yaxşılaşdırılmasına, ətraf mühitin qorunmasına çalışır. Torpaq, daşınmaz əmlak və tikinti üzrə ixtisaslaşmış 2200 nəfərlik peşəkar heyəti, 9 filialı olan korpora-*

*siyanın əmlakının dəyəri təxminən 14 milyard dollar, kapitalı isə 4 milyard dollardır.*

*Prezident İlham Əliyev və Azərbaycan nümayəndə heyətinin üzvləri şəhərsalma infrastrukturundan bəhs edən filmə baxdılar, yeni şəhərsalma layihələri və onların maketləri ilə yaxından tanış oldular.*

*Məlumat verildi ki, «Yeni şəhərlərin inkişafı» ilə bağlı ilk layihəyə 1990-cı ildən başlanmış, həmin mərhələdə 5 şəhərcik tikilmişdir.*

*İkinci mərhələyə isə 2000-ci ildən başlanmış və daha 5 şəhərcik salınmışdır. Layihələrin əsas cəhəti müasir texnologiyaların tətbiqinə, ətraf mühitin qorunmasına üstünlük verilməsidir. «Təmiz şəhər» devizi altında işlər görülür. Yeni yaşayış massivlərində 29 min mənzildə 88 min əhali yaşayacaq. Yeni şəhərlərin ərazisinin 38 faizi yaşıllıq olacaqdır. Koreyalı mütəxəssislər Azərbaycanda bu sahədə çalışmaq istədiklərini bildirdilər.*

*Prezident İlham Əliyev bu işləri yüksək qiymətləndirdi, korporasiyanın ölkəmizdə konkret iş görməsi üçün imkanların olduğunu bildirdi. O dedi ki, biz bu təcrübədən yararlanaraq Azərbaycanda yeni şəhərsalma layihələrini həyata keçirmək niyyətindəyik.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ KYUNQ HE UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*Seul*

*24 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Kyunq He Universitetinə gəldi.*

*Dövlətimizin başçısını universitetin qarşısında bu ali məktəbin prezidenti İnvon Çou böyük hörmət və ehtiramla qarşıladı.*

*Əvvəl universitetin prezidenti, rektoru, professor və müəllim heyəti ilə görüş oldu. Məlumat verildi ki, 1949-cu ildə yaradılan özəl universitetin 3 tələbə şəhərciyi, 20 kolleci, ərazilərin idarə olunması, insan cəmiyyəti, kommunikasiya fakültələri var. 36 tədqiqat institutunda 2300 nəfər çalışır. Dünyada məşhur olan universitetdə 23 min tələbə təhsil alır. 29 min eksponatdan ibarət iki muzeyi vardır ki, bu da Asiyada ən böyük kolleksiya sayılır.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevə siyasi elmlər üzrə Fəxri doktor adı verilməsi münasibətilə təntənəli mərasim keçirildi. Azərbaycan və Koreya Respublikasının Dövlət himnləri, habelə universitetin himni səsləndirildi. Azərbaycan prezidenti İlham Əliyevə Fəxri doktor mantiyası, orden və medalı təqdim olundu.*

*Dövlətimizin başçısının tərcümeyi-halı oxundu və ona gül dəstəsi verildi.*

## Kyunq He Universitetinin prezidenti İnvon Çounun nitqi

Zati-aliləri Prezident Əliyev!

Hörmətli qonaqlar!

Hörmətli Kyunq He Universiteti Elmi Şurasının üzvləri!

Mən sizin hamınızı bu cür yaddaqalan mərasimdə salamlamaq istəyirəm. Biz bu gün prezident Əliyevin öz ölkəsinə, regiona və bütün dünyaya sədaqətini qeyd etməyə toplaşmışıq. O, təhsil ocağımızın siyasi elmlər üzrə Fəxri doktoru adına layiq görülmüşdür. Fəaliyyəti dövründə prezident Əliyev bir çox sahələrdə əsl rəhbərlik məharətini nümayiş etdirmişdir. Onun ilk nailiyyəti və uğurları məhz elmi sahədə olmuşdur. Daha sonra o, uğurlu siyasi fəaliyyət apararaq özünün rəhbərlik istedadını göstərdi. Bu onun Dövlət Neft Şirkətinin vitse-prezidenti olduğu dövrdən hiss edilirdi.

Azərbaycanın prezidenti kimi, dörd il bundan əvvəl fəaliyyətə başladıqdan sonra o, milli iqtisadiyyatın inkişafı naminə düşünülmüş enerji siyasətini həyata keçirmişdir. Onun rəhbərliyi altında ölkə köklü surətdə dəyişmişdir. Ölkənin ümumi daxili məhsulunun istehsalı artmışdır. Xüsusən də marağı cəlb edən odur ki, prezident Əliyev ümumi siyasətində gənclərin lazımi təhsil almasına xüsusi yer ayırır. O, işi ilə göstərdi ki, insan öz əməyi sayəsində istədiyi nəticələri qazana bilər.

Biz prezident Əliyevin həyata keçirdiyi missiya ilə Cənubi Koreyanın yeni nailiyyətlər əldə etməsi arasında oxşarlıq olduğunu da görürük. Ölkə rəhbəri kimi fəaliyyətə başladığı ilk vaxtlardan o, keyfiyyətli təhsilin təmin edilməsi yolu ilə ölkənin inkişafına nail olmağa çalışmışdır. Hazırda onun ölkəsi uzunmüddətli layihələrin həyata keçirilməsi ilə məşğuldur. Təhsil və elmi-tədqiqatlar cari qlobal proseslərdə əsas yer tutur. Hesab edirəm ki, bu amil Kyunq He Universitetinin də başlıca vəzifəsidir. Bu eyni zamanda, təsisat kimi, bizim öhdəliyimizi də nəzərdə tutur. Həmin öhdəliyi tam dərk edərək, Kyunq He Universitetinin prezidenti kimi,

mən Azərbaycan prezidenti İlham Əliyevə siyasi elmlər üzrə Fəxri doktor adının verilməsindən şərəf hissi duyuram.

Biz ümid edirik və bilirik ki, doktor Əliyev universitetimizin vahid ailəsinin yeni üzvü olacaq. Biz isə gələcək işlərində onu dəstəkləyəcəyik.

Çox sağ olun.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, bu gün mənə sizin tanınmış universitetinizin Fəxri doktoru kimi mötəbər adın verilməsinə görə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu mənim üçün böyük şərəfdir və əminəm ki, gələcək illər ərzində mən Cənubi Koreya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə verdiyim töhfəni davam etdirəcəyəm. Bir neçə illər bundan əvvəl universitetdə dərs demiş bir şəxs kimi, bu Fəxri adı almaq mənim üçün xüsusi əhəmiyyət daşıyır.

Artıq qeyd edildiyi kimi, bu gün bizim ölkədə təhsil məsələlərinə olduqca böyük diqqət yetirilir, çünki təhsil gələcək və tərəqqi deməkdir. Müxtəlif sahələrdə böyük irəliləyişə nail olmuş ölkələr, o cümlədən sizin ölkəniz təbii sərvətlər sayəsində deyil – Cənubi Koreyanın da bu cür sərvətləri yoxdur – məhz insanların biliyi və təhsili, eləcə də elm və texnologiyalar nəticəsində uğurlu addımlar atmışdır.

Bu gün biz dünyanın ən inkişaf etmiş ölkələrinə nəzər yetirsək görərik ki, onların hamısında təhsil ən prioritet məsələ hesab edilir. Eyni işləri Azərbaycanda da görməyə çalışırıq və bunun üçün yaxşı imkanlarımız var. Bu yaxınlarda biz gənclərin xaricdə təhsil alması üçün xüsusi prezident proqramını həyata keçirməyə başlamışıq. Gənc azərbaycanlı tələbələrin sizin universitetdə təhsil almaq imkan-

larını artıq müzakirə etmişik. Biz təhsil proseslərinə böyük sərmayələr qoymaqda davam edirik. Təkcə son üç il ərzində Azərbaycanda təqribən 800 yeni məktəb tikilmişdir və bütün yeni məktəblərdə kompyuter sinifləri və internetə çıxış var.

Bəlkə də bu sizin üçün o qədər mühüm görünmür, çünki siz bunlarla çoxdan tanışsınız. Lakin müstəqilliyini cəmi 15 il bundan əvvəl qazanmış və ilk anlardan bir çox siyasi və iqtisadi çətinliklərlə üzləşmiş bizim ölkə üçün bu, sözün əsl mənasında, böyük nailiyyətdir. Təhsil sahəsinə sərmayənin yatırılması xalqımıza, onun gələcəyinə və tərəqqisinə sərmayə qoymaq deməkdir.

Bizim xüsusi imkanlarımız var. Qeyd edildiyi kimi, indi Azərbaycan sürətlə inkişaf edən ölkədir.

Artıq üçüncü ildir ki, iqtisadiyyatımız dünyada ən yüksək sürətlə inkişaf edir. 2005-ci ildə ÜDM artımı 26 faiz, 2006-cı ildə isə 35 faiz olmuşdur. 2007-ci ilin birinci rübündə iqtisadiyyatımız təqribən 40 faiz artmışdır. Sənaye istehsalının artımı 40 faiz olmuşdur. Son üç il ərzində 500 mindən çox yeni iş yerləri açılmışdır. Ölkədə yoxsulluğun səviyyəsi kəskin şəkildə azalmışdır.

Bütün bunlar iqtisadi islahatlar siyasətinin, siyasi sabitliyin və Azərbaycandakı mühitin nəticəsidir. Lakin Azərbaycan 1991-ci ildə müstəqil olduqdan sonra vəziyyət çox çətin idi və hətta bizim müstəqil ölkə kimi yaşamağımız sual altında idi. Ancaq ümummilli liderimiz Heydər Əliyev ölkənin gələcəyi üçün qapıları açdı və iqtisadi islahatlara başladı, siyasi sabitlik yaratdı. Bu gün isə biz artıq güclü iqtisadi təməli və olduqca gözəl perspektivləri olan ölkəyik.

Azərbaycanda həyata keçirilən enerji layihələri hazırda bütün regionu əhatə edir və onlar transmilli, transkontinental layihələrinə çevrilməkdədir. Biz hazırda dünyada mühüm neft və qaz hasilatçısı olmaq ərəfəsindəyik. Xəzər regionunu Aralıq dənizi və dünya bazarları ilə birləşdirən nadir boru kəmərləri çəkmişik. Bu, həyatımızın müxtəlif

aspektlərinə, yəni təhsil, səhiyyə və sosial problemlərin həlli kimi sahələrə əlavə sərmayə qoymaq imkanları yaradır.

Sizin nümunəniz, Cənubi Koreyanın nümunəsi bizim üçün çox vacibdir, çünki müstəqil olduqdan sonra siz də həmin çətinliklərlə üzləşdiniz. Lakin olduqca qısa müddət ərzində, hər hansı təbii sərvət olmadan və yalnız Koreya xalqının əməyi, biliyi və təhsili sayəsində dünyada aparıcı iqtisadiyyatlardan birinə çevrildiniz.

Bir sözlə, sizin təcrübənizi öyrənməyə imkanlarımız var və ikitərəfli münasibətlərimiz çox müsbət istiqamətdə inkişaf edir. Mən bir daha bildirmək istəyirəm ki, biz Azərbaycanda bir siyasi sistemdən digər sistemə keçid dövrünü başa çatdırmışıq. 70 il ərzində Sovet İttifaqının bir hissəsi olmuşuq. Həmin vaxt biz müstəqil deyildik və fərqli siyasi sistemdə yaşamışıq. Yəni, totalitar siyasi sistemdə yaşamışıq. Lakin hazırda bazar iqtisadiyyatına və açıq cəmiyyətə keçid başa çatıbdır. Müstəqillikdən 15 il sonra bizim iqtisadiyyatımızın, ÜDM-in 80 faizini özəl sektor təşkil edir. Azərbaycanda 15 il bundan əvvəl həmin rəqəm sıfıra bərabər idi. Hazırda bizim siyasi sistemimiz açıqdır və dünyadakı bütün müsbət təcrübə Azərbaycanda tətbiq edilir. Bütün bunlar gərgin əməyin nəticəsidir. Bunlar bizim güclü ölkə qurmaq arzumuzdan irəli gəlir.

Azərbaycanın çox zəngin tarixi, mədəniyyəti və ənənələri var. Lakin əsrlər boyu biz müstəqillikdən məhrum olmuşuq. Ona görə də indi, müstəqil olduqdan sonra biz güclü dövlət qurmalıyıq. Bütün insanlar üçün yaxşı həyat tərzini təmin etməliyik. Biz ədalətli cəmiyyət formalaşdırmalıyıq və orada bazar iqtisadiyyatı prinsipləri qətiyyətli sosial siyasətlə müşayiət olunmalıdır. Biz məhz bunu edirik. Enerji fəaliyyətindən əldə etdiyimiz vəsaitləri sosial sektora, təhsilin, səhiyyənin, informasiya texnologiyalarının inkişafı və digər sahələrə sərmayə kimi yatırmağa çalışırıq. Bütün bu sahələrə diqqət yetiririk və gələcək üçün çox yaxşı perspektivlərimiz var.

Azərbaycanın nəhəng neft və qaz ehtiyatları var və onlar ən azı, 100 il üçün kifayətdir. Ölkəmizdə bu yaxınlarda

aşkar olunmuş neft və qaz yataqlarında hasilat artıq başlanmışdır. Bu öz tələbatımızı ödəməyə, böyük həcmdə neft və qaz ixrac etməyə imkan yaradacaq ki, bu da dostlarımızın, tərəfdaşlarımızın enerji təhlükəsizliyinə töhfə verəcəkdir.

Mən artıq ikinci gündür ki, sizin gözəl ölkənizdəyəm. Dünən mənim prezidentlə çox səmərəli və konstruktiv danışıqlarım olubdur. Biz ikitərəfli münasibətlərimizin bütün aspektlərini əhatə etdik. Müxtəlif sahələri əks etdirən ondan çox sənəd imzalanmışdır. Bu gün Koreya–Azərbaycan biznes-forumu keçirilmişdir və o da çox uğurlu olmuşdur. Biz olduqca geniş sahələrdə işləyirik. Siyasi əlaqələr, iqtisadi əməkdaşlıq və təbii ki, Koreya şirkətləri ilə həyata keçirilməsini planlaşdırdığımız konkret layihələr gündəlikdədir. Biz Koreya şirkətlərinə açığıq və onları sərmayədar və podratçı kimi salamlayırıq. İndi artıq bir neçə konkret layihələr müzakirə olunur. Əminəm ki, çox qısa müddət ərzində müqavilələr imzalanacaqdır. Danışıqlar və müzakirələr mərhələsində olan layihələrin dəyəri 1 milyard dollardan yuxarıdır. Bu, yalnız başlanğıcdır, sadəcə, Koreya Respublikası prezidentinin ötən il may ayında Azərbaycana səfərindən sonra əldə olunubdur. Biz fəal siyasi və iqtisadi dialoqa başladıq, çox qısa müddət ərzində, yəni bir ildən az müddətdə prezidentlərin rəsmi səfərlərini həyata keçirdik. Cənubi Koreyanın Azərbaycandakı və Azərbaycanın Cənubi Koreyadakı səfirlikləri artıq fəaliyyət göstərir. Biz neft və qaz, enerji, informasiya texnologiyaları, nəqliyyat, tikinti, təhsil, səhiyyə sektoruna, həyatımızın hər bir aspektinə aid konkret layihələri müzakirə edirik. Əlbəttə ki, bu, münasibətlərimizin ciddiliyinin aydın göstəricisidir. Sizin ölkə ilə münasibətlərin inkişaf etdirilməsində çox maraqlıyıq. Biz güclü tərəfdaşlığın qurulmasını və bundan qarşılıqlı surətdə bəhrələnməyi arzulayırıq.

Qeyd etdiyim kimi, Azərbaycan sürətlə inkişaf edən ölkədir. İqtisadi artım çox sürətlidir. Siyasi vəziyyət çox sabitdir və proqnozlaşdırıla bilər. Bu həm də bizim uğur səbəblərimizdən

biridir, çünki xalq bizə etimad göstərir. Xarici şirkətlər ölkəmizdə özlərini rahat hiss edir. Onlar bilir ki, vəziyyəti proqnozlaşdırmaq olar və uzun illər, onilliklər ərzində Azərbaycanda işləyəcəklər. Hazırda biz neft əməliyyatlarından böyük maliyyə resurslarını formalaşdırırıq. Bir neçə infrastruktur layihəni həyata keçirməyi planlaşdırırıq. Cənubi Koreya şirkətlərini həmin layihələrdə iştirak etməyə və bizimlə işləməyə dəvət edirik.

Regiondakı ümumi vəziyyət regional təhlükəsizlik və sabitliklə bağlıdır. Bizim qonşularımız var və çalışmalıyıq ki, regional təhlükəsizliyə töhfə verək. Çünki təkcə öz ölkənin daxilində təhlükəsiz və proqnozlaşdırılan vəziyyətin olması kifayət deyildir. Eyni zamanda, qonşu ölkələrdə də sabitlik olması vacibdir.

Ən böyük problemimiz Azərbaycan torpaqlarının 20 faizinin Ermənistanın davam edən işğalı altında olmasıdır. On ildən çoxdur ki, həmin işğal davam edir. Ermənistan tərəfindən azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti nəticəsində 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən 4 qətnaməni qəbul edib, lakin onlar yerinə yetirilməyibdir. Bizim fikrimizcə, bu məsələnin yeganə həll yolu hüquqi formata əsaslanmalıdır. Bu baxımdan onu yalnız beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll edə bilərik. Bu o deməkdir ki, Azərbaycanın bütün beynəlxalq ictimaiyyət və BMT tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri torpaqlarımızdan dərhal çıxarılmalıdır və bizim qaçqın və köçkünlərimizə öz yurd-yuvalarına qayıtmaq imkanı verilməlidir. Dağlıq Qarabağın gələcəyi üçün biz müxtəlif ölkələrdə, Avropa ölkələrində mövcud olan muxtariyyət variantlarından istifadə edə bilərik. Bu, məsələnin yeganə həll yoludur. Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə heç

vaxt razılıq verməyəcəkdir. Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və həmin ərazi üzərində suverenliyimiz bərpa olunacaqdır. Bunu etmək üçün biz beynəlxalq vasitəçilərlə işləyirik. Biz danışıqlar prosesindəyik, lakin eyni zamanda, bu məsələni güclənməyimiz vasitəsilə həll etmək istəyirik.

Ona görə biz müasir infrastruktura çox sərmayələr qoyuruq. Öz iqtisadiyyatımızı, ordumuzu gücləndiririk və büdcəmizi artırırıq. Güclü olduğumuz təqdirdə istənilən məsələni həll edə, təcavüzün və ədalətsizliyin nəticələrini aradan qaldıra bilərik. Əfsuslar olsun ki, bəzən beynəlxalq ictimaiyyət bu həll edilməmiş məsələyə göz yumur. Bu məsələni özümüz həll etmək üçün biz güclü olmalıyıq. Bu bizim ölkəmizin üzləşdiyi əsas maneə və problemdir. Lakin əminəm ki, biz onu həll edəcəyik və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü bərpa edəcəyik. Beynəlxalq səviyyədə çox fəal işimizi davam etdirəcəyik. İqtisadi islahatlar siyasətini davam etdirəcək, tərəfdaşlarımız və dostlarımızla çox fəal işləyəcəyik. İnanıram ki, çox qısa müddət ərzində biz güclü Azərbaycan qurmağa nail olacağıq.

Mən bir daha Cənubi Koreyanın təcrübəsinə istinad etmək istəyirəm. Ölkəniz olduqca qısa müddət ərzində çox böyük uğurlar qazanmışdır. 1945-ci ildə müstəqillik əldə edildikdən sonra sizin çətin anlarınız olub və yalnız 60-cı illərdən etibarən iqtisadiyyatınızı sürətlə inkişaf etdirməyə başladınız. Tarixən çox qısa müddət ərzində siz bu gün dünyada aparıcı iqtisadiyyatlardan birini qurdunuz. Bu, yaxşı nümunədir və biz hər zaman müsbət nümunəni götürməyə çalışırıq. Ona görə də sizin təcrübənizi öyrənmək bizim üçün çox vacibdir.

Xalqlarımız da bir-birinə bağlıdır, çünki onların arasında bir çox oxşarlıqlar var. Hər ikimiz öz tariximizə çox sadiqik, zəngin mədəniyyətimiz var. Milli adət-ənənələrimizə çox diqqətliyik. Yaşlı nəslə böyük hörmətlə yanaşırıq. Hər iki xalq üçün ailə dəyərləri çox vacibdir. Ölkələrimiz diqqəti öz işlərinə yönəldir və digər ölkələrin daxili işlərinə qarışmır. Bütün bunlar

xalqlarımız arasında daha yaxşı anlaşmanı yaradan vacib elementlərdir. Bu, təbii ki, ikitərəfli münasibətlərin inkişafı üçün də vacibdir. İkitərəfli əlaqələr, sadəcə, prezidentlər, nazirlər və ya biznes adamları arasında təmaslarla kifayətlənmir. İnsanlar arasında əlaqələr də vacibdir. İnsanlar bir-birini daha yaxşı tanımağa başlayanda, əminəm ki, çox qısa müddət ərzində bizim tərəfdaşlığımız və əməkdaşlığımız çox geniş olacaqdır. Biz indi yalnız başlanğıc mərhələsindəyik. Bu gün biz əməkdaşlıq sahələrini müəyyən etdik. Ümumiyyətlə, ötən il və bu dəfə həyatımızın bütün aspektlərini əhatə edən 15 sənəd imzalamışıq və artıq praktik işlərə başlayırıq. Heç bir şübhə yoxdur ki, bu cür güclü qarşılıqlı marağın sayəsində biz qısa müddət ərzində inkişafın şahidi olacağıq və qarşılıqlı uğurları görəcəyik.

Göstərdiyiniz diqqətə görə mən bir daha minnətdarlığımı bildirmək istəyirəm. Universitetinizin bu yüksək, Fəxri doktoru adının verilməsinə görə təşəkkürümü bildirirəm. Əminəm ki, gələcəkdə ölkələrimiz və xalqlarımız arasındakı əlaqələr dövlətlərimizin rifahı naminə uğurla inkişaf edəcəkdir.

Çox sağ olun.

## Dünya Taekvondo Federasiyasının prezidenti, Kyunq He Universiteti Elmi Şurasının üzvü Çanq Von Çunun çıxışı

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri doktor İlham Heydər oğlu Əliyev!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İlk növbədə, mən prezident Əliyevə Kyunq He Universitetinin siyasi elmlər üzrə Fəxri doktoru adı verilməsi münasibətilə onu təbrik etmək istəyirəm. Onun qətiyyətli iqtisadi və siyasi rəhbərliyi altında Azərbaycan son illər ərzində bütün dünyada ən yüksək iqtisadi artım sürətinə nail olmuşdur. Azərbaycanın tərəqqisi naminə göstərdiyi böyük

səyləri yüksək dəyərləndirilərək, prezident Əliyev Kyunq He Universitetinin Fəxri doktoru adına layiq görülmüşdür.

Mən tərəddüd etmirəm ki, gələn illər ərzində biz prezident Əliyevin öz ölkəsinə daha böyük töhfələr verməsinin şahidi olacağıq. Prezident Əliyevi və onun nailiyyətlərini qısaca təqdim etməkdən şərəf hissi duyuram.

İlham Əliyev 1995-ci ildən etibarən ilk dəfə Azərbaycan Respublikasının parlamentinə, 2003-cü ilin oktyabr ayında isə ölkə prezidenti vəzifəsinə seçilmişdir.

Heydər Əliyevin müəyyən etdiyi strategiyanı həyata keçirərək Azərbaycanın sürətli iqtisadi inkişafını təmin etmişdir. Prezident Əliyev siyasi və iqtisadi fəaliyyətlə yanaşı, Azərbaycan idmanının inkişafına da böyük töhfə vermişdir. O 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir.

Mənim prezident Əliyevlə ilk görüşüm 2004-cü ildə Olimpiya oyunları ərəfəsində olmuşdur. Onunla keçirdiyim sonrakı görüşlərdə gördüm ki, o, taekvondonun inkişafını yüksək dərəcədə dəstəkləyir. İnanıram ki, prezident Əliyev taekvondonun Azərbaycanda və Xəzər dənizi regionunda daha da inkişaf etdirilməsini bundan sonra da dəstəkləyəcəkdir.

Bu cür möhtəşəm mərasim münasibətilə ümid edirəm ki, ölkəniz ilə Kyunq He Universiteti arasında daha sıx əlaqələr quracaq, Cənubi Koreya və Azərbaycan gələcəkdə iqtisadiyyat, idman, təhsil və mədəniyyət sahələrində əməkdaşlığı gücləndirəcəkdir.

Zati-aliləri prezident Əliyev, bizi sevindirən mərasim münasibətilə Sizi bir daha təbrik etmək istəyirəm və Azərbaycanı daha yüksək nailiyyətlərə doğru apardığınız yolda Sizə uğurlar arzulayıram.

Sağ olun.

## AZƏRBAYCAN–CƏNUBİ KOREYA BİZNES-FORUMUNDA NİTQ

*Seul*

*24 aprel 2007-ci il*

*Aprelin 24-də Seulda Azərbaycan və Cənubi Koreya iş adamlarının biznes-forumu keçirilmişdir. Azərbaycan prezidenti İlham Əliyev forumda iştirak etmişdir.*

*Biznes-forumda ölkəmizdən 40-dan çox, Cənubi Koreyadan isə 60-a yaxın iş adamı və aparıcı şirkətləri birləşdirən assosiasiyanın rəhbərləri iştirak etmişdir.*

*Forumun birinci hissəsində Azərbaycanın İqtisadi İnkişaf naziri Heydər Babayev və Cənubi Koreyanın Ticarət və Sənaye Palatasının prezidenti Kim San Yeol çıxış etdilər. Onlar ölkələrimiz arasında iqtisadi əlaqələrin uğurla inkişaf etməsini məmnunluqla vurğulayaraq, bir sıra layihələrin həyata keçirildiyini və nəzərdə tutulduğunu, qarşılıqlı ticarət dövriyyəsinin həcminin 115 milyon dollardan çox olduğunu xatırlatdılar. Bildirildi ki, forum çərçivəsində bir sıra razılaşmalar əldə olunmuş, anlaşma memorandumları da imzalanmışdır. Bu memorandumlar Cənubi Koreya tərəfindən Bakıda külək elektrik stansiyasının, gəmiqayırma zavodunun tikintisini nəzərdə tutur.*

*Nazirlər bildirdilər ki, biznes-forumun nəticələri hər iki tərəf üçün faydalı olmuşdur.*

### «İKA» Korporasiyasının İdarə Heyətinin sədri və icraçı prezidenti Hi Ban Binin çıxışı

Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyev!

Hörmətli qonaqlar!

Çıxışımı onunla başlamaq istəyirəm ki, bugünkü qonağımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi altında Azərbaycan olduqca

gözəçarpan iqtisadi artıma nail olmuşdur. Ümumi daxili məhsulun artımı 2005-ci ildə 26 faiz, 2006-cı ildə isə 35 faiz təşkil etmişdir. Ölkə sənayesinin əsas hissəsini neft və qaz sahələri təşkil edir. Hazırda qeyri-enerji sahələrində, xüsusən də nəqliyyat, tikinti sahələrində sürətli inkişaf müşahidə olunur. Azərbaycan öz potensialına əsaslanaraq, prezident Əliyevin siyasəti sayəsində həmin göstəricilərə görə, dünyada tutduğu öncül yeri bundan sonra da saxlayacaqdır.

Hörmətli qonaqlar, Azərbaycan ilə Cənubi Koreya eyni taleyi yaşamışdır. Hər iki ölkə yoxsulluq və təcavüzlə üzləşmələrinə baxmayaraq, dünyada olduqca sürətlə inkişaf edən iqtisadiyyat qurmuşdur. Eyni zamanda, ölkələrimizin fərəhlənməyə əsas verən sənayesi var. Cənubi Koreya informasiya texnologiyaları sahəsində əldə etdiyi nailiyyətləri ilə irəliyə doğru addım atmışdır və bu baxımdan ölkəmiz Azərbaycan üçün yaxşı nümunə ola bilər. Hazırda Azərbaycan özünün iqtisadi infrastrukturunun inkişafına, yəni yolların çəkilməsinə, limanların və elektrik stansiyalarının tikilməsinə xüsusi diqqət yetirir.

Bildiyiniz kimi, Cənubi Koreyanın özü müstəmləkə rejimindən əziyyət çəkmiş və buna baxmayaraq, azad və inkişaf etmiş ölkəyə çevrilmişdir. Ölkəmiz tikinti sahəsində böyük və müasir təcrübəyə malikdir. Misal üçün bizim şirkət Belizdə böyük inşaat layihəsini həyata keçirmişdir. Bunu nəzərə alaraq, biz Azərbaycanda infrastrukturun yaradılmasında da tərəfdaş ola bilərik.

Azərbaycan 2003–2012-ci illər üçün informasiya texnologiyaları sahəsində infrastrukturun yaradılmasına yönəlmiş milli layihələri həyata keçirir. Bu, Azərbaycan iqtisadiyyatının daha da şaxələndirilməsinə zəmin yaradacaqdır. Bildiyiniz kimi, Cənubi Koreya həmin sahədə rəqabətə olduqca davamlı texnologiyalara malikdir və biz öz bilik və bacarığımızı Azərbaycanla bölüşmək istəyirik.

Azərbaycanın zəngin neft və qaz yataqları var. Cənubi Koreya isə həmin enerji daşıyıcılarına ehtiyac duyur. Ölkəmiz nəinki böyük enerji idxalçısıdır, həm də təbii sərvətlərin

işlənilməsində böyük təcrübəyə malikdir. Bir sözlə, iki ölkə həmin sahədə əməkdaşlıq edə bilər.

1988-ci ilin Olimpiya oyunları və 2002-ci ildə futbol üzrə dünya çempionatı Cənubi Koreyada keçirilmişdir. Ümid edirik ki, Azərbaycanın 2016-cı ildə keçiriləcək Olimpiya oyunlarını qəbul edən ölkə kimi namizədliyi keçəcəkdir. Belə olarsa, yığma komandamız Xəzərin sahilində, gözəl Bakı şəhərində yarışlara qatılacaqdır. Təbii ki, biz Azərbaycanın namizədliyinin keçməsində ölkənizi dəstəkləyəcəyik.

Hörmətli qonaqlar, Cənubi Koreya və Azərbaycanın tarixində oxşarlıqlar çoxdur. Hər iki ölkə təcavüzlə üzləşmiş və daxildə böyük dəyişikliklər yaşamışdır. Lakin hər iki ölkə milli özünəməxsusluğunu və adət-ənənələrini qoruyub saxlaya bilmişdir. Hazırda Koreya Respublikası Şimal-Şərqi Asiyada ən mühüm ölkələrdən birinə çevrilir. Azərbaycan isə həmin mövqeyi Cənubi Qafqaz regionunda tutur. Həmin uyğunluğu və mədəni yaxınlığı nəzərə alsaq, gələcəkdə əməkdaşlığımız üçün geniş imkanlar açılır. Hər iki ölkə prezidentlərinin səfərləri, yəni Koreya Respublikasının Prezidenti cənab Ro Mu Hyunun 2006-cı ilin mayında Bakıya, indi isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Cənubi Koreyaya səfəri iqtisadi əməkdaşlıq üçün möhkəm bünövrə yaratmışdır. İndi növbə biznes dairələrinindir. Məhz onlar tərtib olunmuş planları reallığa çevirməlidirlər.

Hörmətli qonaqlar, Koreyada belə bir atalar sözü var: «Çətini başlamaqdır». Düzdür, iki ölkə arasında mövcud olan münasibətlərin tarixi qısadır, lakin iki ölkə başçısının və işgüzar dairələrin qarşılıqlı marağı onu göstərir ki, əməkdaşlıq bir çox formalarda aparıla bilər. Prezident Əliyevi Azərbaycandan gəlmiş 60-a yaxın iş adamı müşayiət edir. Biz ümid edirik ki, hazırkı səfər zamanı iki ölkənin biznes adamları bir-biri ilə dostluq və işgüzar münasibətlər qura bilərlər. Artıq onlar əməkdaşlıq etmək arzusunu bildirirlər.

Yekunda biz Cənubi Koreyaya səfər edən prezident Əliyevə və onun nümayəndə heyətinə bir daha öz minnətdarlığımızı bildirmək istəyirik. Mən öz badəmi prezident Əliyevin

şərəfinə, Azərbaycanın rifahı və iki ölkə arasında güclü iqtisadi əməkdaşlıq naminə qaldırıram. Prezident Əliyevin şərəfinə və ölkələrimizin rifahı naminə badə qaldırırıq.

Sağ olun.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyevin nitqi**

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün mənim ölkənizə rəsmi səfərimin ikinci günüdür. Dünən Koreya Respublikasının Prezidenti ilə olduqca səmərəli və konstruktiv müzakirələrimiz oldu. Nümayəndə heyətimizin üzvləri də öz həmkarları ilə görüşmüşlər. Əməkdaşlığımızın bütün sahələrini əhatə edən bir çox sənədlər imzalanmışdır. Bütün bunlar ölkələrimiz arasında tərəfdaşlığın qurulmasına və əlaqələrimizdə yeni mərhələnin başlanmasına hər iki tərəfin çox böyük marağının olmasından irəli gəlir.

Azərbaycan gənc müstəqil ölkədir. Müstəqilliyimizi cəmi 15 il bundan əvvəl qazanmışıq. Bir sistemdən digər sistemə keçid dövrü asan olmamışdır, lakin biz bütün əsas çətinliklərin aradan qaldırılmasına nail ola bildik. Bu gün isə Azərbaycan öz iqtisadiyyatını sürətlə inkişaf etdirən ölkədir. İqtisadi artım göstəricisinə görə, artıq üçüncü ildir ki, Azərbaycan dünyada birinci yeri tutur. Əminəm ki, gələn illər ərzində bu meyil davam edəcəkdir.

Hazırda biz öz infrastrukturumuzu təkmilləşdiririk və bazar prinsipinə əsaslanan müasir iqtisadiyyatın qurulması məqsədi ilə müxtəlif layihələr həyata keçiririk ki, ölkə əhalisinin həyat tərzi daha da yaxşılaşsın. Bu, artıq baş verir. Biz bunları xalqın gündəlik həyatında, artan iqtisadiyyatda və həyata keçirdiyimiz çoxmilyardlıq layihələrdə görürük.

Bu gün Azərbaycan ilə Cənubi Koreyanın biznes dairələri arasında görüş keçirilmişdir və əminəm ki, bunun çox mühüm və praktik nəticələri olacaqdır. Ötən il Koreya Respublikasının Prezidenti Azərbaycana səfər etdiyi zaman

biz müxtəlif sənədlər imzaladıq. Dünən isə biz bir daha imzalanma mərasimi keçirdik. Əminəm ki, bu sənədlər yaxın zamanlarda nəticə verəcəkdir. Biz bu gün həmin sazişlərin praktik nəticələrini görürük. Şirkətlərimiz əməkdaşlıq etməyə başlayır. Hökumət və nazirliklərin rəsmiləri qarşılıqlı səfərlər edirlər. Birgə əməkdaşlığın qurulması üçün olduqca böyük planlar var.

Koreya Respublikası çox qısa tarixi dövr ərzində güclü iqtisadiyyatı qurmağa nail oldu. Ölkəniz yoxsulluqdan rifaha doğru irəlilədi. Bu sizin bir neçə onilliklər bundan əvvəl çəkdiyiniz eyni əziyyətləri çəkən ölkələr üçün yaxşı nümunədir. Hazırda siz bizə lazım olan müasir texnologiyalara maliksiniz. Bizim isə təbii sərvətlərimiz var ki, sizin üçün cəlbedici ola bilər. Ona görə də həmin amillərin bir-biri ilə uzlaşması ikitərəfli münasibətlərimizin çox yaxşı elementidir. Bizim olduqca güclü siyasi əlaqələrimiz var. Bir-birimizi beynəlxalq təşkilatlar çərçivəsində dəstəkləyirik. Cənubi Koreya Hökuməti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında həllində ölkəmizi hər zaman dəstəkləyibdir.

Biz çox qısa müddət ərzində səfirliklərimizi açdıq və hazırda tərəfdaşlığımızın və əməkdaşlığımızın davam etdirilməsi üçün bütün əsaslar var. Biz Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinə, güclü qeyri-neft sektorunun formalaşmasına, informasiya texnologiyalarının, infrastrukturun və nəqliyyat yollarının inkişafına, təhsil sahəsinə diqqət yetiririk. Ümid edirik ki, əməkdaşlığımız çox səmərəli ola bilər.

Əlbəttə ki, enerji sektoru gələcək onilliklər ərzində Azərbaycan iqtisadiyyatının əsas hissəsini təşkil edəcəkdir. Həyata keçirdiyimiz çoxmilyardlıq layihələr Azərbaycanda iqtisadiyyatın ümumi inkişafına birmənalı şəkildə təkan verəcəkdir. Biz bu sektorda mühüm tarixi nailiyyət əldə etdik. Azərbaycanın neft və qazını Avropa və dünya bazarlarına çıxaran boru kəmərləri artıq mövcuddur. Gələcək illərdə biz

dünyada neft və qaz hasil edən ən mühüm ölkələrdən birinə çevriləcəyik.

Bütün bunlar ölkəmizdə tamamilə yeni vəziyyət yaradır. Biz bu inkişafın bəhrəsini görəcəyik, daha çox maliyyə vəsaitləri toplayacağıq. Həmin vəsaitləri ölkənin rifahı üçün istifadə etməyi planlaşdırırıq. Onları iqtisadiyyatın və infrastrukturun müasirləşdirilməsi, o cümlədən qabaqcıl texnologiyaların Azərbaycana gətirilməsi və nəhayət, güclü iqtisadiyyatın qurulması üçün istifadə edəcəyik. Bunu etməyi çox arzulayırıq. Cənubi Koreyada isə həmin mühüm xidmətləri göstərə biləcək və yaxşı nüfuza malik olan peşəkar şirkətləriniz var. Bəlkə hazırkı qarşılıqlı marağın da səbəbi məhz budur.

Şəxsən mən çox məmnunam ki, Cənubi Koreya şirkətləri Azərbaycanda biznesla məşğul olmaqda çox maraqlıdır. Onlar çox fəaldır. Biz Azərbaycanda nəqliyyat və yol hərəkəti sisteminin idarə edilməsi və tikinti sahəsində həyata keçiriləcək müxtəlif özəl və hökumət layihələri üzərində artıq işləyirik. Bir sözlə, bütün bunlar olduqca qısa müddət ərzində özünü büruzə vermiş əməkdaşlığın çox vacib meyarlarıdır. Mən bir daha bildirmək istəyirəm ki, müstəqillik qazandıqdan sonra bizim Cənubi Koreya ilə münasibətlərimiz inkişaf etmişdir. Lakin bu, ötən il Koreya Respublikası prezidentinin Azərbaycana səfərinə qədər belə fəal olmamışdır.

Hər halda, əməkdaşlığımız üçün yaxşı gündəlik mövcuddur. İmzalanmış sənədlər iqtisadi əməkdaşlığın bütün aspektlərini əhatə edir. Yaxşı tərəfdaşlıq iradəsi var. Adət-ənənələr və yaşlılara hörmətcil münasibət, mədəniyyət və tariximizin qorunması baxımından xalqlarımız arasında çox oxşarlıqlar mövcuddur. Bütün bunlar əməkdaşlığın çox vacib elementləridir. Təbii ki, biznes maraqları əsas yer tutur, lakin insanlar arasında ünsiyyət də vacibdir.

Azərbaycanın Cənubi Koreyada bu səviyyədə təqdim olunması tərəfdaşlığın yaxşı göstəricisidir. Əminəm və şübhə etmirəm ki, çox qısa müddət ərzində biz iqtisadi əməkdaşlığımızın praktik nəticələrini görəcəyik. Bunun üçün bi-

zim istəyimiz var. Diqqət mərkəzində olacaq prioritetləri artıq müəyyən etmişik. Bir neçə layihəyə başlamaqla, digər layihələr də irəli sürüləcəkdir. Ölkələrimiz bir-birinə daha yaxın olacaq və bizim hamımız bundan bəhrələnəcəyik.

Azərbaycanda olduqca əlverişli sərmayə mühiti var. Biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə regionda aparıcı ölkəyik. Bizim ölkədə xarici sərmayələrin qorunması üçün münasib sistem qurulubdur. Xarici şirkətlərlə işləməkdə artıq böyük təcrübə qazanmışıq. Misal üçün, enerji sektorunda dünyanın bütün əsas şirkətləri bizim tərəfdaşlarımızdır. Azərbaycanda biznesin aparılması faydalıdır, çünki vəziyyəti proqnozlaşdırmaq olar. Siyasi vəziyyət sabitdir. Hökumət yerli sahibkarlığa diqqətlə yanaşır və onu dəstəkləyir və xarici şirkətlərlə də əməkdaşlığa açıqdır. Ona görə hesab edirəm ki, bizimlə işləyəcək Cənubi Koreya şirkətləri peşman olmayacaqlar. Mən artıq qeyd etdim ki, çox yaxın vaxtlarda biz əməkdaşlığımızın praktik nəticələrini görəcəyik.

Çox şadam ki, bugünkü forumda biznes dairələrinin nümayəndələri müxtəlif təklifləri müzakirə edirlər. Eyni zamanda, bu gün Azərbaycanın iqtisadi inkişafı və müxtəlif sektorlardakı imkanları nümayiş etdirilmişdir. Əminəm ki, yaxın zamanlarda hazırkı görüşün yaxşı nəticələrini görəcəyik.

Mən bir daha demək istəyirəm ki, ölkələrimiz arasındakı münasibətlər bizim üçün çox vacibdir və burada özümüzü çox rahat hiss edirik. Koreya torpağına qədəm qoyduğumuz andan etibarən bizə göstərdiyiniz səmimi qonaqpərvərliyi duyduq. Biz də Koreya xalqına eyni hisslərlə yanaşırıq.

Mən əməkdaşlığımıza verdiyiniz töhfəyə görə bir daha sizə minnətdaram və hamınıza uğurlar və rifah arzulayır, bu badəni Koreya xalqının şərəfinə qaldırıram.

Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ PUSAN ŞƏHƏRİNDƏ

*24 aprel 2007-ci il*

*Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Seuldan Cənubi Koreya Respublikasının ikinci böyük şəhəri olan Pusana yola düşmüşdür.*

*Prezident İlham Əliyevi hava limanında Koreya Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

*Həmin gün dövlətimizin başçısı Pusan şəhərinin hava limanına gəldi.*

*Burada prezident İlham Əliyevi Pusan şəhərinin meri Hu Nam Çak və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar.*

*Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış iqamətgaha – «Vetbin Çoson» mehmanxanasına gəldi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 24-də Pusan şəhərinin meri Hu Nam Çak ilə görüşmüşdür.*

*Ali qonağı bir daha salamlayaraq, onun bu şəhərə gəlişini yüksək qiymətləndirən mer Hu Nam Çak Azərbaycan prezidentinin Koreya Respublikasına dövlət səfərinin xalqlarımızın, ölkələrimizin əməkdaşlığının, eləcə də iqtisadi əlaqələrin inkişafına xidmət etdiyini vurğuladı.*

*Göstərilən qonaqpərvərliyə görə təşəkkür edən prezident İlham Əliyev dövlət səfəri çərçivəsində bu şəhərlə tanış olmağın zəruriliyini bildirdi, iqtisadi cəhətdən inkişaf edən Pusanı Cənubi Koreya Respublikasının tərəqqisinin bir nümunəsi kimi qiymətləndirdi. Qarşılıqlı əməkdaşlığın həm şəhərlərarası, həm də iqtisadi əlaqələrin genişlənməsi üçün faydalı olduğunu qeyd etdi.*

## Yeni dəniz limanı ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Respublikasına dövlət səfərinin üçüncü günü, aprelin 24-də təxminən 3,7 milyon əhalisi olan Pusan şəhərinin yeni dəniz limanında olmuşdur.*

*Dövlətimizin başçısını Koreya Respublikasının Dəniz İşləri və Balıqçılıq Nazirliyinin Pusan yeni dəniz limanı üzrə rəhbəri Kvak İn Sup və limanın rəisi Sonq Mon Hun böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Koreyanın ikinci böyük şəhəri olan Pusanın dərin limanları, mülayim havası onun dünyanın üçüncü böyük liman şəhərinə çevrilməsinə imkan yaratmışdır. Bu bölgənin zəngin tarixi şəhərin turizm və incəsənətinin inkişafına da təkan vermişdir.*

*Pusan limanı Koreya yarımadasının şərqində yerləşir və Asiya qitəsi ilə Sakit okeanı birləşdirən qapıdır. Cənubi Koreyanın ümumi dənizlə ixrac yükləri daşınmasının 40 faizi, konteyner yüklərinin 85 faizi və milli dəniz məhsullarının daşınmasının 40 faizi bu limanın payına düşür.*

*Bildirildi ki, bu limanın tərkibində Şimal, Cənub, Qamçeon və Dadepo limanları vardır. Şimal və Cənub limanları hər gün 125, Qamçeon və Dadepo limanları isə 34 gəmi qəbul edir. Bütövlükdə limanın anbarlarında 110 min, açıq havada isə 456 min ton yük saxlamaq mümkündür. Limanın 70 min tonluq konteyner terminalları var. İllik yükdaşımalarının həcmi 91 milyon 40 min ton təşkil edir.*

*Azərbaycan prezidenti İlham Əliyev limanı gəzdi, yüklərin qəbulu və məntəqələrə göndərilməsi qaydaları ilə tanış oldu. Dövlətimizin başçısı Azərbaycanda da müasir limanların tikilməsinə ehtiyac olduğunu vurğuladı, böyük təcrübəyə malik Cənubi Koreya şirkətlərinin Bakıda yeni limanın tikintisində iştirak etməsindən məmnunluğunu bildirdi.*

## STX korporasiyasının gəmiqayırma şirkəti ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 24-də Pusan şəhərində STX korporasiyasının gəmiqayırma şirkətində olmuşdur. Dövlətimizin başçısını şirkətin sədri Kan Duk Su hörmətlə qarşıladı. O, şirkətin fəaliyyəti barədə məlumat verərək bildirdi ki, STX Cənubi Koreyanın böyük səhmdar şirkətlərindən biridir və dörd törəmə müəssisəsi vardır. Əsas fəaliyyət istiqamətləri gəmiqayırma və energetika biznesidir. 1962-ci ildə yaradılmış bu müəssisənin ümumilikdə 4600 işçisi vardır. Son 40 il ərzində STX-nin nəzdində fəaliyyət göstərən «Shipbuildinq» şirkəti 500-ə yaxın gəmi inşa etmişdir. Bu şirkət Cənubi Koreyanın gəmiqayırma sahəsində dünyada liderlərdən birinə çevrilməsində əsas rol oynamışdır.*

*Burada əsasən, konteynerlər və mayeləşdirilmiş qaz daşımaq üçün gəmilər inşa edilir. Şirkət gələcəkdə öz fəaliyyətini genişləndirərək, gəmi-bərələrin və avtomobil daşıyan gəmilərin inşasına başlamağı da planlaşdırır.*

*Prezident İlham Əliyev müəssisə ilə tanış oldu, ayrı-ayrı istehsal sahələrini gəzdi, yeni avadanlıq və texnologiyalar əsasında gəmilərin inşası prosesinə baxdı. Dövlətimizin başçısı ölkəmizin gəmiqayırma sahəsində STX korporasiyası ilə konkret əməkdaşlığının faydalı olacağını söylədi.*

*Xatırladaq ki, aprelin 24-də Seulda keçirilmiş Azərbaycan–Cənubi Koreya biznes-forumunda «Azərbaycan İnvestisiya Şirkəti» QSC və Koreyanın STX korporasiyası arasında imzalanmış anlaşma memorandumlarına əsasən, Azərbaycanda külək elektrik stansiyalarının tikintisi, Qaradağ rayonu ərazisində Xəzər gəmiqayırma zavodunun inşası və digər layihələrin həyata keçirilməsi nəzərdə tutulur.*

# PUSAN ŞƏHƏRİNİN MERİ HU NAM ÇAKIN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMI MEHRİBAN ƏLİYEVANIN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ ÇIXIŞ

*Pusan şəhəri*

*24 aprel 2007-ci il*

**Pusan şəhərinin meri Hu Nam Çakın çıxışı**

Hörmətli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Hörmətli Mehriban xanım Əliyeva!

Hörmətli qonaqlar!

İlk növbədə, icazə verin Pusan şəhərinin hakimiyyət orqanları adından Sizi səmimi-qəlbdən salamlayım.

Koreya Respublikasının Prezidenti ötən ilin may ayında Azərbaycana səfər etdikdən sonra ölkənizə olan marağımız daha da artmışdır. Sizin indiki səfəriniz isə xalqlarımız arasında dostluq münasibətlərinin, Xəzər dənizinin sahilində yerləşən gözəl ölkənizlə əlaqələrimizin möhkəmlənməsinə zəmin yaradacaqdır.

Biz bilirik ki, bu gün iqtisadi artım baxımından Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkəsidir. Cənubi Koreya xüsusilə, informasiya texnologiyalarının tətbiqi, yolların çəkilməsi, limanların tikintisi və sair sahələrdə həyata keçirilməsini nəzərdə tutduğunuz layihələrə maraq göstərir. Həmin layihələr Azərbaycanın gələcək iqtisadi rifahını əsaslı şəkildə şərtləndirəcəkdir. Mən Sizin müdrik rəhbərliyinizi və bu sahədəki qətiyyətinizi yüksək dəyərləndirirəm.

Gördüyünüz kimi, Pusan Cənubi Koreyanın ən inkişaf

etmiş şəhərlərindən biridir. Şəhərimizdə əsasən limanların tikintisi, gəmiqayırma, informasiya texnologiyaları sahəsində böyük və rəqabətqabiliyyətli şirkətlərimiz fəaliyyət göstərir. Bunlarla yanaşı, enerji yataqlarının işlənilməsi ilə məşğul olan şirkətlər də var və onlar Azərbaycanın təbii sərvətlərinin işlənilməsində iştirak edə bilər. Şəhərimizin yaxınlığında yerləşən və tanış olacağınız yeni dəniz limanlarını tikən şirkət bu sahədə ən yüksək texnologiyaları tətbiq edir. Təbii ki, Pusanda həyata keçirilən, tikintisi başa çatdırılan dəniz limanının layihəsi haqqında Sizə məlumat veriləcəkdir və Azərbaycanla yeni əməkdaşlığın yolları müəyyən ediləcəkdir.

Uzun əsrlər boyu nəqliyyat yollarının kəsişməsində yerləşən Pusan şəhəri hazırda Transasiya nəqliyyat dəhlizinin yaradılmasına böyük töhfə verir.

Bu baxımdan biz Azərbaycan ilə Pusan arasında sıx əməkdaşlıq və məsləhətləşmələr aparmaq fikrindəyik. Mühüm layihələri həyata keçirməklə biz ölkəniz vasitəsilə Avropaya çıxış əldə edə bilərik. Zati-aliləri, Pusan şəhərinə səfəriniz dostluğumuzun daha da inkişaf etdirilməsi, ikitərəfli əməkdaşlıq sahələrinin genişləndirilməsi üçün əlavə fürsət yaradacaqdır.

Mən prezident Əliyevi bir daha Pusan şəhərində salamlayıram və Sizə, eləcə də ölkənizə böyük uğurlar arzulayıram.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli cənab mer!

Hörmətli merin xanımı!

Hörmətli dostlar, xanımlar və cənablar!

Mənim ölkənizə səfərim başa çatır. Dünən və bu gün mən olduqca fəal görüşlər keçirdim və danışıqlar apardım, vacib tədbirlərdə iştirak etdim.

Bizim prezidentlə çox səmərəli danışıqlarımız oldu, bir çox sənədlər imzalanmışdır. Bu bizim güclü ikitərəfli əməkdaşlığımız üçün olduqca yaxşı başlanğıcdır. Ötən ilin may

ayında Koreya Respublikasının Prezidenti Azərbaycana səfər etdikdən sonra biz, bəlkə də təsəvvür etmirdik ki, münasibətlərimiz bu qədər sürətlə inkişaf etsin. Lakin hazırda biz olduqca möhkəm siyasi münasibətlərin şahidiyik. İqtisadi əməkdaşlığın genişləndirilməsinə çox ciddi maraq var. Eyni zamanda, özəl sektor səviyyəsində birgə layihələr üzrə işləmək arzusu var. Siyasi və hökumət səviyyəsində qəbul olunmuş qərarlardan asılı olmayaraq, əgər biznes dairələrinin birgə əməkdaşlığa maraqları olmasa, onda onları heç kim məcbur edə bilməz.

Bizim aramızda güclü siyasi münasibətlər var və hər iki prezidentin səfərləri bunun bariz nümunəsidir. Bir ildən az müddət ərzində Cənubi Koreyanın Azərbaycanda və Azərbaycanın Cənubi Koreyada səfirliyi açılmışdır və onlar hazırda fəaliyyət göstərir. Həmin müddət ərzində iki ölkə arasında rəsmi hökumət nümayəndə heyətlərinin qarşılıqlı səfərləri olmuşdur.

Konkret layihələrə dair bir çox anlaşma memorandumları imzalanmışdır. Onlar enerji, neft və qaz, nəqliyyat, tikinti və digər sahələri əhatə edir.

Eyni zamanda, biz bu gün Koreya–Azərbaycan biznes-forumunu keçirdik. Həmin tədbir zamanı iki tərəfin işgüzar dairələri bir yerə toplaşmış, birgə işləməyə marağını ifadə etmişlər. Şirkətlər arasında bir neçə saziş və müqavilələr imzalanmışdır. Siyasi, iqtisadi və biznes amillərinin bir-biri ilə uzlaşması gələcəkdə uğurlu əməkdaşlıq üçün yaxşı zəmindir.

Sabah Pusan şəhərində nümayəndə heyətimiz Azərbaycanda həyata keçirilməsini planlaşdırdığımız layihələrin burada artıq yerinə yetirildiyini görəcəkdir. Yəni, dəniz limanlarının tikintisi və gəmiqayırma sahələri nəzərdə tutulur. Bütün bunlar münasibətlərin ciddiliyini, işbirliyinin aparılmasına olan böyük marağı və yaxın vaxtlarda həyata keçirilməsinə başlaya biləcəyimiz konkret layihələrin mümkünlüyünü nümayiş etdirir.

Yekun olaraq demək istəyirəm ki, gözəl ölkənizə səfər etməkdən çox şadam. Seulda və burada – Pusanda biz olduqca səmimi qonaqpərvərliyi hiss etdik və ümidvarıq ki, sə-

mərəli əməkdaşlığımız möhkəmlənəcək və davam etdiriləcəkdir.

Çox sağ olun.

**H u N a m Ç a k:** Hörmətli Azərbaycan Respublikasının Prezidenti! Hörmətli birinci xanım!

Xanımlar və cənablar!

Şəhərimizin bütün sakinləri adından Sizi və nümayəndə heyətinizi bir daha səmimi-qəlbdən salamlayıram. Sizin Pusana səfəriniz bizim üçün böyük şərəfdir.

Azərbaycanın və Cənubi Koreyanın tarixində bir çox oxşar anlar olubdur. Hər iki xalq müstəqillik qazandıqdan sonra bütün maneələri qətiyyətlə aradan qaldırmağa qadir oldu. Ümid edirəm ki, diplomatik münasibətlərin 15-ci ildönümünə biz yeni nailiyyətlər əldə edəcəyik, dostluğumuzu gücləndirəcək və ikitərəfli əməkdaşlığımızı genişləndirəcəyik.

Ümid edirəm ki, qədim Odlar yurdu olan Azərbaycan və Cənubi Koreya birlikdə Asiyada və dünyada əmin-amanlığın təmin edilməsinə daha böyük töhfə verəcəklər. İndi isə mən ikitərəfli dostluq münasibətlərinin və ölkələrimizin inkişafı şərəfinə badə qaldırmaq istəyirəm.

* * *

*Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Koreya Respublikasına dövlət səfəri başa çatmışdır.*

*Azərbaycanın və Cənubi Koreyanın Dövlət bayraqları ilə bəzədilmiş Pusan hava limanında Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Koreya Respublikasının yüksək vəzifəli şəxsləri böyük hörmət və ehtiramla yola saldılar.*

*Prezident İlham Əliyev həmin gün Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

Hörmətli Vladimir Vladimiroviç!

Rusiya Federasiyasının birinci prezidenti Boris Nikolayeviç Yeltsinin vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Boris Nikolayeviç Yeltsin tarixə görkəmli dövlət xadimi, Rusiyada köklü demokratik dəyişikliklər epoxasının başlanğıcını qoymuş qətiyyətli və böyük siyasətçi kimi daxil olmuşdur. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında yeni dövlətlərarası münasibətlərin yaranması və inkişafı Boris Nikolayeviçin adı ilə bağlıdır.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, Boris Nikolayeviç Yeltsinin doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 aprel 2007-ci il*

## XANIM NAİNA YELTSİNAYA

Hörmətli Naina İosifovna!

Həyat yoldaşınız, Rusiya Federasiyasının birinci prezidenti Boris Nikolayeviç Yeltsinin qəflətən vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Görkəmli dövlət xadimi və siyasi xadim olan Boris Nikolayeviç Yeltsin parlaq tarixi şəxsiyyət, Rusiyanın həqiqi vətənpərvəri, güclü, qətiyyətli və cəsarətli insan kimi, xatirələrdə həmişəlik qalacaqdır.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizinlə birlikdə kədərlənirəm. Boris Nikolayeviçin bütün doğmalarına və yaxınlarına ən səmimi başsağlığımı yetirməyinizi xahiş edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 aprel 2007-ci il*

## RUMINİYANIN SABİQ PREZİDENTİ VƏ SOSİAL-DEMOKRAT PARTİYASININ FƏXRİ SƏDRİ İON İLİYESKU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 aprel 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Prezident sarayında Rumıniyanın sabiq prezidenti və Sosial-Demokrat Partiyasının Fəxri sədri İon İliyeskunu qəbul etmişdir.*

*Dövlətimizin başçısı İon İliyeskunun «Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında KİV-in rolu» mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün ölkəmizə səfər etməsindən məmnun olduğunu bildirdi.*

*Cənab İon İliyesku bu beynəlxalq konfransın Bakı şəhərində keçirilməsinin böyük əhəmiyyət kəsb etdiyini vurğuladı və tədbirə dəvət olunmasına görə minnətdarlığını söylədi.*

*Görüşdə Azərbaycan–Rumıniya münasibətlərinin uğurla inkişaf etdiyi bildirildi.*

## QEYDLƏR

**1. Şamaxı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1610 $km^2$, əhalisi 98,3 min nəfərdir.

Paytaxtı Şamaxı şəhəridir. Şamaxı Azərbaycanın qədim şəhərlərindəndir. Şamaxı haqqında antik dövr, ərəb,fars, türk, həmçinin rus və orta əsr Avropa müəllifləri məlumat vermişlər. Şamaxının adı ilk dəfə yunan coğrafiyaşünası Ptolemeyin (II əsr) «Coğrafi təlimnamə» əsərində «Şamaxeya» və ya «Kemaxeya» kimi çəkilir. Şamaxının salındığı tarix dəqiq məlum deyil. – 5–12,24,29.

**2. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni mək-

təb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Mehriban Əliyeva Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 5,25,40,44,76,135,173–174,177,277,278,293,299,300,322,325.

**3. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil

dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş

oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu Fəxri adlara layiq görülmüşdür. –5,6,16,22,23,25,27,28,30,40,49–52,55,62, 67,69,77,82,84,97,115,117,143,145,158,173,174,186–188,194,201, 202,213–220,226,242,305.

**4. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (**ARDNŞ**) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi,

nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 5,6,35,115, 240,255,291.

**5. Rövnəq Abdullayev,** Rövnəq İbrahim oğlu (1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir.

Rövnəq Abdullayev Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. – 5.

**6. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km$^2$, əhalisi 218 min nəfərdir. – 6,35,203,206.

**7. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 0,013 min km$^2$, əhalisi 89,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 6,25.

**8. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri

2006-cı ildə istifadəyə verilmişdir. – 7,16,22,30,33,59,70,138, 173,176,239,243,244,255,271.

**9. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,14 milyon $km^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 11,26,52, 56,71,155,157,189,244,268,273.

**10. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min $km^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 11,52.

**11. Tayvan** – Cənub-Şərqi Çində ərazi. Sahəsi 36 min $km^2$, əhalisi 21 milyon nəfərdir. İnzibati ərazisi 16 qraflığa (qəzaya), 7 şəhər munisipalitetinə bölünür. Tayvanın başçısı prezident, nümayəndələr orqanı – Nümayəndələr Məclisi və Qanunverici Yuandır (Şura). Paytaxtı Taybeydir. – 11.

**12. İtaliya,** İtaliya Respublikası – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min $km^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 11,52,221.

**13. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 12,25,40,173–174.

**14. Gəncə** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisi 324,7 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 13,100.

**15. Oğuz** – Azərbaycan Respublikasında inzibati rayon. Şəki rayonunun ərazisi 1963–65-ci illərdə Oğuz rayonunun tərkibində olmuşdur. Şimalda Dağıstanla həmsərhəddir. Sahəsi 1077 km$^2$, əhalisi 42,1 min nəfərdir. – 13–24.

**16. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 13,26,52,56,76.

**17. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 13,33,49,51, 54,55–83,195,196,202,223,240,242,244,256

**18. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur messenat, maarifpərvər Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz Səhmdar Cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 15, 221,257.

**19. «Aqrolizinq»** – 2004-cü ildə təsis edilmişdir. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxildir. Təşkilatın ölkənin 55 rayonunda xidmət məntəqələri vardır. – 17.

**20. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 329,3 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini

elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 18.

**21. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə etməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 20,242,254,266.

**22. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 22.

**23. Oqtay Şirəliyev,** O q t a y K a z ı m o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 24.

**24. Moskva** – Rusiya Federasiyasının paytaxtı. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 25,97,146–151,173,228.

**25. Qəbələ** (1930–91-ci illərdə Q u t q a ş e n) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1548 km$^2$, əhalisi 100 min nəfərdir. – 25–47.

**26. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şet-

lend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 26,227.

**27. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 26,43, 44,193,244.

**28. Rusiya,** Rusiya Federasiyası – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17.075.4 km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. –43,45,48,56,71,76,99,134,146–151,183,194,226,228–232,244, 268.

**29. İngiltərə,** bax: Böyük Britaniya

**30. Dövlət İnvestisiya Şirkəti** (AİŞ) – Açıq Səhmdar Cəmiyyəti. 2006-cı ildə yaradılmışdır. AİŞ-nin məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etmək və öz vəsaiti hesabına müddətli investisiya qoymaq vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyrineft sektorunun inkişaf etdirilməsidir. – 31,32, 246, 251.

**31. Yevlax** – Azərbaycan Respublikasında inzibati rayon. 1935-ci ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Ağdaş, Bərdə, Goranboy rayonlarına verilmiş, 1965-ci ildə ye-

nidən müstəqil rayon olmuşdur. Sahəsi 1555 km$^2$, əhalisi 123,5 min nəfərdir. – 37.

**32. Samux** – Azərbaycan Respublikasında inzibati rayon. 1990-cı ildə yaradılmışdır. Sahəsi 455 km$^2$, əhalisi 56,3 min nəfərdir. – 37.

**33. Zərifə xanım,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 38,40,55,162.

**34. Fəttah Heydərov,** F ə t t a h S ə m ə d o ğ l u (d.1938) – 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı və Respublika Ağsaqqallar Şurasının sədridir. – 41.

**35. Andrey Fursenko** (d.1949) – Rusiya dövlət xadimi. 2004–2012-ci illərdə Rusiya Federasiyası Təhsil və Elm na-

ziri, 2013-cü ildən Rusiya Elm Fondu Qəyyumluq Şurasının sədri təyin edilmişdir. – 48.

**36. Əbülfəs Qarayev,** Ə b ü l f ə s  M ü r s ə l  o ğ l u (d.1956) – fəlsəfə doktoru. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və Olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 49–52,105.

**37. Qəmər Almaszadə,** Q ə m ə r  H a c a ğ a  q ı z ı (1915–2006) – Azərbaycan balet artisti, baletmeyster və pedaqoq, ilk azərbaycanlı balerina. Azərbaycan və SSRİ Xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan balet məktəbinin yaradıcılarından olan Almaszadənin sənətkarlığı klassik xoreoqrafiya ənənələri ilə xalq rəqs yaradıcılığı xüsusiyyətlərinin vəhdətinə əsaslanmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 53.

**38. İlkər Başbuğ** (d.1943) – ordu generalı. 2008–2010-cu illərdə Türkiyə Silahlı Qüvvələrinin Baş qərargah rəisi olmuşdur. – 54.

**39. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə Cümhuriyyətinin prezidenti olmuşdur. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmış, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 54.

**40. 155. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 15,6 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı iki-

palatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam. – 56,76,235.

**41. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə–Kipr administrasiyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk Respublikası (ŞKTR) – Kıbrısı elan etdi. – 56,66,74–76,77–83.

**42. Nazim İbrahimov,** N a z i m  H ü s e y n  o ğ l u (d.1963) – mühəndis mexanik. 2000–2005-ci illərdə Milli Məclisin deputatı. 1997–99-cu illərdə Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli səfiri, 2002-ci ildən isə Azərbaycan Respublikası Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədridir. – 56,71.

**43. Bakı–Tbilisi–Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 420 mm, uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 59,70, 138,171,176,239,243,244.

**44. «Şahdəniz»** –Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 59,70,170,239,240.

**45. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun ti-

kintisinə 2007-ci ildə başlanılmışdır. Yolun Gürcüstanın Axalkalaki stansiyasından Türkiyənin Qars şəhərinə qədər olacaq hissəsinin uzunluğu 105 km-dir. Yolun çəkilişi cari ildə başa çatmalıdır. – 59,70,101,138,176,242,244,256,267.

**46. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 64,70,73,103,123,158,168,176,178, 244,245,283,287,296,308.

**47. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 64,69,72,158.

**48. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin prezidenti seçilmişdir. – 56,66–71,74–76,77–83,195.

**49. Mehmet Əli Tələt** (d.1952) – türk dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti olmuşdur. – 56,66,74–76,77–83.

**50. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 59,84,99,191,240,242,256.

**51. Zəngəzur mahalı,** Zəngəzur qəzası – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 64,158.

**52. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 64,102,111,181–182,244,296,308.

**53. Nuru paşa** (1889–1949) – Qafqaz İslam Ordusunun komandanı, Osmanlı ordusunun general-leytenantı. Nuru paşanın hərbi xidmətinin ən mühüm dövrü Qafqaz İslam Ordusunun fəaliyyəti ilə bağlıdır. Azərbaycanda bolşevik daşnak rejiminin türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırımı dayandırmaq üçün milli azadlıq hərəkatının Osmanlı dövlətinə müraciətindən sonra Qafqaz İslam Ordusu yaradılması qərara alındı. Azərbaycana göndəriləcək hərbə rəhbərlik Nuru paşaya tapşırıldı. Nuru paşa türk və Azərbaycan hərbi hissələrindən təşkil edilmiş Qafqaz İslam Ordusunun olmaqla bərabər,

Azərbaycan hökumətinin qərarı əsasında milli hərbi hissələrin formalaşdırılmasına rəhbərliyi də öz üzərinə götürdü.

Bakının azad olunması (1918) üçün keçirilən həlledici hücumun planı Nuru paşa tərəfindən hazırlanmışdı. Şəhərin azad edilməsindən sonra Cümhuriyyət hökumətinin başçısı Fətəli xan Xoyski öz minnətdarlığını və təbrikini Nuru paşaya bildirdi. – 68.

**54. Qafqaz İslam Ordusu** (QİO) – Azərbaycanın istiqlalı elan olunduqdan (1918, 28 may) sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hərbi yardım üçün rəsmi olaraq Osmanlı dövlətinə müraciət etdi. 1918-ci ildə Batumda iki dövlət arasında bağlanan müqavilənin (Batum müqaviləsi – 1918) şərtlərinə uyğun olaraq, Mürsəl paşanın komandanlığı altında Beşinci Qafqaz firqəsi Azərbaycana göndərildi. Bu firqəyə rəhbərlik Nuru paşaya həvalə edildi. QİO turk və Azərbaycan hərbi qüvvələri Gəncə ermənilərini tərksilah edib, Qaraməryəm, Kürdəmir, Şamaxı, Binəqədi döyüşlərində bolşevik-daşnak qüvvələrinə ağır zərbələr endirərək, bütün cəbhə boyu geri çəkilməyə məcbur etdilər. Bu əməliyyat Azərbaycan dövlətinin paytaxtı Bakının azad edilməsi ilə nəticələndi. Qafqaz İslam Ordusunun ən uğurlu əməliyyatlarından biri Qarabağı erməni-daşnak quldurlarından, Cümhuriyyətin şimalını isə biçeraxovçu rus müdafiəçilərindən azad etməsi idi. Birinci dünya müharibəsində (1914–18) Osmanlı dövlətinin məğlub olması nəticəsində (Mudros barışığı, 1918) QİO ləğv olundu və türk hərbi hissələri geri çağırıldı. – 68.

**55. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM)

yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 68,77.

**56. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır. –

Sonralar Avropa İttifaqına bir çox dövlətlər daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. –72,165,167,168,169,171,176,178,241, 242,243,268.

**57. İraq,** İ r a q R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 22,4 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 70.

**58. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət

başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 85.

**59. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuş, 1999-2015-ci ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 85.

**60. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min $km^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 86.

**61. Karlos Papulias** (d.1929) – yunan siyasətçisi, 2005-ci ildən Yunanıstanın prezidentidir. – 86.

**62. İndoneziya,** İndoneziya Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min $km^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 87.

**63. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004-cü ildən İndoneziyanın prezidentidir. – 87.

**64. İrlandiya,** İrlandiya Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min $km^2$, əhalisi 3,6 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublindir. – 88.

**65. Meri Makalis** (d.1951) – İrlandiya siyasi xadimi. 1997-ci ildən İrlandiya prezidenti. 2004-cü ildə yenidən opponentlərsiz prezident seçilmişdir. Meri Makalis İrlandiyanın birləşdirilməsinin ən böyük tərəfdarıdır. – 88.

**66. Tunis,** T u n i s R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 164,2 min km², əhalisi 9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 89.

**67. Zeynulabidin ben Əli** (d.1936) – Tunis hərbi və dövlət xadimi, general. 1987–2011-ci illərdə Tunis prezidenti olmuşdur. –89.

**68. Namibiya,** N a m i b i y a R e s p u b l i k a s ı – Cənub-Qərbi Afrikada dövlət. Sahəsi 824,3 min km², əhalisi 1,7 milyon nəfərdir. İnzibati ərazisi 13 regiona bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Vindhuk şəhəridir. – 90.

**69. Hifikepun Pohamba** (d.1935) – Namibiya siyasi xadimi. 2005-ci ildən Namibiyanın prezidentidir. – 90.

**70. Seneqal,** S e n e q a l R e s p u b l i k a s ı – Cənubi Afrikada dövlət. Sahəsi 196,2 min km², əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Dakardır. – 91,154.

**71. Abdulay Vad** (d.1926) – 2000-ci ildən Seneqal prezidenti. Abdulay Vad Afrika Birləşmiş Ştatları yaratmaq ideyasının tərəfdarıdır. – 91,154.

**72. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km², əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı

prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 92,152.

**73. Ənvər Bariyev,** Ə n v ə r   R z a   o ğ l u (d.1964, Azərbaycan SSR) – Pedaqoji elmlər namizədi, dosent, general-leytenant. 2005–2011-ci illərdə Belarus Respublikasının Fövqəladə Hallar naziri və Belarus Təhlükəsizlik Şurasının üzvü olmuşdur. – 92.

**74. NATO** (*Şimali Atlantika Müqaviləsi Təşkilatı*) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. –93,167,178.

**75. Robert Simmons** – NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi. – 93.

**76. Yaap de Hoop Sxeffer** (d.1948) – Niderland siyasi xadimi. – 93.

**77. Tacikistan,** T a c i k i s t a n   R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 94–124.

**78. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 94,124,143,146,161.

**79. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 94,124,143,146,325.

**80. Hacıbala Abutalıbov,** H a c ı b a l a  İ b r a h i m  o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 94,124,146,162,163,325.

**81. İmoməli Rəhmon,** İ m o m ə l i  Ş ə r i f  o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. Həmin ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 94–106,108–121.

**82. Mahmadsaid Ubaydulloyev** (d.1952) – Tacikistan dövlət xadimi, siyasi elmlər namizədi. 2007–2009-cu illərdə Oli Tacikistan Respublikası Milli Məclisinin sədri olmuşdur. Hazırda Tacikistan Respublikasının paytaxtı Düşənbənin meridir. – 94,122.

**83. Akil Akilov** (d.1944) – Tacikistan dövlət xadimi. 1999–2013-cü illərdə Tacikistan Respublikasının Baş naziri olmuşdur. – 94,107.

**84. Xamroxon Zaripov** (d.1948) – Tacikistan dövlət xadimi, 2006–2013-cü illərdə Tacikistan Xarici İşlər naziri, Tacikistan Təhlükəsizlik Şurasının daimi üzvü olmuşdur. – 94,104.

**85. Düşənbə –** Tacikistanın paytaxtı (1929–1961-ci illərdə Stalinabad). Ölkənin elmi-mədəni və sənaye mərkəzidir. Əhalisi 524 min nəfərdir. – 96–124.

**86. Samanilər dövləti** – Orta Asiyada feodal dövləti (875–899). Paytaxtı Buxara idi. Samanilər dövlətinin yaranması Ərəb xilafətinin dağılması, Mavəraünnəhr və Xorasanda hakimiyyəti ələ almaları ilə nəticələndi. X əsrin 1-ci yarısında Mavəraünnəhr, Xorasan, Şimali və Şərqi İran, Xarəzm, Sistan, Qorqan, Rəşt, Qəznə, Təbəristan və s. yerlər Samanilər dövlətinin vassalı idi. X əsrin sonlarına yaxın ölkədə baş verən feodal dağınıqlığı Samanilər dövlətini zəiflətdi. Samanilər dövləti süqut etdi və Orta Asiyada hakimiyyət Qaraxanilərin əlinə keçdi. – 95.

**87. Rudəki Əbu Əbdullah** (bəzi mənbələrdə Əbu-l-Həsən) C ə f ə r b i n M ə h ə m m ə d (təqribən 860–941) – tacik və fars şairi. Farsdilli poeziyanın banisi sayılır. Samani şahlarından Nəsr bin Əhmədin sarayında «məlik üş-şüəra» olmuşdur. Farsdilli poeziyada Xorasan üslubunun yaradıcılarından olmuşdur. – 97.

**88. İbn Sina,** Ə b u Ə l i H ü s e y n i b n A b d u l l a h (980–1037) – alim, filosof, həkim, Şərq aristotelizminin nümayəndəsi. «Tibb elminin qanunu» əsəri bir çox əsrlər boyu Şərqdə və Avropada tibb üzrə əsas dərslik olmuşdur. – 97.

**89. Sədi,** M ü s l i h ə d d i n ə b i M ə h ə m m ə d Ə b-d ü l l a h i b n M ü ş r i f ə d d i n (1203–10-cu illər arasında – 1292) – böyük fars şairi, mütəfəkkir. Sədiyə didaktik və mütəfəkkir şair kimi, «Büstan» və «Gülüstan» əsərləri şöhrət qazandırmışdır. Sədi klassik fars ədəbi - bədii nəsrinin əsasını qoymuşdur. – 97.

**90. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 97,100,108.

**91. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 99,268.

**92. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qoru-

maq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 101,102,115,308.

**93. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 101,102,115,155.

**94. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatıdır. – 101,244, 268.

**95. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 101,103,115.

**96. Heydər Babayev,** H e y d ə r  A y d ı n  o ğ l u (d.1957) – iqtisadçı. 1999–2005-ci illərdə Azərbaycan Respublikası Prezidenti Yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, 2005-ci ilin oktyabrından 2008-ci ilə qədər Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri olmuşdur. – 104,280.

**97. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix üzrə fəlsəfə doktoru, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində beynəlxalq təşkilatlar idarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliya-

da Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 104,161.

**98. Ziya Məmmədov,** Z i y a A r z u m a n o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolu rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 105,127–131,280.

**99. Aydın Əliyev,** A y d ı n Ə l i o ğ l u (d.1957)– hüquqşünas, gömrük xidməti general-leytenantı. 2006-cı ildən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri. – 105.

**100. Cahangir Əsgərov,** C a h a n g i r C ə l a l o ğ l u (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. –106.

**101. «MİR»** – dövlətlərarası teleradio şirkəti. 1993-cü ildə MDB dövlət başçılarının qərarı ilə yaradılmışdır. Əsasən tamaşaçılara və dinləyicilərə MDB ölkələri və xalqları haqqında ətraflı məlumat verir. – 112.

**102. «Space»** – Azərbaycanda müstəqil teleşirkət. 1997-ci ildə yaradılmışdır. Dünyanın bir sıra – MSM, Fashion TV, CNN, NTV telekanalları, İhlas agentliyi ilə əməkdaşlıq edir. – 113.

**103. ANS televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 115.

**104. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2.724,9 km$^2$, əhalisi 16,7 milyon nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət baş-

çısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 118,190,192,193,256,275.

**105. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazanandan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir. – 125–126,135–143.

**106. Ramil Usubov,** R a m i l İ d r i s o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 132–133.

**107. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 134,146–151,326.

**108. Krasnodar diyarı** – Rusiya Federasiyasında subyekt. Sahəsi 83,6 min $km^2$, əhalisi 5,1 milyon nəfərdir. – 134.

**109. İçərişəhər –** Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində iki mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları çəkilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdi. İçərişəhərin üç əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdi. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 135,142.

**110. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. – 143.

**111. Rostropoviç Mstislav** (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violonçelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ Xalq artisti. Bakı Musiqi Akademiyasının Fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif olunmuşdur. –144–145, 146–151.

**112. Berlin divarı** – Şərqi Berlindən Qərbi Berlinə külli miqdarda gedən əhalinin qarşısını almaq üçün 1961-ci ildə Almaniya Demokratik Respublikası Hökuməti və Almaniya

Vahid Sosialist Partiyasının rəhbərliyi ilə Qərbi Berlin ətrafında betondan və tikanlı məftillər və gözətçi postları ilə tikilmiş divar. 1990-cı ildə divar söküldü və Berlin Almaniyanın paytaxtı elan edildi. – 144.

**113. Dmitri Şostakoviç** (1906–1975) – böyük rus bəstəkarı, sənətşünaslıq elmləri doktoru – XX əsr dünya müsiqi sənətinin klassiki. Şostakoviçin yaradıcılığında simfonik musiqi başlıca yer tutur. Ən kamil əsərlərindən sayılan 7,11,12, 14,15-ci simfoniyalarında həyat və ölüm mövzusu böyük emosionallıqla ifadə olunmuşdur. Bir çox dünya ölkələrinin milli, elm, incəsənət akademiyalarının Fəxri üzvü olmuşdur. – 145.

**114. Monako,** M o n a k o   K n y a z l ı ğ ı – Cənubi Avropada, Aralıq dənizi sahilində dövlət. Sahəsi 1,95 km$^2$, əhalisi 32,1 min nəfərdir. İnzibati cəhətdən 3 mahal – şəhərdən ibarətdir. Monako Knyazlığı konstitusiyalı irsi monarxiyadır. Dövlət başçısı knyazdır. Qanunverici hakimiyyət knyaza və Milli Şuraya (parlamentə) məxsusdur. Paytaxtı Monako şəhəridir. – 146.

**115. II Albert** (d.1958) – Monako şahzadəsi, 2005-ci ildə knyaz III Renye xəstələndikdən sonra (mart) atasının bütün səlahiyyətlərini icra etmiş, vəfatından sonra isə Monakonun hakim knyazı olmuşdur. – 146.

**116. Sergey Sidorski** (d.1954) – Belarus dövlət xadimi. 2003–2010-cu illərdə Belarusda Baş nazir olmuşdur. – 152.

**117. Aleksandr Lukaşenko** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 152.

**118. Sergey Mironov** (d.1953) – Rusiya dövlət xadimi, mühəndis-geofizik. 1994–2001-ci illərdə Sankt-Peterburq Qanunverici məclisinin üzvü, 2001-ci ildə Rusiya Federa-

siyası Federal Şurasının üzvü, 2001–2011-ci illərdə Federal Şurasının sədri olmuşdur. – 153.

**119. Culi Finli** (d.1938) – Amerika diplomatı, 2005–2008-ci illərdə ATƏT-də ABŞ-ın səfiri olmuşdur. – 155.

**120. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 156.

**121. Kurmanbek Bakiyev** (d.1949) – Qırğızıstan siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. – 156.

**122. «Bechtel Corporation»** – ABŞ-da çox böyük tikinti şirkəti. Bu şirkət 9 böyük özəl şirkətlərdən biridir. Mənzil-qərargahı San-Fransiskodadır. Əsası 1898-ci ildə qoyulmuşdur.

Kompaniya keçən əsrin 30-cu illərindən başlayaraq Kolorado çayı üzərində dünyada ən uzun Quver səddinin, Avropada nəhəng tunellərin, elektrik enerjisi sahəsindəki tikintilərin, neftayırma zavodlarının və atom elektrik stansiyalarının, San-Fransisko şəhərətrafı metropolitenin Səudiyyə Ərəbistanında sənaye şəhəri əl-Cubaylın və Kral mərkəzinin, Honkonqda beynəlxalq aeroportun tikintisində, İraqda müharibədən sonra vətəndaş infrastrukturun bərpasında iştirak etmişdir. «Bechtel»in 50 ölkədə olan obyektlərində 40000 adam işləyir. 2006-cı ildə gəliri 20 milyard dollar olmuşdur. –157.

**123. Çarlz Redman** (d.1943) – sabiq Amerika diplomatı. 1996-cı ildən «Bechtel» korporasiyasının baş vitse-prezi-

denti, Avropa, Afrika, Yaxın Şərq, Cənub-Qərbi Asiya regionları üzrə prezidentidir. – 157.

**124. 31 mart azərbaycanlıların soyqırımı,** 1905–18-ci illər soyqırımı – çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi genişmiqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi. Yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, bədnam «azərbaycanlılarsız Ermənistan» kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. – 158–160.

**125. Osmanlı imperiyası,** Osmanlı imperatorluğu – Sultan Türkiyəsinin rəsmi adı (Osmanlı sülaləsinin əsasını qoymuş I Osmanın adındandır). XV əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başlamış, XV–XVI əsrlərdə bəzi Asiya, Avropa və Afrika ölkələrini fəth edib dünyanın ən böyük dövlətlərindən biri olmuşdur. 1918-ci ildə Birinci dünya müharibəsindəki məğlubiyyətdən sonra tamamilə dağıldı, 1922-ci ildə Türkiyə sultanlığına da son qoyuldu. – 158.

**126. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 158.

**127. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 161–179,202.

**128. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşa Respublikasının prezidenti. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 161–179.

**129. Xələf Xələfov,** X ə l ə f  A l ı  o ğ l u (d.1959) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. Moskvada ikiillik Ali Diplomatiya Akademiyasını bitirmişdir. 1997-ci ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. – 162.

**130. Şəhidlər xiyabanı –** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda, Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 162–163,184–185.

**131. Varşava gettosu,** bax: Varşava üsyanı.

**132. Varşava üsyanı** (1943) **–** Varşava gettosunda əsirlərin alman-faşist işğalçılarına qarşı silahlı üsyanı. Aprelin 19-da başlanmışdı. Üsyanı yəhudi döyüş təşkilatı hazırlamışdı.

Üsyançıların qəhrəmancasına müqavimətinə baxmayaraq, üsyan iyulun əvvəllərində yatırıldı, hitlerçilər 7 min adamı öldürdülər, 6 min adam isə yanğınlar zamanı tələf oldu. Faşist-

lər gettonun sağ qalan üzvlərini Treblinkadakı ölüm düşərgəsinə göndərdilər. –177,258.

**133. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dost ölkələr dairəsi» yaratmaga, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 168.

**134. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr– 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında

dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 175.

**135. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 178.

**136. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus Dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman-alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın fəlsəfə doktoru fəaliyyət göstərir, üç min tələbə təhsil alır. – 179.

**137. Mavritaniya,** Mavritaniya İslam Respublikası – Cənub-Qərbi Afrikada dövlət. Sahəsi 1031 min km$^2$, əhalisi 2,3 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşotdur. – 180.

**138. Sidi Məhəmməd Uld** (d.1938) – Mavritaniya dövlət xadimi. 2007–2008-ci illərdə Mavritaniyanın prezidenti olmuşdur. – 180.

**139. Valter Kalin** (d. 1951) – İsveçrə hüquqşünası, professor. 2004-cü ildə BMT-də Baş katibin məcburi köçkünlərin hüquqlarının müdafiəsi üzrə nümayəndəsi, 2010-cu ildən 1913-cü ilə qədər Cenevrədə İnsan haqlarının müdafiəsi üzrə Beynəlxalq Xidmət İdarəsinin Direktorlar Şurasının üzvü olmuşdur. – 181–182.

**140. Fərman Salmanov,** Salmanov Fərman Qurban oğlu (1928–2008) – mühəndis-geoloq. Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. Qərbi Sibirdə onun bilavasitə rəhbərliyi ilə ən iri neft və qaz yataqları kəşf edilmişdir. – 183.

**141. ABŞ Konqresi,** Amerika Birləşmiş Ştatları Konqresi – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 189.

**142. Pit Hoekstra** (d.1953) – hollandiyalı amerikan siyasətçisi. ABŞ Nümayəndələr palatasinin sabiq üzvü 1993–2011-ci illərdə Konqresdə Respublikaçılar Partiyasından senator olmuşdur. – 189.

**143. Karim Masimov** (d.1965) – Qazaxıstan dövlət xadimi, iki dəfə Qazaxıstan Respublikasının Baş naziri (2007–2012, 2014-cü illər); 2012–2014-cü illərdə isə Qazaxıstan Respublikası Prezident Administrasiyasının rəhbəri olmuşdur. – 190,192.

**144. Nursultan Nazarbayev,** N u r s u l t a n  A b i ş  o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-nin prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 190.

**145. Zurab Noğaideli** – Gürcüstan siyasi xadimi. 2005–2007-ci illərdə Gürcüstan Respublikasının Baş naziri olmuşdur. – 191.

**146. Zahid Akman** ( d.1958) – ilahiyyatçı. 2005–2009-cu illərdə Türkiyə Radio-Televiziya Ali Şurasının sədri olmuşdur. – 196.

**147. Suriya,** Su r i y a  Ə r ə b  R e s p u b l i k a s ı – Asiyada dövlət. Sahəsi 185,2 min $km^2$, əhalisi 14,8 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazə (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşqdir. – 197.

**148. Bəşşar əl-Əsəd** (d.1965) – 2000-ci ildən Suriyanın prezidenti. – 197.

**149. Danimarka,** D a n i m a r k a K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,2 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı folketinqdir. Paytaxtı Kopenhagendir. – 198.

**150. II Marqret** (d.1940) – 1972-ci ildən Danimarkanın kraliçası. Kral IX Frederikin qızıdır. – 198.

**151. Masallı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 292 km$^2$, əhalisi 212 min nəfərdir. – 200-210.

**152. Azərbaycan Beynəlxalq Bankı (ABB)** – 1992-ci ildə Xarici İqtisadi Bankın əsasında yaradılmışdır. ABB beynəlxalq və daxili bazarda mövcud olan bütün bank xidmətlərini yerinə yetirir. – 200.

**153. Cəlilabad** (1967-ci ilədək Astraxanbazar rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Qərbdə İranla həmsərhəddir. Sahəsi 1441 km$^2$, əhalisi 205,6 min nəfərdir. – 203,211–220.

**154. Jak Roqq** (d.1942) – belçikalı ortoped-cərrah, məşhur yelkənli qayıqsürmə idmançısı. Belçika kralı II Albert tərəfindən rıtsar adlandırılmış və qraf tituluna layiq görülmüşdür. Hazırda Beynəlxalq Olimpiya Komitəsinin sədridir. – 205.

**155. Pekin** – Çinin paytaxtı (1949-cu ildən). Ölkənin siyasi, iqtisadi, elm və mədəniyyət mərkəzi. Əhalisinin sayına görə ölkənin ikinci (Şanxaydan sonra) şəhəri, Böyük Çin düzənliyində, Yundinxe çayı hövzəsindədir. Sahəsi 17,8 min km$^2$, əhalisi 7,2 milyon nəfərdir.

Pekin haqqında ilk məlumat e.ə.ikinci minilliyə aid edilir. Pekin Çinin ən iri sənaye mərkəzlərindəndir. – 210.

**156. Azərbaycan tarixi muzeyi** – 1920-ci ildə yaradılmışdır. Muzeyin müxtəlif fondlarında Vətən tarixini yaşadan 300 minədək maddi-mədəniyyət nümunəsi qorunur. Muzeyin kitabxanasında 80 mindən artıq XIX–XX əsrlərin əvvəllərində nəşr olunmuş nadir kitab, jurnal və qəzet toplanmışdır. Muzeyin 10 otağında Azərbaycan xalqının görkəmli oğlu Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş materiallar qorunub saxlanılır. – 221–222.

**157. Nailə Vəlixanlı,** N a i l ə M ə m m ə d ə l i q ı z ı (d.1940) – tarixçi-şərqşünas alim. Tarix elmləri doktoru. MEA-nın həqiqi üzvü və AMEA-nın vitse-prezidenti, Azərbaycan tarixi muzeyinin direktoru. Elmi əsərlərində Azərbaycanın orta əsrlər tarixinin mənbəşünaslıq problemləri, regionun Ərəb Xilafəti tərkibində mövqeyi, sosial-iqtisadi münasibətlər, siyasi-mədəni tarix və tarixi coğrafiya məsələlərinə aydınlıq gətirmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 221–222.

**158. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 222.

**159. «Mərmərə» qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin

prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 223.

**160. Akkan Süvər** (d.1942) – Türkiyə jurnalisti. Fəlsəfə elmləri doktoru. «Mərmərə» qrupunun sədridir. – 223.

**161. XVI Benedikt** (d.1927) – 2005–2013-cü illərdə Roma papası olmuşdur. – 224,234.

**162. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 953 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 225.

**163. Cairam Rameş** (d.1954) – hind iqtisadçısı və siyasətçisi. Hindistan Milli Konqresinin, 2004-cü ildən parlamentin üzvüdür. Hindistanın Ticarət naziri olmuşdur. – 225.

**164. Kurqan vilayəti** – Rusiya Federasiyasında Qərbi Sibir düzənliyinin cənub-qərbində inzibati ərazi vahidi, sahəsi 71 min km, əhalisi 1103 min nəfərdir. – 226.

**165. Oleq Boqomolov** (d.1950) – Rusiya dövlət xadimi, «Vahid Rusiya» Partiyasının üzvü, «Rosselxozbank» İdarə Heyətinin sədr müavini. 1997–2014- cü illərdə Rusiya Kurqan vilayətinin qubernatoru olmuşdur. – 226.

**166. Mixail Zabelin** (d.1946) – Azərbaycanda Rus icmasının və «Azərbaycan–Rusiya» cəmiyyətinin sədri. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvü və Milli Məclisin deputatıdır. – 228–232.

**167. Əlcəzair,** Ə l c ə z a i r X a l q D e m o k r a t i k R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 2382 min km$^2$, əhalisi 30,6 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 233.

**168. Əbdüləziz Buteflikay** (d.1937) – Əlcəzair dövlət xadimi, 1999-cu ildən Əlcəzair prezidenti. – 233.

**169. II Beatriks** (d.1938) – 1980-ci ildən Niderlandın kraliçası. – 235.

**170. «Azəri», «Çıraq» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənir. «Azəri», «Çıraq» neft yataqları iki əsas lay dəstindən ibarətdir: Fasilə və Balaxanı. Konsorsium əvvəlcə hasilata Fasilə layından başlayıb. «Azəri», «Çıraq»da hasilat 1997-ci ilin noyabr ayında başlamışdır. – 240.

**171. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Bö-

yük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 243,267.

**172. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 244.

**173. Mərkəzi Bank**, M i l l i  B a n k – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının tədiyə-hesablama balansının tərtibinə rəhbərlik edir. – 254.

**174. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq

valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 254,266.

**175. Tanzaniya,** Birləşmiş Tanzaniya Respublikası – Şərqi Afrikada dövlət. Sahəsi 945,1 km$^2$, əhalisi 29 milyon nəfərdir. İnzibati ərazisi 25 vilayətə bölünür. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. Paytaxtı Dodomadır. – 260.

**176. Cakayya Kikvete** (d.1950) – Tanzaniya dövlət xadimi. 2005-ci ildən Tanzaniya prezidenti, 2008-ci ildən Afrika İttifaqının sədridir. – 260.

**177. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1221 min km$^2$, əhalisi 41,7 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). – 261.

**178. Tabo Mbeki** (d.1942) – Afrika Milli Konqresinin görkəmli nümayəndəsi. 1997–2007-ci illərdə Afrika Milli Konqresinin sədri, 1999–2008-ci illərdə Cənubi Afrika Respublikasının prezidenti olmuşdur. – 261.

**179. Koreya,** Koreya Respublikası – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min km$^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və 6 mərkəzi tabe hərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 262–270, 277–325.

**180.** ***bp*****,** «B r i t i ş  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 271.

**181. Endi İnqlis** (d.1960) – britaniyalı mühəndis. 2004–2007-ci illərdə *bp*-nin əvəzedici direktoru və *bp*-nin kəşfiyyat və istehsalat biznesi üzrə Baş direktoru olmuşdur. – 271.

**182. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 272.

**183. Artis Pabriks** (d.1966) – Latviya siyasi xadimi. 2004–2007-ci illərdə Latviya Xarici İşlər naziri, 2010–2014-cü illərdə Müdafiə naziri olmuşdur. – 272.

**184. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel Universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard Universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 273.

**185. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir (1948-49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset)

seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 274.

**186. Moşe Katsav** (d.1945) – İsrail dövlət xadimi. 2000–2007-ci illərdə İsrail prezidenti. – 274.

**187. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Milli Şura və Federal Şura) parlamentdir. Paytaxtı Vyanadır. – 276.

**188. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. Layihənin qiyməti *bp* şirkətinin hesablamasına görə 14 milyard avro olmalıdır. – 276.

**189. OMV** – Mərkəzi Avropada ən böyük Avstriya neft kompaniyası. Mənzil-qərargahı Vyanadadır. Kompaniyanın əsası 1956-cı ildə qoyulmuşdur. Kompaniyanın ilk layihəsi Liviyada olmuşdur. Kompaniya dünyanın 17 ölkəsində neft məhsullarının hasilatı və axtarışını həyata keçirir. OMV-nin gündəlik hasilatı neft ekvivalenti ilə 317 min barreldir. Kompaniya 40 milyard kubmetr qaz satır. Kompaniyanın təmiz gəliri ildə 1,5 milyard avrodur. – 276.

**190. Seul** – Koreya Respublikasının paytaxtı (1945). Xanqan çayı sahilindədir. Ölkənin ən böyük iqtisadi və mədəni mərkəzidir. Seul tarixi memarlıq abidələri ilə zəngindir. Ölkənin sənaye - maliyyə və turizm mərkəzidir. XXIV Olimpiya oyunları Seulda keçirilmişdir. Əhalisi 10,3 milyon nəfərdir. –277–318.

**191. Ro Mu-Hyun** (H o M u X e y n) (1946–2009) – 2003–2008-ci illərdə Koreya Respublikasının prezidenti.

Dövlət başçısı olduğu dövr Cənubi Koreyada iqtisadiyyatın inkişafı və artım dövrü olmuşdur. – 278–281,283–297.

**192. Əli Abbasov,** Ə l i M ə m m ə d o ğ l u (d.1953) – texnika elmləri doktoru, AMEA-nın həqiqi üzvü. 2004-cü ildən Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 280.

**193. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t t a h o ğ l u (d.1961) – gömrük xidməti general-polkovniki. 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 281.

**194. Natiq Əliyev,** N a t i q A g a ə l i o ğ l u (d.1947) – 1993–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 281.

**195. Li** – Koreyada krallıq (1392–1897) və imperatorluq (1897- ci иldən) sülaləsi. Onların nümayəndələri 1910-cu ilə – Yaponiyanın Koreyanı ilhaq (anneksiya) etməsinə qədər davam etmişdir. – 299.

**196. Pusan** – Cənubi Koreyada şəhər və liman. İri sənaye mərkəziдir. Əhalisi 2,4 milyon nəfərdir. –319–325.

**197. STX** – ticarət xidməti ilə məşğul olan Cənubi Koreya holding kompaniyası. Kompaniya iki işlə; gəmilərin ticarəti və texniki xidməti ilə məşğuldur. Kompaniyanın biznesi nəqli və enerji materialları ilə – kömür, neft, polad və s. ilə təmin

etməkdir. Onun biznesi gəmilərə texniki xidməti, ekipajın yerləşdirilməsi və sığortalanmasını təmin edir. – 321.

**198. Kan Duk Su** (d.1950) – koreyalı biznesmen. Hazırda STX korporasiyasının sədridir. – 321.

**199. Yeltsin Boris Nikolayeviç** (1931–2007) – Rusiyanın siyasi və dövlət xadimi. 1991–2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 326,327.

## Şəxsi adlar göstəricisi


| | |
|---|---|
| **Abbasov Əli** | – 280 |
| **Abdülkərimov Telman** | – 44 |
| **Abdullayev Rövnəq** | – 5 |
| **Abutalıbov Hacıbala** | – 94,124,146,162,163,325 |
| **Ağayev Qəzənfər** | – 203 |
| **Akdəmir Dursun** | – 72 |
| **Akilov Akil** | – 94,107 |
| **Akman Zahid** | – 196 |
| **Almaszadə Qəmər** | – 53 |
| **II Albert** | – 146 |
| **Asrorov Mirzoşoxrux** | – 105 |
| **Aşurov Abdulraxim** | – 105 |
| **Atatürk Mustafa Kamal** | – 68,77 |
| **Babayev Heydər** | – 104,280 |
| **Babayev Hidayət** | – 213–220 |
| **Bakiyev Kurmanbek** | – 156 |
| **Bariyev Ənvər** | – 92 |
| **Başbuğ İlkər** | – 54 |
| **II Beatriks** | – 235 |
| **Ben Əli Zeynulabidin** | – 89 |
| **XVI Benedikt** | – 224,234 |
| **Bobolulloyev Saidmurad** | – 106 |
| **Bodoyev Qulomyon** | – 104 |
| **Boqomolov Oleq** | – 226 |
| **Buş Corc** | – 273 |
| **Buteflikay Əbdüləziz** | – 233 |
| **Cabbarov Nuru** | – 41,42 |
| **Ce Hyun Kim** | – 301 |

**Çanq Kyu Li** –262–270
**Çanq Von Çun** – 282,304,310–311
**Çay Əbdülxalid** – 72
**Çepurin Aleksandr** – 228–232
**Dostiyev Abdulməcid** – 94
**Əl-Əsəd Bəşşar** – 197
**Əliyev Aydın** – 105
**Əliyev Heydər** – 5,6,16,22,23,25,27,28,30,40, 49–52,55,62,67,69,77,82,84, 97,115,117,143,145,158, 173, 174,186–188,194,201,202,213–220,226,242
**Əliyev Natiq** – 281
**Əliyeva Mehriban** – 5,25,40,44,76,135,173–174, 177,277,278,293,299,300, 322,325
**Əliyeva Zərifə** – 38,40,55,162
**Ərdoğan Rəcəb Tayyib** – 56,66–71,74–76,77–83,195
**Əsədov Oqtay** – 143
**Əsgərov Cahangir** – 106
**Əsgərov Ədalət** – 213–220
**Əsgərov Rəşid** – 218
**Gəncəvi Nizami** – 97,100,108
**Gülməmmədov Akif** – 72
**Fərhadov Rövşən** – 36
**Finli Culi** – 155
**Freyzer** (*lord*) – 227
**Fursenko Andrey** – 48
**Hehkes Lakiv** – 72
**Heydərov Fəttah** – 41
**Heydərov Kəmaləddin** – 281
**Hikey Patrik** – 201–203, 204,210
**Hi Ban Bin** – 312–315

**Hoekstra Pit** – 189
**Ho Cjun Hyun** – 280
**Hotəmov Davlatali** – 105
**Hu Nam Çak** – 319,322–323
**Hvan Tu – Vul** – 281
**Xələfov Xələf** – 162
**Xokimov İmoməli** – 105
**İbrahimov Nazim** – 56,71
**İbn Sina** – 97
**İliyesku İon** – 328
**İnqlis Endi** – 271
**İnvon Çou** – 303–312
**İsakov İsmail** –156
**İsgəndərov Fərid** – 113
**Kaçinski Lex** – 161–179,202
**Kaçinska Mariya** – 162,175
**Kalin Valter** – 181–182
**Kan Duk Su** – 321
**Katsav Moşe** – 274
**Kərimova Şəfəq** – 203
**Kim Hyun Kvon** – 298
**Kim San Veol** – 300
**Kikvete Cakayya** – 260
**Kobeskayte Hailina** – 72
**Kuşerbayev Krimbek** – 275
**Kvak İn Sup** – 323
**Kvon Vanq Suk** – 278,293
**Qarayev Əbülfəs** – 49–52,105
**Qobustanlı İslam** – 143
**Qumberidze Zurab** – 84
**Li Sek-Hu** – 262–270
**Li Von So** – 280
**Li Von Kvon** – 281

| | |
|---|---|
| **Lukaşenko Aleksandr** | – 152 |
| **Makalis Meri** | – 88 |
| **II Marqret** | – 198 |
| **Masimov Karim** | – 190,192 |
| **Mbeki Tabo** | – 261 |
| **Mehdiyev Ramiz** | – 94,124,143,146,325 |
| **Mehdiyev Süleyman** | – 41 |
| **Mehmet Əli Tələt** | – 56,66,74–76,77–83 |
| **Məmmədov Aqibət** | – 13 |
| **Məmmədov Vədud** | – 213–220 |
| **Məmmədov Yavər** | – 40 |
| **Məmmədov Ziya** | – 105,127–131,280 |
| **Məmmədyarov Elmar** | – 104,161 |
| **Mironov Sergey** | – 153 |
| **Mustafayev Nazim** | – 39,41,42 |
| **Müşərrəf Pərviz** | – 85 |
| **Nazarbayev Nursultan** | – 190 |
| **Nazarova Zərinə** | – 112 |
| **Noğaideli Zurab** | – 191 |
| **Nuru paşa** | – 68 |
| **Özkan Cəlal** | – 49–52 |
| **Pabriks Artis** | – 272 |
| **Papulias Karlos** | – 86 |
| **Pepen Osman** | – 195 |
| **Pohamba Hifikepun** | – 90 |
| **Putin Vladimir** | – 134,146–151,326 |
| **Raximov Şərif** | – 104 |
| **Rameş Cairam** | – 225 |
| **Rasizadə Artur** | – 94,124,143,146,161 |
| **Redman Çarlz** | – 157 |
| **Rəhmon İmoməli** | – 94–106,108–121 |
| **Rəsulov Ağasəlim** | – 44 |
| **Ro Mu Hyun** | – 278–281,283–297 |

**Roqq Jak** – 205
**Rostropoviç Mstislav** – 144–145,146–151
**Rudəki** – 97
**Ruttenstorfer Volfqanq**– 276
**Rzayev Nizaməddin** – 13
**Saidov Davlatali** – 105
**Salmanov Fərman** – 183
**Samani İsmayıl** – 95
**Sarac Ərdoğan** – 72
**Sezər Əhməd Necdət** – 54
**Sədi** – 97
**Səfərov Səfər** – 43
**Sxeffer Yaap** – 93
**Sidi Məhəmməd Uld** – 180
**Sidorski Sergey** – 152
**Simmons Robert** – 93
**Sirocov Zarohoddin** – 114
**Son Min Sun** – 280
**Sonq Mon Hun** – 323
**Stepanoviçyus Çintoras** – 72
**Süvər Akkan** – 223
**Svarçuk Valeri** – 228–232
**Şirəliyev Oqtay** – 24
**Şostakoviç Dmitri** – 145
**Talıbova Zənurə** – 115
**Tağıyev Hacı Zeynalabdin** – 15,221,257
**Txejo** – 299
**Tulloyev Xakimşo** – 106
**Ubaydulloyev Mahmadsaid** – 94,122
**Usubov Ramil** – 132–133
**Vad Abdulay** – 91,154
**Vəlixanlı Nailə** – 221–222
**Yakovlev Vladimir** – 194

**Yalçın Mete** – 13
**Yeltsin Boris** – 326
**Yeltsina Naina** – 327
**Yudhoyono Susilo** – 87
**Zabelin Mixail** – 228–232
**Zaripov Xamroxon** – 94,104
**Zaripov Qazez** – 105

## Coğrafi adlar göstəricisi


**Abşeron** – 14
**Afrika** – 157
**Almaniya** – 13,26,52,56,76
**Amerika Birləşmiş Ştatları** – 11,26,52,56,71,76,155,157, 189,244,268,273
**Anadolu** – 68
**Ankara** – 82
**Aralıq dənizi** – 308
**Asiya** – 59,70,101,112,267,323
**Avropa** – 44,46,59,63,67,70,71,79,101, 112,157,168,170,173,193, 202,204,208,240,256,267,276
**Avstraliya** – 71
**Avstriya** – 52,276
**Bakı** – 9,14,15,16,18,19,21,35,53, 64,68,80,85,86,87,88,89,90, 91,116,126,127–131,134,135, 138,139,145,148,160,166,172, 175,176,180,183,188,197,198, 199,206,228–232,233,241, 259,260,261,272,273,274,293, 299,325
**Balkan** (yarımada) – 70
**Balakən** – 24
**Belarus** – 92,152
**Belçika** – 193
**Böyük Britaniya** – 26,227
**Brüssel** – 93
**Burovar** – 220
**Cenevrə** – 99
**Cəlilabad** – 203,211–220

| | |
|---|---|
| **Cənub – Qərbi Asiya** | – 157 |
| **Cənubi Afrika Respiblikası** | – 261 |
| **Cənubi Qafqaz** | – 93,99,101,102,111,112,228–232 |
| **Çexiya** | – 202 |
| **Çin** | – 99,268 |
| **Dağlıq Qarabağ** | – 64,70,73,103,123,158,168,176, 178, 244,245,283,287,296,308 |
| **Danimarka** | – 198 |
| **Düşənbə** | – 94–124 |
| **Əfnanıstan** | – 118 |
| **Əlcəzair** | – 233 |
| **Fransa** | – 26,43,44,193,244 |
| **Gəncə** | – 13,99 |
| **Göyçay** | – 24 |
| **Gürcüstan** | – 59,84,99,191,240,242,256 |
| **Hindistan** | – 225 |
| **Xəlilabad** | – 220 |
| **Xəzər dənizi** | – 256,285,291,308 |
| **Xocalı** | – 64,69,72,158 |
| **İndoneziya** | – 87 |
| **İraq** | – 70 |
| **İran** | – 158 |
| **İrlandiya** | – 88 |
| **İsrail** | – 274 |
| **İsveç** | – 56,76 |
| **İtaliya** | – 11,52,221 |
| **Koreya Respublikası** | – 262–270,277–325 |
| **Krasnodar** | – 134 |
| **Kurqan** (*vilayət*) | – 226 |
| **Qafqaz** | – 36,45,99,109,178,193,294 |
| **Qara dəniz** | – 112,256 |
| **Qazaxıstan** | – 118,190,192,193,256,275 |
| **Qəbələ** | – 25–47 |
| **Qərbi Avropa** | – 231 |
| **Qırğızıstan** | – 156 |

**Latviya** – 272
**Lənkəran** – 6,35,203,206
**Litva** – 56,72
**Lüksemburq** – 72
**Makedoniya** – 72
**Masallı** – 200–210
**Mavritaniya** – 180
**Mərkəzi Asiya** – 99,109,112,267
**Mərkəzi Avropa** – 276
**Mingəçevir** – 205
**Monako** – 146
**Moskva** – 25,97,146–151,173,228
**Naxçıvan** – 6,25
**Namibiya** – 90
**Neapol** – 231
**Niderland** – 56,76,235
**Nohurqışlaq** (*Qəbələdə kənd*) – 43
**Norveç** – 56,76
**Oğuz** – 13–24
**Orta Asiya** – 33,59,93,256,276
**Pekin** – 210
**Pakistan** – 85
**Polşa** – 161–179,202
**Pusan** – 319–325
**Rumıniya** – 56,328
**Rusiya** – 43,45,48,56,71,76,99,134, 146–151,153,183,194,226, 228– 232, 244,268
**Samux** – 37
**Sakit okean** – 323
**Seneqal** – 91,154
**Seul** – 277–321
**Sumqayıt** – 18
**Suriya** – 197
**Şamaxı** – 5–12,24,29
**Şəki** – 24

**Şərqi Avropa** – 76
**Şiləvəngə** – 220
**Şimali Kipr** – 56,66,70,74–76
**Tacikistan** – 94–124
**Tanzaniya** – 260
**Tayvan** – 11
**Tbilisi** – 242
**Tunis** – 89
**Tüntül** – 44
**Türkiyə** – 13,33,49,51,54,55–83,195, 196,202,223,240,242,244,256
**Ukrayna** – 45,56,72,76
**Varşava** – 169,170
**Vatikan** – 214
**Yaxın Şərq** – 70,71,157
**Yaponiya** – 11,52
**Yevlax** – 37
**Yunanıstan** – 86
**Zəngəzur** – 64,158
**Zopun** – 220

# MÜNDƏRİCAT

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
ŞAMAXI RAYONUNA SƏFƏRİ

*1 mart 2007-ci il*.......................................................................5

ŞAMAXI RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞDƏ NİTQ

*1 mart 2007-ci il*.......................................................................6

«STAR» MƏİŞƏT AVADANLIĞI ZAVODU İLƏ TANIŞLIQ

*1 mart 2007-ci il*.....................................................................11

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
OĞUZ RAYONUNA SƏFƏRİ

*1 mart 2007-ci il*.....................................................................13

OĞUZ–QƏBƏLƏ–BAKI SU KƏMƏRİNİN TƏMƏLQOYMA
MƏRASİMİNDƏ NİTQ

*1 mart 2007-ci il*.....................................................................15

PREZİDENT İLHAM ƏLİYEV OĞUZ RAYONUNDA

*1 mart 2007-ci il*.....................................................................22

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ
RAYONUNA SƏFƏRİ

*2 mart 2007-ci il*.....................................................................25

QƏBƏLƏ RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*2 mart 2007-ci il*......................................................................................*27*

PREZİDENT İLHAM ƏLİYEV QƏBƏLƏ RAYONUNDA

*2 mart 2007-ci il*......................................................................................*35*

RUSİYA TƏHSİL VƏ ELM NAZİRİ ANDREY FURSENKO İLƏ GÖRÜŞ

*2 mart 2007-ci il*......................................................................................*48*

HEYDƏR ƏLİYEV ADINA SARAYDA ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞATI İLƏ TANIŞLIQ

*5 mart 2007-ci il*......................................................................................*49*

QƏMƏR ALMASZADƏNİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

*5 mart 2007-ci il*......................................................................................*53*

TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI İLKƏR BAŞBUĞUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 mart 2007-ci il*......................................................................................*54*

DÜNYA AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMUNDA

*9 mart 2007-ci il*......................................................................................*55*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMUNDA NİTQİ

*9 mart 2007-ci il*......................................................................................*57*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN DÜNYA AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMU İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*9 mart 2007-ci il* ........ 74

BAKIDA TÜRKİYƏ SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*9 mart 2007-ci il* ........ 77

GÜRCÜSTANIN ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ZURAB QUMBERİDZE İLƏ GÖRÜŞ

*12 mart 2007-ci il* ........ 84

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

*12 mart 2007-ci il* ........ 85

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PARULİASA

*12 mart 2007-ci il* ........ 86

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*12 mart 2007-ci il* ........ 87

İRLANDİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MERİ MAKALİSƏ

*12 mart 2007-ci il* ........ 88

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZEYNULABİDİN BEN ƏLİYƏ

*12 mart 2007-ci il*........................................................................................89

NAMİBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HİFİKEPUNYE POHAMBAYA

*12 mart 2007-ci il*........................................................................................90

SENEQAL RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULAY VADA

*13 mart 2007-ci il*........................................................................................91

BELARUS RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRİ ƏNVƏR BARİYEV İLƏ GÖRÜŞ

*13 mart 2007-ci il*........................................................................................92

NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONS İLƏ GÖRÜŞ

*14 mart 2007-ci il*........................................................................................93

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANA RƏSMİ SƏFƏRİ

*15 mart 2007-ci il*........................................................................................94

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İMOMƏLİ RƏHMON İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*15 mart 2007-ci il*........................................................................................96

AZƏRBAYCAN VƏ TACİKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*15 mart 2007-ci il*........................................................................................97

TACİKİSTANIN BAŞ NAZİRİ AKİL AKİLOV İLƏ GÖRÜŞ

*15 mart 2007-ci il* ........................................................................ *107*

AZƏRBAYCAN VƏ TACİKİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLA ÇIXIŞLARI

*15 mart 2007-ci il* ........................................................................ *108*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*15 mart 2007-ci il* ........................................................................ *119*

TACİKİSTANIN MİLLİ MƏCLİSİNİN SƏDRİ MAHMADSAİD UBAYDULLOYEV İLƏ GÖRÜŞ

*16 mart 2007-ci il* ........................................................................ *122*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*19 mart 2007-ci il* ........................................................................ *125*

BAKIDA NÖVBƏTİ YOL QOVŞAĞININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ

*19 mart 2007-ci il* ........................................................................ *127*

DAXİLİ İŞLƏR NAZİRLİYİNİN HOSPİTALININ YENİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ

*19 mart 2007-ci il* ........................................................................ *132*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*20 mart 2007-ci il* ........................................................................ *134*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ
ÜMUMXALQ ŞƏNLİYİNDƏ NİTQ

*21 mart 2007-ci il* ............................................................................ *135*

ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ VƏ İCTİMAİ
XADİMİ MSTİSLAV LEOPOLDOVİÇ ROSTROPOVİÇƏ

*27 mart 2007-ci il* ............................................................................ *144*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN MSTİSLAV ROSTROPOVİÇİN
80 İLLİYİ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA
İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA SƏFƏRİ

*27 mart 2007-ci il* ............................................................................ *146*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASININ
PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞÜ

*27 mart 2007-ci il* ............................................................................ *150*

BELARUSUN BAŞ NAZİRİ SERGEY SİDORSKİ İLƏ GÖRÜŞ

*28 mart 2007-ci il* ............................................................................ *152*

RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ
SƏDRİ SERGEY MİRONOVUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 mart 2007-ci il* ............................................................................ *153*

SENEQAL RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAY VADA

*28 mart 2007-ci il* ............................................................................ *154*

ABŞ-ın ATƏT-dəki SƏFİRİ CULİ FİNLİNİN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 mart 2007-ci il* .......................................................................... *155*

QIRĞIZISTANIN MÜDAFİƏ NAZİRİ İSMAİL İSAKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 mart 2007-ci il* .......................................................................... *156*

ABŞ-ın «BECHTEL CORPORATİON» ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ VƏ AVROPA, AFRİKA, YAXIN ŞƏRQ, CƏNUB-QƏRBİ ASİYA REGİONLARI ÜZRƏ PREZİDENTİ ÇARLZ REDMAN İLƏ GÖRÜŞ

*29 mart 2007-ci il* .......................................................................... *157*

31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*29 mart 2007-ci il* .......................................................................... *158*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*30 mart 2007-ci il* .......................................................................... *161*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİ İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*30 mart 2007-ci il* .......................................................................... *164*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİ İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*30 mart 2007-ci il* .......................................................................... *165*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİNİN MƏTBUAT

KONFRANSINDA BƏYANATLARI

*30 mart 2007-ci il* ........................................................................... *167*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV VƏ POLŞA RESPUBLİKASININ PREZİDENTİ
LEX KAÇİNSKİ HEYDƏR ƏLİYEV FONDUNDA

*30 mart 2007-ci il* ........................................................................... *173*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ XANIMI MEHRİBAN ƏLİYEVANIN
ADINDAN POLŞA RESPUBLİKASININ PREZİDENTİ
LEX KAÇİNSKİNİN VƏ XANIMI MARİYA KAÇİNSKİNİN
ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*30 mart 2007-ci il* ........................................................................... *175*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SİDİ MƏHƏMMƏD ULD
ŞEYX ABDELLAHİYƏ

*30 mart 2007-ci il* ........................................................................... *180*

BMT BAŞ KATİBİNİN MƏCBURİ KÖÇKÜNLƏRİN İNSAN
HÜQUQLARI ÜZRƏ NÜMAYƏNDƏSİ VALTER KALİNİN
RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2007-ci il*............................................................................. *181*

FƏRMAN SALMANOVUN AİLƏSİNƏ

*2 aprel 2007-ci il*............................................................................. *183*

ŞƏHİDLƏR XİYABANINDA APARILACAQ TƏMİR VƏ
YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*2 aprel 2007-ci il*............................................................................. *184*

«HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DİN SİYASƏTİ:
GERÇƏKLİKLƏR VƏ PERSPEKTİVLƏR» MÖVZUSUNDA

KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*2 aprel 2007-ci il*......................................................................................... *188*

ABŞ KONQRESMENİ PİT HOEKSTRANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 aprel 2007-ci il*......................................................................................... *189*

QAZAXISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ KARİM MASİMOV İLƏ GÖRÜŞ

*4 aprel 2007-ci il*......................................................................................... *190*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZURAB NOĞAİDELİ İLƏ GÖRÜŞ

*4 aprel 2007-ci il*......................................................................................... *191*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA TAXIL TERMİNALININ AÇILIŞ MƏRASİMİNDƏ

*4 aprel 2007-ci il*......................................................................................... *192*

RUSİYA FEDERASİYASININ REGİONAL İNKİŞAF NAZİRİ VLADİMİR YAKOVLEV İLƏ GÖRÜŞ

*6 aprel 2007-ci il*......................................................................................... *194*

TÜRKİYƏNİN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ OSMAN PEPEN İLƏ GÖRÜŞ

*6 aprel 2007-ci il*......................................................................................... *195*

TÜRKİYƏNİN RADİO-TELEVİZİYA ALİ ŞURASININ SƏDRİ ZAHİD AKMAN İLƏ GÖRÜŞ

*6 aprel 2007-ci il*......................................................................................... *196*

SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ

*6 aprel 2007-ci il............................................................................ 196*

DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT
II MARQRETƏ

*6 aprel 2007-ci il............................................................................ 197*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*6 aprel 2007-ci il............................................................................ 198*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
MASALLI VƏ CƏLİLABAD RAYONLARINA SƏFƏRİ

*9 aprel 2007-ci il............................................................................ 199*

MASALLI OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ
AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*9 aprel 2007-ci il............................................................................ 203*

AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK
HİKEY İLƏ GÖRÜŞ

*9 aprel 2007-ci il............................................................................ 209*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
CƏLİLABAD RAYONUNDA

*9 aprel 2007-ci il............................................................................ 210*

CƏLİLABAD ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV
SEYRƏNGAHININ TİKİNTİSİ İLƏ TANIŞLIQ

*9 aprel 2007-ci il............................................................................ 212*

AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ TƏMİR-BƏRPA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*10 aprel 2007-ci il........................................................................ 220*

TÜRKİYƏNİN «MƏRMƏRƏ QRUPU»NUN RƏHBƏRİ AKKAN SÜVƏR İLƏ GÖRÜŞ

*10 aprel 2007-ci il........................................................................ 222*

ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

*10 aprel 2007-ci il........................................................................ 223*

HİNDİSTANIN TİCARƏT ÜZRƏ DÖVLƏT NAZİRİ CAİRAM RAMEŞİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 aprel 2007-ci il........................................................................ 224*

RUSİYA FEDERASİYASI KURQAN VİLAYƏTİNİN QUBERNATORU OLEQ BOQOMOLOV İLƏ GÖRÜŞ

*12 aprel 2007-ci il........................................................................ 225*

BÖYÜK BRİTANİYANIN İNGİLTƏRƏ–AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ LORD FREYZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2007-ci il........................................................................ 226*

CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİNİN RUSİYALI HƏMVƏTƏNLƏR TƏŞKİLATLARININ BAKIDA KEÇİRİLƏN REGİONAL KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*12 aprel 2007-ci il........................................................................ 227*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*12 aprel 2007-ci il........................................................................ 232*

ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

*13 aprel 2007-ci il......................................................................... 234*

NİDERLAND KRALİÇASI ÜLYAHƏZRƏT II BEATRİKSƏ

*13 aprel 2007-ci il......................................................................... 235*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR
KABİNETİNİN 2007-ci İLİN BİRİNCİ RÜBÜNÜN
YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA NİTQ

*13 aprel 2007-ci il......................................................................... 236*

YEKUN NİTQİ

*13 aprel 2007-ci il......................................................................... 246*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*13 aprel 2007-ci il......................................................................... 258*

TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CAKAYYA KİKVETEYƏ

*13 aprel 2007-ci il......................................................................... 260*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ

*13 aprel 2007-ci il ........................................................................ ….261*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN KOREYA RESPUBLİKASININ
«CU AND LİBO» QƏZETİNİN BAŞ REDAKTORU VƏ
RƏHBƏRİ GANQ KYU LİYƏ VƏ QƏZETİN MÜXBİRİ
Lİ SEK-HUYA VERDİYİ MÜSAHİBƏ

*16 aprel 2007-ci il......................................................................... 262*

*bp* ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİS İLƏ GÖRÜŞ

*16 aprel 2007-ci il............................................................................... 271*

LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ ARTİS PABRİKSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 aprel 2007-ci il............................................................................... 272*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

*17 aprel 2007-ci il............................................................................... 273*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MOŞE KATSAVA

*17 aprel 2007-ci il............................................................................... 274*

QAZAXISTANIN MANGİSTAU VİLAYƏTİNİN HAKİMİ KRİMBEK KUŞERBAYEV İLƏ GÖRÜŞ

*17 aprel 2007-ci il .............................................................................. 275*

AVSTRİYANIN OMV ŞİRKƏTİNİN İCRAİYYƏ ŞURASININ SƏDRİ VOLFQANQ RUTTENSTORFER İLƏ GÖRÜŞ

*18 aprel 2007-ci il............................................................................... 276*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN KOREYA RESPUBLİKASINA SƏFƏRİ

*22 aprel 2007-ci il...............................................................................277*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ KOREYA RESPUBLİKASININ PREZİDENTİ RO MU HYUNUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*23 aprel 2007-ci il............................................................................... 279*

DÜNYA TAEKVONDO FEDERASİYASININ PREZİDENTİ ÇANQ VON ÇUN İLƏ GÖRÜŞ

*23 aprel 2007-ci il*............................................................................ *282*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ KOREYA RESPUBLİKASININ PREZİDENTİ RO MU HYUNUN BİRGƏ MƏTBUAT KONFRANSI

*23 aprel 2007-ci il*............................................................................ *283*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ RO MU HYUNUN VƏ XANIM KVON YANQ SUKUN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMI MEHRİBAN ƏLİYEVANIN ŞƏRƏFİNƏ VERDİYİ DÖVLƏT NAHARINDA NİTQ

*23 aprel 2007-ci il*............................................................................ *293*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ SEUL VƏ PUSAN ŞƏHƏRLƏRİNDƏ BİR SIRA SƏNAYE OBYEKTLƏRİLƏ TANIŞ OLMUŞDUR

*24 aprel 2007-ci il*............................................................................ *298*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ KYUNQ HE UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*24 aprel 2007-ci il*............................................................................ *302*

AZƏRBAYCAN–CƏNUBİ KOREYA BİZNES-FORUMUNDA NİTQ

*24 aprel 2007-ci il*............................................................................ *312*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ
RUSAN ŞƏHƏRİNDƏ

*24 aprel 2007-ci il*......................................................................... *319*

PUSAN ŞƏHƏRİNİN MERİ HU NAM ÇAKIN ADINDAN
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ XANIMI MEHRİBAN ƏLİYEVANIN
ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*24 aprel 2007-ci il*......................................................................... *322*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*24 aprel 2007-ci il*......................................................................... *326*

XANIM NAİNA YELTSİNAYA

*24 aprel 2007-ci il*......................................................................... *327*

RUMINİYANIN SABİQ PREZİDENTİ VƏ SOSİAL-
DEMOKRAT PARTİYASININ FƏXRİ SƏDRİ İON İLİYESKU
İLƏ GÖRÜŞ

*26 aprel 2007-ci il*......................................................................... *328*

*Q E Y D L Ə R* ......................................................................... *329*

*Şəxsi adlar göstəricisi*......................................................................... *375*

*Coğrafi adlar göstəricisi*......................................................................... *381*

| | |
|---|---|
| **Texniki redaktor** | *Zoya Nəcəfova* |
| **Yığım üzrə operator** | *İlhamə Kərimova* |
| **Kompüter tərtibatı** | *Məhəbbət Orucov* |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,75. Uçot vərəqi 26,25 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.